

Zərifə Quliyeva

XARÜQƏLƏR YARADAN QƏTİYYƏTLİ LİDER

Zərifə Quliyeva

XARÜQƏLƏR YARADAN QƏTİYYƏTLİ LİDER

Bakı – 2025

Redaktor: **Əliqismət Bədəlov**

Məsləhətçi: **Rəna Mirzəzadə,**
AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Politologiya və siyasi sosiologiya şöbəsinin müdiri, professor

Zərifə Quliyeva. Xarüqələr yaradan qətiyyətli LİDER.
Bakı: *"AFPoliqrAF"*, 2025,- 328 səh.

"Xarüqələr yaradan Qətiyyətli Lider" kitabı tanınmış ictimai-siyasi xadim, YAP Veteranlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə xanım Quliyevanın son illər qəzet və saytlarda dərc olunmuş məqalələri əsasında tərtib olunub. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitab əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursun bu gün Prezident , Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsindən, Qalib Sərkərdənin İkinci Qarabağ Müharibəsində göstərdiyi qətiyyətdən, uğurlu diplomatik gedişlərdən, Ermənistan üzərindəki Tarixi Qələbədən sonra işğaldan azad edilmiş torpaqlarda Azərbaycanın Dövlət Bayrağının qaldırılmasından, həmin ərazilərdə aparılan yenidənqurma, tikinti-bərpa işlərindən, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mədəni irsimizin bərpasındakı fəaliyyətindən bəhs edir. Bununla yanaşı, Prezident İlham Əliyevin Zəfərdən sonra dövlət başçıları ilə keçirdiyi görüşlərdən, COP29-un yüksək səviyyədə təşkilindən və keçirilməsindən, həmçinin dövlət başçımızın Sərəncamı ilə şəhər günlərinin təsis olunmasından bəhs edir.

ISBN 978-9952-598-06-3

© Zərifə Quliyeva, 2025



“Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüra-

lizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 31 oktyabr 2003-cü ildə keçirilən Andiçmə mərasimindəki nitqindən

ÖN SÖZ

Qələbələrdən-qələbələrə

Prezident İlham Əliyevin son 21 ildə həyata keçirdiyi siyasi strategiya ölkəmizi dünya birliyində söz sahibinə çevirdi, eyni zamanda, xalqımızı uzun illər səbirsizliklə gözlədiyi ən müqəddəs arzusuna qovuşdurdu – Azərbaycanı bütövləşdirdi. Müstəqillik tariximizə qızıl hərflərlə yazılan suverenliyimizi bərpa etdi, Ermənistanın işğaıçı siyasətinə birdəfəlik son qoydu, 30 il işğal altında qalan ərazilərimizi azad etdi, xalqımız "məcburi köçkün" kimi utancverici sözdən xilas oldu. Otuz il doğma yurd həsrətilə yaşayan keçmiş məcburi köçkün soydaşlarımız artıq böyük həvəslə, sevinclə ata-baba yurdlarına qayıdırlar. Dövlət başçımızın təsdiqlədiyi "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Prezident İlham Əliyevin göstərişi ilə doğma el-obalarına qayıdan soydaşlarımıza bütün infrastruktura malik yaşayış evləri tikilir, hər cür rahat şəraiti olan qəsəbələr, kəndlər salınır, yeni iş yerləri açılır. Xalqımız ömrünün ən böyük xəyalına qovuşub.

Hazırda işğaldan azad edilmiş ərazilər dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının tədbirlərinin, beynəlxalq yarışların, musiqi festivallarının keçirildiyi məkana çevirlib. Bütün bunlar Prezident İlham Əliyevin 21 illik prezidentlik fəaliyyəti dövründə müxtəlif inkişaf modellərinin uğurlu tətbiqi, genişmiqyaslı islahatların mütəmadi həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi üçün əlverişli şəraitin yaradılmasının məntiqi nəticəsidir. Bu gün Azərbaycan dünyanın ən inkişaf edən dövlətləri sırasındadır.

Bütn bunlar tanınmış ictimai-siyasi xadim, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə xanım Quliyevanın **"Xarüqələr yaradan qətiyyətli LİDER"** adlı kitabında öz əksini tapıb. Kitab Z.Quliyevanın son bir il ərzində müxtəlif qəzet və saytlarda dərc olunmuş məqalələri əsasında tərtib olunub. Yeni ərsəyə gəlmiş kitabın Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimindəki nitqindən götürülmüş sitatla başlaması təsadüfi deyil. Çünki 21 əvvəl – həmin o çətin illərdə dünyada baş alıb gedən ikili standartların tüğyan, ermənipərəst dövlətlərin, həmçinin bir sıra beynəlxalq qurumların "zavallı ermənilər"ə açıq şəkildə havadarlıq etdiyi bir zamanda Prezident İlham Əliyevin

andiçmə mərasimində qəti şəkildə "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır"- deməsi çoxlarına inandırıcı gəlməmişdi. Axı, həmin vaxt Azərbaycan informasiya blokadasına da alınmışdı. Bununla yanaşı, özünü "haqq-ədalət" carçısı, insan hüquq və azadlıqlarının müdafiəçisi, demokratiyanın beşiyi kimi təqdim edən Qərbin və Avropanın güclü dövlətləri, necə deyərlər, üzdə olan beynəlxalq təşkilatlar işğalçı Ermənistanı dəstəkləyir, ona yardım və ianələr edir, bununla da beynəlxalq hüquq normalarını kobud şəkildə pozurdular. Belə bir zamanda Prezident İlham Əliyevin qətiyyətli mövqeyi çoxlarına xəyal kimi görünürdü. Ancaq belə fikrə düşənlər unudurdular ki, dövlət başçısı Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu davam etdirəcəyini qarşısına əsas vəzifə kimi qoyub.

Heydər Əliyev siyasi kursu Azərbaycanı düçar olduğu bəlalardan, məhv olmaqdan xilas etdi, müstəqlliyimizi möhkəmləndirdi, əbədiyyətə çevirdi və ölkəmizin dünya birliyinə inteqrasiya edilməsində mühüm rol oynadı. Heydər Əliyevin uğurlu siyasi kursu sayəsində Azərbaycanın başı üstündə olan qara buludlar məhv edildi və ölkəmizin bütün sahələr üzrə inkişafına nail olundu. Ulu Öndərimizin ictimai, siyasi, mədəni və digər sahələrdə apardığı uğurlu işlər güclü, qüdrətli Azərbaycan naminə görülən işlər idi. Ümummilli lider dünya dövlətlərinin hesablaşacağı, əməkdaşlıq etməyə səy göstərəcəyi güclü bir Azərbaycan dövləti yaratmış oldu. Məhz bütün bunlara görə də Prezident İlham Əliyev andiçmə mərasimində qəti olaraq bildirdi ki, qarşıda duran vəzifələri həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Əlini Konstitusiyanın və "Qurani-Kərim"in üstünə qoyaraq and içən Prezident İlham Əliyev demişdir: "Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla

yeni qələbələrə doğru gedəcəyik".

Məhz bütün bunlara görə də Zərifə xanım kitabın **I fəslini "Heydər Əliyevin yandırdığı ocağ heç zaman sönməyəck"** adlandırıb. V fəsildən ibarət olan kitabın hər fəsli müxtəlif mövzuları əhatə edir. Bəli, həqiqətən də, ulu öndərin yandırdığı ocağ heç zaman sönməyəck. Bu ocağın istisi xalqımızı daim isindirəcək, tüstüsü isə düşmənlərimizi zəhərləyəcək, onların gözünü kor edəcək. Dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyev Azərbaycanda hüquqi, sivil dövlət quruculuğu yolunda özünün dediyi kimi, ömrünü xalqına həst etdi. Artıq hamımız üçün keçmişdə qalmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Ulu Öndərin apardığı danışıqlar, əsl həqiqətlərlə dünya ictimaiyyətini məlumatlandırması Ermənistanın işğalçı ölkə olması barədə tam təəssürat yaratdı. Ulu Öndər hər dəfə keçmiş məcburi soydaşlarımızla görüşündə qəti şəkildə bildirirdi ki, işğal altında olan torpaqlarımız azad ediləcək, o yerlərdən didərgin salınmış insanlar doğma dədə-baba yurdlarına qayıdıcaqlar.

Z.Quliyeva kitabında bunu ulu öndərin öz sözləri ilə bir daha xatırladıb. Müəllif yazır ki, Heydər Əliyev məcburi köçkünlərlə görüşündə demişdir: **"Siz də bilin, Azərbaycanın vətəndaşları da bilməlidir və dünya da bilməlidir ki, Azərbaycan heç vaxt öz ərazisnin bir qarışını da heç bir başqa ölkəyə, heç bir başqa dövlətə verə bilməz. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Biz heç vaxt Dağlıq Qarabağın müstəqil olmasına və yaxudda ki, Ermənistana bağlanmasına razı ola bilmərik və buna heç vaxt yol verə bilmərik.**

Bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar.

Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur.

İnanın ki, biz mütləq Şuşaya, Laçına, Kəlbəcərə, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana, Ağdama qayıdacağıq. Biz bunlarsız yaşaya bilmərik".

Bu, Ulu Öndərin uzaqgörən siyasətinin təsdiqidir. Ümummilli Lider yaxşı bilirdi ki, onun yarımçıq qalmış işlərini, ideyalarını ən layiqli siyasi varisi cənab İlham Əliyev tamamlaya bilər. Necə ki, tamamladı! Ulu öndər

hələ 2003-cü il oktyabrın 1-də xalqa müraciətində bu inamı açıq şəkildə bəyan edərək qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, Ulu Öndərin siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırmışdır: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli liderin bu inamı 21 il ərzində bütün sahələrdə özünü doğrultdu. Azərbaycan dövləti bu gün də Prezident İlham Əliyevin apardığı siyasət sayəsində daha da qüdrətlənir. Bu baxımdan, Zərifə xanımın kitabın **II fəslini "Qətiyyətli və güclü Liderlə yeni uğurlara doğru"** adlandırması yüksək dəyərə malikdir. Artıq dünya ictimaiyyətinə də bəllidir ki, Azərbaycan Prezidenti İlham Əliyev QƏTİYYƏTLİ, GÜCLÜ LİDER və QƏHRƏMAN SƏRKƏRDƏDİR". Ermənistanın dünyadakı havadarlarına arxalanaraq 30 il ərzində Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətinə, işğal etdiyi rayonları, kəndləri, qəsəbələri viran qoymasına, bir milyondan artıq soydaşımızı məcburi köçkün vəziyyətinə salmasına dözə bilməzdik. Dövlətimizin başçısı da dəfələrlə demişdir ki, biz bu işğalla barışa bilmərik. 2020-ci il sentyabrın 27-də Ermənistanın bütün cəbhə boyu Azərbaycana qarşı təxribatlar törətməsi, nəhayət, özlərinin başında çatladı. Müəllif bu məsləni öz məqalələrində xüsusi vurğulayaraq yazır ki, Prezident, Qəhrəman Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti Ermənistan ordusunu 44 gün ərzində diz çökdürdü. Artıq Azərbaycan dünyada qalib, Ermənistan isə məğlub dövlət kimi tanınır. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız qürurlu, alnıaçıq, üzüağdır. Axı onlar Qalib Azərbaycanın övladlarıdır. Bu qürur, əlbəttə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev bəxş edib. Prezident İlham Əliyev polad iradəyə, düzgün qərar qəbul etmək səriştəsinə malik, xalqı vahid amal uğrunda səfərbər edən və arxasınca apara bilən LİDERDİR.

Müəllifin yazdığı kimi, Prezident İlham Əliyev prezidentlik fəaliyyətinə başladığı gündən Zəfər tarixinə qədər bütün təhdidlərə, təzyiqlərə cəsarətlə sinə gərdi, cavab verdi və düşmənə güzəştə getmədi. Qalib Sərkərdə 44 günlük Vətən Müharibəsində təkcə Ermənistanı yox, onun havadarlarını da məğlub etdi. Z.Quliyeva qeyd edir ki, Qələbədən cəmi 6 gün sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva işğaldan azad edilmiş ərazilərimizə səfərlərə başladılar və bununla da həmin ərazilərdə genişmiqyaslı yenidənqurma, tikinti-quruculuq işlərinin əsası qoyuldu. Müəllifin yazdığı kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın sayəsində Qarabağ və Şərqi Zəngəzur əvvəlkindən də gözəl və cazibədar olacaq. Artıq işğaldan azad edilmiş ərazilərimiz də nüfuzlu beynəlxalq təşkilatların öz tədbirlərini keçirdikləri məkana çevrilib.

Ümumiyyətlə, Azərbaycan son 21 ildə sürətlə inkişaf edən dövlət kimi nüfuzlu beynəlxalq təşkilatların tədbirlərinin keçirildiyi ən etibarlı məkandır. Ölkəmiz həm də beynəlxalq aləmdə sabitlik məkanı imici qazanıb. Məhz buna görə də təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərar qəbul edib. Bu, bizim siyasətimizə hörmət və dəstəyin, Azərbaycana olan inam və etimadın parlaq sübutudur. Azərbaycanın postsovet məkanında ilk dəfə olaraq COP29-a evsahibliyi etməsi xarici siyasətimizin növbəti qələbəsidir. Prezident İlham Əliyevin 25 dekabr 2023-cü ildə imzaladığı sərəncamla Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyinin bir daha təsdiqlədi. Bu əhəmiyyətli məsələ Z.Quliyevanın məqalələrində də öz əksini tapıb və həmin məqalələr **III fəsildə – "Yaşıl dünya naminə həmrəylik ili"** adı altında verilib. Müəllif qeyd edir ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Müəllif yazır ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də, Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub.

Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərində ətraf mühitin qorunması mühüm vəzifə kimi qarşıya qoyulub və bu proses uğurla icra edilir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimad kimi dəyərləndirilir. Eyni zamanda, ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Azərbaycanın belə nüfuzlu tədbirlərə evsahibliyi etməsi ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu, gücünü getdikcə artırır. Z.Quliyevanın kitabının **IV FƏSLİ məhz bu mövzulardan bəhs edir və "Azərbaycan beynəlxalq aləmdə güc mərkəzinə çevrilir"** adlanır.

Bu fəsildə müəllifin Prezident İlham Əliyevin xarici ölkələrə səfərlərindən, həmçinin respublikamızda rəsmi səfərdə olan dövlət başçıları ilə keçirdiyi görüşlərdə müzakirə olunan qlobal məsələrdən, imzalanan sənədlərdən, əməkdaşlığın daha da genişləndirilməsindən, strateji tərəfdaşların artmasından bəhs edən məqalələri toplanıb. Son illər baş verən hadisələr də təsdiqləyir ki, dövlət başçımızın uzun müddət ərzində apardığı müstəqil və balanslı xarici siyasət kursu artıq dünya miqyasında dəstəklənir. Hazırda Azərbaycan dünyanın bütün qitələrində yerləşən ölkələrində eyni dərəcədə diqqətlə izlənilir. Azərbaycanın həmmüəllifi olduğu regional və beynəlxalq layihələr onu dünya üçün əvəzedilməz ölkəyə çevirir.

Məqalələrdə qeyd edilir ki, son 4 ildə baş verən proseslər Azərbaycanın adını region hüdudlarından kənara çıxan qüdrətli ölkə kimi tanıdıb. Beynəlxalq güc mərkəzlərinin Cənubi Qafqaz və ətraf regionlar üzrə layihələrin taleyi həm də Azərbaycanın iradəsindən asılıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu ölkəmizə həmişə güc-qüvvət vermiş, yaşadığımız qlobal böhranlardan Azərbaycanın dünyanın inkişaf etmiş əksər ölkələri ilə müqayisədə minimum itkilərlə çıxmasına şərait yaratmışdır. Bu gün Azərbaycan dünyanın sayılıb-seçilən və söz sahibinə çevrilən dövlətlərindən biridir.

Beş-altı il əvvəl rayonlarımızın işğal olunduğu günü qəm-qüssə, kədərlə anırdıq. 2020-ci il noyabrın 10-da Ermənistan üzərindəki şanlı Qələbəmiz rəsmiləşdikdən sonra artıq kədərli günləri sevincli günlər əvəz edib. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixli sərəncamı ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri təsis edilib. Müəllifin **V FƏSLƏ "Tarixi Qələbə günlərinin əbədiləşdirilməsi"** adını seçməsi də məhz bu məsələ ilə əlaqədardır. Sərəncama əsasən, rayon və şəhərlərin işğaldan azad edildiyi gün "Şəhər Günü" kimi təntənəli şəkildə qeyd olunur. Bu, bir daha təsdiqləyir ki, "Qarabağ Azərbaycandı!"

Ümid edirik ki, Zərifə Quliyevanın bu kitabı da çoxsaylı oxucularımız, həmçinin dünya azərbaycanlıları tərəfindən böyük maraqla qarşılanacaq.

Əliqismət Bədəlov,
"Xalq qəzet"inin müxbiri,
keçmiş SSRİ Jurnalsitlər İttifaqının üzvü



Siz də bilin, Azərbaycanın vətəndaşları da bilməlidir və dünya da bilməlidir ki, Azərbaycan heç vaxt öz ərazisnin bir qarışını da heç bir başqa ölkəyə, heç bir başqa dövlətə verə bilməz. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Biz heç vaxt Dağlıq Qarabağın müstəqil olmasına və yaxuda ki, Ermənistana bağlanmasına razı ola bilmərik və buna heç vaxt yol verə bilmərik.

Bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar.

Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur.

İnanın ki, biz mütləq Şuşaya, Laçına, Kəlbəcərə, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana, Ağdama qayıdacağıq. Biz bunlarsız yaşaya bilmərik.

HEYDƏR ƏLİYEV
ÜMUMMİLLİ LİDER

I FƏSİL

HEYDƏR ƏLİYEVİN YANDIRDIĞI OCAQ HEÇ ZAMAN SÖNMƏYƏCK

Heydər Əliyevin ideyaları yaşayır və uğurla həyata keçirilir

Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına Tanrının bəxş etdiyi böyük şəxsiyyətdir. Artıq xalqımız ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin doğum gününü onun ən böyük arzusunun çin olmasının – Qarabağın düşməndən azad edilməsinin sevinci ilə qeyd edir. Ümummilli Lider Heydər Əliyev yolu bu gün Onun ən layiqli davamçısı, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir, yaşadılır. Çünki Heydər Əliyev ideyası əbədi və dönməzdir. Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Dahi Liderimizin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Sərəncamda qeyd edildiyi kimi, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Ən əsası isə, bu gün Ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə millət atası Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi vəsiyyətini gerçəkləşdirdi.

Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızın çağdaş tarixinə möhtəşəm zəfər salnaməsini yazdı. Azərbaycan misilsiz Qələbə qazandı. Bu qələbə müstəqil dövlətimizin gücünü, ölkəmizin qüdrətini, xalqımızın döyüş ruhunu, qələbə əzmini dünyaya bir daha təqdim etdi. Ən əsas odur ki, bütün dünya

Azərbaycanın bir dövlət olaraq gücünün bir daha fərqində oldu. Dünya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi, diplomatik hazırlığına, bacarıqlı dövlət rəhbəri, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə olduğuna bir daha əmin oldu, xalqımızın vətənpərvərliyini, milli birliyini gördü. Beynəlxalq aləm ordumuzun rəşadətinə, əsgərlərimizin igidliyinə şahidlik etdi. Biz də özümüzü xoşbəxt hesab edirik ki, Azərbaycan tarixində son yüzilliklərin ən parlaq qələbə tarixinin canlı şahidləri olduq. Gələcək nəsillərin keçmişə boylananda hər zaman böyük qürur hissi ilə xatırlayacağı günlərin canlı şahidlərinə çevrildik. Eyni zamanda, haqq davamızın nəticəsi olan bu qələbə xalqımızı daha da bütövləşdirdi, mübariz etdi, milli həmrəyliyimizi gücləndirdi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Milli tariximizi nə qədər oxusaq da, gözəl bilsək də, ona hər zaman sadiq qalsaq da, Qarabağsız bu tarix, sanki tam deyildi. Məhz belə bir mənəvi boşluğu Ali Baş Komandanın böyük cəsarəti, qətiyyəti, Müzəffər Ordumuzun böyük ruh yüksəkliyi, döyüş hazırlığı tamamladı. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda, ümummilli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. İndi dünyanın harasında olursa-olsun, Heydər Əliyev deyiləndə Azərbaycan, Azərbaycan deyiləndə Heydər Əliyev şəxsiyyəti gözlər önünə gəlir. Onun böyük qürurla söylədiyi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" sözləri bu böyük şəxsiyyətin, bu böyük insanın öz xalqına öz torpağına nə qədər bağlı olduğunu bir daha təsdiq edir.

Bu gün dünyanın müxtəlif ölkələrinin siyasi liderlərinin ümummilli liderlə bağlı söylədikləri hər bir fikirində də bir ucalıq, yüksək məna çaları var. Belə ki, məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinskinin ulu öndər Heydər Əliyev haqqında demişdi: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir".

Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Bu yerdə vaxtilə Sovet İttifaqının rəhbəri Leonid Brejnevin ölkəmiz haqqında dediyi "Azərbaycan iri addımlarla irəliləyir" sözləri indi də öz aktuallığını saxlayır. Bəli, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır.

Və bu gün bu deyilən hər bir fikir Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyevin dünya miqyaslı dahi lider olaraq ulu öndərlə hər bir görüş zamanı bütün sahələr üzrə böyük siyasi təcrübə əldə etdiklərini söyləmələri hər bir azərbaycanlını qürurlandırır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dönə-dönə vurğulayıb ki, xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır".

Bəli, bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyası dayanır. Ulu Öndər bütün həyatı, fəaliyyəti boyu xalqa arxalanırdı və bu barədə də deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Bu gün fəxr edirik ki, dahi öndərimizin ideyaları yaşayır və geniş şəkildə inamla Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və Heydər Əliyevin nurlu xatirəsi bundan sonra da qəlblərdə əbədi yaşayacaqdır. Bu gün fəxr edirik ki, dahi öndərimizin ideyaları yaşayır və geniş şəkildə inamla həyata keçirilir. Ümummilli liderimizin Azərbaycan xalqı qarşısındakı möhtəşəm xidmətləri unudulmur, böyük minnətdarlıq hissi ilə daim yad edilir. Heydər Əliyevin nurlu xatirəsi bundan sonra da qəlblərdə əbədi yaşayacaqdır.

Heydər Əliyevin yandırdığı ocağ heç zaman sönməyəck

Bu gün müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız

tarixi yaradan dahi şəxsiyyətdir. Bütün ömrünü dövlətimizin möhkəmlənməsinə, gələcək inkişafına sərf etmiş, əməlləri ilə xalqın sonsuz məhəbbətini qazanmış, bugünkü müstəqil, müasir, azad və firavan Azərbaycanın qurucusuna çevrilmiş Ulu öndər Heydər Əliyev haqqında danışmaq hər bir azərbaycanlıda təbii qürur hissi doğurur. İndi dünyanın harasında olursa-olsun, Heydər Əliyev deyiləndə Azərbaycan, Azərbaycan deyiləndə Heydər Əliyev şəxsiyyəti göz önünə gəlir. Onun böyük qürurla söylədiyi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" müdrik kəlamı bu böyük şəxsiyyətin öz xalqına, öz torpağına nə qədər bağlı olduğunu bir daha təsdiq edir. Bəli, tarix dəfələrlə sübut edib ki, bir xalqın mövcudiyyəti onun həmrəyliyindən və bu həmrəyliyi təmin edən liderlərin dövrün məsuliyyətini öz üzərlərinə götürərək tarixi yenidən yazmaq bacarığından irəli gəlir.

Belə ki, mayın 10-da – Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qarabağda keçirdikləri görüşlər, Şuşada birinci yaşayış kompleksinin açılışında iştirakları rəmzi məna daşıyırdı. 32 ildən sonra doğma Şuşaya qovuşan ilk sakinlərlə görüşən Prezident İlham Əliyev dogma yurdlarına qayıdan ilk sakinlərlə görüşü zamanı vurğuladı ki, Ulu Öndərin fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq: "Mayın 10-u hər birimiz üçün, təbii ki, mənim üçün əziz gündür – Ulu Öndərin doğum günüdür. Onun ən böyük arzusu bu reallıqları görmək idi, işğala son qoymaq idi və məhz onun fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq".

Prezident İlham Əliyev Şuşaya qayıdan ilk sakinlərə mənzillərinin açarlarının təqdim edilməsi mərasimində çıxışı zamanı deyib: "Azərbaycan xalqının böyüklüyü bir daha 1993-cü ildə özünü göstərdi. Xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət etdi. Çünki Azərbaycan xalqı bilirdi ki, o bəladan onu ancaq Heydər Əliyev qurtara bilər".

Dövlət başçısı 1994-cü ildə əldə edilmiş atəşkəslə bağlı bildirdi ki, o vaxt – 1994-cü ildə əldə edilmiş atəşkəs məcburi bir addım idi və biz heç vaxt o atəşkəslə barışa bilməzdik, nə mənim atam, nə də mən: "Onun ömrü bu günü görməyə çatmadı. Biz – onun davamçıları, onun və Azərbaycan xalqının arzularını çin etdik və tarixi Zəfər əldə etdik. Düşmənə öz yerini göstərdik və bu gün düşmən bizim qarşımızda acizdir.

Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar".

Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin gərgin əməyi nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi. "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" – deyən ulu öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar"- deyərək reallaşdırdı. İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var – əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Prezident İlham Əliyevin səsrəncamları ilə 2022-ci ili "Şuşa İli", 2023-cü ili ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı "Heydər Əliyev İli" elan edilməsi dahi Liderimizin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Sərəncamda qeyd edildiyi kimi, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi

sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan ulu öndər Heydər Əliyevin həyat amalının təntənəsidir. Eyni zamanda, bütün bu uğurlar və görülən işlər də məhz ulu öndər Heydər Əliyevin Azərbaycanın güclü olması arzusunun reallığıdır. Sözü imzası qədər qüvvətli və keçərli olan Qalib Lider, Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Füzuli, Şuşa, Laçın, Kəlbəcər də, Ağdam da azaddır və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Fəxr edirik ki, bu reallıqları bütün dünya görür. Təsadüfi deyil ki, 2020-ci il noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı. Azərbaycan Prezidenti bildirmişdir ki, Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi: "Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Bu gün Şuşa artıq dirçəliş, inkişaf, quruculuq yolundadır. Qeyd edək ki, Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz ulu öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün isə işğaldan azad edilmiş Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın yenidən dirçəlməsi istiqamətində möhtəşəm işlər görülür. Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi bərpa edildi. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddət ərzində Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə öndədir. Dövlət başçımız cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə

Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

Bəli, bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Ruhun şad olsun ulu öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Dağlıq Qarabağ" problemi yoxdur!.

Bir sözlə, bütün bunlar Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti Heydər Əliyevin yandırdığı ocağın heç zaman sönməyəcəyinə əminlik yaradır. Çünki ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 1993-2003-cü illərdə təməlini qoyduğu siyasi irsi, ata vəsiyyətini 21ildir Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev layiqincə, şərəflə, inkişaf etdirməklə həyata keçirir. Müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin ideyaları bundan sonra da müstəqil Azərbaycanın nailiyyətlərinin fövqündə dayanacaq. Çünki bu yol – Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur.

Şanlı Heydər Əliyev epoxası

Tarix ən ədalətli hakimdir – deyirlər. Bu gün yaxın tariximizə diqqətlə nəzər yetirdikdə bugünkü inkişafımız, sabitlik və xoş güzəranımız üçün kimə borclu olduğumuzu yaxşı anlayırıq. Belə şəxsiyyətin siyasət meydanına çıxması isə böyük tarixi hadisə kimi daim yaddaşlarda yaşayır. Məhz 1969-cu il iyulun 14-ü ən yeni tariximizin belə şərəfli, müqəddəs səhifələrindəndir. Ümummilli Lider Heydər Əliyevin timsalında bu fikri də böyük əminliklə qeyd edirik ki, tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyətindən bəhs etmək üçün bütöv bir xalqın, dövlətin tarixini vərəqləmək gərəkdir.

Ulu Öndər Heydər Əliyev məhz belə xoşbəxt şəxsiyyətlərdən idi. Bu gün təntənə ilə qeyd etdiyimiz 55 illik yol tarix yaradan şəxsiyyət kimi nüfuz qazanan Ümummilli Liderin xidmətlərinin, Vətəninə, xalqına sevgisinin

aydın mənzərəsini formalaşdırır. Müasir Azərbaycan tarixində yeni eranın başlanğıcı sayılan həmin gün böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi, son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. O öz vətənini, millətini ürəkdən sevən bir Şəxsiyyət, Lider kimi bütün bu dövr ərzində Azərbaycanın taleyüklü məsuliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və tələtümlü sınaqlarından çıxarmış, müasir müstəqil Azərbaycan dövlətinin, onun xoşbəxt gələcəyinin bünövrəsini qoymuşdur. Həmin illər ərzində Azərbaycanın sosial-iqtisadi həyatının dirçəlişi, milli-mənəvi və mədəni dəyərlərinin inkişaf etdirilərək dünya ictimayyətinə çatdırılması məhz onun titanik fəaliyyətinin nəticəsidir.

Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi və o zamankı Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul tarixli plenumunda Heydər Əlirza oğlu Əliyev birinci katib seçildi. Həmin plenumdakı çıxışında o, özünün fəaliyyət platformasını çox konkret şəkildə ifadə etdi: "Mənə təzəcə tapşırılan bu vəzifənin bütün məsuliyyətini dərk edirəm. Qarşıma qoyulan öhdəliklərin çətinliyini, ağırlığını anlayıram və var qüvvəmlə çalışacağam ki, mənə göstərilən etimadı doğruldum... Mənə elə gəlir ki, bizim gələcək uğurlarımızın rəhni yalnız aktiv, birgə zəhmət ola bilər".

1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Məhz görülən bu uğurlu işlərin nəticəsi idi ki, 1970-ci ildən başlayaraq Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxdı. Respublikada kənd təsərrüfatı və onun xam malını emal edən sahələr böyük sürətlə inkişaf edirdi.

Eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti, siyasi

iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Moskvaya getməzdən əvvəl, 1982-ci il dekabrın 2-də Azərbaycan KP MK-nın büro iclasında Ulu Öndər respublikaya on üç il yarımlıq rəhbərlik dövrünün yekunlarını məmnunluqla, fəxrlə ümumiləşdirərək demişdi: "Bu illər ərzində böyük işlər görülüb, respublika böyük uğurlar əldə edib. Biz uzunmüddətli geriləməni qısa müddətdə aradan qaldırmağa nail olmuşuq. Respublikamız ümumittifaq miqyasında ən qabaqcıl mövqelərdədir... Respublikada çox gözəl, sağlam mənəvi-siyasi, mənəvi-psixoloji atmosfer hökm sürür, sözün qısası, bizim respublika yüksəklərə, çox yüksəklərə qalxıb".

Bütün bunlar isə 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi.

1982-87-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan görkəmli dövlət xadimi Azərbaycanı bir an da unutmamış, bütün imkanlarını, gücünü və bacarığını respublikamızın tərəqqisinə yönəltmişdi. Aydın, yetkin siyasi mövqeyə, böyük vətəndaş qeyrətinə malik Heydər Əliyev Bakıda da, Moskvada da zaman-zaman Azərbaycanın əleyhdarlarının təzyiqləri ilə üzləşmiş, lakin heç bir qüvvə Onu haqq yolundan, xalqa və yurda fədakar xidmət amalından döndərə bilməmişdi. 1987-ci ildə tutduğu yüksək vəzifədən istefa verəndə də Heydər Əliyev öz siyasi iradəsinin, mövqeyinin dəyişmədiyini bir daha nümayiş etdirdi. 1990-cı ilin yanvarında sovet qoşun hissələrini Bakıya yeridib dinc əhaliyə qanlı divan tutan imperiya rəhbərliyinə də ilk kəskin etiraz səsini məhz Ulu Öndər Heydər Əliyev ucaltdı.

1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iki gün sonra isə Naxçıvana gələn qeyrətli Vətən oğlu əhali tərəfindən böyük məhəbbətlə qarşılandı. Həmin vaxt Naxçıvan son dərəcə acınacaqlı bir şəraitdə yaşayırdı. Belə bir vaxtda Heydər Əliyevin Naxçıvana qayıdışı xalqın əsl nicatına çevrildi. 1990-cı il sentyabrın 30-da keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentlərinə mandat qazanan Ulu Öndər xalqın təkidli tələbi ilə 1991-ci il sentyabrın 3-də muxtar respublikada ali vəzifəyə dəvət olundu. Naxçıvan Muxtar Respublikasının əhalisi çox böyük uzaqgörənlik nümunəsi göstərərək Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçdi. Fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev

ölkəmizin ən nüfuzlu, qüdrətli, mütəşəkkil, kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasını yaratdı, qısa müddətdə bu partiya xalqın maraqlarının əsl ifadəçisi və müdafiəçisinə çevrildi.

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini elan etsə də çox keçməmiş ağır problemlər burulğanına yuvarlanırdı. O zaman ölkəyə başçılıq edən təsadüfi şəxslərin bacarıqsızlığı, səbatsızlığı, ağılsız addımları ağır nəticələrə gətirib çıxarmışdı. Ölkə daxilində iqtisadi islahatlar aparılmamış, əksər müəssisələr fəaliyyətini dayandırmış, əhalinin maddi durumu pisləşmiş, siyasi arenada hərc-mərclik, başıpozuqluq meyilləri baş qaldırmış, demokratik dəyərlərin təşəkkülü istiqamətində heç bir iş görülməmişdi. Cənubda qondarma №Talış-Muğan Respublikası", Şimalda "Sadval"çıların "Ləzgistan" xülyaları, Qarabağda erməni işğalı, Gəncəbasarda Surət Hüseynovun başçılıq etdiyi silahlı qiyamçıların əməlləri ölkənin ərazi bütövlüyünə, suverenliyinə ciddi təhlükə yaratmışdı. Belə bir vaxtda xalq yeganə düzgün, ağıllı yolu seçdi - dünya şöhrətli siyasi xadim, müdrik dövlət adamı Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi.

1993-cü il iyunun 9-da xalqın tələbi ilə Heydər Əliyev gərgin situasiyada yaşayan Bakıya gəldi. On minlərlə vətəndaş Bakı hava limanına axışaraq öz müdrik xilaskarını qarşıladı. 1993-cü il iyunun 15-də xalqın qətiyyətli istəyi gerçəkləşdi. Heydər Əliyev Azərbaycan Respublikasının Milli Məclisinə Sədr seçildi. 1993-cü il oktyabrın 3-də xalqın böyük dəstəyi ilə Prezident seçilən Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi on il müddətində (1993-2003-cü illər) neçə-neçə qərinəyə sığmayan son dərəcə böyük işlər gördü. Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir.

"Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq" – deyən Ümummilli Lider bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanması və möhkəmləndirilməsi üçün misilsiz işlər gördü, sinəsini sipər edib Vətəni və xalqı bəlalardan qorudu, xilas etdi. Dahi rəhbərin müdrik siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə

başlanıldı, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi, Qarabağ münaqişəsinin ədalətli həlli, haqq işimizin dünyada tanıdılması istiqamətində mühüm tədbirlər gerçəkləşdi. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan kontraktın imzalanması, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi istiqamətində görülən nəhəng işlər, ölkəmizin beynəlxalq təşkilatlarda layiqincə təmsil olunması, onun mənafelərinin əzmlə qorunması, müstəqil Azərbaycanın hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyasının qəbulu, mənəvi dəyərlərin müdafiəsi, mədəni dirçəlişə böyük qayğı, iqtisadiyyatın əsaslı şəkildə yenidən qurulması, bazar münasibətlərinin tənzimlənməsi, aqrar islahatın müvəffəqiyyətlə aparılması, ümumi daxili məhsulun ciddi artımı, dünya azərbaycanlılarının həmrəyliyinin formalaşdırılması, xaricdə yaşayan soydaşlarla sıx əlaqələrin təşəkkülü, minlərlə yeni iş yerlərinin yaradılması, əhalinin maddi rifah halının əsaslı şəkildə yaxşılaşdırılması, bir sözlə, müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, hərtərəfli, möhtəşəm yüksəlişin baş verməsi Heydər Əliyevin qlobal fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir. Bəli, Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytardı, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi son dərəcə məsuliyyətli və şərəfli bir missiyanı yüksək səviyyədə yerinə yetirdi.

Bu gün isə bu missiyanı Azərbaycan Prezidenti İlham Əliyev davam etdirir. Dövlətimizin başçısının rəhbərliyi ilə tarixinin ən qüdrətli çağlarını yaşayan ölkəmizin qazandığı nailiyyətlər Ulu Öndərin onilliklər ərzində gələcək inkişaf üçün formalaşdırdığı möhkəm təməllərdən güc alır. Ali Baş Komandan İlham Əliyevin əmri ilə torpaqlarımızı düşməndən azad edən qəhrəman əsgər və zabitlərimiz Heydər Əliyev siyasətinin, Ulu Öndərin vətənpərvərlik məktəbinin yetirdiyi nəslin təmsilçiləridirlər. Cəmi 44 gün ərzində düşməni məhv edən, təcavüzkar Ermənistanın öz ordusu haqqında yaratdığı bütün saxta mifləri dağıdan Azərbaycan Ordusunun bu qüdrəti Ümummilli Liderin müəyyənləşdirdiyi və bu gün Prezident İlham Əliyevin əzmlə həyata keçirdiyi inkişaf siyasətindən, qazanılan nailiyyətlərdən, Vətənə, torpağa bağlılıqdan, Azərbaycana sevgisindən irəli gəlir. Artıq işğaldan azad edilmiş ərazilərimizdə tikinti-quruculuq işləri geniş vüsət alıb. Bu, Heydər Əliyevə xas missiyadır. Onun işıqlı amalları bu gün adını daşıyan Heydər Əliyev Fondunun fəaliyyətində

də yaşayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü layihələrlə Ümummilli Liderimizin ideyaları bütün dünyada xeyirxahlıq, mərhəmət, sevgi, tolerantlıq, fərqli mədəniyyətlərə hörmət ruhunun işığı kimi yayılır. İnsana və insanlığa xidmət edir.

Bir sözlə, müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda Ulu Öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. 2003-cü ildən ölkəmizə rəhbərlik edən cənab İlham Əliyev bu məsuliyyətli vəzifəni üzərinə götürərkən bəyan etmişdir ki, bütün fəaliyyətini Heydər Əliyev siyasəti, insana qayğı və diqqət üzərində quraraq sosialyönümlü siyasət həyata keçirəcəkdir. Görülən işlər ölkəmizi günü-gündən irəliyə aparır. Artıq Azərbaycan bu gün regionda söz sahibi olan, iqtisadi qüdrətinə görə dünyanın aparıcı dövlətləri sırasına çıxan ölkədir. Bu, 1969-cu ildən başlanan Azərbaycanı Azərbaycana qaytarmaq yolunun real bəhrəsidir.

15 İYUN – Qurtuluşdan Zəfərə doğru

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Çünki Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıdışı xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu.

15 İYUN TƏKCƏ DÖVLƏTÇİLİYİMİZİN XİLASI DEYİLDİ, HƏM DƏ 44 GÜNLÜK İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ MÖHTƏŞƏM QƏLƏBƏNİN TƏMƏLİ İDİ

15 İyun - Milli Qurtuluş Günü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edildiyi, Azərbaycan xalqının gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası olan tarixi gün. Heydər Əliyevin ikinci dəfə – 1993-cü ilin 15 iyun tarixində siyasi hakimiyyətə qayıdışı, nəinki Azərbaycanı, bütöv bir xalqın məhv olmaq təhlükəsindən xilası, qurtuluşu idi.

Ulu Öndər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. Hakimiyyətdə olan AXC-Müsavat iqtidarının səriştəsizliyi, xalqı deyil, yalnız öz mənf əətlərini güdmələri, hər şeyi - ləyaqəti, şərəfi, vicdanı pula satmağı sonda Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qoydu. Talanmış dövlət büdcəsi iqtisadiyyatı çökdürmüş, daxili və xarici qüvvələr isə artıq separatçılıq vasitələri ilə ölkəni bölən "xəritə-lərini" hazırlamışdılar. Qarabağ cəbhəsində isə torpaqlarımız ard-arda erməni işğalçılarına peşkəş edilirdi. Azərbaycan xalqı dövlətçiliyini itirmək təhlükəsi fonunda fəlakətlər, tüğyanlar burulğanında məhv olmaq üzrə idi. Bütün bunlardan isə çıxış yolu ulu öndər Heydər Əliyev idi! Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azə rbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvə-lər güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zə ngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələ rdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

XALQIMIZ HEYDƏR ƏLİYEVİN ƏTRAFINDA SIX BİRLƏŞMƏKLƏ GƏLƏCƏK TALEYİNİ ÖZÜ HƏLL ETMƏK NİYYƏTİNDƏ İDİ

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiy-yətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi

mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə, həmin gündən başlandı. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

HEYDƏR ƏLİYEV ÖZ XİLASKARLIQ MİSSİYASI İLƏ ÖLKƏMİZİN MÜSTƏQİLLİYİNİ QORUDU, RESPUBLİKADA TÜĞYAN EDƏN İCTİMAİ-SİYASİ BÖHRANI ARADAN QALDIRDI VƏ İNKİŞAFIN TƏMƏLİNİ QOYDU

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin hə ll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükə sindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir.

AXC-MÜSAVAT HAKİMİYYƏTİ HEYDƏR ƏLİYEVİN UĞURLARINI QISQANCLIQLA QARŞILAYIB ONA MANE OLMAĞA ÇALIŞDI

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında

Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbrlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

HEYDƏR ƏLİYEV DÜHASININ XİDMƏTLƏRİ OLAN NAİLİYYƏTLƏR AZƏRBAYCANI MƏHV OLMAQDAN QURTARDI, MÜSTƏQİLLİYİMİZİ DAİMİ, ƏBƏDİ, SARSILMAZ, DÖNMƏZ ETDİ

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz social-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati

əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, BakıTbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

15 İYUN TƏKCƏ DÖVLƏTÇİLİYİMİZİN XİLASI DEYİLDİ, BU TARİX HƏM DƏ AZƏRBAYCANIN BUGÜNÜNÜ, SABAHINI MÜƏYYƏNLƏŞDİRDİ

Ulu Öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Beləliklə, ölkədə daha geniş miqyaslı islahatların aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlandı. Bir sözlə, 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi, bu tarix, həm də Azərbaycanın bugününü, sabahını müəyyənləşdirdi. Məhz Ulu Öndər Heydər Əliyevin siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin apardığı "Dəmir yumruq" siyasəti 30 il düşmən

əsarətində olan torpaqlarımız 44 gün davam edən İkinci Vətən Müharibəsini Qələbə zəfəri ilə başa vurdu, ərazi bütövlüyümüz bərpa olundu, haqq, ədalət qalib gəldi. Məhz Ulu Öndər Heydər Əliyevin yenidə nikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz əbədi oldu və bu gün Azərbaycan 104 illiyini qeyd etdiyimiz Cümhuriyyətimizin taleyini yaşamadı. Azərbaycanın tarixinə Zəfər Gününün yazılması bu yolun uğurlu davamının, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ATA vəsiyyətini yerinə yetirdiyinin təqdimatıdır. Əlbəttə ki, bütün bunların əsasında Ulu Öndərin hakimiyyətə qayıdışı ilə başlayan Milli Qurtuluş dayanır. Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan bu gün dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də bu uğurların məntiqi nəticəsidir. Prezident, Müzəffər Ali Baş Komandan azad edilmiş torpaqlarda infrastruktur layihələrinin təməlini qoyur, Şuşada Novruz tonqalı alovlandırır, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

Heydər Əliyevin ideyalarını geçəkləşdirən Qalib Lider

"Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi. Biz onun bu arzusunu reallaşdırdıq. Biz bununla fəxr edirik, xoşbəxtik. Bütün azərbaycanlılar – təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya azərbaycanlıları bizim Qələbəmizlə fəxr edirlər".

Prezident İlham Əliyev bu fikirləri mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında səsləndirib. Dövlət başçısı bildirib ki, bu Qələbə ədalətin, tarixi ədalətin və beynəlxalq hüququn Zəfəridir.

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra

biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Bəli, Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdi. "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur – deyən ulu öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" – deyərək reallaşdırdı. İkinci Qarabağ müharibəsini "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var – əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Prezident, Ali Baş Komandan İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi və görülən işlər də məhz ulu öndər Heydər Əliyevin Azərbaycanın güclü olması arzusunun reallığıdır. Sözü imzası qədər qüvvətli və keçərli olan Qalib Lider, bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Füzuli, Şuşa,

Laçın, Kəlbəcə, Ağdam da azaddır və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Və bu günün reallıqlarını bütün dünya görür. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı. Azərbaycan Prezidenti bildirmişdir ki, Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Bu gün Şuşa artıq inkişaf, quruculuq yolundadır. Qeyd edək ki, Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün isə işğaldan azad edilmiş Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın yenidən dirçəlməsi istiqamətində möhtəşəm işlər görülür. Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi bərpa edildi. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddət ərzində Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Sevindirici haldır ki, ümummilli liderin ən ümdə arzusunun həyata keçməsi Qələbəmizin üçüncü ilinə təsadüf edir. İndi Azərbaycan iqtisadi inkişaf tempinə görə və dünyada əhəmiyyətli regional layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dövlət başçımız cənab İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyev bütün

zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır.

Prezident İlham Əliyev mayın 3-də Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib ki, Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib. Dövlətimizin başçısı deyib ki, Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində Ulu Öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. 70-ci və 80-ci illərin əvvəlində Heydər Əliyev tərəfindən atılmış bir çox addımlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdi.

Bəli, bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Ruhun şad olsun ulu öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Dağlıq Qarabağ" problemi yoxdur!. 2022-ci il "Şuşa İli", 2023-cü ili isə "Heydər Əliyev ili" elan etməsi ilə bağlı dövlətimizin başçısı demişdir: "Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".

Azərbaycan deyiləndə Heydər Əliyev şəxsiyyəti göz önünə gəlir

Bu gün müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız tarixi yaradan dahi şəxsiyyətdir. Bütün ömrünü dövlətimizin

möhkəmlənməsinə, gələcək inkişafına sərf etmiş, əməlləri ilə xalqın sonsuz məhəbbətini qazanmış, bugünkü müstəqil, müasir, azad və firavan Azərbaycanın qurucusuna çevrilmiş Ulu öndər Heydər Əliyev haqqında danışmaq hər bir azərbaycanlıda təbii qürur hissi doğurur. İndi dünyanın harasında olursa-olsun, Heydər Əliyev deyiləndə Azərbaycan, Azərbaycan deyiləndə Heydər Əliyev şəxsiyyəti göz önünə gəlir. Onun böyük qürurla söylədiyi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" müdrik kəlamı bu böyük şəxsiyyətin öz xalqına, öz torpağına nə qədər bağlı olduğunu bir daha təsdiq edir. Bəli, tarix dəfələrlə sübut edib ki, bir xalqın mövcudiyyəti onun həmrəyliyindən və bu həmrəyliyi təmin edən liderlərin dövrün məsuliyyətini öz üzərlərinə götürərək tarixi yenidən yazmaq bacarığından irəli gəlir.

Belə ki, mayın 10-da – Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qarabağda keçirdikləri görüşlər, Şuşada birinci yaşayış kompleksinin açılışında iştirakları rəmzi məna daşıyırdı. 32 ildən sonra doğma Şuşaya qovuşan ilk sakinlərlə görüşən Prezident İlham Əliyev dogma yurdlarına qayıdan ilk sakinlərlə görüşü zamanı vurğuladı ki, Ulu Öndərin fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq: "Mayın 10-u hər birimiz üçün, təbii ki, mənim üçün əziz gündür – Ulu Öndərin doğum günüdür. Onun ən böyük arzusu bu reallıqları görmək idi, işğala son qoymaq idi və məhz onun fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq".

Prezident İlham Əliyev Şuşaya qayıdan ilk sakinlərə mənzillərinin açarlarının təqdim edilməsi mərasimində çıxışı zamanı deyib: "Azərbaycan xalqının böyüklüyü bir daha 1993-cü ildə özünü göstərdi. Xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət etdi. Çünki Azərbaycan xalqı bilirdi ki, o bəladan onu ancaq Heydər Əliyev qurtara bilər".

Dövlət başçısı 1994-cü ildə əldə edilmiş atəşkəslə bağlı bildirdi ki, o vaxt – 1994-cü ildə əldə edilmiş atəşkəs məcburi bir addım idi və biz heç vaxt o atəşkəslə barışa bilməzdik, nə mənim atam, nə də mən: "Onun ömrü bu günü görməyə çatmadı. Biz – onun davamçıları, onun və Azərbaycan xalqının arzularını çin etdik və tarixi Zəfər əldə etdik. Düşmənə öz yerini göstərdik və bu gün düşmən bizim qarşımızda acizdir. Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan

Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar".

Prezident İlham Əliyevin səsrəncamları ilə 2022-ci ili "Şuşa İli", 2023-cü ili ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı "Heydər Əliyev İli" elan edilməsi dahi Liderimizin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Sərəncamda qeyd edildiyi kimi, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan ulu öndər Heydər Əliyevin həyat amalının təntənəsidir. Eyni zamanda, bütün bu uğurlar və görülən işlər də məhz ulu öndər Heydər Əliyevin Azərbaycanın güclü olması arzusunun reallığıdır. Sözü imzası qədər qüvvətli və keçərli olan Qalib Lider, Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Artıq tariximizin qürur doğuran səhifələri yazılır. İndi Füzuli, Şuşa, Laçın, Kəlbəcər də, Ağdam da azaddır və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Fəxr edirik ki, bu reallıqları bütün dünya görür. Təsadüfi deyil ki, 2020- ci il noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı. Azərbaycan Prezidenti bildirmişdir ki, Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi: "Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Qısa müddət ərzində Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. İndi Azərbaycan iqtisadi inkişaf tempinə

görə öndədir. Dövlət başçımız cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

Bəli, bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Ruhun şad olsun ulu öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəstndə "Dağlıq Qarabağ" problemi yoxdur!

Bir sözlə, bütün bunlar Prezidenti İlham Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti Heydər Əliyevin yandırdığı ocağın heç zaman sönməyəcəyinə əminlik yaradır. Çünki ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 1993-2003-cü illərdə təməlini qoyduğu siyasi irsi, ata vəsiyyətini 21ildir Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev layiqincə, şərəflə, inkişaf etdirməklə həyata keçirir. Müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin ideyaları bundan sonra da müstəqil Azərbaycanın nailiyyətlərinin fövqündə dayanacaq. Çünki bu yol – Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur.

Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir

Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqın keçdiyi bütün tarixi mərhələdə onunla birgə olmuş, onun taleyini yaşamışdır. Əsrlər, qərinələrdir ki, xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz qədim tarixə malik olan, min illərin müxtəlif burulğanlarından alnıaçıq, üzüağ çıxaraq müasir dövrə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Ana dilimiz dövlət rəmzlərimiz olan Himn, Gerb, Bayraq kimi müqəddəsdir. Bu, bir faktdır ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, qorunması

və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün də ulu öndər Heydər Əliyevin cəsarətli mövqeyi xalqımız tərəfindən unudulmur. Hər kəsə yaxşı məlumdur ki, 70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. 30-cu illərdə dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan ulu öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Bu gün fəxr və qürurla deyə bilərik ki, Azərbaycan dilinə dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən ulu öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il aprelin 27-də Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunması da bunun bariz nümunəsidir. Hər kəsə o da yaxşı məlumdur ki, dövlət dili uğrunda ardıcıl mübarizə aparan ümummilli lider ziyalıları, xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvələri səfərbər etmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu gün əminliklə söyləyə bilərik ki, ümummilli lider Azərbaycan dilinin adını özümüzə qaytardı. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Bu təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə

ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Ən əsası da ulu öndər Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Sözügedən fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdır.

Bu gün Prezident İlham Əliyev cənabları ümummilli lider Heydər Əliyevin dil siyasətini uğurla davam etdirir və Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Azərbaycan dilinə yüksək diqqət və qayğının göstəricisidir. Prezident İlham Əliyev çıxışlarında da dəfələrlə vurğulayıb ki, Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur: "Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

Azərbaycan dilinə olan belə həssas yanaşma, təbii ki, ulu kökdən, varislikdən və ənənəyə möhkəm sadiqlikdən irəli gəlir. 2018-ci il noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı Fərman dilimizin, onun tarixinin, mənşəyinin öyrənilməsinə daha çox diqqət yetirilməsi məsələləri öz əksini tapdı. Dilimiz tarixi boyunca müxtəlif dəyişikliklərə məruz qalıb. Bu dəyişikliklərə baxmayaraq, müstəqil dövlətimiz dilimizin saflığının qorunması üçün ciddi addımlar atır və müsbət nəticələr görür. Dövlətimizlə yanaşı, biz də dilimizin saflığını qoruyub saxlamalıyıq. Müasir dövrümüzdə sosial şəbəkələrdən istifadədə virtual məkanda, radio və televiziyada, mətbuatda və dövlət idarələrində dilimizdən istifadə edərkən, həmçinin dilimizin saflığının qorunması da düşündürücü məqamlardan biridir. Bunun üçün də biz doğma dilimizin qrammatik, leksik qaydalarına riayət edərək ondan istifadə etməliyik ki, doğma dilimizin saflığı pozulmasın. Biz ana dilimiz olan Azərbaycan dilinə qayğı

göstərməli, onu sevməli və qorumalıyıq. Bu gün ulu öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə "Azərbaycan əlifbası" və "Azərbaycan dili günü" kimi qeyd edilir.

Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin hazırda dünya dilləri sırasında özünəməxsus yeri, necə deyərlər, imzalar içərisində imzası vardır. Prezident İlham Əliyevin sözləri ilə desək, ana dilimiz öz imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir.

Prezident İlham Əliyevin dilimizin inkişafında başlıca rol oynayan kütləvi informasiya vasitələrinə xüsusi qayğısına həm də onun dilin inkişaf konsepsiyasının tərkib hissəsi kimi yanaşılmalıdır. Ölkə başçısının imzaladığı, milli mətbuatımızın yaranmasının 145-ci ildönümü ilə bağlı 30 iyun 2020-ci il tarixli Sərəncamı əsası ümummilli liderimiz tərəfindən qoyulan ənənənin davamı kimi qəbul edirik. Adıçəkilən sərəncamda kütləvi informasiya vasitələrinə dövlət qayğısını şərtləndirən faktorlar yada salınır: "Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır".

Ana dilimizə qayğı Prezident İlham Əiyevin fəaliyyətinin əsas hissəsini təşkil etmiş, bu istiqamətdə mühüm addımlar atılmışdır. Qəbul edilən hər bir qərar dilimizin inkişafına təkan vermiş, dilimiz hakim bir dilə çevrilmişdir.

Ulu öndərimiz Heydər Əliyev ana dilimizin saflığının qorunmasını çox yüksək qiymətləndirərək deyib: "Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik".

Bu gün əminliklə qeyd etmək olar ki, Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirilir. Ulu öndərin "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" – müdrik kəlamı ana dilimizə olan məhəbbət və hər bir soydaşımız üçün örnəkdir.

3 OKTYABR 1993-cü il – bugünkü qüdrətli, Qalib Azərbaycanın təməlinin qoyulduğu gün

Tarix sübut edir ki, hər bir xalqın və dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olmuşdur. Eyni zamanda, Azərbaycan xalqının taleyində, həmçinin, böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub: 1993-cü il 3 oktyabr... Xalqımızın özünün gələcək taleyini, müqəddəratını həll etdiyi gün. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı və 98,84 faiz səslə Azərbaycan Prezidenti seçildi.

Əgər 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi idisə, 1998-ci il seçkiləri, artıq formalaşan dövlətimizin imtahanı sayılırdı. Bu seçimi əsaslandırmaq üçün xalqın yüzlərlə, minlərlə arqumenti və məntiqə əsaslanan dəlil-sübutu var idi. Çünki həyata keçirilən islahatlar nəticəsində, "Xalq-Heydər- Heydər-Xalq" ifadəsi Prezident və xalq birliyinin möhtəşəm formuluna çevrilmişdi. Beynəlxalq aləm də əmin idi ki, 1993-cü ilin yayında Azərbaycan xalqını qardaş qırğınından, dövləti isə məhv olmaqdan xilas edən Ümummilli Liderimiz Heydər Əliyev növbəti dəfə Prezident seçiləcək. Həmin dövrdə bəzi qüvvələr müdrik siyasətçinin əleyhinə təbliğat aparırdı. Müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Ulu Öndər Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldu. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin

Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərkən andiçmə mərasimindəki nitqində söyləmişdi: "Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram". Ulu Öndər öz əməli fəaliyyəti, misilsiz xidmətləri ilə ömrünü xalqına, müstəqil Azərbaycana həsr etdiyini sübut etdi.

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı, həqiqətən də, çox mürəkkəb və çətin bir şəraitə təsadüf etdi. Yəni, həmin dönəmdə müstəqil dövlətçiliyimiz həlledici bir dövrünü yaşayırdı. Amma müdrik rəhbərin vaxtında həyata keçirdiyi strateji inkişaf strategiyası müstəqil dövlətçiliyimizin qorunub-möhkəmlənməsində müstəsna rol oynadı. Bu strateji xəttin əsas istiqamətlərindən biri də vahid komandanlıqdan idarə edilən nizami ordunun yaradılması idi. Axı müstəqilliyimizin ilk illərində Azərbaycan qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı, Dağlıq Qarabağ və ona bitişik ərazilər işğal edilmişdi. Belə çətin şəraitdə, döyüşlər getdiyi bir vaxtda nizami ordunun yaradılması olduqca çətin idi. Amma uzaqgörən siyasətçi, çox qısa vaxt ərzində, bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardı. Bu gün fəxrlə deyirik ki, müasir müstəqil Azərbaycan, həmçinin, Silahlı Qüvvələrimiz Ulu Öndər Heydər Əliyev dühasının və Onun misilsiz xidmətlərinin bəhrəsidir.

Ümummilli Liderin önəm verdiyi bütün məsələlər yalnız bir məqsədə – gənc müstəqil dövlətin hərtərəfli inkişafının təmin edilməsinə hesablanmışdı. Azərbaycanda, elə bir sahə yox idi ki, diqqətdən kənar qalsın. Aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə, möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxmağı bacardı. Bir sözlə, Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı Qarabağa Böyük Qayıdışın əsasını qoydu.

Azərbaycan xalqı xoşbəxtdir ki, Ulu Öndərdən başlanılan BÖYÜK YOL bu gün onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 21 ildə bütün

sahələrdə möhtəşəm nailiyyətlər qazanıb. Prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində Ümummilli Liderin qarşısında verdiyi vədlərin hər birinin reallıqda təsdiqidir. Bu gün Azərbaycan tarixi Zəfəri və onun yaratdığı reallıqlarla dünyanın diqqətindədir. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev torpaqlarımızı işğaldan azad etməklə Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunu reallığa çevirdi. Ümummilli Liderin ordu quruculuğu sahəsində yaratdığı möhkəm təməl rəşadətli Silahlı Qüvvələrimizin 44 gündə 30 ilin işğalına son qoymasını, 27 il tətbiqini gözləyən BMT qətnamələrinin icrasını təmin etdi. Tarixi Zəfərimizdən sonrakı dövrdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə imza atdığımız hər bir uğur son nəticədə Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi Azərbaycanın formalaşmasına gətirib çıxardı.

2023-cü il sentyabrın 19-da Ermənistan silahlı birləşmələrinin törətdiyi terror aktına cavab olaraq Azərbaycan Ordusunun bir sutka ərzində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində bu gün Azərbaycanın bütün ərazilərində suverenliyinin tam təmin olunmasını böyük qürur hissi ilə qeyd edirik. Artıq xeyli vaxtdır Qarabağ və Şərqi Zəngəzura davam edən Böyük Qayıdışın növbəti ünvanının məhz Xankəndi olacağı hər birimizin səbirsizliklə gözlədiyimiz məqamdır. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan nəhəng bərpa-quruculuq işləri dünyanın diqqətində olmaqla yanaşı, bu hədəfin göstəricisidir ki, Azərbaycanın hər bir sahədə qazandığı təcrübə nümunədir. Bu ərazi bütövlüyünü təmin etmiş, yeni-yeni hədəflərə doğru inamla addımlayan, hər bir sözünün imzası qədər dəyəri olan dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın müstəqilliyini, Onun layiqli davamçısı, Özü qədər inandığı Prezident İlham Əliyev suverenliyini daimi etdi. Uğurla reallığa çevrilən hər bir hədəf yeni hədəflərin başlanğıcıdır. Ulu Öndər Heydər Əliyev dövlətin xilaskarı olmaqla yanaşı, həm də millətinin taleyinin xilaskarıdır. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Vətəndaş cəmiyyəti institutlarının hələ formalaşmadığı, üstəlik, xarici işğala məruz qalan ölkəni yalnız və yalnız Ümummilli Liderimiz Heydər Əliyev xilas edə bilərdi və etdi də. Bu gün Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsi olan müstəqil Azərbaycan dövlətinin inkişafı millət-dövlət tandeminin üzərində qurulduğu üçün

sarsılmazdır. Azərbaycanın tarixinə Zəfər Gününün yazılması bu yolun uğurlu davamının, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirdiyinin təqdimatıdır. Dövlət başçısı 8 noyabrda Qarabağın döyünən ürəyi, musiqi beşiyimiz Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqımıza çatdırarkən bildirmişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Bəli, Ümummilli Lider Heydər Əliyevin həyatı və gərgin fəaliyyəti bahasına dünyaya Günəş kimi doğan Azərbaycan, indi beynəlxalq arenada tarixi ənənələrlə müasirliyin ən bariz sintezidir. Bu sintez Ulu Öndər Heydər Əliyev müdrikliyi və xalqın birliyindən yaranıb... Bütün bunlar isə, 1993-cü il 3 oktyabr prezident seçkilərinin nəticəsi kimi qiymətləndirilir. Azərbaycan xalqının tarixində taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyət, Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, parlaq şəxsiyyət Heydər Əliyevin xatirəsi hər birimizin qəlbində ən uca yerdədir, həmişə ehtiramla yad edilir. Xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək

Heydər Əliyev Fondu – Xeyirxahlığın və ümidin ünvanı

Ümummilli Lider Heydər Əliyevin ideyalarını davam etdirən Heydər Əliyev Fondunun fəaliyyətə başlamasından 20 il ötür. Ulu Öndərin zəngin irsinin öyrənilməsi, onun yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədilə yaradılan fondun genişmiqyaslı fəaliyyəti Azərbaycanın hüdudlarından kənarda da dəyərləndirilir.

Prezident ilham Əliyev Heydər Əliyev Fondunun üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirdiyini bildirmişdir: "Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyada təqdim edilməsi – bütün bu şərəfli funksiyalar bu fondun üzərinə düşübdür".

Bəli, ümummilli lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən fonda 10 may 2004-cü ildən rəhbərlik edən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə ötən 20 il ərzində təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində, xalqımızın mənəvi irsinin qorunması və təbliği, keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyinin dünya birliyinə obyektiv çatdırılması işində və digər istiqamətlərdə çoxşaxəli fəaliyyət həyata keçirərək mühüm nailiyyətlərə imza atıb. Humanizm, mərhəmət, vətənpərvərlik və xeyirxahlıq missiyası ilə ictimaiyyətdə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun layihələri sırasında ölkəmizdə təhsil sisteminin inkişafı əsas yerlərdən birini tutur. Fondun rəhbərliyi altında neçə illər bundan öncə ölkəmizdə "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsi öz uğurlu bəhrəsini vermişdir. Xatırladaq ki, respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən bu layihə fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Neçə illərdir Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən yeni məktəb binalarının inşasına istiqamətlənib. Layihə çərçivəsində paytaxtda və regionlarda dünya standartlarına cavab verən məktəb binaları inşa edilib, neçə-neçə tədris müəssisəsi cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub.

Son 20 ildə yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın özünün vurğuladığı kimi, bu fəaliyyət sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir".

Heydər Əliyev Fondunun səhiyyə sahəsində əks-səda doğuran layihələrindən biri "Diabetli uşaqlara ən yüksək qayğı"dır. Layihə çərçivəsində ölkəmizdə diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə

təmin edilirlər. “Talassemiyasız həyat naminə” layihəsi isə bu xəstəliyin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda rəğbətlə qarşılanıb. Bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, bu istiqamətdə əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilir.

Heydər Əliyev Fondu öz fəaliyyəti çərçivəsində 2020-ci ilin sentyabrında başlanan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində fəal çalışaraq Tarixi Qələbə üçün öz töhfəsini verdi. Ermənistanın otuz ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal altında olan ərazilərimiz darmadağın edilib, erməni vandallığına və təcavüzünə məruz qalıb, o məkanlardakı misilsiz mədəni irsimizə çox böyük ziyan dəyib. Yüzlərlə tarixi abidənin – muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbirstanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması erməni əməllərini bir daha dünyaya təqdim etdi. Artıq işğaldan azad olunan ərazilərimizin, tarixi-dini, mədəni abidələrimizin təmir və bərpası uğurla həyata keçirilir.

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar. Vurğulamaq lazımdır ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, fond digər layihələrdə də fəal iştirak edəcək. Həmçinin məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət almış, Qobu qəsəbəsində bir neçə böyük, çoxmərtəbəli evlərin

inşası təmin edilmişdir.

Prezident İlham Əliyev görüşlərində də bildirmişdir ki, Heydər Əliyev Fondu, sözün əsl mənasında, ümumxalq fondu olmuşdur: "Bu fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "Xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".

Bütün bu uğurlarla yanaşı, fond Azərbaycanın hüdudlarından kənarda da uğurlu layihələr həyata keçirir, ümumbəşəri mədəniyyət abidələrinin bərpasında iştirak edir. Məsələn, dost və qardaş Pakistanda təhsil, səhiyyə və humanitar sahələrdə Heydər Əliyev Fondunun gerçəkləşdirdiyi layihələri bölgə xalqı yüksək qiymətləndirir. Təsadüfi deyil ki, Azərbaycanın birinci xanımı 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" laureatı adına, 2010-cu ildə isə Fransanın "Fəxri Legion" ordeninə, UNESCO-nun "Qızıl Motsart" medalına, 2011-ci ildə Krans Montana Forumunun qızıl medalına layiq görülmüşdür. Mehriban xanım Əliyeva Türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına layiq görülüb. Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı" ilə təltif edilib. Bütün bunlar Mehriban Əliyevanın Azərbaycan xalqı qarşısında xidmətlərinə verilən mükafat və qiymətdir.

2016-cı il yanvarın 21-də Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden təqdim edilib. 2017-ci il dekabrın 26-da Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə Mehriban Əliyevaya II dərəcəli "Müqəddəs Mələksima Knyaginya Olqa" ordeni təqdim edilib. 2018-ci il sentyabrın 22-də Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olunub. 2019-cu ildə Mehriban Əliyeva Prezident Vladimir Putinin fərmanı ilə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub. 2020-ci il fevralın 22-də mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi – IX Piy Ordeninin Böyük Xaçı təqdim edilib.

Bir sözlə, fəaliyyətində Ulu Öndərin ideyalarına söykənən Heydər Əliyev Fondunun 20 illik fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər onun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Görülən işlər, həyata keçirilən layihələr, real nəticələr isə bir daha deməyə əsas verir ki, Heydər Əliyevin adını daşıyan fond Azərbaycanın bu günü və gələcəyi naminə bundan da artıq işlərə hazır və qadirdir.

































II FƏSİL

QƏTİYYƏTLİ VƏ GÜCLÜ LİDERLƏ YENİ UĞURLARA DOĞRU

15 oktyabr 2003-cü il – Xalqın iradəsi və istəyinin reallaşdığı gün

Müasir Azərbaycan dövlətinin siyasi yüksəlişinin növbəti mərhələyə keçid etməsindən, möhtərəm cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsindən, 21 il ötür. 2003-cü ilin 15 oktyabr tarixində demokratik qaydada keçirilən seçkilərdə səsvermə hüququna malik olan vətəndaşların 71,5%-i (3,046,401 vətəndaş) iştirak etmişdir. Seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev olmuşdur. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq, yəni 76,84% faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Buna qədər isə cənab İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (I və II çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri, həmçinin Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Cənab İlham Əliyevin yürütdüyü xarici diplomatiya həm də Azərbaycanın haqq səsinin dünyaya daha geniş arealda yayılmasını şərtləndirdi. Onun AŞPA-dakı fəaliyyəti, təklifləri və hazırladığı sənədlər Ermənistanın Azərbaycana qarşı təcavüzünün bir daha beynəlxalq təşkilatlar səviyyəsində tanınması ilə nəticələndi. AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərdi. Məhz cənab İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olundu, Azərbaycanın ayrılmaz parçası olan Qarabağ haqqında, münaqişə barədə Qərb dünyasında obyektiv rəy formalaşdı. Cənab İlham Əliyevin münaqişə ilə bağlı hazırladığı sənədlər qətnamələrə çevrildi. Ermənistan ilə Azərbaycan arasında münaqişəyə dair BMT-nin Təhlükəsizlik Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, ATƏT-in qəbul etdiyi bir sıra mühüm qərar və qətnamələri qəbul edildi. Dünya Azərbaycanın haqq səsini eşitdi.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda

fəal iştirak edən cənab İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, YAP-ın I qurultayında (1999) partiya Sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərmişdir. Həmçinin 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına cənab İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyəti qazanmışdır. Bütün bu uğurlu fəaliyyətlər isə cənab İlham Əliyevin seçkilərdə qalib gəlməsini şərtləndirən ən əsas amillər olmuşdur.

1993-2003-cü illərdə Ulu Öndər ölkəmizin uğurlu inkişafını təmin etmişdi. Digər dövlətlərin, bəlkə də, 50 ildə qazana bilmədiyi uğurlara Azərbaycan 10 il ərzində nail olmuşdu. Lakin onun hələ tamamlanmamış çox perspektivli layihələri, görüləsi işləri var idi. Təəssüf ki, dahi şəxsiyyətin səhhətində yaranan problemlər başladığı işləri tamamlamağa imkan vermirdi. Məhz belə bir tarixi məqamda Azərbaycan xalqı cənab İlham Əliyevin simasında öz yeni liderini görürdü.

Bəli, dahi lider Heydər Əliyev bilirdi ki, liderlik bacarığı elə siyasətçilərə məxsusdur ki, onlar xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilir. Bütün bunları nəzərə alan dahi lider 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan etdi. Xalqa müraciətində Ulu Öndər onu sevənləri siyasi varisi cənab İlham Əliyevi dəstəkləməyə çağırdı: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

1993-cü ildə təkidli tələbi ilə Ulu Öndəri Azərbaycana çağırıb özünə xilaskar Lider seçən Azərbaycan xalqı, təbii ki, Heydər Əliyevə inanırdı,

güvənirdi. Ona görə də seçkilərdə prezidentliyə namizədliyi irəli sürülən cənab İlham Əliyevə böyük dəstək göstərərək ona etimad mandatı verdi. Xalq cənab İlham Əliyevi Prezident seçməklə həm də Heydər Əliyevə, onun siyasi kursuna sadiqliyini nümayiş etdirdi. Bu, xalqımızın Ümummilli Liderə sevgisinin və sonsuz inamının bir daha təsdiqi idi.

Prezident kimi fəaliyyətə başlayan cənab İlham Əliyev andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirdi, Heydər Əliyev siyasətinə sadiq qalacağını bir daha bəyan etdi.

"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyən Prezident İlham Əliyevin qalib lider olaraq bütün öhdəliklərini reallaşdırmaqdadır. Məhz Heydər Əliyev dühası və onun varisi İlham Əliyevin idarəetmə bacarığı sayəsində Azərbaycan bütün təhdidlərə rəğmən hazırda dünyanın ən islahatçı, sabit inkişaf edən və real müstəqilliyi olan ölkələrindən biridir. İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə idarəetmədə aparılan islahatlarda əvvəlcə məmur-vətəndaş təmaslarından elektrona, indi isə elektrondan rəqəmsala keçid baş verir. Eyni zamanda, dövlət idarəetmə islahatları məcburetmədədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə və "kölgə iqtisadiyyat"dan leqallaşmaya keçidi təmin edir. Çünki İlham Əliyevin dövlətlə, dövlətin inkişafı ilə bağlı baxışları məlumdur. Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur. Cənab İlham Əliyev fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bundadır. Bütün bunlar cənab İlham Əliyevə Azərbaycanı arzuladığı və bəyan etdiyi kimi müasir dövlətə, əhalisinin sosial rifah halında cəmiyyətə çevrilməsinə imkan verəcəkdir.

Son 21 il – bütün dünya qalibin məğlub üzərində qələbəsinin qalib lideri Prezident İlham Əliyev məhz dahi şəxsiyyət Heydər Əliyevdən

öyrəndiyi siyasi kursu, daxili və xarici diplomatiyanı necə reallaşdırdısa, cəmi 21 ildə adını dünyada ən islahatçı Prezident, etibarlı tərəfdaş, sözünə və vədinə sadiq barışdırıcı lider, ən arzuolunan dövlət başçısı, qlobal miqyaslı layihələrin müəllifi və Müzəffər Ali Baş Komandan kimi tanıtmağa müvəffəq oldu. Son 21 ildə Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən liderdir. Prezident İlham Əliyev 44 günlük Vətən Müharibəsi zamanı necə mahir doplomat və sərkərdə qabliyyətini ortaya qoydu. 30 ilə yaxın zaman müddətində həll olunmayan qondarma Dağlıq Qarabağ probleminin 44 gün ərzində həll olunması ilə 2020-ci il tariximizə Qələbə ili kimi Azərbaycan tarixinə yazıldı. Azərbaycan 44 gündə son əsrlərin ən böyük zəfərini yaşayır və ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Vətən Müharibəsinin 44 günü ərzində "Qarabağ Azəbaycandır" və QƏLƏBƏ NİDA-sını qoyan, bununla da tariximizin ən parlaq səhifəsini yazmaqla bir daha sübut etdi ki, bu qalibin məğlub üzərindəki – Ali Baş Komandanımız, Prezident İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, Rəşadətli əsgər və zabitlərimizin qələbəsidir. Bu, haqqın qələbəsidir. Bu, Azərbaycan xalqının qələbəsidir. Bu sentyabrın 27-dən başlanan, 44 gün davam edən işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən tarixi qələbəsidir! Azərbaycan xalqı öz Liderinin – Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətnliyini, mübarizliyini nümayiş etdirməklə yanaşı Ali Baş Komandanımız 44-cü günün son həftə sevincini də "Biz öz Vətənimizə, doğma Qarabağımıza qaydırıq!" xəbəri Azərbaycan xalqına verdiyi ən böyük müjdəsidir!

Böyük Qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" – deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad

etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu 44 gün həm də Ulu Öndər Heydər Əliyevin Prezident İlham Əliyev haqqında dediyi "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirlərin hər keçən gün bir daha öz təsdiqini tapır. Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi "Qarabağ Azərbaycandır və nida işarəsi" – söyləyən Prezidentimiz son 21 ildə – hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur. Ötən 21 ildə Prezident İlham Əliyevin ən böyük dəstəkçisi, ən yaxın silahdaşı isə ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva olub. Heydər Əliyev Fondunun rəhbəri, birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək ölkə üçün taleyüklü məsələlərin həllində cənab İlham Əliyevlə birgə addımlayıb. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın çoxşaxəli və genişəhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafında çox böyük çəkiyə malikdir. Prezident İlham Əliyevin bütün layihələrinin uğurla reallaşmasında böyük dəstəyi olan Mehriban xanım Əliyeva bu gün Müzəffər Ali Baş Komandanla birgə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında əvəzsiz xidmətlər göstərir.

Beləliklə, xalq son 21 ildə Cənab İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olması vədinin mütləq surətdə reallaşdığını bir daha gördü və yekdilliklə seçdiyi, ətrafında sıx birləşdiyi Prezidentinə inanır və güvənir. Çünki Prezident verdiyi hər bir vədi yerinə yetir, Azərbaycanın dünya birliyində əlaqələrinin daha da möhkəmləndirilməsi, əhalinin sosial rifahının gündən-günə yaxşılaşdırılması və Vətənin təhlükəsizliyinin təmin olunması istiqamətində bütün imkanlardan səmərəli istifadə edir. Əminik ki, bundan sonra da ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya örnək olacaq səviyyədə daha möhtəşəm uğurlara imza atacaq.

Azərbaycanın sabitlik və sülh tərəfdarı olduğu dünyada etiraf olunur

Azərbaycan bu gün qlobal miqyaslı məsələlərin həllində fəal rol oynayır. Ölkəmiz beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir, sivilizasiyalararası dialoqların həyata keçirilməsi üçün mühüm təşəbbüslər irəli sürür, dünyanı narahat edən problemlərdən birgə çıxış yollarının aranması üçün uğurlu platformalar təqdim edir. Elə mayın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi və 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak etməsi ölkə Prezidenti İlham Əliyevın uğurlu siyasətinə və ölkəmizə göstərilən böyük ehtiramın və dəstəyin göstəricisidir. Üç gün davam edəcək forum çərçivəsində 4 plenar sessiyanın və 12 panel müzakirənin keçirilməsi nəzərdə tutulur. Müzakirə olunacaq mövzular təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edir.

Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə, 10 mindən çox iştirakçı – hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub. Bəşəriyyəti narahat edən qlobal çağırışların diqqət mərkəzinə çevrildiyi ötən beş forum çərçivəsində aparılan müzakirələr, tərtib edilən sənədlər beynəlxalq təşkilatlar üçün əsas istinad rolunu oynayıb və "Bakı Prosesi" mədəniyyətlərarası dialoqa dair vacib platforma kimi qəbul edilib.

Prezident İlham Əliyev "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda

çıxışında 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsinin azad edildiyini, 2023-cü il sentyabr ayında ərazi bütövlüyümüzün, suverenliyimizin tam şəkildə bərpa olunduğunu, Azərbaycanın çox fəal çalışdığını, Ermənistana sülh sazişi ilə bağlı danışıqları başlamaq təşəbbüsü irəli sürdüyünü, hətta baza prinsiplərini və sülh sazişinin layihəsini hazırladığını vurğulayıb: "İndi isə biz müsbət tendensiyadayıq, sülhə doğru gedirik.

Bəli, bu gün güc amilinin dünyada hakim olduğunu nəzərə alan Prezident İlham Əliyev ölkəmizin daha da gücləndirilməsi üçün daim çalışır. Azərbaycanın hərbi potensialının artırılması da dövlətimizin prioritet istiqamətlərindəndir. Müharibədən sonra yeni silahlı birləşmələrin yaradılması və yeni texnikaların alınması bu məqsədlərə xidmət edir. Azərbaycanın hərbi gücünü artırması müdafiə və təhdidlərdən qorunmaq məqsədi daşıyır. Çünki Azərbaycan sabit, təhlükəsiz diyardır və hər zaman sülhün tərəfdarıdır. Bunu artıq bütün dünya görür və bilir. Artıq münaqişə həll olunub və Minsk qrupu öz fəaliyyətini başa vurub. Bütün dünya, aparıcı ölkələr və beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Azərbaycanın təqdim etdiyi gündəlik artıq beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür. Bir sözlə, postmünaqişə dövründə gündəliyi Azərbaycan müəyyənləşdirir.

İndi qarşıda mühüm məsələ - sülh sazişinin bağlanması, Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyasıdır. Sərhədlərin müəyyənləşdirilməsi avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyulması deməkdir. Qarabağ Azərbaycanın ərazisidir və bütün dünya bunu belə qəbul edir. Ermənistan anlamalıdır ki, Azərbaycanla sülh müqaviləsi imzalanmalıdır. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Azərbaycan 44 gün ərzində həm ərazi bütövlüyünü, həm ədaləti, həm də xalqımızın milli ləyaqətini bərpa etdi. İşğaldan azad olunmuş ərazilərdə bu gün bərpa-quruculuq işləri sürətlə davam edir. Birinci pilot layihə isə məhz Zəngilanın Ağalı kəndində icra edildi. Üç il yarım bundan əvvəl tikinti-quruculuq işlərinin başlandığı Ağalıda indi 200 evdən ibarət "Ağıllı kənd" salınıb. Kənddə yaşayış üçün lazım olan bütün infrastruktur yaradılıb.

Azərbaycan xalqının bundan sonra müzəffər xalq kimi yaşayacağını

bildirən Prezident İlham Əliyev Ağalı kəndindən olan sakinlərlə görüşdə gənclərin öz dədə-baba yurduna qayıtmağa çox həvəsli olduqlarını vurğuladı. Dedi ki, 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımız dövlətimizin gücü və qüdrəti sayəsində minalardan təmizlənir, kəndlər salınır, yollar çəkilir, bir sözə, insanların yaşayışı üçün əlverişli şərait yaradılır. Ölkəmiz beynəlxalq sülhyaratma missiyalarında iştirak edərək təkcə regionda deyil, dünyada da sülh və təhlükəsizliyin qorunub saxlanmasına öz töhfəsini verib. Bu gün İkinci Qarabağ müharibəsinin Qalib Sərkərdəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Ermənistanla aparılan sülh danışıqları prosesində ortaya qoyduğu dəyişməz, qətiyyətli mövqeyi bir daha göstərir ki, məğlub ölkə ilə yalnız məlum 5 prinsip əsasında hazırlan sazişə imza atılacaq. Çünki Azərbaycan Qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirib vaxt udmaq istəsə də buna nail ola bilmir. Səbəb isə bölgədə marağı olan güclər Cənubi Qafqazda sülhün və təhlükəsizliyin tez bir zamanda təmin olunmasında israrlıdırlar. Bu gün dünya birliyi də Azərbaycanın haqlı tələbini aydın şəkildə dəstəkləyir. Tərəflər arasında aparılan sülh danışıqları isə həm Rusiyada, həm də Avropada reallaşır.

Bu gün Azərbaycanın mövqeyi dəyişməzdir. Azərbaycan Prezidenti İlham Əliyev bütün görüşlərində, müsahibələrində dönə-dönə Azərbaycanın mövqeyinin dəyişməz olduğunu vurğulayır. Qalib tərəf kimi ölkəmiz sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Prezident İlham Əliyevin bu mesajı Ermənistana 2 yol göstərir: ya 5 prinsipi qəbul edib sülh sazişini imzalamalı, ya da "dəmir yumruq" yenidən işə düşməlidir.

Təbii ki, 44 günə diz çökən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Bu gün Ermənistan anlamalıdır ki, başqa çıxış yolu yoxdur və Azərbaycanla sülh müqaviləsi imzalanmalıdır. Çünki Ermənistanın qeyri-konstruktiv mövqeyi regionda təhlükəsizliyin təmini ilə yanaşı, bu dövlətin gələcək inkişafını da yubadır. Onsuz da ötən 30 illik işğal dövründə Ermənistan iqtisadi-siyasi müstəvidə çox şey itirib – bu dövlət müstəqil olmaq şansını itirib. Yenidən eyni metodla sülhə mane olmaq istəyi isə indiki halda Ermənistana daha böyük zərbə vura bilər. Onsuz da üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan Avropa İttifaqının

moderatorluğu ilə keçirilən görüşlər zamanı da səsləndirdiyi vədlərdən boyun qaçırmaqla özünü dalana dirəyib – artıq reallıqdan qaçmaq mümkün deyil.

Əsl həqiqət budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Yəni Azərbaycan Prezidenti Vətən müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də sülh kontekstində regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan sülhün, qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün addımlar atır. Bununla yanaşı, prosesin alternativinin nə ilə nəticələnəcəyini də Ermənistana göstərməklə deyir ki, sülh sazişinin imzalanmaması Ermənistan üçün böyük fəlakət olacaq.

Bir sözlə, Azərbaycan öz sülh təşəbbüslərinə adekvat cavab tələb edir və bizim buna tam haqqımız çatır. Çünki haqq-ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Biz heç kimin ərazisinə göz dikmirik və öz halal torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır.

Beləliklə, bütün bunlar onu göstərir ki, regionda vəziyyətə diktə edən tərəf Azərbaycandır və ölkəmizin atdığı addımlar beynəlxalq hüquqa əsaslanır. Azərbaycan öz sülh təşəbbüslərinə adekvat cavab tələb edir və bizim buna tam haqqımız çatır. Çünki haqq-ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Biz heç kimin ərazisinə göz dikmirik və öz halal torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır.

Müzəffər Ali Baş Komandanın qətiyyətinin zirvəsi – Qarabağ Azərbaycandır!

Lider o şəxsiyyətdir ki, ona etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edir, reallaşdırır, cəmiyyətin enerjisinin səfərbər edilməsilə insanların taleyində əhəmiyyətli faktora çevrilir. Məhz 2003-cü il oktyabrın 15- də demokratik qaydada keçirilən seçkilərdə səsvermə hüququna malik olan vətəndaşların 71,5%-nin Yeni Azərbaycan Partiyasının namizədi, partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev cənablarına səs verməklə bir daha xalqın düzgün seçim etdiyini təsdiqlədi. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezident İlham Əliyev həmin il oktyabrın 31- də andiçmə mərasimində Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiq qalacağını bildirmişdir: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Cənab İlham Əliyevin ilk dəfə Prezident seçildiyi vaxtdan bizi 21 illik zaman ayırır. 21 il zaman baxımından qısa dövr olsa da uğurların, Azərbaycanın təqdimatına edilən əlavələrin miqyasına və onların zirvəsində dayanan Zəfərimizə diqqət yetirdikdə böyük qürur hissi keçiririk. Çünki bu gün sözü imzası qədər dəyərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının son 21 illik prezidentlik dövründə çoxəsrlik Azərbaycan tarixində xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Liderin dediyi kimi: "Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz". Çünki sözü ilə əməli üst-üstə düşən, imzası qədər dəyərli olan qalib xalqın qalib Lideri nəyi, nə vaxt və necə etməyi hamıdan yaxşı özü bilir. Dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev

cənablarının rəhbərliyi ilə yenilməz Ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadəti ilə əzad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Bu gün işğaldan azad olunmuş torpaqlarda görülən uğurlu bərpa-quruculuq işləri göz önündədir. Artıq Xarıbülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" -deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 21 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev cənablarının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı da məhz tarixi hadisədir. Qələbəmizdən ötən dörd ilin hər ili, hər ayı, hər günü uğurlu, tarixi hadisələr kimi yadda qalır. Bu gün xalqımız Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 21 illik prezidentlik fəaliyyəti zamanı reallığa çevirdiyi bütün uğurların şahidiyik. Belə ki, 2023-cü il 15 oktyabr tarixində Ali Baş Komandanımız İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində üçrəngli bayrağımızı qaldırdığı şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin Zəfər zirvəsi, xalqın öz Lideri ilə həmrəyliyinin, birliyinin təntənəsi olmaqla verdiyi bütün vədləri yerinə yetirmək iqtidarının hesabatı idi.

Son 21 ilin uğurları bir daha sübut etdi ki, onun sözü imzası qədər keçərlidir və nəyi, necə, nə vaxt etmək lazımdır yaxşı bilir. Xüsusilə də, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızı qaldırmaqla bir əsrlik saxtakarlığa son qoyulduğunu bütün dünyaya nümayiş etdirdi.

20 il öncə xalqımız etimad mandatı verərək özünə Prezident seçdiyi İlham Əliyevə inandı, güvəndi və səbirlə gözlədi. Azərbaycan Prezidenti də tam müstəqil siyasəti ilə 20 ildə Ermənistanı dünyada işğalçı dövlət kimi tanıda bildi. Məhz uzaqgörən Lider kimi Prezident İlham Əliyev ordumuzun gücünü gündən-günə artırdı. Ən müasir silahlar alındı, gənc nəslin vətənpərvərlik ruhunun yüksəlməsi istiqamətində çox mühüm işlər görüldü. Zaman yetişdi, Azərbaycanın səbir kasası daşdı və 2020-ci ildə Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə Ermənistan diz çökdürüldü. Bununla da

xalqın yurd həsrətinə son qoyuldu. Dünya Azərbaycanın gücünə, qüdrətinə şahidlik etdi. Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxışı zamanı demişdir: "Bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il".

Növbəti qələbə isə dekabrın 21- də xalqımız, eləcə də dünya ictimaiyyəti Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin nəticəsində daha bir tarixi hadisənin şahidi oldu. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Xocavənd, Xocalı rayonlarına və Şuşaya səfərlərindən sonra Xankəndidə keçirilən "Qarabağ" və MOİK komandaları arasında Azərbaycan Kubokunun 1/8 final mərhələsinin oyununu izlədilər. Prezident, Ali Baş Komandan İlham Əliyevin stadionda topa ilk toxunuşu bir daha dövlət başçımızın dünyaya növbəti mesajıdır. Prezident və Birinci xanımın birlikdə işğaldan azad edilmiş torpaqlarımızı qarış-qarış gəzmələri, sürətlə davam etdirilən yenidənqurma, abadlıq və tikinti-bərpa işləri ilə şəxsən tanış olmaları, Xankəndi şəhər stadionunda Azərbaycanın futbol komandalarının yarışını azərbaycanlı azarkeşlərlə, o cümlədən şəhid övladları ilə birlikdə tam təhlükəsiz izləmələri, eyni zamanda, soydaşlarımızın ata-baba yurdlarına qayıtmaları dünyaya bir daha bəyan etdi ki, Qarabağ Azərbaycandır!

Dövlətimizin başçısının dekabrın 21-də futbol üzrə Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında Xankəndi stadionunda keçirilən oyundan əvvəl çıxışında deyib ki, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır! Çünki bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün….

Bəli, tarixi gün olan 21 dekabr Xankəndi stadionunda keçirilən futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsinin oyunu tarixdə əbədi qalacaqdır. Həmin görüşdə iştirak edən Prezident İlham Əliyev oyunun fasiləsində 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşdə

bildirib: “Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün... Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir”.

Qeyd edək ki, Azərbaycan Prezidenti həmişə olduğu kimi, 2023-cü ildə də idmançılarımızı sevindirib. Belə ki, ötən il dekabrın 20-də ölkə başçısı Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Möhtəərm Prezidentimiz bu yüksək mükafatların Xankəndidə verilməsinin tam ədalətli olduğunu bildirib. İşğal olunmuş torpaqların böyük hissəsinin İkinci Qarabağ müharibəsi nəticəsində azad edildiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl – sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bəli, biz bir vaxtlar bunu heç xəyalımıza da gətirə bilməzdik. Prezident İlham Əliyevin müdrikliyi və qüdrəti onun mümkünsüz görünəni reallığa çevirməsi, xalqımızın ən böyük arzu və istəyini həyata keçirməsidir. Ötən il dekabrın 21-də isə Xankəndi şəhər stadionunda son 30 ildə ilk dəfə olaraq Azərbaycan komandaları arasında keçirilən və dünyaya mesaj mənasında mühüm əhəmiyyət kəsb edən futbol oyununda Prezident İlham Əliyevin bir daha vurğuladığı kimi, bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik. Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq. Xankəndi stadionunda keçirilən futbol oyunu dövlətimizin başçısının vurğuladığı kimi, “Oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir. Bugünkü oyunda “Qarabağ” və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması, təbii ki, böyük rəmzi məna daşıyır”. Çünki Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Bir sözlə, 21 il ərzində müəyyən olunmuş bütün vəzifələri icra etməklə, bütün hədəfləri reallaşdırmaqla Prezident İlham Əliyev dövlətin

və xalqın əsl Lideri olduğunu sübut edib. Son 21 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa – dayaq olub. Prezidentimiz həmişə böyük fəxrlə deyir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı inam sayəsində Prezident İlham Əliyev xalqı bundan sonra da öz arxasınca zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparacaq. Çünki bu gün Azərbaycan xalqı da Qalib Liderimizin son 21 il prezidentlik fəaliyyəti dövründə bir daha gördü ki, Azərbaycan Prezidenti daim xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır. Bu günün reallıqları onu göstərir ki, qələbəmizdən ötən dörd il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan – sözü imzası qədər qüvvətli olan lider Prezident İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda işğaldan azad edilmiş rayonlarımıza, bütün Qarabağa yeni nəfəs veriləcək, bu torpaqlarda həyat qaynayacaq, dünya Azərbaycan xalqının quruculuq əzminin şahidi olacaq.

Möhtərəm Prezidentimiz həmişə böyük fəxrlə deyir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu gün qürurla deyə bilərik ki, Vətən müharibəsi günlərində Ordumuzun qüdrətini artıran xalq-ordu birliyi, "Dəmir yumruq" Azərbaycan xalqının birliyinin rəmzi, Zəfərimizin əsas mənbəyidir. Çünki bu Zəfərlər və nailiyyətlər Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. Beləliklə, 2003-2024-cü il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsidir. Azərbaycan bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

Son 21 il – Əsrə bərabər inkişaf yolu

1993-cü ildə Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna qədəm qoydu. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən

seçkilərdə onun layiqli varisi İlham Əliyevi ölkə Prezidenti seçdi. Ölkə rəhbəri ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görünməmiş dərəcədə artdı. Məhz buna görə də 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Ən əsası isə ötən əsrlərdə itirə-itirə gəldiyimiz ərazilərimizi birləşdirmək, bütövləşdirmək... – bu çətin və şərəfli missiyanı Tanrı məhz ona verdi, onu seçdi – Yeni əsrin Lideri Prezident İlham Əliyevi. 21 il öncə – 2003-cü ilin 31 oktyabrında əlini Konstitusiyaya və müqəddəs Quran-Kərimə qoyaraq and içən İlham Əliyev çıxışında demişdi: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

O vaxt çoxları inanmırdı ki, ali kürsüdən and içən yeni Prezident "torpaqlarımızı nəyin bahasına olursa-olsun, azad edəcəyik" – deyəndə təkcə gələcəklə bağlı vəd vermirdi, əslində, böyük bir missiyanı öz üzərinə götürdüyünü bəyan edirdi...Bəli, Prezident İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Güclü Ordumuzun igid əsgər və zabitlərinin rəşadəti ilə uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistanı diz çökdü. Azərbaycan Prezidenti noyabrın 10-da xalqa tarixi bir müraciət etdi. O, bir daha vurğuladı ki, xalqımız mənə inanırdı, ona görə də dəfələrlə demişdim ki, nəyi necə və nə vaxt eləməyin məqamını mən yaxşı bilirəm. Xalqın bu inamına arxalanaraq Ali Baş Komandan kimi ölkə başçısı İlham Əliyev həmin günün gəlib çatdığını bəyan etdi və möhtəşəm qələbəmizin əsas memarı kimi tarix yazdı. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin tükənməz enerjisi, qətiyyəti, möhkəm iradəsi Azərbaycan xalqının iradəsinin, arzu və istəklərinin reallaşdırılmasına zəmin yaratdı.

Prezident İlham Əliyevin fəaliyyətinin ən parlaq səhifəsini Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpa olunması təşkil edir. 30 il həsrətində olduğumuz yurd həsrətinə uzaqgörən siyasəti ilə qüdrətli Ordumuzun igid əsgər və zabitlərimizin qəhrəmanlığı ilə 44 gündə qovuşmağımız, məhz Ulu Öndər Heydər Əliyev siyasətinə sadiqliyinin, xalqına verdiyi vədlərin göstəricisidir. Ən əsası isə milli mənafeyi naminə, məlum məkrli qüvvələrin təzyiqlərini göz önünə alaraq, torpaqlarımızın işğalına son qoyan Ali Baş Komandan Ermənistanı döyüş meydanında məğlub etməklə illərlə davam edən Qarabağ münaqişəsini tarixə qovuşdurdu. Tariximizə yenidən Zəfər sözü yazan bir sərkərdə, dövlətin ərazi bütövlüyünü təmin edən xilaskar oldu. Bu gün qalib ölkənin qalib xalqı kimi qürurla "Qarabağ Azərbaycandır!" – deyə bilirsə, bu, uzun illər ərzində həyata keçirilən məqsədyönlü siyasətin, Müzəffər Ali Baş Komandanın illərlə verdiyi zəhmətin və məhz onun dövründə formalaşmış qalib Azərbaycan əsgərinin və xalqımızın birliyidir. Bu birlik bizə güclü Azərbaycanı, güclü ordunu və ən nəhayət, həsrətində olduğumuz Qələbəni bəxş etdi. Şuşanın azad edilməsindən sonra – 2020-ci il noyabrın 8-də "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" – fikirləri ilə xalqa müraciət edən Prezident İlham Əliyev bütün bunları yalnız bir atanın oğluna etdiyi vəsiyyət olaraq yerinə yetirmədi. Həm də ulu öndər Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və uğurla davam etdirən böyük lider, həm də bir Prezident kimi xalqına verdiyi vədi yerinə yetirdi. Ona olan inamın qırılmasına nəinki imkan vermədi, onu getdikcə daha da gücləndirdi.

Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmiz dünya miqyasında özünə layiq yerini tuta bilib. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, son 21 il ərzində verdiyi bütün vədlər, qarşısına qoyduğu bütün vəzifələr icra edilib: "Düz 21 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 21 il ərzində verdiyim bütün vədlər, qarşıma

qoyduğum bütün vəzifələr icra edildi".

Bu tarixi zəfər hər zaman xalqımız tərəfindən böyük qürur və məmnunluq hissi ilə xatırlanacaq, Prezidentimizin xalqımız qarşısındakı bu tarixi xidməti əsla unudulmayacaq. Çünki bu, xalqımızın on illərlə həsrətində olduğu bir qələbədir və biz bu qələbəni qəhrəman oğullarımızın qanı və canı bahasına, eləcə də Ali Baş Komandanımızın qətiyyəti sayəsində qazanılıb. Dövlət başçımızın söylədiyi kimi: "Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Şərəf və qürur tariximiz – 18 oktyabr Müstəqilliyimizin Bərpası Günü

33 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni dörd gün ərzində müzakirə etsə də, qərarın verilməsini bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında sənəd qəbul edildi. 2021-ci il oktyabrın 15-də Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni Qanunu təsdiqlədi. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan olundu.

Prezident İlham Əliyev müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində bildirib ki, bu gün biz müstəqilliyimizin bərpasının ildönümünü qalib xalq kimi qarşılayırıq və mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcək: "Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq", – deyə müraciətdə vurğulanır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirib ki, müstəqillik illərində bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna

nail olduq: “Biz bu il müstəqilliyimizin 30 illiyini qeyd edəcəyik… 30 ildən sonra biz bu günü qürur hissi ilə qarşılayırıq. Biz müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. Müstəqilliyimizin möhkəmləndirilməsi işində bundan sonra da fəaliyyət göstəriləcəkdir. Bu, əbədi prosesdir. Müstəqillik deyəndə, təbii ki, mən real müstəqilliyi nəzərdə tuturam. Burada da Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili, xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsas məsələdir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi”.

“Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir” – söyləyən dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu reallığı da diqqətə çatdırıb ki, müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq.

Ali Baş Komanda onu da bildirib ki, 44 günlük müharibədə tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır.

Dövlətinin, xalqının gələcəyini düşünən lider hər zaman uğurların təminatçısı olur. Təbii ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Amma xalqımız bu ağır günlərdə qətiyyət, möhkəm iradə nümayiş etdirərək öz taleyinə sahib çıxdı. 1993-cü ildə xalqın təkidli xahişi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Əslində, Azərbaycan əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan möhkəm təməllər üzərində yeni inkişaf yolunu tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq

Cümhuriyyətinin varisi elan edən Ulu Öndər Heydər Əliyev müasir dövlət quruculuğu istiqamətində işlərə başladı. Ümummilli Liderin yorulmaz səyləri nəticəsində qısa müddətdən sonra Azərbaycanın səsi dünyanın ən nüfuzlu təşkilatların yüksək kürsülərindən gəldi. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi Ümummilli Liderin adı ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ulu Öndərin çoxşaxəli fəaliyyətinin nəticələrinə əsaslanan Prezident İlham Əliyev ölkəyə rəhbərliyi dövründə siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi və inkişafa nail olub. Azərbaycan yerləşdiyi bölgədə cərəyan edən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir ölkəyə çevrilib. Milli maraqlara uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Dövlətimizin başçısının müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə dayanır.

Ölkəmizə yeni can verən Ümummilli Liderin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndər Heydər Əliyevin bu arzusunu da onun layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbə nəticəsində işğala son qoyuldu, düşmən torpaqlarımızdan qovulub çıxarıldı, ərazi bütövlüyümüz bərpa edildi. Artıq işğaldan azad olunmuş ərazilərimizə həyat qayıdır. Dövlətimizin başçısının göstərişinə əsasən azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, Böyük Qayıdış Proqramı icra olunur. Görülən işlər Azərbaycan dövlətinin gücünü, qüdrətini, iqtisadi imkanlarını nümayiş etdirir. Təbii ki, ölkəmizin qüdrətini nümayiş etdirən daha bir hadisə 2023-cü il sentyabrın 19-20-də baş verdi. Azərbaycan Silahlı Qüvvələrinin Qarabağın qeyri-qanuni erməni silahlı birləşmələrindən təmizlənməsi və ərazilərimizdəki qondarma rejimin ləğv edilməsi istiqamətində başladığı lokal xarakterli antiterror tədbirləri qısa müddətdə böyük uğurla nəticələndi. Qeyri-qanuni erməni silahlı

birləşmələrinin tərk-silah olunması, qondarma rejimin özünü buraxdığını elan etməsi ilə Azərbaycan bütün ərazilərində suverenliyini bərpa etdi. Beləliklə, bu gün Azərbaycanın Dövlət Bayrağı ölkəmizin bütün şəhər və rayonlarında dalğalanır. Özünün müdrik, uzaqgörən və qətiyyətli Liderinin rəhbərliyi ilə möhtəşəm uğurlara imza ataraq tarixi Zəfər qazanan xalqımız bütün dünyaya göstərdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir!

Bugünümüzün əsas hədəfi, arzusu, istəyi işğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işlərini tamamlamaq, soydaşlarımızın Böyük Qayıdışını təmin etməkdir. Artıq Qarabağımızın cənnət məkana çevrilməsi üçün bütün zəruri tədbirlər görülür. Bu gün Şuşamız, Cıdır düzü "Xarıbülbül" musiqi festivalına, Vaqif Poeziya Günlərinə ev sahibliyi, iki dost, qardaş ölkənin Müttəfiqlik sənədinə-Şuşa Bəyannaməsinə şahidlik edir. İşğaldan azad edilmiş torpaqlarımız hər gün qonaqlarını qarşılayır, onlara erməni vəhşiliklərini izləmələri üçün şahidlik edirlər.

Müstəqilliyinin bərpasını Qələbə sevinci ilə qeyd edən Qarabağlı Azərbaycanımız! Şükürlər olsun ki, 33 ildən sonra ərazi bütövlüyünün bərpasına nail oldun, adını qalib ölkə kimi tarixə yazdın. Zəfərin mübarək, Azərbaycan! Müstəqillik tarixinin Zəfəri növbəti səhifələrini daha zəngin, möhtəşəm edəcək. Bu gün hər bir azərbaycanlı dövlət müstəqilliyini həm də ümummilli liderin ən dəyərli mirası olaraq göz bəbəyi kimi qorumalı, doğma Azərbaycanın inkişafı, çiçəklənməsi naminə səylə çalışmalıdır.

44 günün 24-cü gün müjdəsi – 20 oktyabr Zəngilan işğaldan azad edildi

Vətən müharibəsinin 24-cü günü – 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Bu, qürurverici və unudulmaz qələbə Zəfər tariximizn ən şanlı səhifələrindən biridir. 2020-ci ilin oktyabrın 20-də Prezident İlham Əliyev xalqa müraciətində daha bir şad xəbər verdi: "Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji

yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir".

Cənab Prezident həmin gün etdiyi müraciəti zamanı "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!", – deyərək xalqımıza böyük bir sevinci, iftixarı yaşatdı. Həmin tarixə qədər Azərbaycan Ordusu bir sıra əraziləri işğaldan azad etmişdir. Artıq bir aya yaxın idi ki, döyüşlər davam edirdi. Cənab Prezident "Biz öz missiyamızı yerinə yetiririk", – deyərək bildirib ki, düşmənə layiqli cavab veririk: "Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

Bəli, Zəngilan şəhərinin işğaldan azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpası yolunda atılan mühüm addım idi. Zəngilanın azad olması həm də tarixi əhəmiyyətə malik olan Azərbaycan torpağının erməni vandalizmindən azad olması demək idi. Barbar həyat tərzi sürmüş erməni işğalçıları Vətənimizin bu tarixi torpağının qədim abidələrini, məzarlıqlarını vəhşicəsinə çapıb talamış, bununla da əsrlər boyu türklərə olan nifrətlərini açıq şəkildə nümayiş etdirmişlər. Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyev başda olmaqla igid oğullarının qəhrəmanlığı ilə ərazimizin azad olmasında məharətlə çıxış etmiş, hətta əhval-ruhiyyələrini müharibənin ilk günlərindən qələbəyə kökləmişlər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 6974 hərbi qulluqçusu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şanlı Qələbədən sonra Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara, o cümlədən Zəngilana səfərləri onu göstərir ki, "Böyük Qayıdış" üçün bütün mövcud potensiallar səfərbər olunub. Azərbaycan 44 günlük Vətən müharibəsi yekunlaşdıqdan dərhal sonra düşmən tapdağından xilas edilən ərazilərdə sürətli şəkildə yenidənqurma işlərinə

başlayıb. Strateji əhəmiyyətə malik avtomobil və dəmir yollarının keçəcəyi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanda tikilən Beynəlxalq Hava Limanının 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi olub. Bu Hava limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən 2021-ci il oktyabrın 26-da təməli qoyulan Zəngəzur dəhlizinin-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisidir. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – "ASAN", "DOST", kiçik və orta biznesə dəstək xidmətləri mövcuddur. Bundan əlavə, Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi həyata keçirilib. 2022-ci il mayın 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. Artıq Zəngilan ölkə və beynəlxalq səviyyəli tədbirləri keçirilmə məkanına çevrilib. Bu gün Zəngilanda bərpa-quruculuq işləri surətlə davam edir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən, hər il oktyabr ayının 20-də Zəngilan Şəhəri Günü qeyd edilir. Dövlətimizin başçısı İlham Əliyev cənablarının siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, o cümlədən Zəngilan rayonu da yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək. Azadlığın, Şəhər günün mübarək Zəngilan! Dövlət başçımızın 2020-ci il oktyabrın 20-də xalqa müraciətində söylədiyi kimi: "Zəngilan bizimdir! Qarabağ bizimdir!"

Zəngilan Beynəlxalq Hava Limanının açılışı – Azərbaycan-Türkiyə qardaşlığının daha bir təntənəsi

Vətən Müharibəsinin 24-cü günü – 2020-ci il oktyabrın 20-si hərb tariximizə Zəngilan şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Vətən Müharibəsinin hər gününü, hər anını Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənabları xalqımıza qələbə sorağını verdikcə, Liderimizlə, Güclü Ordumuzla, qəhrəman,

igid əsgərlərmizlə, həmçinin xalqımızla qürur duyuruq. 44 gün davam edən Vətən Müharibəsinin ilk günündən son gününə kimi sevincli günləri bizə yaşadan Liderimiz öz xalqı, qüdrətli Ordusu və rəşadətli əsgərləri ilə fəxr etdiyini, qürur duyduğunu deyir. Bütün bunlara isə Ali Baş Komandanımız, dövlətimizin başçısı İlham Əliyev cənablarının düşünülmüş uğurlu siyasəti ilə nail oluruq. Növbəti tarixi, zəfər günü Vətən Müharibəsinin 24-cü günü – oktyabrın 20-si Zəngilanın işğaldan azad edildiyi gün. Prezident İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində "Biz öz missiyamızı yerinə yetiririk", - deyərək bildirib ki, düşmənə layiqli cavab veririk: "Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

Bu yerdə bir tarixi və mühüm məqamı da vurğulamaq istərdim ki, bu gün dillər əzbəri olan "Qarabağ Azərbaycandır!" kəlməsinin deyildiyi tarix də var. Prezident İlham Əliyev düz 20 il əvvəl – 2004-cü il martın 1-də Binə Beynəlxalq Hava Limanında jurnalistlərə müsahibəsində demişdi bu kəlməni... O, bunu beynəlxalq arenada səsləndirərək Ermənistana və onu müdafiə edənlərə dəqiq mesaj vermişdi: "Azərbaycanın mövqeyi aydındır və dəfələrlə bəyan edilib. Bu bəyanatlarla indiyədək tanış olmağa imkanınız olmayıbsa, mən sizin yadınıza salım: Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə, yaxud Ermənistanın bir hissəsi olmasına razılıq verməyəcək. Dağlıq Qarabağ Azərbaycanındır!"

Bəli, artıq 4 ildir ki, Azərbaycan xalqı olaraq tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayırıq. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüz minlərlə soydaşımız məcburi köçkünlük yükündən azad oldu. Ən mühüm məsələ isə, dövlət başçımızın söylədiyi kimi: "işğaldan azad olunan torpaqlarımızı cənnət məkana çevirək". Məhz Vətən müharibəsi başa çatdıqdan dərhal sonra düşmən tapdağından xilas edilən ərazilərdə sürətli şəkildə yenidənqurma işlərinə başlayıb. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlara, o cümlədən Zəngilana səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin qoyulması həm siyasi, həm iqtisadi, həm

də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Prezident İlham Əliyev çıxışlarında, müsahibələrində daim diqqəti hazırkı dövrün əsas hədəfi olan işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə yönəldir. Hazırkı dövrün reallığı budur ki, azad edilmiş torpaqlarda həyat bərpa olunur. Onu göstərir ki, "Böyük Qayıdış" üçün bütün mövcud potensiallar səfərbər olunub. Strateji əhəmiyyətə malik avtomobil və dəmir yollarının keçəcəyi Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanda tikilən Beynəlxalq Hava Limanının 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi "bir millət, iki dövlət" qardaşlığının əbədi və daimi olduğunun dünyaya bir mesajı oldu.

Qeyd edim ki, dövlətimizin başçısı yenə də 2004–cü il martın 1-də jurnalistlərə müsahibəsində Azərbaycan-Türkiyə qardaşlığının möhkəm olduğundan danışaraq Ermənistanla sərhədi açmaq üçün Türkiyəyə böyük təzyiqlərin olduğunu bildirmişdir: "Həmin dövrdə də Azərbaycanın yanında olan qardaş ölkə qətiyyəti ilə bunun qarşısını aldı. Mən Baş nazir vəzifəsində işləyərkən Ankarada cənab Ərdoğanla bu barədə söhbətim olub. Baş nazir cənab Ərdoğan məni bir daha əmin etmişdi ki, Türkiyə Ermənistanla sərhədlərini Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər heç vaxt açmayacaq. Mənim üçün bu kifayətdir. Yəni əgər mən bu sözü eşitmişəmsə, mənə hər hansı başqa izahat lazım deyil".

Göründüyü kimi, ulu öndərimizin uzaqgörən siyasətini ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə siyasəti bu beynəlxalq təşkilatların 30 ildə görə bilmədiyi işi 44 gündə zəfərlə həll etdi.

Tarixi həqiqətlər göstərir ki, Azərbaycan-Türkiyə dostluğu etibarlı dəyərdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin də dediyi kimi: "Xalqlarımızın iradəsindən və ortaq milli-mənəvi dəyərlərindən qaynaqlanan Azərbaycan-Türkiyə birliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bu gün ən yüksək səviyyədədir. Dünyada bənzəri olmayan bu dostluq və qardaşlıq münasibətləri regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edən, siyasi və iqtisadi proseslərə istiqamət verən mühüm amilə çevrilmişdir... Əminəm ki, gələcək nəsillərə ən böyük əmanətimiz olan sarsılmaz Azərbaycan-Türkiyə birliyi və qardaşlığı "Bir millət, iki

dövlət" müdrik kəlamına uyğun olaraq bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və güclənəcəkdir".

Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət"i hələ çox Zəfərlər gözləyir! Çünki bu gün Heydər Əliyevin adı Türk dünyasının birlik rəmzidir. Əlaqələrin yüksək səviyyədə inkişaf etməsinin ən son əyani sübutu 2022-ci il oktyabrın 20-də iki qardaş ölkə rəhbəri – möhtərəm Prezidentimiz İlham Əliyev və Türkiyə Cumhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılışı bunu bir daha təsdiqlədi. Bu, Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu və ardıcıl inkişaf etdiyinin nümayişi idi. Ən əsası isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ikinci böyük hava limanın açılışında iştirakı bir daha Türkiyə-Azərbaycan birliyinin, möhtəşəm dostluğunun daha bir nişanəsidir. Xalqımız və bütün dünya 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin bir daha şahidi oldu. Türkiyə Cumhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş Azərbaycan ərazilərinə səfəri və Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak etməsi Türkiyə-Azərbaycan mənəvi-siyasi birliyinin əyani nümunəsidir. Bundan əlavə 2021-ci ilin 15 iyununda Şuaşda şəhərində tərəflər "Şuşa Bəyannaməsi"ni imzalamaqla müttəfiqlik münasibətlərinin strateji xarakterini və ən yüksək səviyyədə olduğunu bir daha təsdiqlədilər. Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləmək nöqteyinəzərindən çox böyük əhəmiyyətə malikdir.

Bir sözlə, Zəngilanda tikilən Beynəlxalq Hava Limanının 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış mərasimi "bir millət, iki dövlət" qardaşlığının əbədi və daimi olduğunun dünyaya mesajı oldu. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Azərbaycan-Türkiyə bütün çətin anlarda xalqının birliyi ilə, iqtidarın səyi ilə həmişə qalib olacaq!!!

“Əminəm ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq”

“Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin”. Prezident İlham Əliyev bu fikirləri “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalında çıxışı zamanı söyləyib. Dövlətimizin başçısı əminliklə bildirb ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq.

Daim sülh və əmin-amanlıq tərəfdarı olan ölkəmiz bu gün də yeni reallıqlar fonunda bölgədə sülh, təhlükəsizlik, sabitlik, inteqrasiya və əməkdaşlıq mühitini gücləndirmək üçün strateji təşəbbüslərlə çıxış edir. Eyni zamanda, Azərbaycan regionda çoxtərəfli əməkdaşlıq platformasının yaradılmasının tərəfdarı olaraq bu məsələdə prinsipial geosiyasi iradə nümayiş etdirir. Prezident İlham Əliyevin müəllifi olduğu yeni regional geosiyasi mənzərə təkcə respublikamız üçün deyil, bütövlükdə region dövlətləri və dünya siyasətinin güc mərkəzləri üçün də mühüm dividentlər vəd edir. Mövcud reallıqlar onu deməyə əsas verir ki, işğalçı Ermənistanın sərsəm iddialar irəli sürməklə hər vəchlə sülh prosesindən yayınmağa çalışsa da, sülhə gəlməkdən başqa çarəsi yoxdur. Bu gün Azərbaycan reallıqlarını dünya görür və qəbul edir. Ölkəmizin yaratdığı yeni reallıqlarla Ermənistan və digər ölkələr də hesablaşmalıdır.

Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə çıxışlarında, müsahibələrində dönə-dönə bildirir ki, Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində Azərbaycan xalqının humanitar böhranla üz-üzə qaldığına konkret faktlar və rəqəmlərlə işğalçı dövlətin təcavüzkarlığı nəticəsində Qarabağ, Zəngəzur, həmçinin bugünkü Ermənistanda 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından tamamilə etnik təmizləməyə məruz qalıb. İşğalçı Ermənistan 30 il ərzində daim sülh danışıqlarında qeyri-konstruktivlik nümayiş etdirib, əsassız, beynəlxalq hüququn normaları ilə bir araya sığmayan tələblər irəli sürür və daim keçmiş təmas xətti boyunca təxribatlara əl atırdı. Bu kimi davranışlarla Ermənistan əslində işğal nəticəsində yaranan keçmiş status-kvonu sonsuzluğadək uzatmağa çalışırdı. Məhz bu səbəbə görə də 28 il davam edən danışıqlar prosesi heç bir səmərə vermirdi. Xüsusilə qeyd edilməlidir ki,

ATƏT-in Minsk qrupunun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfərlər edib, bütün şəhər və kəndlərin qəddarcasına dağıdılmasının, ermənilərin Azərbaycan torpaqlarında qanunsuz məskunlaşdırılmasının şahidi olsalar da, riyakarcasına davranaraq Ermənistanı heç vaxt qınamayıblar. 28 illik "fəaliyyəti" dövründə ATƏT-in Minsk qrupu tərəfindən Ermənistanı qınamaq üçün bir söz belə deyilməyib. İstər 44 günlük İkinci Qarabağ müharibəsinin gedişi dövründə, istərsə də postmünaqişə mərhələsində keçmiş Minsk qrupunun həmsədr dövlətləri ölkəmizə qarşı qərəzli mövqelərini açıq-aşkar büruzə verirlər.

Prezident İlham Əliyev mayın 10-da Şuşa sakinləri ilə görüşü zamanı çıxışında bir daha bildirdi ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Minsk Qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin.

Dövlət başçısı bir daha vurğuladı ki, Fransa və Amerika bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya, onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik.

Beləliklə, Azərbaycan sülhə, sülh danışıqlarına sadiqdir və sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Çünki Azərbaycan öhdəliklərinə də sadiq ölkədir. Əgər Ermənistan həqiqətən sülh istəyirsə, öhdəliklərinə tam şəkildə əməl etməli və ikitərəfli danışıqlar formatında Azərbaycanla razılığa gəlməlidir. Çünki bu gün diktəni edən qalib ölkə və qalib ölkənin Qalib Lideri Prezident İlham Əliyevdir və onun dediyi söz imzası qədər keçərlidir.

Şuşa Bəyannaməsi: Azərbaycan-Türkiyə – "Bir millət, iki dövlət" güclü liderlərin qardaşlıq zirvəsi

Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin Azərbaycan-Türkiyə qardaşlığı haqqında "bir millət, iki dövlət" kəlamı, eyni zamanda, Türkiyə dövlətinin tarixi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci isə sevincimizdir" kəlamı iki qardaş ölkə arasındakı əlaqələrin möhkəm, sarsılmaz və dərin köklərə malik olmasının təcəssümüdür. Bu gün dünyada analoqu olmayan bu qardaşlıq, sarsılmaz birlik və həmrəylik bütün dünya ölkələri arasında mövcud olan tərəfdaşlıq əlaqələrinə nümunədir. Hazırda dünyada bu cür münasibətlərə malik olan iki dövlət tapmaq mümkün deyildir. Çünki Türkiyə dövləti Azərbaycanın yanında olduğu kimi, Azərbaycan dövləti də çətin günlərdə Türkiyənin yanında olub və bundan sonra da olacaq. Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır.

Qırx dörd günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi – İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan – "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq". Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbaycanla birliyi bir çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Göründüyü kimi, bütün bunlar bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir. Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir

millət, iki dövlət" kəlamı bir gerçəklikdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Tezliklə, qardaş Türkiyə bu sınaqdan da üzüağ çıxacaq, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə də iki qardaş dövlət həmişə bir-birinin yanındadır. Dövlət başçımızın dediyi kimi: "Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq".

Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfəri və iyun ayının 15-də Şuşada hər iki qardaş dövlətlərin liderlərinin – Azərbaycan və Türkiyə Prezidentlərinin "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi"ni imzalaması ölkələrimiz arasındakı inkşafın zirvəsi hesab oluna bilər. Eyni zamanda, Şuşa Bəyannaməsinin 1921-ci il tarixli Qars müqaviləsindən düz 100 il sonra Şuşa şəhərində imzalanması dünyaya verilmiş mesajla yanaşı tarixi Qars müqaviləsinin davamı və müqaviləyə sadiqliyin təsdiqidir. Həmçinin bu tarixi sənəd Azərbaycan və Türkiyənin regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərini qarşılıqlı şəkildə əlaqələndirməklə, ölkələrimizin əməkdaşlıq, təhlükəsizlik proseslərində rolunu, nüfuzunu daha da artıracaq. Şuşa Bəyannaməsi ilə Azərbaycanın silahlı qüvvələrinin müasir tələblərə uyğun modernləşdirilməsi istiqamətində birgə səylər göstəriləcək. Dövlət başçımız İlham Əliyevin dediyi kimi: "İmzalanmış Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir".

Bir sözlə, Şuşa Bəyannaməsi Türkiyə və Azərbaycan münasibətlərini rəsmən müttəfiqlik zirvəsinə ucaltdı. Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin bərqərar olması, möhkəmləndirilməsi üçün siyasi və hüquqi mexanizmləri özündə ehtiva edən Şuşa Bəyannaməsi Azərbaycan Respublikasının müstəqillik, suverenlik, eyni zamanda, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutur. Eyni zamanda, Bəyannamə Qarabağ ərazisində yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün əlavə imkanlar yaradır, əhatəli sülhə yol açır, bölgədə inteqrasiya proseslərini stimullaşdırır. Məlum olduğu kimi, Zəngəzur dəhlizi təkcə nəqliyyat kommunikasiya baxımından deyil, həm də geosiyasi və

iqtisadi əhəmiyyət baxımından dəyərləndirilir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya ziyarəti zamanı imzalanan "Şuşa Bəyannaməsi"ni qardaşlıq münasibətlərinin zirvəsi adlandırıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə və Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı əlaqələrdə yeni dönəm başlayıb: "Qarabağa yenidən həyat verməklə yanaşı, azərbaycanlı qardaşlarımızın bir daha bu cür fəlakətlər yaşamaması üçün bir millət, iki dövlət ruhuna uyğun şəkildə tədbirlərimizi alırıq. Qardaşım Əliyevlə birlikdə imzaladığımız və dünyaya elan etdiyimiz Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq. Bu bəyannamə çərçivəsində bir çox anlaşmanı çox yaxın zamanda Türkiyə və Azərbaycan olaraq imza altına alacaq, beləcə qardaşlığımızın hüquqi təməlini daha da gücləndirəcəyik. Şuşada Baş Konsulluğumuzun ən qısa müddətdə açılmasından Zəngəzur dəhlizinin bir an öncə işləməsinə qədər gündəmimizdəki hər bir başlığı qərarlılıqla və sürətlə həyata keçirəcəyik. Önümüzdəki aylarda ölkəmizdə gerçəkləşdirəcəyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında bu xüsuslarla əlaqəli konkret addımların çoxunu atmağı planlaşdırırıq".

Bəli, Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. İmzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Eyni zamanda, Şuşa Bəyannaməsi Ermənistana və onun havadarlarına da mesajdır. Türkiyə və Azərbaycan arasındakı imzalanmış Şuşa Bəyannaməsi ilə təkcə iki qardaş ölkəni deyil, bütün Türk dünyasını, eləcə də Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması qətiləşdi və bu proses sürətləndiriləcək. Hər şeydən öncə Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Ən əsası, bu, Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi. Bir sözlə, bu gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi,

bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır.

Bəli, bu gün Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!". Dövlət başçımızın dediyi kimi: "Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb". Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsini imzalamaqla hər zaman Azərbaycanın yanında olacağını rəsmən elan etdilər. Bu, tarixi hadisədir və xalqlarımızı qürurlandırır, gücümüzü artırır, birliyimizi möhkəmləndirir və dövlətlərimizi daha böyük uğura aparır.

Qalib Xalq, Qətiyyətli Sərkərdə, Müzəffər Ordu

Ötən il iyunun 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissəyə Döyüş bayrağını təqdimetmə mərasimində çıxışı zamanı demişdir ki, Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir, Ali Baş Komandanın əmrlərini tam icra edir və icra edəcək. Ona görə bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar. Biz qisas yox, ədalət tələb edirik. Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Silahlı Qüvvələrimizin yaranmasının 106 illiyinin ulu öndər Heydər Əliyevin anadan olmasının 101 illik yubileyinə təsadüf edən bu tarixi günün möhtəşəm uğurlarla qarşılanmasının gerçəkliyi budur.

Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissəyə Döyüş bayrağını təqdimetmə mərasimində çıxışı zamanı dediyi kimi, biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim Ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə

qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür.

Məhz ordumuzun vahid proqram əsasında inkişafı, əsgər və zabitlərimizin peşəkarlığının nəticəsidir ki, 2020-ci il sentyabrın 27-dən başlanan, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gündə mümkünsüzü mümkün edən, tarixi Qələbə ilə başa çatan Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin hansı gücə qadir olduğunu bir daha dünyaya göstərdi. Qürurverici haldır ki, müharibədə əsgərlərimiz mərdliklə, böyük ruh yüksəkliyi ilə döyüşdü. Bu döyüşlər ordu ilə xalqın birliyinin sarsılmazlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Düşmənlə yanaşı, bütün dünya gördü ki, xalqımız öz ordusuna inanır, ordumuz isə xalqa arxalanır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı düşməni diz çökdürdü, torpaqlarımızı işğalçılardan təmizlədi, ərazi bütövlüyümüzü bərpa etdi. Tarixi ədalət bərpa olundu. Bölgəmizdə yeni reallıq yarandı. Bu reallığı dövlət-xalq-ordu birliyi yaratdı. 27 ildir icra olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirildi. İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissəyə Döyüş bayrağını təqdim etmə mərasimində çıxışı zamanı demişdir: "Görürük ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!". Bəli, bütün bunlar Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının qətiyyətli siyasəti nəticəsində son iki il yarım ərzində apardığı uğurlu siyasətin nəticəsidir. Bu, danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Qalib Sərkərdənin uğurlu diplomatiyası hesabına! Məhz bu gün qalib lider Prezident İlham Əliyevin irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağılını başına yığıb bilməlidir ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil. Şərtlərə əməl etmək lazımdır və həmin şərtlərə əməl etməsə, bu, ona və Ermənistana gələcəkdə çox baha başa gələ bilər. Daha dəqiq desək, "Dəmir yumruğ"un növbəti zərbəsi ilə qarşılaşacaqlar.

Ermənistan və onun arxasında dayanan xarici himayədarları bir daha unutmamalıdırlar ki, 30 il ərzində ən qüdrətli dövlətlərin və nüfuzlu

beynəlxalq təşkilatların tənzimləyə bilmədikləri Ermənistan-Azərbaycan münaqişəsini Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz cəmi 44 gün ərzində həll etdi. Ona görə də makronkimilərin vasitəçiliyinə ehtiyacımız yoxdur. Çünki Fransa Ermənistanın mövqeyini müdafiə etdiyinə görə vasitəçilik şansını çoxdan itirib. Belə olan halda Fransa parlamentinin qətnamələri Azərbaycan üçün kağız parçasından başqa bir şey deyil.

Bu gün havadarlarına arxalanaraq ölkəmizi təxribatlara çəkib növbəti müharibə ilə "hədələyən" revanşistlər anlamırlar ki, artıq Azərbaycan bütün gedişlərini kökündən dəyişib və bölgədə baş verən istənilən hadisəyə diqqət yetirir, hər şeyə nəzarət edir. İndi diktəni edən Qalib ölkənin Qalib Lideri Prezident İlham Əliyevdir və onun dediyi söz imzası qədər keçərlidir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır.

ATƏT-in Minsk qrupunun fəaliyyəti işğalın davam etməsinə xidmət göstərib

Azərbaycan Prezidenti İlham Əliyev mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Maltanın xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib ki, ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır.

Dövlət başçısı qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək, işğala son qoyub. Artıq Ermənistan-Azərbaycan münaqişəsinin tarixdə qaldığını və mövcud olmadığını deyən dövlət başçısı qeyd etdi ki, buna görə ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür.

Göründüyü kimi, Dövlət başçımızın söylədiyi kimi, ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır.

Çünki ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi hər kəsə məlumdur. Bu fəaliyyətsizliyin yalnız bir səbəbi var: bu da ondan ibarətdir ki, bütün beynəlxalq təşkilatlar dövlətlər tərəfindən idarə edilir. Həmin dövlətlər də təşkilatların qarşıya qoyduğu ümumi məsələlər və məqsədlərdən daha çox öz ümummilli maraqlarını və geosiyasi ambisyalarını həyata keçirirlər. ABŞ, Rusiya, Fransa birlikdə bir-birilərinə qarşı mübarizə aparırlar. Bu dövlətlərin Cənubi Qafqazda ortaq məxrəcə gələrək, hər hansısa bir problemi həll etmələri olduqca realıqdan kənardır. Və yarandığı gündən bu günə kimi ATƏT yalnız vaxt aparmaqla məşğul idi. Lakin ötən illər ərzində Minsk qrupu necə ki, bizə ümid verib, heç bir fəaliyyət həyata keçirtmədiyi kimi bizdə onlara toxunmadan öz ordumuzu gücləndirib, diplomatiya sahəsində uğur qazanmaq üçün fəaliyyət göstərdik. Bunun nəticəsi olaraq da Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının başçılığı ilə Azərbaycan Ordusu qalib gəldi. Beləliklə də biz bu gün ATƏT Minsk qrupunu tarixdən sildik. Son zamanlar Minsk qrupunun ətrafında baş verən məsələlər və müxtəlif siqnallar əslində, dünyadakı reallıqların göstəricisidir ki, bu gün de-fakto Minsk qrupuna ehtiyac yoxdur.

Prezident İlham Əliyevin hər bir çıxışı özündə hazırkı dövrün çağırışlarını və onlara yanaşmada Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyini ehtiva edir. Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüş zamanı Qalib Komandan bir daha Zəfərin zirvəsindən Azərbaycanın qələbəsini həzm edə bilməyən, ölkəmizə iftiralar atan, eləcə də məğlub Ermənistan və onun arxasında durub yalan vədlər verən dairələrə ciddi xəbərdarlıq ünvanladı. Dövlət

başçımız bir daha xatırlatdı ki, regionda söz sahibi Azərbaycandır və Cənubi Qafqazda marağı olan istənilən dövlət bütün məsələlərdə ölkəmizlə razılaşmalıdır.

Cənab İlham Əliyev çıxışında bir daha diqqəti 30 illik işğal dövrünün reallıqlarına yönəldərək bildirdi ki, biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdi. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Bu torpaqları ermənilərə vəd vermişdilər: "Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin. Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil".

Bəli, ATƏT-in Minsk qrupu 28 il ərzində etimadını itirərək problemin sülh yolu ilə deyil, hərbi əməliyyatlarla həllinə gətirib çıxardı. 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunması uğrunda apardığımız mübarizə bütün beynəlxalq qanunlara görə ədalətli olmaqla, dünya ermənilyinə, erməni təəssübkeşliyinə böyük zərbə oldu. Prezident İlham Əliyev bu qələbənin müəllifi kimi torpaqlarımızı işğaldan məhz "Dəmir yumruq" siyasəti yolu ilə azad edərək Ermənistanın müdafiəsinə qalxmış dövlətlərə və siyasi mərkəzlərə öz yerlərini göstərdi. Prezidenti İlham Əliyev beynəlxalq tədbirlərdə, müsahibələrində və çıxışlarnıda dəfələrlə vurğulayıb ki, vasitəçi tərəfsiz və ədalətli olmalıdır: "Vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar".

Göründüyü kimi, artıq Minsk qrupu və onun həmsədrlərinin addımları məşhur el məsəlimizdə deyildiyi kimi, "öz cəzandır, çək!". Bizim artıq nə danışıqlara, nə Minsk qrupuna, nə də həmsədrlərə ehtiyacımız var. Bizim öz tənzimləyicimiz – "dəmir yumruğumuz" var. Necə ki, 44 gündə də bu yumruq öz tarixi missiyasını layiqincə yerinə yetirdi... Ədalət Zəfər çaldı. Ermənistan da, onun yanında duranlar da layiqli cavablarını aldılar. Prezident İlham Əliyevin sözləri ilə desək: "Ermənistan

kapitulyasiya aktına imza atmağa məcbur edildi. Onlar bunu heç vaxt könüllü imzalamazdılar. Biz onları məcbur etdik, Minsk qrupu yox!... Bu, reallıqdır...”

Bir sözlə, həqiqət budur ki, indiki şəraitdə bizim ATƏT-in Minsk qrupuna ehtiyacımız yoxdur. Ümumiyyətlə, ATƏT-in Minsk qrupu kimi həmsədrlik edən qurum lazım deyil. Biz torpaqlarımızı işğaldan azad etmişik, qalan digər problemlərimizi də tədricən həll edəcəyik. Dövlət başçımızın söylədiyi kimi: “ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır”.

Vədləri uğurla gerçəkləşdirən lider

Artıq İkinci Vətən müharibəsinin qələbəsindən üç il yarıma yaxın vaxt ötür. Üç il yarım o qədər də böyük zaman kəsiyi deyil. Lakin bu qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə torpaqlarımızı azad edən Qalib Liderimiz Prezident İlham Əliyev ermənilərin viran qoyduğu yurd yerlərimizi sürətlə cənnətə çevirir. Azərbaycan Prezidenti “Dəmir yumruğ”un gücü ilə 44 günlük Zəfərimizdən keçən cəmi üç il yarım ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb, genişmiqyaslı layihələr icra olunur. Şuşaya Zəfər yolu, Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, dini-tarixi abidələr bərpa olunur. İnfrastruktur layihələri icra olunur. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Cəmi üç il yarım öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici mediyalara verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Artıq bu gün verilən vədlər reallaşır, ölkəmiz üçün yeni bir dövr başlanıb.

Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Bütün bunları isə Qalib Liderimiz, Prezident İlham Əliyevin siyasi iradəsinin göstəricisidir. Təsadüfi deyil ki, keçdiyimiz üç il yarıma yaxın bir müddətdə işğaldan azad olunmuş ərazilərdə ölkəmiz tərəfindən sürətlə aparılan və

bütün dünyaya nümayiş etdirilən yenidənqurma, bərpa, abadlaşdırma işləri bilavasitə Prezident İlham Əliyevin nəzarəti ilə həyata keçirilir. Çünki bu torpaqların sahibləri xalqımızdır. Ən əsası isə Azərbaycan "Böyük Qayıdış" proqramının icrasını öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. Belə ki, ötən il üçün dövlət büdcə layihəsinə əsasən, Böyük Qayıdış layihəsi çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər 3 milyard manat ayrılmışdır. 2021-ci ildə bərpa prosesinə 2,2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat olmuşdur. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu isə bir daha onu göstərir ki, Qalib Liderimizin məqsədi tezliklə Qarabağın bərpasına nail olmaqdır. Göründüyü kimi, günümüzün reallığı deməyə əsas verir ki, regionda yaranan yeni şərait ölkəmiz və bölgə üçün yaxşı perspektivlər vəd edir və Prezident İlham Əliyevin vurğuladığı kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. Və arzuları gerçəyə çevirəcək Böyük Qayıdışa dair I Dövlət Proqramında əks olunan hədəf, məqsəd və vəzifələrin icrası bölgədə məskunlaşacaq əhalinin layiqli həyat şəraitini təmin edəcək. Nəzərdə tutulan bu tədbirlər strateji hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir. Həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir və Azərbaycan düzgün yoldadır, uğurlu gələcəyə inamla addımlayır.

Bir sözlə, Prezident İlham Əliyev verdiyi vədlərinə əməli ilə sübut edir və bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Xüsusilə də, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş torpaqlara səfərləri, bu zaman yeni müəssisələrin təməlinin qoyulması, açılışların edilməsi bütövlükdə, dövlətimizin iqtisadi gücünün göstəricisidir. Dövlət başçımız çıxışlarında da bir daha vurğulayır ki, istər bu gün, istərsə də 44 gün davm edən müharibədə sübut etmişik ki, bizim iradəmizə heç kim təsir edə bilməz: "Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə

göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".

Dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Prezident indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib, bu sözünə də əməl edəcəkdir. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu azad etdi. Bu gün ölkəmizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki bu torpaqların sahibləri bizik – qurub-yaradan Azərbaycan xalqıdır. Görülən işlər də göz qabağındadır.

Bu gün Prezident İlham Əliyevin siyasəti nəticəsində Qarabağımız cənnət məkana çevrilməklə yanaşı, 30 il torpaq həsrətində qalan soydaşlarımız öz dədə-baba yurdlarına qayıdır. Bütün bu görülən işlər onu deməyə əsas verir ki, xalqımızın rifahı daha da yaxşılaşacaq, ölkəmizin qüdrəti yüksələrək Qarabağımız yenidən dirçələcək! Həm siyasi, həm də iqtisadı baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" də Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olmaqla yanaşı, ölkəmizdə həyata keçirilən uzunmüddətli və məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Bu gün davam edən təşəbbüslər ölkəmizin prosesdə israrlı olduğunu göstərir. Azərbaycan Prezidenti qəti olaraq o qənaətdədir ki, inkişafın bütün sahələri əhatələməsi üçün sağlam insan konsepsiyasına sadiq qalınması, bu məqsədlə gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklərin azaldılması, uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf zərurətdir.

Prezident İlham Əliyevin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" olmağı milli prioritet kimi müəyyən etməsi, əslində, həm də Azərbaycanın növbəti dəfə beynəlxalq hüquqa sədaqəti, o cümlədən beynəlxalq müqavilələrlə üzərinə götürdüyü öhdəliklərə vicdanlı yanaşmasının ideal

ifadəsi idi. Məhz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərar verildi. Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, bu, "beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir". Beləliklə, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də öz növbəsində dünyada bir ilkdir və dövlətimizin başçısı İlham Əliyevin qlobal Lider kimi məsələyə necə və haradan yaxınlaşmaq bacarığını və prosesi uğurlu məcraya yönəldə biləcəyini göstərir. Sonda dövlət başçımızın xalqa müraciətində dediyi kimi: "Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir".

Bir sözlə, bu gün ölkənin qalib və qürurlu vətəndaşı olaraq Qalib Liderimizin yaratdığı Azərbaycanımızla qürurlanılırıq və Azərbaycana qarşı istənilən təxribat, hücum "Dəmir yumruq"la əziləcək, məhv ediləcəkdir. Çünki bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz!..

Haqqa, ədalətə gedən yolun Qalib LİDERİ

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Prezident, Ali Baş Komandan İlham Əliyev xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının, hətta bəzi beynəlxalq təşkilatların qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan Azərbaycan Prezidenti İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü. Məhz cənab Qalib Sərkərdə İlham Əliyevin siyasi iradəsi, düşünülmüş və hərtərəfli təhlildən keçmiş siyasi strategiyası, sərkərdəlik məharəti sayəsində Azərbaycanın bütün ərazisində suveren hüquqlarımız bərpa edildi, qalib dövlətə

çevrildik, müzəffər xalq olduq, ölkəmiz bütün dünyaya yeni imicdə göründü, beynəlxalq aləm Azərbaycanı qüdrətli dövlət kimi yenidən kəşf etdi.

Bu şanlı Zəfərlə Prezident İlham Əliyev hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaltdı və bir daha alternativsiz Lider olduğunu təsdiqlədi. Bir daha tarixin təsdiq etdiyi: "hər yüzillikdə xalqların taleyini dəyişən liderlər yetişir" faktı bir daha Qalib Sərkərdə, Prezident İlham Əliyev cənablarının yeni yüzilliyimizin lideri olduğunu sübut etdi. 27 sentyabr 2020-ci il tarixindən 21 il öncə – 2003-cü il oktyabrı 31-də əlini Konstitusiyaya və müqəddəs Qurani-Kərimə qoyaraq and içən qalib liderimiz İlham Əliyev çıxışında demişdi: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Ali kürsüdən and içən yeni Prezident "torpaqlarımızı nəyin bahasına olursa-olsun, azad edəcəyik"- deməklə böyük bir missiyanı öz üzərinə götürdüyünü bəyan edirdi... Azərbaycan Prezidenti yürütdüyü siyasətlə hər zaman sülh tərəfdarı olduğunu dünyaya bəyan edib və bu gün də edir. Dəvət olunduğu bütün beynəlxalq ali kürsülərdə, konfrans və forumlarda Prezident İlham Əliyev xalqın səsini bəyan edərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmasını istədi. Amma ikili standartlar prinsipi heç zaman Azərbaycandan yan keçmədi. Bu cəzasızlıq mühitindən yararlanan Ermənistan Qarabağda daşı daş üstə qoymadı. Bu azmış kimi Ermənistanın indiki rəhbərliyinin tutduğu azğın yol, həyasızcasına səsləndirdiyi bəyanatlar Azərbaycanın və şəxsən cənab İlham Əliyevin səbir kasasını daşdırmaya bilməzdi. Məhz buna görə də Azərbaycana müxtəlif güc mərkəzlərindən göstərilən təzyiqlərə baxmayaraq, Ali Baş Komandan böyük qətiyyət, cəsarət və siyasi iradə nümayiş etdirdi, ərazi bütövlüyümüzün bərpası kimi əsas vəzifənin öhdəsindən layiqincə gəldi. Sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən savaşı müddətində Azərbaycan Ordusu tərəfindən 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Məhz qalib Sərkərdənin diplomatik məharətinin nəticəsində Ermənistan onilliklərlə möhkəmləndiyi, "keçilməz" istehkamlar qurduğu Ağdamı, Laçını, Kəlbəcəri bir

güllə atılmadan Azərbaycana qaytardı. Bu, Baş Komandan və qətiyyətli Lider prinsipiallığının, cəsarətinin təntənəsi idi.

Bugünün reallıqları bir daha Azərbaycan xalqının düzgün seçim etməkdə yanılmadığını və 30 il yurd həsrətinə Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının "Dəmir yumruq" siyasəti, güclü ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə son qoyuldu.

Dövlətimizin başçısı xalqa muraciətində bəyan etdi ki, Azərbaycan Ordusunun 8 noyabr tarixində qazandığı qələbə Azərbaycan tarixində əbədi qalacaq: "Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür".

Dövlətimizin başçısı keçmiş Dağlıq Qarabağ münaqişəsinin artıq hərbi yolla həllinin mümkünlüyünü dəflərlə vurğulaymışdı: "Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!".

Ölkə Prezidenti Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində söyləyib ki, İkinci Qarabağ Müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır, bu, misli görünməmiş qəhrəmanlıqdır: "İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi".

İkinci Qarabağ Müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Qələbəmizin hər ilini böyük uğurla başa vururuq. Bu, həm də bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz! Çünki bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında da göstərib. İkinci Qarabağ Müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq.

Sözü imzası qədər güclü olan lider, Ali Baş Komandan Prezident İlham Əliyev 44 gün davam edən İkinci Vətən Müharibəsində nəyi, nə vaxt edəcəyini hamıdan yaxşı bilirdi. 2020-ci il sentyabrın 27-də Ermənistan

tərəfindən başlanılan 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil.

Göründüyü kimi, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Bir sözlə, bütün bu nailiyyətlər Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük Sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır.

Növbədənkənar seçkilər yeni dövrün reallığıdır

44 günlük Zəfər müharibəsi ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli Azərbaycan daha bir məsuliyyətli prosesin astanasındadır. Dövlət başçısı İlham Əliyevin altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi haqqında Sərəncamına uyğun olaraq sentyabrın 1-də ölkəmizdə növbədənkənar parlament seçkiləri keçiriləcək. Suverenliyimizin bərpasından sonra ölkəmizdə yeni dövrün çağırışlarına uyğun olaraq bu ilin fevralın 7-də növbədənkənar prezident seçkisinin böyük uğurla keçirilməsi, ardınca isə sentyabrın 1-də növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə qərarın qəbul edilməsi, sözün əsl mənasında, böyük tarixi bir zərurətdən irəli gəlir.

Hər kəsə aydındır ki, Azərbaycan hazırda davamlı uğurları ilə dünyanın diqqətindədir. Əlbəttə, hər dövrün öz çağırışları, öz tələbləri var. Suverenliyimizin tam bərpası ilə yaranan reallıqlar parlamentdə də yenilikləri, təkmilləşməni zəruri edir. Hamımıza məlumdur ki, Azərbaycan hər zaman yeniliyə, təkmilləşməyə açıq ölkə kimi tanınır, nüfuz qazanır. Növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü cəmiyyətimizin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasına məxsusdur. Növbədənkənar parlament seçkiləri dövlətimiz və millətimizin həyatında böyük hadisədir.

1991-ci ildən bəri ilk dəfə olar Müzəffər Ali Baş Komandımız, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlət suverenliyini

bütün ölkə ərazisində bərpa edib. 1991-ci ildən bəri heç vaxt parlament seçkiləri ölkəmizin bütün ərazisində keçirilməyib. Ermənistanın işğalı altında olan ərazilərdə seçkilər olmayıb. İnsanlarımız məcburi köçkün olaraq ölkənin müxtəlif rayonlarına səpələnmiş halda səs veriblər. Artıq ölkəmizin həyatında yeni bir dövr başlayıb. Bütün torpaqlarımız işğaldan azad edilib, keçmiş məcburi köçkünlər ardıcıl olaraq dədə-baba yurdlarına qayıdırlar. Həmin ərazilərdə artıq seçki məntəqələri təşkil edilib.

1 sentyabr 2024-cü il tarixdə keçiriləcək növbədənkənar parlament seçkiləri müasir müstəqil, bütövləşən Azərbaycanın demokratik inkişaf tarixinə yeni bir səhifəni yazacaq. Bu gün hər bir azərbaycanlı qürurludur. Çünki müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə edəcək parlament seçkiləri keçiriləcək. Dünyanın diqqəti növbəti dəfə Azərbayana, Qarabağa və Şərqi Zəngəzura yönələcək. Tarixi Zəfərimizdən ötən dörd ilə yaxın müddətdə 4 şəhərə və 4 kəndə sakinlərin qayıdışı, onlara burada ən yüksək şəraitin yaradılması bu torpaqların sahibi olaraq Azərbaycanın malik olduğu imkanların təqdimatıdır.

Başqa bir məsələyə nəzər salaq. Növbədənkənar parlament seçkilərinin sentyabrın 1-də keçirilməsi barədə verilən qərarın həm də başqa bir obyektiv səbəbi vardır. Unutmayaq ki, noyabr ayında ölkəmizdə çox mühüm və əhəmiyyətli beynəlxaq tədbir COP29 keçiriləcək və belə bir ərəfədə seçkilərin keçirilməsi bir sıra çətinliklər yarada bilərdi. Unutmayaq ki, COP29-da 10 minlərlə xarici nümayəndə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq. Bu möhtəbər tədbirin qalib ölkənin adına layiq şəkildə keçirilməsi sıravi vətəndaşdan tutmuş səlahiyyətli şəxslərə dövlət qurumlarından özəl təşkilatlara qədər cinsindən, milliyətindən, dilindən, dinindən aslı olmayaraq hər kəs üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməlidir. Belə olan halda parlament seçkiləri kimi olduqca əhəmiyyətli tədbirin də COP29-la bir araya gətirilməsi praktik olaraq mümkün deyildir. Ona görə ən optimal variant parlament seşkilərini sentyabr ayında yüksək səviyyədə keçirməklə bütün ictimai fəallığı COP29-a yönəltmək olacaq. Bu, ən real variantdır.

Digər bir faktı xatırladaq. Unutmayaq ki, dekabr ayında ölkə üzrə bələdiyyə seçkiləri də keçiriləcək. Bu isə o deməkdir ki, artıq oktyabr

ayında bələdiyyə seçkilərinə start verilməlidir. Belə olan halda parlament seçkilərinin noyabr ayında keçirilməsi faktiki olaraq çətinliklər törədirdi. Başqa sözlə desək, parlament seçkilərinin təbliğat kampaniyasının ən pik vaxtında bələdiyyə seçkilərində namizədlərin irəli sürülməsi və qeydiyyat prosesi aparılacaqdı. Yəni iki seçki kampaniyası faktiki olaraq eyni vaxtda həyata keçirilməli idi. Bu isə təbii ki, problemsiz ötüşməzdi. Odur ki, seçkilərin önə çəkilməsi tamamilə düzgün qərardır. Digər bir tərəfdən isə parlament seçkilərinin iki ay əvvələ çəkilməsi, qanunverici orqanın fəaliyyətinin davamlılığında da heç bir problem yaratmır.

Bəli, sentyabrın 1-də keçiriləcək seçkilərin həm də tarixi əhəmiyyəti var. Çünki Milli Məclisə növbədənkənar seçkiləri əvvəlkindən fərqləndirən ən mühüm cəhətlərdən biri bu seçkilərin ilk dəfə olaraq bütün Respublikamızın ərazisində keçirilməsidir. Artıq öz dədə-baba yurdlarına qayıtmış və seçkilərə qədər doğma yurd yerinə qayıdacaq vətəndaşlarımız sentyabrın 1-də Qarabağda, Şərqi Zəngəzurda səs verəcəklər. Hər şey Azərbaycan dövlətinin inkişafı naminə, hər şey böyük zəfərlərimiz naminə!

Azərbaycanı heç kim və heç nə dayandıra bilmədi

Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dövlətlərin dünyada cərəyan edən qlobal proseslərin önündə getməsində liderlərin xüsusi əhəmiyyəti var. Çünki liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın, dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də xalqın rifahı faktorunda İlham Əliyev LİDERLİYİ amili mövcuddur. Artıq 21 ildən çoxdur ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir.

Məhz Prezident İlham Əliyevin son illər ərzində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar, ən əsası, "Dəmir yumruq" siyasəti ilə 30 illik torpaq həsrətinə 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun qələbəsi ilə son qoyuldu. Qədim yunan filosofu Demokrit

həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Öz gələcəyini ulu öndər Heydər Əliyev siyasi kursunun inkişafında özü qədər inandığı İlham Əliyev yerinə yetirəcəyinə ümüd etdiyini 2003-cü ilin prezident seçkiləri ərəfəsində xalqa müraciətində bildirmişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,8 faiz səsini toplayaraq xalqın yekdil səsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bir sözlə, 15 oktyabr 2003, 15 oktyabr 2008, 9 oktyabr 2013 və 11 aprel 2018-ci il tarixlərində keçirilən prezident seçkilərində xalqımız ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, sabitliyə, əmin-amanlığa, tərəqqiyə, quruculuğa və sözünün üstündə həmişə dayanmış şəxsiyyətə, ən əsas, sözü ilə əməlinin üst-üstə düşdüyü qüdrətli liderə səs verdi. Prezident İlham Əliyev prezident səlahiyyətlərinin icrasına başlayarkən hər bir azərbaycanlının Prezidenti olacağını dedi və bunu öz əməli ilə göstərdi. Azərbaycan Prezidenti çıxışlarında da dəfələrlə qeyd edir ki, bizim sözümüz imzamız qədər keçərlidir.

Bəli, keçərli olduğu qədər həm də dəyərlidir. Çünki Prezident İlham Əliyev imzası Azərbaycan xalqının parlaq gələcəyinin, Azərbaycan dövlətinin yüksəlişinin ifadəsidir. Nəyi, nə zaman və necə etməyi hamıdan yaxşı bilən qətiyyətli və qüdrətli Lideri olan Azərbaycanı heç kim və heç nə dayandıra, öz haqlı yolundan döndərə bilməz. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bizi heç kim, heç nə və heç bir qüvvə dayandıra bilməz!".

Bu, bir həqiqətdir ki, ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı da Prezident İlham Əliyevdir. Sözü ilə əməli hər zaman üst-üstə düşən Prezident İlham Əliyev sosial paketdən olan yeni islahatlar kursu ilə növbəti dəfə təsdiqlədi ki, o, hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Dövlətimizin başçısı hər zaman olduğu kimi, Azərbaycan xalqına verdiyi vədləri sona qədər yerinə yetirməyə qadir, güclü bir Liderdir. 2018-ci il aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Aprel qələbəsinə toxunan Prezident İlham Əliyev demişdir: "Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik".

Bu gün sözü imzası qədər dəyərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının son 21 illik prezidentlik dövründə çoxəsrlik Azərbaycan tarixində xalqımıza Qarabağ Zəfərini bəxş etdi, bizi qalib xalqa çevirdi. Dövlət başçımız bu barədə çıxışlarının birində qəti olaraq bildirmişdir ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Çünki Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sözü ilə əməli üst-üstə düşən, imzası qədər dəyərli olan qalib xplqın qalib Lideri nəyi, nə vaxt və necə etməyi özü bilir. Dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərin rəşadəti ilə əzad edildi, ərazi bütövlüyümüz bərpa olundu. Hazırda işğaldan azad olunmuş torpaqlarda görülən uğurlu bərpa-quruculuq işləri göz önündədir. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" - deyən Ümummilli Lider Heydər Əliyevin ideyalarını gercəkləşdirmək üçün hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev cənablarının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı da məhz tarixi hadisədir. Qələbəmizdən

ötən üç ilin hər ili, hər ayı, hər günü uğurlu, tarixi hadisələr kimi yadda qalır. Hazırda xalqımız Ali Baş Komandanımız, Prezident İlham Əliyevin prezidentlik fəaliyyəti zamanı reallığa çevirdiyi bütün uğurların şahidiyik. Belə ki, 2023-cü il oktyabrın 15-də Ali Baş Komandanımız İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində Azərbaycan Bayrağını qaldırdığı şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin zəfər zirvəsi, xalqın öz Lideri ilə həmrəyliyinin, birliyinin təntənəsi olmaqla bir daha xalqına verdiyi bütün vədləri yerinə yetirmək iqtidarında olmasının hesabatı idi. Xüsusilə də, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə Dövlət bayrağımızı qaldırmaqla bir əsrlik saxtakarlığa son qoyulduğunu bütün dünyaya nümayiş etdirdi. 20 il öncə xalqımız etimad mandatı verərək özünə Prezident seçdiyi İlham Əliyevə inandı, güvəndi və səbirlə gözlədi. Azərbaycan Prezidenti də tam müstəqil siyasəti ilə 20 ildə Ermənistanı dünyada işğalçı dövlət kimi tanıda bildi.

Məhz uzaqgörən Lider kimi Prezident İlham Əliyev ordumuzun gücünü gündən-günə artırdı. Ən müasir silahlar alındı, gənc nəslin vətənpərvərlik ruhunun yüksəlməsi istiqamətində çox mühüm işlər görüldü. Zaman yetişdi, Azərbaycanın səbir kasası daşdı və 2020-ci ildə Vətən müharibəsində İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə Ermənistan diz çökdürüldü. Xalqın yurd həsrətinə son qoyuldu. Dünya Azərbaycanın gücünə, qüdrətinə şahidlik etdi. Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxışı zamanı demişdir: "Bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il". Dövlətimizin başçısı həmin çıxışında üç il əvvəl Şuşada bizim Bayrağımızın qaldırıldığını xatırlatmışdı: "Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər

ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!".

Düşmənlərimiz unutmasınlar ki, bu nailiyyətlər Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır. Bu gün Xankəndidə dalğalanan üçrəngli bayrağımız hər birimiz üçün xoşbəxtlik, fərəh, qürur, ləyaqət, fəxarət salnaməsidir. Dövlət başçımızın söylədiyi kimi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbəni öz qanı-canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

İnformasiya savaşının qalib sərkərdəsi

İnformasiya sərhəd tanımır, onun nə cəbhə xətti, nə də minalanmış əraziləri var. Tarixdən də məlumdur ki, informasiya müharibəsi düşmən mövqedə olan dövlətlərin hər zaman bir-birlərinə qarşı atdığı kəskin, təhlükəli addımlarından biri olub. Bəllidir ki, hər bir ölkə digər ölkələrlə əməkdaşlıq qurmağa can atır. Təbii ki, bu yolla, ilk növbədə, özünü beynəlxalq sistemdə tanıtmağa çalışır. Bu, bir faktdır ki, əgər düşməni olan ölkəyə qarşı informasiya atəşi açılarsa, bu, onun beynəlxalq siyasi aləmdə nüfuzunun təhlükəyə girməsinə səbəb ola bilər. Belə ki, 44 günlük Vətən Müharibəsinin başa çatmasından iki il yarım keçməsinə baxmayaraq, bu gün Ermənistanla ölkəmiz arasında informasiya müharibəsi ən gərgin müstəvidə hələ də davam etməkdədir. Xatırladaq ki, 44 günlük müharibə nəinki döyüş meydanında, həm də informasiya məkanında aparıldı. Dövlət başçısı döyüşlərə komandanlıq etməklə bərabər, eyni zamanda, dünyanın ən nüfuzlu telekanallarına, mətbuat orqanlarına 35-dan çox müsahibə verdi. Bununla ermənilərin həm də informasiya manipulyasiyasına ciddi zərbə vuruldu. Qeyd edək ki, 44 günlük müharibədə məğlub

olan Ermənistanın hərbi-siyasi rəhbərliyi çıxış yolunu öz xalqını yalan məlumatlarla aldatmaqda görürdü. 44 gün ərzində erməni və dünya ictimaiyyətinə feyk məlumatlar verən terrorçu ölkə informasiya savaşında da Azərbaycana məğlub oldu. Əslində, Paşinyan iqtidarı ilk gündən anlayırdı ki, onu ağır və rüsvayçı məğlubiyyət gözləyir. Odur ki, Azərbaycana qarşı başladığı savaşın və Bakının əks-hücum əməliyyatının ilk günlərindən sosial şəbəkələrin fəaliyyətini qadağan elədi, müharibənin gedişi ilə bağlı düzgün məlumat yayan yerli və xarici media nümayəndələrinə qarşı, sözün əsl mənasında, repressiya və təhdidlərə başladı. Azərbaycanın apardığı düzgün və ağıllı informasiya siyasəti Qarabağda baş verən həqiqətlərin dünyaya çatdırılmasına imkan verdi. Azərbaycan Prezidenti İlham Əliyev 44 gün ərzində dünyanın bütün aparıcı mediasına çoxsaylı müsahibələr verdi. Düşmən tərəfindən maliyyələşdirilən, erməni lobbisinin əlində oyuncağa çevrilən jurnalistlərin ən qərəzli suallarına belə cavab verməkdən yayınmayan Prezident İlham Əliyev nə dərəcədə hazırlıqlı olduğunu nümayiş etdirməklə yanaşı, Azərbaycanın haqlı olduğunu, işğala məruz qaldığını, beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğunu sübut edə bildi. Azərbaycanın Ali Baş Komandanının intellektual cavabları ilə müqayisədə isə Paşinyan olduqca miskin durumda görünürdü. Bunu dünyanın aparıcı media nümayəndələri və ekspertləri də etiraf edirlər. Bu gün də Qalib Liderimiz qətiyyətli, nüfuzlu siyasi rəhbərimiz Prezident İlham Əliyev cənablarına beynəlxlaq marağın yüksək olması, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir. Xüsusi ilə vurğulamaq istərdim ki, 44 gün davam edən İkinci Vətən Müharibəsi dövründə bizi qələbəyə aparan əsas faktorlardan biri möhtərəm Prezidentimizin dünyanın 30-a yaxın mediasına çoxsaylı müsahibələr verməsi, bir çox beynəlxalq tədbirlərdə etdiyi çıxışlar və bəyanatları oldu. Bununlada beynəlxalq aləmdə Azərbaycanın xeyrinə dönüş yarada bildi. Hətta qərəzli suallar qarşısında, sözün əsl mənasında, siyasi liderlik dərsi keçən Prezident Əliyev özünün hazırlıqlı siyasətçi olduğunu sübuta yetirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini konkret faktlarla ortaya qoydu və bunu bütün dünyaya çatdırdı.

Müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında isə Prezident İlham Əliyev jurnalistlərin suallarına dörd dildə – Azərbaycan,

türk, ingilis və rus dillərində cavablandırdı. Hətta Böyük Britaniyadan olan jurnalist Aynur Tattersal mətbuat konfransında bildirdi ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb. O, Prezidentin rekorda imza atdığını dilə gətirdi. Bu, Ali Baş Komandanımızın sərrast fikirləri və mükəmməl diplomatiyası idi. Ümumilikdə, Prezident İlham Əliyev müharibə dövründə xarici mediaya verdiyi müsahibələrlə yalnız döyüş meydanında deyil, informasiya müharibəsində də Ali Baş Komandan xarici mediada hücum diplomatiyası sərgiləyərək tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar barədə beynəlxalq ictimaiyyəti məlumatlandırıb. Onun gərgin əməyi və uğurlu informasiya siyasəti sayəsində dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edilib. Dövlət başçısının dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb.

Elə iyulun 21-də Prezident İlham Əliyevin tapşırığına əsasən "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən Şuşa Qlobal Media Forumu öz işini başa çatdırsa da, müzakirə edilən məsələlər, ən əsası Azərbaycan Prezidentinin üç saata yaxın yerli və xarici media nümayəndələrinin suallarını cavablandırarkən Azərbaycanın, regionun gələcəyi, həmçinin dəyişən dünyada baş verən hadisələrlə bağlı söylədiyi fikirləri güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğunun bir daha göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışının mahiyyətində daha çox gələcəklə bağlı hədəflər öz əksini tapdı. Dövlətimizin başçısı Azərbaycanın gələcəyi ilə bağlı fikirlərini belə ifadə etdi ki, prinsip etibarilə strateji inkişaf istiqamətləri bir çox illər bundan əvvəl müəyyən edilib. Yeganə məqam odur ki, həyat öz dəyişikliklərini əlavə edir və dəyişən reallıqları planlarımıza inteqrasiya etməli oluruq. Onu da vurğulamaq istərdim ki, Prezident İlham Əliyevin söylədiyi hər bir fikir, gündəmə gətirdiyi hər bir məsələ, irəli sürdüyü təklif gələcək üçün bir ideya, istiqamətdir. Bütün dövrlər üçün informasiya mübarizəsinin vacibliyini nəzərə alsaq belə tədbirlərin, daha dəqiq desək, beynəlxalq miqyas alan forumların keçirilməsi mütləqdir. Azərbaycan Prezidenti İlham Əliyev cənabları da bu forumun müntəzəm olaraq keçirilməsini və buna birinci

Şuşa Qlobal Media Forumu adının verilməsini təklif etməsi də bu məqsədə xidmət edir.

Prezident İlham Əliyev forumda xarici media nümayəndələrinin Azərbaycanın Qarabağ iqtisadi rayonu ilə bağlı suallarına cavabında artıq hər kəsin Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etdiyini vurğuladı və bildirdi ki, Ermənistan ölkəmizə qarşı hər hansı ərazi iddialarından imtina etsə, sülh sazişinin ilin sonunadək imzalanması mümkündür. Çünki sülhün olmaması bölgə üçün heç də yaxşı ssenari deyil. Sülh müqaviləsi imzalanmayacağı tədbirdə regionda sabitliyi, təhlükəsizliyi təmin etmək olmayacaq. Ali Baş Komandan Şuşadan dünyaya bəyan etdi: "İndi mən yenə də deyirəm, gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq".

Eyni zamanda, cari ilin iyul ayınınn 20-də mətbuatımızın 149-cu ili ilə bağlı Azərbaycanın söz, sənət, igidlik və siyasi qətiyyət nümunəsi olan gözəl Şuşamızda iki gün davam edən 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 80-dən artıq media qurumunun qatıldığı İkinci Şuşa Qlobal Media Forum ənənəsinin yaradılması da mətbuatın cəmiyyətdə roluna verilən dəyərin, onlara diqqət və qayğının göstəricisidir. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin bu qlobal foruma qatılması, ən aktual və gündəmdə mühüm yer tutan məsələlər barədə açıq, konstruktiv müzakirələrdə fəal iştirak etməsi, dünya mediasının önəmli simalarının suallarına təmkinli və aydın cavab verməsi bu beynəlxalq tədbirin əhəmiyyətini birə min artırmış oldu. Ölkə başçısının çıxışında səsləndirdiyi fikirlərə dünyanın müxtəlif aparıcı media qurumlarının geniş yer verməsi də bunun bariz sübutudur. Həmçinin, onu da vurğulamaq lazımdır ki, Azərbaycan Prezidentinin çıxışları hər zaman özündə müxtəlif dairələrə ünvanlanmış mesajlarla zəngin olur. Bu dəfə də dövlət başçısının çıxışı özündə ikili standartlara əsaslanan siyasət həyata keçirən dövlət və qurumlara konkret mesajları ehtiva etmiş oldu. Prezident qeyd etdi ki, natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar, əsasən, Qərbdən qaynaqlanır və bu cür yanaşma artıq gündəlik həyatımıza çevrilir. Amma vaxt keçdikcə Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır.

Prezident İlham Əliyevin də çıxışında qeyd etdiyi kimi, uzun illər ərzində faktların manipulyasiyasının, yanlış narrativlərin qurbanı olmuşuq. Erməni diasporu uzun illər ərzində Azərbaycana qarşı bu istiqamətdə səfərbər şəkildə fəal iş aparıb. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana vaxtaşırı hücumlar edərək yanlış narrativlər yayıblar, ölkəmizi, xalqımızı reallıqdan çox uzaq şəkildə təqdim ediblər. Ancaq necə ki, zaman keçdikcə Qərb siyasi dairələrində reallıq daha çox üzə çıxır və onlar Azərbaycana bərabər tərəfdaş kimi yanaşmağa başlayırlar. "Biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın", – deyə Prezident İlham Əliyev forumda bunu xüsusi vurğuladı.

Prezident çıxışında ənənəvi olaraq 30 illik işğal və 44 günlük İkinci Qarabağ müharibəsinin reallıqlarına, bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin bütün ərazilərimizdə tam bərpa edilməsinə də toxundu. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, şanlı Ordumuzun ardıcıl qələbələri, torpaqlarımızın uzun illərdən sonra işğaldan azad edilməsi ilə tarixə yazılan, böyük zəfərimizlə başa çatan Vətən müharibəsi kimi, ötən ilin sentyabrında ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası da son dərəcə mühüm hadisədir. Biz nə işğalı, nə onun fəsadlarını, nə verdiyimiz qurbanları, nə də Qələbəmizi heç zaman unutmayacağıq. Bunu Azərbaycan Prezidenti forumdakı çıxışında bir daha bəyan etdi. Torpaqlarımızın azadlığı xalq olaraq bizim üçün ləyaqət məsələsi idi və Azərbaycan xalqı tarixi Zəfərimizlə bunu bir daha göstərdi. Xalqımızın bu Zəfəri bir həqiqəti də təsdiqlədi ki, belə məsələlərdə şəxsi emosiyalara, tələskənliklərə, düşünülməmiş qərarlara qətiyyən yer yoxdur.

Azərbaycan Prezidenti forumdakı çıxışında qeyd etdi ki, o zaman sülh və ərazilərimizin azad edilməsi naminə bütün şəxsi emosiyalar kənara qoyulmalı idi. "...İnsan bəzən çətin qərarlar verməli olur və şəxsən mən 17 il idi ki, Prezident idim Qarabağı azad edərkən. Lazım olsaydı, biz daha 17 il gözləyərdik ki, torpaqlarımızı azad edək. O zaman fərqi yoxdur kim prezident olacaqdı... Bu, ləyaqət məsələsi idi və bizim tarixdən dərslərimiz olub. Təkrar edirəm, bəzən biz çətin qərarlar verməli idik ki, əsas məqsədimizə çataq".

Bu fikirlər bir daha təsdiqləyir ki, həlledici məqamlara, proseslərə

düzgün hazırlaşanda, bütün addımları yerli-yerində, öz vaxtında-vədəsində atanda uğur qazanmaq mütləqdir. Azərbaycan bu illər ərzində əsas diqqəti xalqımıza, ölkəmizin inkişafına yönəltdi, hər hansı dedi-qodulara, Avropa Parlamentinin və ya Avropa Şurasının hansısa qərəzli bəyanatlarına fikir vermədi, yalnız öz böyük hədəflərinə fokuslanıb məqsədlərinə nail oldu və bu, yeni gələcəyə doğru yolumuzda da məhz belə olacaq. Biz irəli getməliyik!

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsindən sonra daxil olduğumuz yeni strateji dövrdə də Azərbaycan dövlətinin qarşıya qoyduğu aydın məqsədlər var. Atılan bütün addımlar, irəli sürülən bütün təşəbbüslər Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, bu əsas məqsədi güdür: ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da möhkəmləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək. Prezident bir məqamı da xüsusi qeyd etdi ki, insan bəzən çətin qərarlar verməli olur: "Şəxsən mən Qarabağı azad edərkən 17 il idi Prezident idim və lazım olsaydı, biz daha 17 il gözləyərdik ki, torpaqlarımızı azad edək. O zaman fərqi yoxdur kim Prezident olacaqdı. Yəni, burada insan eqoist olmalı deyil. Bu, mənimlə bağlı deyil. Fərq etməz, lider və Prezident kimdir, bu, ləyaqət məsələsi idi".

Bir sözlə, Şuşa Forumunda Prezident İlham Əliyev ölkəmizə qarşı istiqamətlənən bütün yalanları və saxta mahiyyətli xəbərləri ifşa etdi. SİTAT: "Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir".

Yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzuları ilə bağlı suala cavabında dövlətimizin başçısı bir daha həqiqətləri səsləndirdi. Bəli, bu gün Azərbaycan suverenliyini, ərazi bütövlüyünü təmin etmiş ölkədir. Artıq zəif, sözü eşidilməyən deyil, qüdrətli

Azərbaycan var. Onun güclü Liderinin mütəqil siyasəti sayəsində regionda yeni reallıqlar yaranıb. Amma indi də Azərbaycan haqqında yalan məlumatlar, dezinformasiya formalaşmaqdadır. Məhz buna görə də Prezident İlham Əliyevin təşəbbüsü ilə bu formatda qlobal forum təşkil edilərək dünya mediası vasitəsilə Azərbaycan həqiqətlərinin hər bir yana doğru-düzgün çatdırılmasından ibarətdir. Bir sözlə, etnik təmizləmənin, işğalın və təcavüzün qurbanı ola-ola Qərbin 30 il ərzində haqq səsini eşitməməzliyə vurduğu Azərbaycan bu gün dünyaya həqiqətləri yayır. Artıq dünya birliyi də Azərbaycanla hesablaşır və mövcud reallığı qəbul edir. Çünki Prezident İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı qlobal miqyasda güc kimi təsdiqlədikcə və ölkəmizlə hesablaşıldıqca, hər kəs reallıqlara daha açıq gözlə baxmaq məcburiyyətində qalır. Əsl reallıqlar da Azərbaycanın hər zaman haqlı olduğunu sübuta yetirir.

Beləliklə, bütün dünya şahiddir ki, döyüş meydanının qalibi olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalibdir. Ən mühümü odur ki, Azərbaycan Prezidenti həm də erməni təbliğatına düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu, Ermənistanın, dünya ermənilyinin, həm də erməni lobbisinin Azərbaycana qarşı qərəzli informasiya mühiti yaratmaq xülyası iflasa uğradı. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və soydaşlarımız öz el-obalarına geri dönəcəklər. Budur, Ali Baş Komandanımızın diplomatik siyasətinin nəticəsi! Budur Güclü Ordumuzun gücü, mübariz, igid əsgərlərimizin rəşadəti! Bu nailiyyət və qələbələr həm də Xalq-Ordu Birliyinin, orduya olan inamın Qələbəsidir! Qarabağ Azərbaycandır! Bir sözlə, dövlət başçımızın həm hərb meydanında, həm də informasiya savaşında bu nüfuzunun qazanılması qalib ölkənin informasiya savaşının sərkərdəsi – Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Ən əsası isə, informasiyalarda diqqətə çatdırılır ki, sülh, sabitlik və inkişaf tərəfdarı olan Azərbaycan mehriban qonşuluq münasibətləri üçün bütün səylərini israrla davam etdirir.

Türk dünyasının inkişafına yeni nəfəs verəcək Zəngəzur dəhlizi

"Zəngəzur dəhlizi mütləq açılacaq: Ermənistan istəsə də, istəməsə də! Çünki Zəngəzur dəhlizinin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub". Prezident İlham Əliyev hələ illər öncəki çıxışlarında da bildirirdi ki, tarixi torpaqlarımızı unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Zəngəzurun qədim Azərbaycan ərazisi olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "Zəngəzur 1920-ci ildə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. 20-ci əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən, Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar".

Beləliklə, Prezident İlham Əliyev Şuşanın azad olunmasında olduğu kimi, Zəngəzur dəhlizini bərpa etməklə də strateji hədəfə çatır. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək. Ümumilikdə, Zəngəzur dəhlizi türk dünyasının inkişafına yeni nəfəs verəcək. Bu dəhliz, həmçinin Qərbdən Şərqə uzanan ticarət yolunun mayakına çevriləcək. Bu səbəbdən də Zəngəzur dəhlizi Azərbaycanın milli maraqlarına tam cavab verir. Ölkə rəhbəri deyib: "Azərbaycan xalqı illər əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır. Xalqımız tam əmindir ki, məhz belə də olacaq".

Prezident İlham Əliyev çıxışlarında Zəngəzur dəhlizinin çox mühüm regional və beynəlxalq əhəmiyyəti olduğunu vurğulamışdır. Kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin bərpa edilməsi nəticəsində Zəngəzur dəhlizinin bölgə və beynəlxalq yükdaşımalarında mühüm həlqə olacağdır.

Həmçinin, indi tarixi Azərbaycan torpağı olan Zəngəzur türk dünyasını birləşdirən bir körpü olacaq. Bu yol bir əsrdən artıq ayrı qalan ərazilərimizi bir-birinə bağlamaqla yanaşı, həm də Avropa ilə Asiya arasında əsas tranzit xəttin yaranmasını təmin edəcək. Bu tranzit xəttinin

Azərbaycandan keçməsi ölkəmizin həm region, həm də dünya səviyyəsində geopolitik mövqeyinə çox ciddi bir töhfə olacaq. Zəngəzur dəhlizi icra edildikdən sonra Çindən yola çıxan yükün qısa bir müddət ərzində ölkəmiz vasitəsilə Avropaya çatdırılması təmin ediləcək.

Zəngəzur dəhlizinin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub. Belə ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında Zəngəzur dəhlizinin yaradılması öz əksini tapmışdır. Bundan əlavə, 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli Bəyanatda da Zəngəzur dəhlizinin açılması və istismara verilməsi də nəzərdə tutulmuşdur. Bu bəyanat Prezident İlham Əliyevin qətiyyətli, prinsipial siyasəti, əzm və iradə nümayiş etdirməsi, düşünülmüş addımlar atması sayəsində nail olduğumuz böyük Qələbəmizin rəsmi şəkildə təsdiqi deməkdir. Zəngəzur dəhlizinin açılması Ermənistanın istəyi ilə yox, labüd və vacib məsələ kimi təsdiq olunub. Zəngəzur dəhlizi ilə bağlı məsələdə Azərbaycanın, Rusiyanın və Avropa İttifaqının mövqeləri üst-üstə düşür. Əslinə baxanda, Zəngəzur dəhlizinin açılması Ermənistan üçün daha vacibdir. Çünki bu illər ərzində Ermənistanın yürütdüyü işğalçılıq siyasəti bu ölkəni dalana çevirib. Bu blokadanın yaradılması, təbii ki, Azərbaycanın yürütdüyü düşünülmüş siyasətin nəticəsidir. Azərbaycan və Türkiyə sərhədlərini Ermənistanın üzünə bağlayıb. O cümlədən iştirak etdiyimiz bütün beynəlxalq layihələri Ermənistandan yan keçirmişik. Düzdür, bu layihələrimizi həyata keçirərkən Ermənistanı kənarda saxlamağımızla əlaqədar çoxlu təzyiqlərlə üzləşmişik. Amma Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və iqtisadi gücümüz müstəqil siyasət yürütməyimizə və öz istəyimizə uyğun bütün layihələrin icrasına imkan verib.

Bir sözlə, Ermənistan başa düşmür ki, Zəngəzur dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri müəyyən olunmuş qaydada yerinə yetirməsə, Azərbaycan Laçın dəhlizini bağlamaq məcburiyyətində qalacaq. Azərbaycan dəhlizlərlə bağlı belə balanssızlığa dözmək niyyətində deyil. Ən əsası, rəsmi İrəvan bilməlidir ki, Zəngəzur dəhlizinin tezliklə açılması həm də regionda sülhün etibarlılığı üçün fundamental amillərdən biri sayılır. Ermənistan nəzərə almalıdır ki, Azərbaycan dəfələrlə düşmənçiliyə son qoymağa hazır olduğunu bəyan etmiş və bütün qonşu dövlətlərin

iştirakı ilə regionda inkişafın və əməkdaşlığın təmin olunduğu reallığı qəbul etməyə çağırır. Bu kontekstdə Azərbaycan regionda bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması üçün əməli addımlar atır. Bunu Ermənistanda da düzgün qiymətləndirmək, əməkdaşlıq üçün adekvat addımlar atmaq lazımdır. Əks halda, Ermənistan ən çox uduzan tərəfə çevriləcək.

"Münaqişə artıq keçmişdə qaldığından azad olunmuş ərazilərdə irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir. Azərbaycan müasir şəhərsalma üsulları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq edərək, sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür və təkcə bu il bu məqsədlə 1,3 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb". Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxışı zamanı onu da vurğulayıb ki, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi regionumuz üçün yeni imkanlar yaradacaqdır.

Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır.

Bir sözlə, Prezident İlham Əliyevin düşünülmüş uzaqgörən siyasəti Azərbaycanı regionun ən vacib aktoruna çevirib. 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyimiz "Dəmir yumruq" əməliyyatı ilə bu reallığı da Ermənistana məcbur qəbul etdirmişik. Əgər Ermənistan bu reallığı təsdiq etməsəydi, tamamilə məhv ola bilərdi. Yaratdığımız yeni reallıq Ermənistanla Azərbaycan arasındakı bütün kommunikasiyaların selektivlik etmədən eyni vaxtda paralel açılmasıdır. Ona görə də bu məsələ gündəliyimizdə ən aktual məsələlərdəndir.

Beləliklə, Zəngəzur dəhlizinin açılması və sülh sazişinin imzalanması üçün işlərin görülməsi zərurətdir və bunun alternativi yoxdur.

Azərbaycan öz ərazi bütövlüyünü döyüş meydanında, sonra da masa arxasında təmin edib. Gələcək isə sülh və qonşuluq münasibətləri üzərində qurulmalıdır. Dünya tarixində ən böyük qanlı müharibələr də masa arxasında sonlanıb. Gələcək dinclik, təhlükəsizlik və əməkdaşlıq üzərində qurulmalıdır. Bunun alternativi yoxdur və bu reallığı Ermənistan nə qədər tez qəbul etsə, onların xeyrinədir.Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsilə birləşəcək. Bu dəhliz Vətən müharibəsində qazandığımız tarixi uğurlarımızdan biri olmaqla, bu Azərbaycan Prezidenti İlham Əliyevin növbəti tarixi uğurudur.

"Əkinçi"dən başlanan çətin və şərəfli yol

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanda milli mətbuatımızın keçdiyi 149 il, əslində, tək mətbuatın deyil, bütövlükdə, Azərbaycan cəmiyyətinin bayramıdır. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyevin mətbuatımızın yubileyinin ümummilli səviyyədə qeyd olunması ilə bağlı imzaladığı sərəncamlar bir daha Azərbaycanda mətbuata dövlət qayğısının daha bir parlaq təzahürü kimi dəyərləndirilməlidir. Demokratik ruhlu, milli qayəli Azərbaycan mətbuatı yarandığı ilk gündən milli-mənəvi dəyərlərimizin daşıyıcısı, fəal təbliğatçısı və qoruyucusu kimi məsul bir missiyanı yerinə yetirib. Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası ötən 149 ildə çətin, lakin şərəfli yol keçib. "Əkinçi" qəzeti maarifçilik ideyalarını özünə yenilməz bayraq etmiş ilk Azərbaycan mətbuat nümunəsi idi. Bu da səbəbsiz deyil. Belə ki, XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının və maarifçilik ideya cərəyanının aparıcı qüvvələri, necə deyərlər, cərəyanın təməl daşını qoyanlar, məhz Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi idi. Zərdabinin nəzərində maarifçilik cəmiyyətin tərəqqiyə doğru inkişafının, cəmiyyəti bütün bəlalardan xilas etməyin yeganə vasitəsi idi. O, anadilli mətbuatı milli mövcudluğu qoruyub-saxlamaq yolunda bir vasitə kimi görürdü. Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası müxtəlif dövrlərdə ağır sınaqlara məruz qaldı, amma, milli dilin yaşaması naminə hər çətinliyə dözdü və tutduğu şərəfli yoldan dönmədi.

“Heç olmaz ki, doğru söz yerdə qalsın” – deyən Həsən bəy Zərdabi el-obanın zülmət içində boğulduğu bir vaxtda ona əl uzatmaq, onun yolunu elm, maarif çırağı ilə işıqlandırmaq, doğru yol göstərmək üçün “Əkinçi”ni yaratdı. “Əkinçi” Azərbaycan dilində əsl milli demokratik və xalq mətbuatının ilk təməl daşını qoydu. 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 nömrəsi çıxan “Əkinçi” millətin aynası oldu, Azərbaycan jurnalistikasının bayraqdarına çevrildi. Sonrakı illərdə görkəmli ziyalılar tərəfindən nəşr edilən “Ziya”, “Kəşkül”, “Şərqi-rus”, “İrşad”, “Molla Nəsrəddin” kimi qəzet və jurnallar “Əkinçi”nin ənənələrini davam etdirdi.

Ötən dövrdə zəngin və şərəfli yol keçən Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsini yaşayır. Şübhəsiz ki, mətbuatımıza dövlət qayğısı, məhz 1970-80-ci illərdə özünün yüksək səviyyəsinə çatmışdı. Bu tendensiya Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə ali siyasi hakimiyyətə gəldiyi 1993-cü ildən sonra da davam etdi. 1995-ci il noyabrın 12-də - müstəqil dövlətimiz özünün ilk Konstitusiyasını qəbul etdikdən, yeni parlament seçildikdən sonra Ulu Öndər ölkədə tele-radio yayımının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə yeni, müasir avadanlıqların alınmasına və quraşdırılmasına göstəriş verdi. Qafqazda, ilk olaraq, Azərbaycanda sovet dönəmindən qalan teleötürücü qurğular dəyişdirildi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, söz, məlumat və fikir azadlığının təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı ilə kütləvi informasiya vasitələri üzərində senzura ləğv olundu, bu sahənin inkişafını stimullaşdıran bir sıra zəruri tədbirlər həyata keçirildi. Bununla da, ölkəmizdə demokratik proseslərin inkişafına xüsusi önəm verildiyi bir daha təsdiqləndi. Ulu Öndər 27 mart 2000-ci ildə imzalanan “Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi” haqqında Fərmanla ölkəmizdə demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli şəkildə qeyd olundu. KİV-lərlə əlaqəni kəsməyən, daim jurnalistlərin yanında olan, mətbuatla işləmək mədəniyyəti nümunəsini göstərən Ulu Öndər Heydər Əliyev 2001-ci il dekabrın 18-də

ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərlərini qəbul etdi, mətbuatın problemlərini müzakirə etdi. Həmin görüşdən sonra bəzi problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi, onlara kreditlər ayrıldı, mətbəələrə olan borcları "dondurulduu". Dövlət başçısının mətbuata bu cür dost münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Ulu Öndər Heydər Əliyev 2002-ci il martın 22-də "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

Ümummilli lider Heydər Əliyevin mətbuatın inkişafına dövlət qayğısı siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Demokratik inkişafı azad mətbuatsız təsəvvür etməyin mümkünsüzlüyünü, məsuliyyətli medianın yalnız qanunların işlədiyi ölkələrdə inkişaf etdiyini dönə-dönə vurğulayan ölkə başçısı İlham Əliyev Azərbaycan mətbuatının tam azad və müstəqil mətbuat kimi fəaliyyət göstərməsi üçün son illərdə bir sıra qanun və sərəncamlar imzalamış, Medianın İnkişafı Agentliyinin yaradılması, "Media haqqında" Qanun isə Azərbaycan mediasında yeni mərhələnin başlanğıcı olmuşdur. Dünyada informasiyanın artdığı, əksər hallarda dezinformasiyaların səhih məlumatları üstələdiyi bir vaxtda Azərbaycan mediası öz nüfuzunu və peşəkarlığını daha da artırdı. İnformasiya cəbhəsində öz mövqeyini möhkəmləndirdi. 44 günlük Vətən Müharibəsi həm də media üçün bir sınaq dövrü oldu və Azərbaycan mediası informasiya müharibəsində də öz üstünlüyünü qorudu. Düşmənin təxribatlarının qarşısı yüksək peşəkarlıqla alındı.

Biz 44 günlük Vətən Müharibəsində informasiya cəbhəsində də fəallıq nümayiş etdirdik. Erməni tərəfi dezinformasiya siyasətini davam etdirirdi. Ermənipərəst mövqedən çıxış edənlər, qərəzli yanaşma sərgiləyənlər də var idi. Bununla belə, dünya Qarabağda baş verənlərlə bağlı ən operativ və dəqiq məlumatları Azərbaycandan alırdı. Bu mənada Böyük Qələbəmizdə medianın rolunu da xüsusi qeyd etməliyik. Bu gün dünyada güc amili həm də informasiya mübarizəsində əldə edilən üstünlüklə xarakterizə olunur. Bu mənada döyüş meydanında savaş bitsə də, informasiya cəbhəsində mübarizə bitməyib və görünən odur ki, uzun müddət davam edəcək. Təsadüfi deyil ki, Türk dünyasına qarşı aparılan

dezinformasiya kampaniyasını zərərsizləşdirmək istiqamətində səylərin birləşdirilməsinin də təşəbbüskarı Azərbaycandır. Azərbaycan-Türkiyə Ortaq Media Platforması bu baxımdan çox yaxşı nümunədir. Təcrübə göstərdi ki, postmüharibə dövründə də ortaq platforma fəal olmalıdır.

Prezident İlham Əliyevin dediyi kimi, mətbuat cəmiyyətin məlumatlandırılması və maarifləndirilməsi sahəsində vacib rol oynayır. Mətbuatın fəaliyyəti hər bir insanı maraqlandırır və insanların məlumat əldə etmə mənbəyi olaraq böyük əhəmiyyət kəsb edir. Mətbuatın qərəzsiz olması, məlumatların obyektiv və doğru şəkildə təqdim edilməsi vacibdir. Bu, cəmiyyətin məlumatlanmasını və ictimaiyyətin doğru qərarlar verməsini təmin edir. Ölkədə həyata keçirilən mətbuat islahatlarının və müasir media texnologiyalarının tətbiqinin nəticəsidir. Azərbaycan mətbuatı müasir dövrdə daha peşəkar, obyektiv və effektiv fəaliyyət göstərməkdədir. Prezident İlham Əliyevin 2005-ci ildə Azərbaycan milli mətbuatının 130, 2010-cu ildə 135, 2020-ci ildə isə 145 illik yubileylərinin keçirilməsi ilə bağlı müvafiq sərəncamlar imzalaması, yubiley münasibətilə mətbuat işçilərini təltif etməsi, onlara fəxri adlar verməsi jurnalistika tariximizə, milli-mənəvi dəyərlərimizə, kütləvi informasiya vasitələrimizə verilən yüksək dəyərin göstəricisidir.

Bu gün Azərbaycan mətbuatı tamamilə yeni bir mərhələdə inkişaf edir. Ölkənin əksər media qurumları Azərbaycan dövləti tərəfindən dəstək görür və müstəqil şəkildə inkişaf edərək milli və ictimai maraqlara xidmət edir. Azərbaycan mediası, xüsusən də bir sıra xəbər portalları dünyada tanınır. Dövlət başçısının Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamları əsasında jurnalistlər üçün 3 yaşayış binalarının tikilməsi bir daha deyilənlərin göstəricisidir. Bütün bunlar göstərir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Lakin bu uğurlara hələ də kölgə salmağa çalışan anti-Azərbaycan dairələr yenə də böhtanlarından qalmırlar. Ancaq həqiqət göz qabağındadır və bu qüvvələr nə qədər cəhd göstərsələr də, bütün planları iflasa məhkumdur. Çünki bu gün ölkəmizdə bütün sahələrdə həyata keçirilən uğurlu siyasətlə yanaşı, milli təəssübkeşlikdən çıxış edən, dövlətçiliyə və xalqa xidməti rəhbər tutan

Azərbaycan mətbuatı onların qarşısında sarsılmaz sipərdir. Beləliklə, bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Hazırda Azərbaycan tək Cənubi Qafqazın lider dövləti olmaqla yanaşı, eyni zamanda, dünyanın nüfuzlu ölkələri sırasında dayanır. Onun yaratdığı reallıqlar milli mətbuatımızın qarşısında da yeni vəzifələr qoyur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları da öz çıxışlarında bu məsələyə xüsusi önəm verərək deyib: "Bu gün Azərbaycan mətbuat müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndilirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır". Bir sözlə, bütün bunlar göstərir ki, Azərbaycan dövləti milli mətbuatımıza daim diqqət göstərir və onun inkişafına yönələn tədbirlər həyata keçirilir.

Son 21 ildə qələbələrdən – qələbələrə

Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayır ki, Silahlı Qüvvələrimizin modernləşdirilməsi istiqamətində işlər plan üzrə gedir.

Bəli, iyirmi il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44

gündə son qoymaq mümkün oldu. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyası bu gün Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.

Məhz bu gün müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin son 20 illik hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Prezident İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradıldı. Bu gün Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.

Rəşadətli Ordumuz öz gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Ali Baş Komandan, Prezident İlham Əliyev çıxışlarında dəfələrlə

vurğulayıb ki, "Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq, biz daha da möhkəm orduya malik olacağıq".

Bəli, bu gün Azərbaycan regionda ən güclü orduya malik ölkə statusunu daşıyır. Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından Azərbaycan nümunəvi dövlət olaraq qəbul edilir. Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu nəticəsində Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən ordu kimi formalaşıb. İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra isə ordumuzun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub. Məhz bu uğurlu siyasətin nəticəsi olaraq artıq Silahlı Qüvvələr Gününü qalib xalq, güclü ordu kimi qeyd edirik. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi. Bu, Prezident İlham Əliyev tərəfindən son 21 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir.

Bəli, bu qələbə Prezident İlham Əliyevin "nəyi nə vaxt, necə etmək lazım olduğunu bilərək, "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsidir. Çünki dövlət başçımız iqtisadi sahədə əldə etdiyimiz gücü Ordumuzun müasir texnologiyalarla təchiz edilməsinə və peşəkarlığının artırılmasına yönəltdi. Hərbçilərin mənzil-məişət şəraiti yaxşılaşdırıldı, hərbçilərimiz beynəlxalq təlimlərə qatıldılar. Son 20 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "Dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı

imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil. Bəli, Prezident İlham Əliyevin nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi siyasətin nəticəsi budur. Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Bir sözlə, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Prezident İlham Əliyev Hərbi Qənaət Parkının açılışında çıxış zamanı da ordumuzun gücünü qeyd edərək bildirmişdir ki, danışıqlar masasında prinsipiallıq göstərərək, güclü ordu yaradırdıq: "Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq... Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq. Buna nail olmaq üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi".

Beləliklə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu.

Bir sözlə, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. O, Azərbaycanın

ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi və bu zəfərlə yürütdüyü 20 illik - "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin siyasətinin doğru olduğunu Azərbaycana və beynəlxalq ictimaiyyətə sübut etdi. Qətiyyətli Lider, müzəffər ordu və yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır. Çünki bu uğurların, qazanılan zəfərlərin arxasında xalq-ordu birliyi dayanır. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

Düşünülmüş və məqsədyönlu siyasət daim ölkənin qarşısında yeni imkanlar yaradır

Azərbavycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının qəti mövqeyi: "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".

Dövlətimizin başçısının bu mövqeyi Azərbaycanın keçdiyi inkişaf yolunun aydın mənzərəsini yaradır. Düzgün qurulan, düşünülmüş və məqsədyönlu siyasət daim ölkənin qarşısında yeni imkanlar yaradır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, öz iqtisadi strategiyasını dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun müəyyənləşdirməsi, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın üzləşdiyi hər bir iqtisadi çətinlikdən uğurla çıxmasını təmin edir. Azərbaycan dayanıqlı inkişafı ilə daim dünyanın diqqətindədir. Ümummilli Lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi bütün dövrlər üçün aktuallığını qoruyur. Ulu Öndərin iqtisadiyyatın inkişafında neft amilinə önəm verməsi bugünümüzə və gələcəyimizə xidmət edən addımlar sırasındadır. Yeni neft strategiyasının uğurları hazırda Azərbaycanın bütün bölgələrinin, o cümlədən işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulmasında, infrastrtuktur layihələrinin uğurlu icrasında

özünün aydın ifadəsini tapır. Azərbaycanın qısa müddətdə sabitlik diyarı kimi tanınması, normal iqtisadi mühitin yaradılması böyük investisiyalar məkanına çevrilməsini şərtləndirdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 310 milyard dollardır ki, bunun da 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bugünkü reallıqlarımız Azərbaycanın qarşıya qoyduğu bütün hədəflərə yüksək səviyyədə çatdığını təsdiqləyir.

"Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir", - deyən Prezident İlham Əliyev düzgün qurulan siyasətin daim uğurların davamlılığına yol açdığını təsdiqləyir. Bu gün Azərbaycanın keçdiyi inkişaf yolunu təhlil edərkən "Biz nə etdik?" sualına cavab ölkəmizin bugünkü reallıqlarıdır. Bir də tarixi inkar etməklə, öz maraqları naminə ədaləti və beynəlxalq hüququ arxa plana keçirməklə nəyəsə nail olmaq mümkün deyil. Qarabağ münaqişəsinin tarixin arxivinə atılmasından sonra da Azərbaycan qərəzli yanaşmalarla, qeyri-ciddi təbliğatla üz-üzə qaldı. Bunun da səbəbi bəllidir. Cənab İlham Əliyev bu cəhdləri belə əsaslandırır ki, Qarabağı azad etməyimizi də ona görə bizə bağışlamırlar ki, onların əlindən bu rıçaq çıxdı: "Azərbaycan, məcazi mənada desək, bu qarmaqdan çıxdı. Artıq bu amil yoxdur. İkinci Qarabağ müharibəsindən sonra status və Qarabağ ermənilərinin hüquqları mövzularını ortaya atmışdılar ki, yenə də burunlarını oraya soxa bilsinlər. Beynəlxalq missiyanın oraya göndərilməsini təkidlə tələb edirdilər ki, yenə də vəziyyəti qarışdırsınlar. O rıçaq da əllərindən çıxdı. Ona görə indi yeni bir mövzu axtaracaqlar".

İşğalçı dövlətə havadarlıq edənlər indi də belə bir ittiham səsləndirirlər ki, guya, Azərbaycan Ermənistana hücum etmək istəyir. Dövlət başçısı İlham Əliyev çıxışlarında bu məqamı xüsusi qeyd edir ki, lap axıra qədər gedərdik: "Cermux şəhəri – bizim keçmiş əsl adı İstisu olan şəhər gözümüzün qabağında idi. Kim idi bizi saxlayan? Bizim niyyətimiz yox idi. Bizim niyyətimiz sərhədimizi mühafizə etmək idi. Elə təpələr əlimizdə olmalı idi ki, biz ermənilərin planlarını gözümüzlə görək. Bu mövzu ilə bağlı bir qərbli qonağımla söhbət əsnasında mənə dedi ki, axı sizin peykiniz var, siz peykdən də görə bilərsiniz. Deyirəm, mənim peykim mənim gözlərimdir. Mən gözlərimlə görməliyəm. Bir dənə də nahaq iş

görməmişik, bu əsasdır, əsas amildir. İkincisi də gücümüz, cəmiyyətimizin birliyi, xalqımızın birliyidir və bu birlik olmasaydı, biz heç vaxt müharibəni uda bilməzdik... Çünki bu Zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, heç bir təpəni də sən götürə bilməzsən".

Bu gün ölkəmizin demokratik inkişafı göz qabağındadır. Yeni dövrə qədəm qoyan Azərbaycanın bu mərhələnin bir zərurət kimi qarşıya qoyduğu 7 fevral növbədənkənar prezident seçkilərində nümayiş etdirdiyi demokratiya təcrübəsi ölkəmizə qarşı aparılan qərəzli təbliğatlara tutarlı cavabdır. Bu gün Azərbaycan sülh və təhlükəsizliyin təmin olunmasını istəyir. İkinci Qarabağ Müharibəsi haqqın, ədalətin kimin tərəfində olduğunu bir daha təsdiqlədi. Ölkə rəhbərinin qeyd etdiyi kimi, Vətən Müharibəsi həqiqət anı oldu. Kimin haqqın, ədalətin, kimin isə şərin, işğalçı dövlətin yanında olduğu bir daha təsdiqləndi. Müharibə gücümüzü, əyilməz iradəmizi, birliyimizi, qələbə rəmzinə çevrilən "dəmir yumruq" öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq.

Tarixi Zəfərimizdən ötən üç ildən artıq dövrdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu daha da artdı. Azərbaycan ən yüksək tribunalardan haqlı mövqeyini beynəlxalq ictimaiyyət çatdırdı. Tarixi Zəfərimizdən sonra əsas hədəf ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi idi. Cənab İlham Əliyev bütün çıxışlarında bildirir ki, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirdik. Lakin dünya gücləri yenə də susmağa üstünlük verdi. Təbii ki, vəziyyət bu şəkildə davam edə bilməzdi. Azərbaycan Silahlı Qüvvələrinin ötən ilin 19 sentyabr tarixində həyata keçirdikləri birgünlük antiterror tədbirləri nəticəsində ərazilərimiz separatçılardan təmizləndi, suverenliyimiz tam bərpa edildi. Dövlət başçımız İlham Əliyevin söylədiyi kimi: "Bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır".

Hazırda Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də

şanlı Qələbəmiz dayanır. Güclü Azərbaycan beynəlxalq müstəvidə daha böyük hədəflər uğurunda əzmlə çalışır. Güclü Liderlə yeni uğurlara doğru, yolun açıq olsun, Azərbaycan!

Bir günlük səfər, yüzillik xidmət... regionların inkişafına olan diqqətin əyani təzahürüdür

Artıq 4 ildir ki, Azərbaycan xalqı tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayır. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüzminlərlə soydaşımız məcburi köçkünlük yükündən azad oldu. Artıq tarixi salnamələrimizə qızıl hərflərlə həkk olunacaq daha bir möhtəşəm məqamı, dədə-baba yurdlarımıza Böyük Qayıdışı yaşayırıq.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş torpaqlara ardıcıl səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin qoyulması həm siyasi, iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Prezident İlham Əliyev çıxışlarında, müsahibələrində daim diqqəti hazırkı dövrün əsas hədəfi olan işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə yönəldir. Hazırkı dövrün reallığı budur ki, azad edilmiş torpaqlarda həyat bərpa olunur. Artıq 4 şəhər və 4 kənd bərpa edilib və keçmiş köçkünlər oraya qayıtmışlar. 8 mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və bu ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın sentyabrın 2-də Kəlbəcərə səfəri çərçivəsində rayonun Tərtər çayı üzərində yerləşən "Azərenerji" ASC-nin 22,5 MVt gücündə olan "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak etdilər, Xudavəng monastır kompleksində oldular. Prezident İlham Əliyev Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoydu. Cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi,

Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış oldular, İstisu Mineral su zavodunun açılışında iştirak etdilər. Dövlət başçısı İlham Əliyev Kəlbəcər rayonunda "Azərenerji" ASC-nin 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) açılışında iştirak etdi və SCADA sistemi vasitəsilə Göygöl rayonunda yeni tikilən 4,1 MVt gücündə "Toğanalı" KSES-in açılışını etdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış oldular. Ölkə Prezidenti, həmçinin İstisu qəsəbəsinin təməlini qoydu.

Bir sözlə, bir günlük səfər zamanı yeni uğurların təməlinin qoyulması yüz ilin xidməti kimi dəyərləndirilməlidir. Belə ki, bugünümüzün reallıqları ilə 2021-ci ilin 16 avqust tarixində dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcərə ilk səfərlərini müqayisə etdikdə böyük inkişafı, görülən işlərin miqyasının nə qədər böyük olduğunu görürük. Həmin səfərdə "İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirmək, azad edilmiş torpaqlarda möhkəmlənmək, Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir" söyləyən cənab İlham Əliyev bildirmişdi ki, yenidənqurma, bərpa işlərinə artıq start verilib. Bəli, bu gün işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Qarabağa və Şərqi Zəngəzura yeni nəfəs gəlir, insanlar doğma yurdlarındadır.

Bir sözlə, bir günlük səfər zamanı görülən işlər Qalib Lider, Prezident İlham Əliyevin yüz illik xidmətinin təsdiqi, "Qarabağda cənnət yaradacağıq" sözü ilə əməlin bir olmasının göstəricisidir. Ümumilikdə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, az bir zamanda Qarabağ və bütün işğaldan azad olunmuş ərazilər dirçələcək, bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarına qayıdıb, yaşayıb-yaradacaqlar. Ancaq mənfur düşmən unutmamalıdır, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanlar öz el-obalarına geri dönəcəklər. Artıq keçmiş məcburi köçkün soydaşlarımız

öz el-obalarına geri dönməkdədilər. Bugünün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

Unudulmaz tarix – 20 Sentyabr Dövlət Suverenliyi Günü!

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyəti sayılır. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməyib. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir. Bugünlərdə xalqımız daha bir qürurlu bayram gününü qeyd edir. Bu il sentyabrın 19-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə hər il sentyabrın 20-də qeyd olunacaq unudulmaz tarix – Dövlət Suverenliyi Günü təsis edilib. Bu qərar Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlanan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir. Gəlin birlikdə bu qürur, şərəf dolu zəfər tariximizə qısaca nəzər salaq.

44 günlük zəfər müharibəsindən sonra doğma Xankəndidə yuva salmış erməni separatçılarının tərksilah edilməsi, Azərbaycanın bütün ərazilərinin erməni terror qruplaşmalarından təmizlənməsi vacib məsələ kimi qarşıda dayanmışdı. Çünki Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri mövcud idi. Halbuki, məlum üçtərəfli Bəyanata əsasən, Qarabağ ərazisindəki erməni yaraqlıları 3 il əvvəl tərksilah edilməli idilər. Azərbaycan işğala məruz qalan tərəf olsa da, Qarabağda baş verən gərginliyin aradan qaldırılması, azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi. Təəssüf ki, ölkəmizin bu tip humanist

çağırışlarının əvəzində erməni silahlı qüvvələri Qarabağda sayını artırmaqla, yeni silahlar alıb təxribatlar törətməklə məşğul oldular. Hətta vəziyyət o həddə çatmışdı k,i Qarabağda separatçılar müstəqillik iddialarından əl çəkmir, özlərinin qondarma "president"lərini seçir, qondarma "parlament"lərinin adından dövlətimizə qarşı sərsəm bəyanatlar verirdilər.

Həmin günlərdə, sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olub. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olub və yaralanıb.

Bütün bunlar isə özünü təmkinli aparan Azərbaycan xalqının və Müzəffər Ali Baş Komandanımızın səbir kasasını daşdırdı. Nəticədə Qarabağdakı antiterror tədbirləri qaçılmaz oldu. Sentyabrın 20-də separatçılar ağ bayraq qaldıraraq təslim olduqlarını elan etdilər. Xüsusilə Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı.

Dövlətimizin başçısı, Ali Baş Komandan Prezident İlham Əliyev öz çıxışlarında tarixi qələbəmizə xor baxanlara, Azərbaycana qarşı düşmən mövqeyi tutanlara xəbərdarlıq etdi: "Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

Antiterror tədbirlərindən dərhal sonra isə dəfələrlə Azərbaycan nümayəndələri ilə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri Yevlax şəhərində görüşməyə məcbur oldular. Görüşlərdə separatçı rejimin ləğvi, Qarabağda yaşayan erməni sakinlərin

reinteqrasiya məsələləri müzakirə edildi. Eyni zamanda, Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olmaq, regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanları yaradıldı. 2023-cü il sentyabrın 28-də Qarabağın separatçı rejimin rəhbəri Samvel Şahramanyan qondarma rejimin ləğvi ilə bağlı sənəd imzaladı. Bununla da 24 saatdan az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu tam şəkildə tərksilah edilərək ölkəni tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi, Azərbaycan hüquq-mühafizə orqanlarının həyata keçirdiyi tədbirlər nəticəsində separatçıların əsas rəhbərləri həbs olundu. Beləliklə, antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində dövlət suverenliyi və Konstitusiya quruluşu bərpa edildi.

Unutmayaq ki, Sentyabrın 20-nin Dövlət Suverenliyi Günü kimi təsis edilməsi təkcə Azərbaycan xalqının və Ordusunun tarixi xidmətlərinin etirafı deyil, həm də ölkənin müstəqil və suveren dövlət kimi gələcək inkişafının rəmzidir. Bu əlamətdar tarix həm də xalqımızın uğurunda mübarizə aparmağa və qurban verməyə hazır olduğunu göstərən ən yüksək dəyərdir. Prezident İlham Əliyev bir neçə gün bundan öncə Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündə Dövlət Suverenliyi Günü ilə bağlı öz fikirlərini diqqətə çatdırıb. SİTAT: "Bu günü (Dövlət Suverenliyi Günü – red.) biz birlikdə Xankəndidə qeyd edirik və əminəm ki, 20 Sentyabr bundan sonra Azərbaycanda geniş qeyd ediləcək".

Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa edib. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi", – dövlət başçısı vurğulayıb.

Suverenliyimizi təmin etdiyimizə görə artıq dünyada bizə olan hörmət daha da yüksəlib, Azərbaycanın beynəlxalq aləmdə imici artdı. Bu mənada biz artıq tamhüquqlu, suveren hüquqi dövlətik. Ərazi bütövlüyümüz də tam təmin olunub. 30 il ərzində müstəqilliyimizin tam təmin olunmasına nail ola bilməmişdiksə, 44 günlük Vətən Müharibəsi, həm də 23 saatlıq antiterror əməliyyatı nəticəsində buna nail olduq. Əlbəttə, bu günün təsis edilməsinin, bayram günü kimi qeyd edilməsinin həm də

böyük bir tarixi və mənəvi vətənpərvərlik əhəmiyyəti var. Gənc nəslə həmişə bu barədə danışılacaq, məktəbdə dərslər keçiriləcək. Eyni zamanda, müəyyən tərbiyəvi işlərin, vətənpərvərlik tərbiyəsinin aparılmasında da cənab Prezidentin Sərəncamına istinad olunacaq. Bu, Azərbaycan tarixinin ən şərəfli səhifəsi kimi yaddaşımızda qalacaq, nəsildən-nəslə ötürüləcək. Həmin dövrdə qəhrəmanlıq göstərərək şəhid olanlarımız da yad ediləcəkdir, onlara Tanrıdan rəhmət dilənəcək, xatirələri xalqımızın qəlbində əbədi yaşayacaq. Ümummilli Lider Heydər Əliyevin söylədiyi kimi "Müstəqilliyimiz əbədi, sarsılmaz və dönməz olmuşdur!"

Anım Günü dərin ehtiramın ifadəsidir

İkinci Qarabağ savaşının başlandığı 2020-ci il 27 sentyabr tarixindən dörd il ötür. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamı ilə hər il sentyabrın 27-sinin Azərbaycan Respublikasında Anım Günü kimi təsis olunub. Azərbaycanı Zəfərə aparan 44 günlük yolun başlanğıcı olan bu tarix özündə bütün məqamları ehtiva edir. Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən hücumlarının qarşısını almaq üçün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "İrəli!" əmri ilə əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu hər günü tariximizə Qələbə səhifəsi kimi yazdı. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu.

Azərbaycan Ordusu şəhidlərin qanını yerdə qoymadı. Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 27 sentyabrı Anım Günü kimi bəyan etməklə, xalqımızı bu günün işığında bir daha birləşdirdi..

Cənab Prezident 27 sentyabr 2020-ci il tarixdə xalqa müraciətində bildirirdi ki, "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan

torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bəli, 27 sentyabrdan qələbəyə gedən yol cəmi 44 gün davam etdi. 44 gün davam edən İkinci Qarabağ Müharibəsində siyasi, hərbi, diplomatik uğurları ilə beynəlxalq ictimaiyyəti heyrətləndirən Azərbaycan mənfur düşmənə layiq olduğu yeri göstərdi. Bir daha sübut olundu ki, başqasının torpaqlarına göz dikən, saxta tarix yazaraq əsassız təbliğatları ilə özünü haqlı tərəf kimi göstərməyə çalışan təcavüzkar dövlətin aqibəti "Dəmir yumruğ"un başlarına dəyərək əzilməsi, əyilməsi, diz çökərək kapitulyasiya olmasıdır. Azərbaycan 30 il dünyanın ikili standartlara əsaslanan siyasəti ilə üz-üzə qalsa da heç zaman haqlı mübarizəsindən geri dönmədi.

Ali Baş Komandanımız ən yüksək tribunalardan erməni yalanlarını ifşa etdi, dünyaya, sözün əsl mənasında, tarix, hüquq və milli qürur dərsi keçdi. Təəssüflər olsun ki, əksər dünya gücləri, nüfuzlu beynəlxalq təşkilatlar bu realllıqları dərk etmək istəmədilər. Ermənistan bu dəstəyə o qədər arxalandı ki, yeni ərazilər uğrunda müharibə planları hazırladı və 2020-ci ildə mütəmadi olaraq hərbi təxribatlar törətməklə bu planını açıq-aşkar büruzə verdi. İkinci Qarabağ Müharibəsi başlamazdan əvvəl, sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bu tribunadan dünyaya Ermənistanın müharibə planı hazırladığını çatdırdı. Dünya gücləri bunu eşitsə də susmağa üstünlük verdilər.

İkinci Qarabağ müharibəsində igid oğullarımız Ali Baş Komandanın "Dəmir yumruq" siyasəti ilə canları, qanları ilə Zəfər tarixini yazdılar. Bir daha sübut etdilər ki, torpağımızın 30 il bu murdar işğalçılardan xilas etmək, haqqımızın, ərazi bütövlüyümüzün bərqərar olması üçün Zəfər yolunda şəhid olaraq, yenilməz, məğrur xalq olduqlarını dünyaya

nümayiş etdirdilər. Qazanılan Zəfər təkcə silahın gücü deyil, Prezidentin, millətin liderinin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun məntiqi nəticəsi idi. Prezident, Ali Baş Komandan 27 sentyabr Anım Günündə xalqa etdiyi müraciət bizi hər an Qalib xalq olaraq bir daha duyğulandırır, qürurlandırır! Bu müraciəti dinlədikcə bir daha Ali Baş Komandanımızla, şəhidlərimizlə, qazilərimizlə, Ordumuzla, bütövlükdə xalqımızla qürur duyuruq. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev müraciətində, ilk növbədə şəhidlərimizi – canı, qanı bahasına bu qələbənin qazanılmasında iştirak etmiş əsgər və zabitlərimizi hörmət və ehtiramla andı. Əsgər və zabitlərimizin qəhrəmanlığını, igidliklərini yüksək dəyərləndirdi.

Prezident İlham Əliyev geniş və əhatəli müraciətində olduqca mühüm məqamlara toxundu, önəmli mesajlar verdi: "Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın", "44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik", "44 gündən sonra – artıq Ermənistan ordusunun beli qırılandan, biz alınmaz qala sayılan Şuşanı və ardınca 70-dən çox kəndi işğalçılardan azad edəndən sonra düşmən məcbur qalıb təslim olub. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın!", "Mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib".

Möhtərım Prezidentimiz dəfələrlə xalqa etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Məhz Müzəffər Azərbaycan Ordusunun gücü, potensialıdır ki, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. İnkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq Azərbaycanın təcrübəsini öyrənir. Ölkəmizin ordu quruculuğu və müdafiə sahəsində atmış olduğu addımlar təhlükəsizliyimizin təminatına əsaslanır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib. Ölkəmizin mürəkəb bir regionda yerləşməsi və təcavüzə uğraması ordu quruculuğuna xüsusi diqqəti vacid edib. Məhz Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda ordu quruculuğu istiqamətində zəruri addımlar atılıb. Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Bu gün 30 illik erməni işğalına məhz güclü ordumuz sayəsində son qoyuldu. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu sahəsində çox mühüm addımlar atılmasının nəticəsidir ki, bu gün regionda ən güclü ordu məhz Azərbaycan ordusudur.

Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir. Məhz Qalib Azərbaycan ordusunun rəşadəti nəticəsində ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçın rayonları şəhid vermədən, qan tökülmədən geri qaytarılır. Şuşa şəhərinin, Kəlbəcər, Ağdam, Laçın rayonlarının, Hadrut qəsəbəsinin geri qaytarılması Dağlıq Qarabağa gedən bütün strateji yolların, yüksəkliklərin, kommunikasiya xətlərinin tamamilə Azərbaycan Silahlı Qüvvələrinin əlində olması deməkdir.

Dövlət başçısı çıxışlarında da dəfələrlə vurğulayıb ki, Ermənistan bu gün dərin siyasi, mənəvi, psixoloji və maliyyə böhranı içindədir: "Ölkənin inkişafı üçün heç bir resurs yoxdur. İqtisadiyyat çöküb, sənaye ölüb, insanlar ölkəni tərk edir, yəni, insan resursları da yoxdur. Ona görə də Ermənistan rəhbərliyi öz xalqını aldatmaq məqsədilə cəbhədə dövri olaraq təxribatlar törədir, atəşkəsi gündə on dəfələrlə pozur. Bu isə tələb edir ki, Azərbaycan Ordusu gündən-günə möhkəmlənsin və daha da qüdrətli olsun. Biz buna nail oluruq".

Prezident, Ali Baş Komandanımız İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsində bu gün ordumuza göstərilən diqqət sayəsində Silahlı Qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası, o cümlədən təyyarə,

helikopter və artilleriya sistemlərinin keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır. Qürurverici haldır ki, bu dəfə də Silahlı Qüvvələrin bütün şəxsi heyəti qisas və qələbə hissi ilə yaşayır, torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə qadir olduqlarını nümayş etdirdilər. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa etməyə qadir olduqlarını əzmkarlıqla nümayiş etdirdilər. Təbii ki, bütün bunlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tövsiyə və tapşırıqları əsasında reallaşdırılır. Böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin Qalib sərkərdəsi, Azərbaycan Ordusu peşəkar və döyüş ruhlu Ordu, Azərbaycan xalqı isə qəhrəman xalq kimi tarixə qızıl hərflərlə yazılacaq. Və növbəti mərhələdə cənab İlham Əliyevin yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Bəzi xarici ölkələr, təşkilatlar, siyasi dairələr iddia edirdilər ki, bu problemin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "Dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, Qarabağ məsələsinin hərbi həlli var. Daha sonra ordumuzun 23 saatlıq antiterror əməliyyatı nəticəsində Qarabağda qondarma rejim özünü buraxdığını elan etdi və bununla da dövlətimiz öz suverenliyini tam təmin etdi. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən biz 3200-dən çox şəhid verdik. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Bu gün onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib. 27 Sentyabr – Anım Günündə də bütün xalıqımız şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir.

Dövlət başçımızın söylədiyi kimi: "Bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni

təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

VII çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyevin çıxışı ölkəmiz üçün əsas yol xəritəsidir

Azərbaycan dünyəvi, bəşəri dövlətdir, bu dövlətdə hər bir vətəndaşın hüquqları Konstitusiyanın tələbələri ilə ciddi şəkildə qorunur. Bu seçkilər onu da təsdiqlədi ki, Azərbaycanda vətəndaş cəmiyyəti birmənalı şəkildə dövlətçilik atributları səviyyəsində qorunur, mühafizə edilir, yaşadılır.

30 ildən sonra ərazi bütövlüyü tam təmin edilib, suverenliyi bərpa olunan Azərbaycan dövləti 2024-cü il ilk dəfə olaraq bütün ölkə ərazisində 7 fevral tarixində növbədənkənar prezident və 1 sentyabrda Milli Məclisə seçkilər azad, demokratik və şəffaf, ölkənin milli qanunvericiliyinə və beynəlxalq səviyyədə qəbul edilmiş qanunlara tamamilə uyğun keçirilməsilə yadda qaldı. Ötən ilin 20 sentyabr tarixində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi ilə ölkəmiz yeni dövrə qədəm qoydu. Bu yeni dövrün qürurverici hadisələrindən olan və müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində növbədənkənar prezident və parlament seçkiləri keçirildi. Demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməldə təsdiqləyən Azərbaycan bu seçki proseslərini də beynəlxalq standartlara uyğun keçirilməsi üçün bütün zəruri addımları atdı. Ölkəmizin hər yerində, o cümlədən Xankəndidə, Şuşada, Qubadlıda, Xocalıda, Kəlbəcərdə və digər işğaldan azad edilən ərazilərdə parlament seçkiləri keçilirdi. Seçki təbliğatını yüksək səviyyədə quran, öz seçki platformasını cəmiyyətə reallıq üzərində quran namizədlər deputat seçildilər.

Sentyabrın 23-də VII çağırış Milli Məclisin açılış iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev proqram xarakterli nitqində hazırkı dövrə kimi əldə edilmiş nəticələri təhlil etdi və qiymətləndirdi, ölkəmizin və xalqımızın qarşısında duran əsas vəzifələri açıqladı və əsaslandırdı. Eyni zamanda, yeni formalaşan parlamentə uğurlar

arzulayan dövlət başçımız cənab İlham Əliyev qanunverici orqanın qarşısında dayanan vəzifələri də açıqladı və belə bir əminliyi ifadə etdi ki, Milli Məclis və onun deputatları öz işi ilə ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini bundan sonra da verəcək və Azərbaycanın dayanıqlı inkişafı təmin ediləcəkdir.

Prezident İlham Əliyev çıxışı zamanı bildirdi ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır. 30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmlənib. Azərbaycan dövləti İkinci Qarabağ Müharibəsinin və antiterror əməliyyatının nəticələrini bütün dünyaya qəbul etdirə bilib. Lakin ikili standartlar əsasında qurulmuş ittihamlar bu gün də davam edir. Ancaq bu, nə dövlət başçısının iradəsinə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz.

Bu, real faktordur ki, xarici siyasət daxili siyasətin davamıdır. Prezident İlham Əliyev daim uğurlarımızın təhlili əsasında belə bir əminliyi ifadə edir ki, bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi. Dövlətimizin başçısı 7-ci çağırış Milli Məclisin ilk iclasında diqqəti Azərbaycanın mötəbər tədbirə-COP29-a evsahibliyinə yönəldərək bildirdi ki, onun Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Xarici siyasətdə bundan sonra da geriyə heç bir addımın olmayacağını vurğulayan ölkə Prezidenti bütün qitələrdə dostlarımızın sayının artdığını bildirdi. Vurğuladı ki, biz indi - İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq.

Reallıq budur ki, əgər əvvəlki dövrdə xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ, demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri müəyyənləşdirilir. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi və təbliği istiqamətində atdığı addımlar, dünya azərbaycanlılarının birliyinə, həmrəyliyinə davamlı töhfələri 44 günlük müharibə tarixi Zəfərimizdə, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunmasında öz sözünü dedi. Son 21 ilə yaxın dövrdə bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın diplomatik uğurlarının davamlılığını şərtləndirdi. Və 44 günlük İkinci Qarabağ müharibəsinin rəmzinə çevrilən "Dəmir yumruq" həm gücümüzün, həm də birliyimizin dünyaya təqdimatı oldu.

Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı bildirdi ki, bizə qarşı ideoloji təxribatlar davam etdirsələr də, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır: "Hesab edirəm ki, Azərbaycan xalqı bu gün hər şeyi yaxşı görür, hər şeyi yaxşı bilir – bizim dostumuz kimdir, düşmənimiz kimdir".

Dövlətimizin başçısı çıxışında ölkə qarşısında duran bəzi vəzifələri də açıqladı və bu çağırışı etdi: "Yerli hərbi sənaye kompleksimizi daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılmışdır və gələn il də ayrılacaq. Bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçib. Növbəti bir-iki il ərzində hərbi sənaye kompleksimiz daha böyük olacaq. Yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir."

Möhtərəm Prezidentimiz Qarabağ və Şərqi Zəngəzurun bərpasının da ölkə qarşısında duran əsas vəzifə olduğunu söyləyərək bildirdi ki, ancaq biz əgər hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər. Milli Məclisin ilk iclasındakı çıxışında diqqəti bu məsələyə yönəldərək bildirdi ki, müharibədən sonra bu ilin sonuna qədər xərclənilməsi

nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Səkkiz mindən çox keçmiş köçkünün artıq Qarabağ və Şərqi Zəngəzura yerləşdiyini, hər il onların sayının artacağını bildirən dövlətimizin başçısı azad olunmuş ərazilərdə həyata keçirilən infrastruktur layihələrindən danışdı. Bildirdi ki, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir, kəndlər salınır. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır.

Prezidentin VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışı Azərbaycanın dövlətçilik tarixində mühüm hadisə kimi yadda qalacaq və çıxışında toxunduğu məqamlar, irəli sürdüyü tezislər, əslində, ölkəmizin yeni dönəmdə inkişaf konsepsiyasının əsası, bütövlükdə regionun dayanıqlı təhlükəsizlik mühitinə qovuşması istiqamətinə aydın Yol Xəritəsi hesab olunmalıdır.

Xalq yenidən öz Liderinə-Prezident İlham Əliyevə etimad göstərdi

Sirr deyil ki, hər bir ölkənin, xalqın beynəlxalq miqyasda tanınmasında, nüfuzunun artmasında, davamlı nailiyyətlər əldə etməsində, həmçinin qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlik amilinin xüsusi yeri və rolu mövcuddur. Çünki lider o şəxsiyyətə deyilməlidir ki, rəhbərlik etdiyi dövlətin, ona etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edir, gerçəkləşdirir, cəmiyyətin enerjisinin səfərbər edilməsi ilə vətəndaşların taleyində əhəmiyyətli reallığa çevrilir. Belə ki, bu cür liderlərin mövcudluğu təbii ki, xalqların perspektivinin qarant altında olmasına və dinamik inkişaf yoluna çıxmasına zəmin yaratmış olur. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda onun layiqli davamçısı İlham Əliyev Liderliyi dövrünü yaşayır!

Məhz bu mənada, vurğulamaq yerinə düşərdi ki, Azərbaycan xalqını ağrılı-acılı günlərdən çıxarmış, ölkədə sabitliyin yaranmasında qətiyyətli mövqeyini ortaya qoymuş və bunu əldə etmiş Ulu Öndər Heydər Əliyevin siyasi kursu bu gün onun ən layiqli davamçısı Prezident İlham

Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz 9 oktyabr 2013-cu il tarixdə keçirilən növbəti prezident seçkiləri də Azərbaycanda ictimai-siyasi fəallığın kifayət qədər yüksək olduğunu təsdiqləyən tarixi gün. Həmin gün kütləvi şəkildə seçki məntəqələrinə axışan insanlar öz seçimini etdi və İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi. Xalq bu seçimi ilə Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Bununla, Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

Bütün sivil, demokratik, dünyəvi ölkələrdə olduğu kimi, Azərbaycanda da seçki prosesinə hər zaman böyük ictimai maraq göstərilir. 9 oktyabr prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasının gedişində prezident seçilməyə iddialı namizədlərin ictimai-siyasi fəaliyyətinin ciddi təhlil olunması, qiymətləndirilməsi, prinsipcə, arzuolunan və təqdirəlayiq haldır. Məhz bunun nəticəsidir ki, ölkəmizdə keçirilən bütün seçkilərdə olduğu kimi, 2013-cü ildə keçirilən seçkilərdə də, çox fəal iştirak edərək, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevə səs verdilər. Bütün bunlar, ölkəmizin tərəqqisi, inkişafı baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Xalqın bu ümummilli hədəflərə çatmaq arzusu İlham Əliyevin növbəti prezident seçkisindən də qalib çıxmasını şərtləndirdi.

Aydındır ki, populyarlığına, reytinqinə, cəmiyyətdə aparıcı mövqe tutmasına, üzvlərinin sayına, ideya-siyasi xəttinə görə, hər zaman öndə gedən Yeni Azərbaycan Partiyasının siyasi qüvvə kimi ölkədə real və ciddi alternativi yoxdur. Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası indiyədək iştirak etdiyi bütün seçkilərdə – prezident, parlament, bələdiyyə seçkilərində, birmənalı şəkildə, böyük səs çoxluğu ilə layiqli qələbə qazanıb. Odur ki, 9 oktyabr seçkilərində qazanılan növbəti möhtəşəm qələbə, məntiqi qanunauyğunluq kimi, Yeni Azərbaycan Partiyasının ardıcıl qələbələr seriyasını tamamlayır. Bu seçkilərdə partiyanın növbəti böyük, inamlı qələbəsi xalqın böyük dəstəyi, seçicilərin mütləq əksəriyyətinin, məhz Yeni Azərbaycan Partiyasının namizəd İlham Əliyev cənablarına səs verməsi sayəsində əldə edilib. Partiyanın inamlı qələbə qazanmasında Yeni Azərbaycan Partiyası namizədlərinin uğurla həyata keçirilən təbliğat-təşviqat kampaniyası,

seçicilərlə qurulan fəal, səmimi ünsiyyət də mühüm rol oynayıb. Seçkilərə "İLHAMLA İRƏLİ!" şüarı ilə qatılan YAP, ölkənin aparıcı siyasi təşkilatı kimi, Azərbaycanı tərəqqiyə və rifaha aparan alternativsiz ictimai-siyasi qüvvə olduğunu qazandığı inamlı qələbə ilə təsdiqləyib.

"Mən hər bir azərbaycanlının Prezidenti olacağam – deyə tarixi bəyanat vermiş Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir. Ötən illərin nəticələri və yekunları, bir daha sübut edir ki, onun rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu tendensiya ardıcıl sürətdə davam etməkdədir. Bu kontestdə qeyd etmək istərdim ki, bəli, Azərbaycan xalqının gələcəyi daha parlaq, daha işıqldır!

Artıq 21 ildir ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasına səbəbkar olub. 21 ildən artıqdır ki, Azərbaycan xalqının rifahına, təhlükəsizliyinə və gələcək inkişafına müsbət töhfələrini verən Ulu Öndər Heydər Əliyev siyasəti müstəqil dövlətimizin xalqımızın tarixi nailiyyətinə çevrilməsinə əsas yaradıb. Çünki uzun illər, əsrlər boyu azadlıq uğrunda mübarizə aparmış Azərbaycan xalqı məhz son illərdə Ulu Öndər Heydər Əliyevin və onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti sayəsində müstəqil xarici siyasət yürüdən, regionun lider ölkəsi olan və dünya miqyasında əhəmiyyətli faktor rolunu alan dövlətin sahibinə çevrilib.

Vurğulamaq yerinə düşər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası, ilk növbədə, sosial-iqtisadi sahənin inkişafını təmin edib. Ümummilli tərəqqini təmin edən bir faktor olaraq, sosial siyasətin aktual tələbatlara və müasir reallıqlara müvafiq surətdə uğurla həyata keçirilməsi vətəndaşların maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin gücləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi, məşğulluq səviyyəsinin, ardıcıl olaraq yüksəldilməsi, əhalinin sosial şəraitinin yaxşılaşdırılması, sosial tələbatlar və ehtiyacların yüksək səviyyədə ödənilməsi kimi fundamental məqsədləri reallaşdırıb. Digər tərəfdən, sosial siyasətin bazis

komponenti olan iqtisadi inkişafın təmin edilməsi, bütövlükdə, sosial-iqtisadi tərəqqinin sürətlənməsini şərtləndirən amil olub. Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib.

Yerli və xarici analitiklərin yekdilliklə üzərində durduqları başlıca məsələlərdən biri də budur ki, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şəraitin yaradılması kimi göstəricilər və nəticələr deyilənləri bir daha təsdiq edir. Bütün bunlar isə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsinə, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına da xüsusi töhfələr verib. Bu, həqiqətən də, belədir. Belə ki, Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Eyni zamanda, hal-hazırda Azərbaycanın Avropanın təhlükəsizliyində önəmli yer alması, güclü iqtisadi potensialın daha da qüdrətlənməsi bu amili ehtiva etməkdədir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Bütün gerçəkləşdirilən regional layihələrin mərkəzi oyunçusu qismində də, məhz ölkəmiz çıxış edir. Eyni zamanda, məhz bu cür layihələr ölkəmizin milli maraqlarına adekvat olmaqla bərabər, Azərbaycanın suverenlik səviyyəsini, birbaşa olaraq, heç bir subyektdən asılı olmadığını da təsdiq edir.

9 oktyabrda növbəti müddətə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyevin fəaliyyəti, əslində, müasir Azərbaycanın inkişafına, tərəqqisinə yönələn fəaliyyətin konsepsiyasına çevrildi. Dövlətimizin başçısı qarşıdakı illərdə Azərbaycanı idarə etməyin strategiyasını bəyan etməklə yanaşı, xalqımızda siyasi və sosial-iqtisadi uğurlar seriyasının davamlı xarakter alacağına əminlik yaratdı. Prezident İlham Əliyevin xalqdan aldığı dəstəyin təməlində isə yenə də onun Heydər Əliyev siyasətinə sadiqliyi dayandı. 2013-cü il oktyabrın 9-da keçirilən

prezident seçkilərində xalq yenə də düzgün seçim etdi. Müşahidəçilərin hamısı bu amili yüksək qiymətləndirərək İlham Əliyevin rəhbərliyi altında son illərdə ölkədə demokratik proseslərin geniş vüsət aldığını və budəfəki prezident seçkilərinin də demokratiyanın inkişafı istiqamətində mühüm addım olduğunu bildirdilər.

Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayandı. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi. Milli mənafelərlə bağlı problemlərin həllinə həssas və fəal yanaşma uzaq və yaxın xaricin də diqqətindən yayınmadı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Dağlıq Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur. Bununla belə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində Ermənistanın apardığı etnik təmizləmə və işğal siyasəti nəticəsində doğma torpaqlarından qovulan bir milyon insanın həyat şəraitinin yaxşılaşdırılması, yeni qəsəbələrin salınması diqqətdə saxlanıldı. Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər keçmiş Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi, xalqımızı ordumuzun etibarına inandırdı. Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da böyüdü, iqtisadi nailiyyətləri ilə hər zaman diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən üç dövlət proqramı sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 1 milyon 600 min yeni iş yeri yaradıldı. Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən

Prezidenti İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələrinin, Olimpiya İdman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verdi. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə minlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı.

Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi, Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı. 2017-ci ildə isə Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici amil olduğunu bir daha təsdiqlədi. Bu illərdə Azərbaycan, həm də Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsi, Oğuz-Qəbələ-Bakı su kəmərinin və Taxtakörpü su anbarının istifadəyə verilməsi kimi nəhəng layihələrin icrasına nail oldu.

Azərbaycançılıq fəlsəfəsi İlham Əliyev siyasətinin mənəvi dayağına çevrildi. Milli ləyaqət, milli qürur uğurlarımızın əsas şərtləri oldu. Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət etdi. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanındı.

Bu etimadın nəticəsidir ki, 2015-ci ildə ölkəmiz tarixdə ilk dəfə keçirilən birinci Avropa Oyunlarını yüksək səviyyədə qəbul etdi. İctimai-siyasi sabitliyin, iqtisadi inkişafın hökm sürdüyü Azərbaycan cəmiyyətinin tolerantlığı belə mühüm tədbiri həyata keçirmək üçün siyasi iradəyə, iqtisadi qüdrətə və zəruri infrastruktura malik ölkəmizin sahib olduğu güclə vəhdət təşkil etdi. Azərbaycan qədim və zəngin mədəniyyətini, modern və sivil ölkə olduğunu təqdim etmək üçün mühüm beynəlxalq arena

qazandı. Əhalisinin mütləq əksəriyyətinin müsəlman olduğu Azərbaycan Avropa dəyərlərini özündə ehtiva edən, həmçinin müasir dünyaya açıq olan ölkə olduğunu sübuta yetirdi. Bununla da güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası bütün azərbaycanlıların həyatına birdəfəlik daxil oldu, çünki onun müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində ancaq bir qüvvə – Azərbaycan vətəndaşı dayanır.

Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

Dövlətimizin başçısı İlham Əliyev deyir ki, hər sahə üzrə proqramların mövcudluğu, həyata keçiriləcək layihələrin xalq tərəfindən dəstəklənməsi, birgə addımların atılması gələcəyə daha böyük inamla irəliləməyə stimul verir. Mən yazımın sonunu məhz Prezident İlham Əliyev cənablarının kəlamı ilə biritmək istərdim: "Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilib. Hər bir məsələ ilə bağlı bizim prinsipial mövqeyimiz var. Azərbaycan hər bir beynəlxalq hadisə ilə bağlı öz prinsipial mövqeyini ifadə edir. Bu mövqe prinsiplər üzərində qurulub. Beynəlxalq hüquq və ədalət - bu iki prinsip hər bir ölkə üçün ən əsas prinsip olmalıdır. Bizim üçün bu, belədir. Bu gün Azərbaycanın dünyada artan hörməti, eyni zamanda, bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur".

Cənab Prezident həmçinin vurğulayıb ki, Azərbaycan öz siyasətinə sadiqdir: "Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz".

Azərbaycanın müasir tarixi iki qüdrətli Liderin – müstəqil Azərbaycan dövlətinin qurucusu olan Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı Prezident, Ali Baş Komandan İlham Əliyevin müdriklik, qətiyyət və qəhrəmanlıq salnaməsidir. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı

Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bəli, bu gün Azərbaycan xalqı ilk olaraq öz Liderinə arxalanır, Ona öz tükənməz inamını izhar edir. Ona görə də bu gün müstəqil, güclü, qətiyyətli və qürurlu Azərbaycan dövləti yaşayır və yaşadılır. Xalqımız isə məhz öz Prezidenti ətrafında daha da sıx biləşərək, ölkənin inkişaf və tərəqqisində inamla irəliləyir. BU YOL İSƏ ƏBƏDİ VƏ DÖNMƏZDİR! Zamanın axarında öz layiqli yerini tutan Azərbaycan bundan sonra da Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək. Bu gün bir daha böyük qürur və fəxarətlə deyirəm: Cənab İlham Əliyev xalqımızın alternativsiz lideri, yeganə inam ünvanıdır, xilaskardır, qəhrəmandır. Prezident İlham Əliyevin adı xalqımız, dövlətimiz var olduqca, əsrlər boyu tarixdə ən böyük Xilaskar, Qəhrəman kimi anılacaqdır!

44 gündə tarix yazan Qəhrəman Ali Baş Komandan

30 illik Vətən həsrəti, nisgili, arzularımız, xəyallarımız, yuxularımız, gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı 44 gündə gerçəyə çevrildi! 10 noyabr 2020-ci il... Prezident, Ali Baş Komandan İlham Əliyev cəynablarının qətiyyətli mövqeyi, Müzəffər Ordumuzun, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində 44 gün ərzində döyüş meydanında gücünü göstərdi, düşmənin müqaviməti qırıldı. Hər gün qəhrəman döyüşçülərimiz irəli getdi və 44 gün ərzində bircə dəfə də olmadı ki, igid hərbçilərimiz düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər. Çünki Ali Baş Komandanın "İrəli" əmri ilə mənfur düşmən üzərinə yeriyən cəsur döyüşçülərimiz "bu yolda öldü var, döndü yox" - deyərək çıxmışdılar haqq savaşına. Azərbaycanın mərd oğulları 44 gün ərzində bəşər tarixində misli görünməmiş qəhrəmanlıq, vətənpərvərlik nümayiş etdirdilər, dünya hərb sahəsində yeni döyüş təcrübəsi yaratdılar. 10 noyabr şanlı tariximizə Zəfər günü kimi yazıldı. Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olması 30 illik həsrətimizə son qoyudu! Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi.

Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Azərbaycan cəmi 44 gün ərzində düşmən üzərində qətiyyətli Qələbə qazandı: "İkinci Qarabağ

müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi."

Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 21 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" – məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır - fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Liderdir.

Ölkə Prezidenti xalqa müraciətində də bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü göstərmişik, müstəqilliyimizi göstərmişik: "Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz. Biz xalqımızla, ordumuzla fəxr edirik".

Bəli, cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Güney Qafqaz regionunda yeni reallıq bərqərar olsun. Bu 44 gün Ermənistanın "status-kvo"nu ürəyində qoydu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də dəfələrlə bildiridi ki, "status-kvo" artıq yoxdur: "Status-kvo" deyilən məsələ yoxdur. Qurtardı getdi. "Status-kvo" belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orda, döyüş meydanında. "Status-kvo" yoxdur. Təmas xətti – yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub – 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq".

Göründüyü kimi, "Dəmir yumruq" birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğ"unun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü

göstərdi. Ermənistan bu illər ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərməsinə baxmayaraq, Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatı Ermənistanın baş naziri Nikol paşuinyan da imzaladı. Kapitulyasiya aktına əsasən, işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu, "Dəmir yumruğ"un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşımızın torpaq, yurd həsrətinə son qoyuldu. Bir sözlə, sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən Müharibəsi şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri ilə başa çatdı və işğala həmişəlik son qoyuldu. Güclü Silahlı Qüvvələrimizin əsgər və zabitləri, hərbçiləri Vətənimizin ərazi bütövlüyü naminə bir yumruq kimi birləşib qəhrəmancasına vuruşaraq Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdilər.

Dövlət başçısı işğaldan azad olunmuş torpaqlara səfərləri zamanı çıxışlarında bildirib ki, biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik: "Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir".

Prezident, Ali Baş Komandan İlham Əliyev həmçinin çıxışlarında işğalçı Ermənistana öz mesajlarını da səsləndirərək bir daha bildirib ki, otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur: "Bəs, haradadır bunların müzəffər ordusu? Haradadır yenilməz erməni əsgəri?

Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı".

Bəli, Ermənistan ordusunun olmadığını və xırda bir səviyyədə olanlarının da odumuz tərəfindən məhv edildiyini bildirmişdir: "Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib".

Bütün bu uğurlar, məhz ölkə Prezidentinin qətiyyətli addımı, mövqeyi və nəhayət yürütdüyü "Dəmir yumruq" siyasəti dayanır. Bir sözlə, Prezidentimizin çıxışlarında, müsahibələrində, xalqa müraciətlərində bəyan etdiyi kimi: "Bu yumruq elə-belə yumruq deyil, bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq".

Artıq 4 ildir ki, Qələbə sevinci ilə yaşayırıq. Bu dörd il ərzində işğaldan azad olunmuş torpaqlar quruculuq meydanına çevrilib. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi", – deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəs alan torpaqlarımıza hər səfəri zamanı Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı Prezidentinə inanır, güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək.

Artıq Böyük Qayıdış başlayıb. Ölkə rəhbərliyi "Böyük Qayıdış"ı yüksək səviyyədə həyata keçirmək əzmini dəfələrlə nümayiş etdirib. Hazırda işğaldan azad olunan ərazilərdə görülən önəmli və fundamental işlər Azərbaycanın bu istiqamətdəki qüdrətini bir daha göstərir. Qarabağa və Şərqi Zəngəzura böyük köç başlayıb. Keçmiş məcburi köçkün soydaşlarımız böyük sevinc və coşqu ilə dogma ata-baba yurdlarına qayıdırlar. Bəli, budur, Möhtərəm Prezidentimizin, Ali Baş Komandanımızın diplomatik

siyasətinin nəticəsi! Budur qüdrətli Ordumuzun gücü, budur mübariz, igid əsgərlərimizin rəşadəti! Bu nailiyyət və qələbələr həm də Xalq-Ordu Birliyinin, orduya olan inamın Qələbəsidir! Çünki Prezident İlham Əliyevin apardığı diplomatik siyasət düşünülmüş, məntiqli siyasətdir və haqq işidir! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

Həmrəylikdən "Dəmir yumruğa" gedən yol

2020-ci il, 8 noyabr. Azərbaycanın yeni yazılmış tarixi, Qarabağımızı Azərbaycana qovuşduran Zəfər tarixi. Ərazi bütövlüyümüzün, haqq və ədalətin bərpa olunduğu qələbə tariximiz. 8 Noyabr Vətən Müharibəsini qələbə ilə sonlandıran Zəfər günüdür.

Belə bir fikir var: tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa! Bəli, Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun və rəşadətli əsgər və zabitlərimizin şücəati ilə 8 noyabrda göz bəbəyimiz Şuşamız işğaldan azad olundu. Bu gün üçrəngli Bayrağımız Şuşamızda dalğalanmaqdadır. Xalq-İqtidar-Ordu birliyinin "Dəmir yumruq"la Zəfər Günü yazıldı.

Prezident İlham Əliyev: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir". Bu sözləri dövlət başçımız Prezident İlham Əliyev dekabrın 29-da dünya azərbaycanlılarını təbrik edərkən bildirmişdir. Qalib Sərkərdə, Prezident İlham Əliyev bildirib ki, bu qələbə xalq-iqtidar-ordu birliyinin Şanlı Zəfər Qələbəsidir: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir".

Bu Qələbə xalq-iqtidar-ordu birliyinin nəticəsidir. Elə 2020-ci il dekabrın 10-da "Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı, məhz Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayişi etdirdi. Bu, "Qarabağ Azərbaycandır və nida" - deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadəti ilə dünya müharibələrində qazana bilmədiyi 44 gün ərzində qazandığı Qələbə Zəfəridir.

Bu, həm də Qalib sərkərdəmizin Qarabağa səfərləri ilə həmin nidanı qoyduğu Zəfəridir.

Bu gün bu şanlı tarixin yazılmasının əsas memarı – Ali Baş Komandan, Qalib Sərkərdə İlham Əliyev cənabları son 21 ildə düşünülmüş siyasəti nəticəsində, xalq-iqtidar birliyinin yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşməsidir ki, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoydu. Xoş xəbərləri xalqına özü birbaşa çatdıran Azərbaycan Prezidenti cənab İlham Əliyev hər işğaldan azad olan torpaq müjdəsini səsləndirəndə "Qarabağ Azərbaycandır!"- deyərkən simvolik olaraq yumruğunu da qaldırdı. Bunun da məntiqli mənası odur ki, həmrəy olub bir yumruq kimi birləşib Qarabağı düşməndən azad etdik. Bu birliyin köməyinə həmrəylik gəldi. "Dəmir yumruq" həmrəylik gücümüzün simvoluna çevrildi. Həmrəylikdən gələn 30 illik haqq yolu "dəmir yumruğa" çevrilib düşmənin saxtalaşdırdığı illərin yalanını üzə çıxardı. Ədaləti həmrəylik gücü ilə bərpa etdi. Ölkə rəhbərimiz, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Müharibədən dörd ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistan rəhbərliyi Üçtərəfli Bəyanatı yerinə yetirməkdən imtina edir, müxtəlif hərbi, siyasi təxribatlara əl atırdı. Heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca "nəyi, nə zaman və necə" etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidenti İlham Əliyevin suverenlik və ərazi bütövlüyü anlayışı heç bir zaman müharibənin nəticələri ilə məhdudlaşmadı, görülən bütün işlər prosesin davamı oldu və 2023-cü il sentyabrın 20-də öz məntiqi sonluğuna çatdı. Bütün təzyiqlərə və hədələrə baxmayaraq, Prezident İlham Əliyev uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək

Xankəndində Azərbaycanın dövlət bayrağının asılacağı günü yaxınlaşdırdı.

2023-cü il sentyabrın 19-da başlanan və cəmi 23 saat 51 dəqiqə davam edən antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin birləşmələri təslim oldular, separatçı rejimin varlığına son qoyuldu. Oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibə və 8 noyabr Zəfər Gününə bərabər növbəti parlaq qələbə oldu. Bu Qələbə təkcə son 30 ildə deyil, iki əsr ərzində gözlədiyimiz ümidlərimizin gerçəkləşməsi, milli varlığımızın, hər birimizin, gələcək nəsillərin özünütəsdiqi deməkdir. Qələbə müstəqillik tariximizin ən parlaq səhifəsidir. Böyük Qələbə uzun illər ərzində davam edən hazırlıq işlərinin, habelə dövlətin qüdrətinin artırılması istiqamətində atılan addımların nəticəsidir.

Bu gün hər bir qələbəmiz bir tarixdir. Bu qələbələrin, zəfərlərin müəllifi Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti, Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığıdır. Prezident, Ali Baş Komandanımız İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi. Bu Zəfərin formulu isə Müzəffər Ali Baş Komandan-Xalq Birliyi və Azərbaycan əsgəridir.

8 Noyabr Zəfər Günün mübarək, Azərbaycan!

Xankəndidə ilk hərbi parad Azərbaycanın qüdrətini dünyaya nümayiş etdirdi – Qarabağ Azərbaycandır!

2023-cü il noyabrın 8-də Zəfər Gününü daha da əlamətdar edən hadisələrdən biri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndi şəhərində hərbi paradı qəbul etməsi oldu. Məhz Vətən Müharibəsində qazanılmış tarixi Zəfərimizə həsr olunmuş möhtəşəm hərbi paradın Xankəndi şəhərində keçirilməsi Azərbaycanın gücünün dünyaya nümayiş etdirilməsidir.

Ən vəsas məqam isə möhtəərm Prezidentimizlə bərabər birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak etməsi Onun qalib sərkərdə, qətiyyətli, cəsarətli, uzaqgörən dövlət başçısı olduğunu bir daha dünyaya bəyan etdi. Dünya ictimaiyyəti bu dəfə də "Qarabağ Azərbaycandır!" reallığının şahidi oldu. Xankəndi paradı bu reallığı əyani şəkildə təsdiqlədi.

Azərbaycan Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında hərbiçiləri, Azərbaycan xalqını Zəfər Günü münasibəti ilə təbrik etdi: "Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm. Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!".

Dövlətimizin başçısı Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında bildirdi ki, 44 günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki, suallar, demək olar ki, təkrarlanırdı: "Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər – sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz - həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün".

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan Azərbaycan Prezidenti İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Zəfər Günü ilə bağlı Xankəndində keçirilən hərbi parada çıxışı zamanı bildirdi ki, üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi: "Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir".

Göründüyü kimi, İkinci Qarabağ Müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Qələbəmizin hər ilini böyük uğurla başa vururuq. Böyük qürur hissi keçiririk ki, bu qələbə və uğurlar

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən son 21 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayişi idi. Bu, həm də bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz! Azərbaycan Prezidenti İlham Əliyev Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında işğaldan azad olunan bütün torpaqlarda Azərbaycan Bayrağını qaldıracağına söz verdiyini söyləyib: "Xalqıma söz vermişdim ki, gün gələcək Azərbaycan Bayrağı işğal altında olan bütün torpaqlarda qaldırılacaq və bu gün gəldi. İyirmi il bundan əvvəl həm seçkilər ərəfəsində, həm də andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək və biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq".

Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbənin olmadığını diqqətə çatdıran dövlət başçımız hərbi parada çıxışı zamanı 44 gün ərzində aparılan hərbi əməliyyatlar, hərbçilərimizin şücaətinin bir qəhrəmanlıq dastanı olduğunu vurğulayaraq bildirdi ki, bu günü (Zəfər Günü – red.) bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir: "Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgəri və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq".

Düşmən ordusu Azərbaycan Silahlı Qüvvələrinin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşdü. Onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərarinin olduğunu deyən dövlət başçımız çıxışında onu da vurğuladı ki, Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi və Azərbaycan övladları Şuşa əməliyyatı zamanı böyük güc, peşəkarlıq və fədakarlıq göstəriblər: "Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda

əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər".

Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Dövlət başçımızın söylədiyi kimi: "Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır".

Məhz Azərbaycan Silahlı Qüvvələri antiterror tədbirləri nəticəsində ötən il sentyabrın 19-da separatçıları 23 saat ərzində məhv etdi və qondarma qurum ləğv edildi, oktyabrın 15-də tariximizə daha bir şanlı səhifə yazıldı. Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan üç rəngli Bayrağımızı Xankəndidə, Xocalıda, Xocavənd şəhərində dalğalandırdı. Bununla da Azərbaycanın suverenliyi tam bərpa edildi. Bütün bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin qalib ölkənin, qalib Sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığı, xalqımızın alternativsiz lideri, yeganə inam ünvanıdır, xilaskardır, qəhrəmandır.

Bu gün bizə xor baxanlar, torpağımıza göz tikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq. Dövlət başçımızın söylədiyi kimi: "Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır"!

8 Noyabr Zəfəri "8 may qara tarix"i yer üzündən sildi

Bəli, bu gün xalqımız çoxəsrlik tariximizin dördüncü ildir ki, Zəfər Gününü qürurla qeyd edir. 8 Noyabr 2020-ci il – Qarabağa qovuşduğumuz tarixin dördüncü ilini – Böyük Qələbə, Şanlı tariximizə daxil olan Zəfər Gününü, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu günü qeyd edir. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut

etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir döv lətin – Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə, haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 30 il düşmən torpağında inləyən Vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında Zəfəri tanklarla, toplarla deyil, ağılla, zəka ilə və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar.

Bu tarixi Zəfər təkcə Azərbaycan xalqının 30 illik işğal altında qalan əzəli torpaqlarının azadlığa qovuşması tarixi deyil. Bu tarixi Zəfər, həm də qüdrətli Azərbaycan Ordusunun dünya hərb tarixinə qızıl hərflərlə həkk edilən döyüş dastanıdır. Vətən Müharibəsinin ən kritik mərhələsi – Şuşanın azad olunması üçün aparılan qanlı əməliyyat dünyanın ən güclü ordulara sahib olan fövqəldövlətlərin heyrətinə səbəb olmuşdu. Bəli, öz xaqlının iradəsi ilə əzəli torpaqlarını erməni faşizmindən qurtarmaq üçün cəngavər kimi döyüşən əzəmətli Azərbaycan Ordusu dünya hərb tarixinə ŞUŞA DƏRSİ-ni yazdı.

Şuşanın işğaldan azad edilməsi əməliyyatı gerçəkdən heyratamiz idi. Demək olar ki, yüngül silahlarla dərələrdən, meşələrdən, sıldırım qayalardan, dağlardan keçən şücaətli Azərbaycan əsgəri əlbəyaxa döyüşdə artileriyyasız, sadəcə, bıçaqla əlbəyaxa döyüşə girərək düşmənin 30 illik möhkəmlənmiş səngərlərini yerlə yeksan etdi. Bu döyüş Qarabağın tacı olan Şuşanın azadlığı üçün aparılan tarixi döyüş idi. Şuşa döyüşü bir dövlət olaraq bizim əzəmətimizi, gücümüzü, əsgərimizin qorxmazlığını təkcə düşmənə deyil, onların dünyadakı havadarlarına da göstərmiş oldu. Şuşa şəhidlərimizin qanı, kişiliyi, qorxmazlığı bahasına bir neçə saatda yağı düşməndən azad olundu.

Nəhayət, 2020-ci ilin noyabrın 8-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hər bir azərbaycanlı üçün müqəddəs sayılan bir

məkandan - Şəhidlər xiyabanından Şuşanın işğaldan azad edilməsi ilə bağlı xoş müjdəni xalqımıza çatdırdı. Ali Baş Komandan İlham Əliyev cənabları xalqa müraciətində tarixi çıxış etdi və Ata vəsiyyətinə əməl etdiyini və Şuşa şəhərinin işğaldan azad edilməsi xəbərini bizlərə verdi: "Sən azadsan əziz ŞUŞA!".

Arzumuz reallığa çevrildi. Şuşa öz sahibinin oldu. Lakin bu bəs deyildi. Biz hər bir qarış torpağımızı, hər bir daşımızı, ağacımızı, yurdumuzu-yuvamızı sonuna qədər istəyirdik. Şuşa azad edildikdən dərhal sonra noyabrın 9-u Bayraq Günündə Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini yenidən sevindirdi. Beləliklə də, Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları puç oldu, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası bütün anlamını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı.

Beləliklə, Azərbaycan Ordusu nəinki düşməni diz çökdürərək onların 28 il qeyd etdikləri işğal "bayram"ını - 8 may gününü" tarixdən sildi, Müzəffər Ali Baş Komandan əsl sərkərdəlik, siyasi iradə nümayiş etdirərək bizi həsrətində olduğumuz yurd yerlərimizə, tarixi ərazilərimizə qovuşdurdu. Artıq bu gün 8 may tarixini Şuşanın işğal edildiyi gün kimi yox, işğaldan azad olunan, tikilən, qurulan və Azərbaycanın mədəniyyət paytaxtı kimi qarşılayırıq. Təsadüfi deyil ki, Şuşaya qədər işğaldan azad edilən ərazilərdən qaçan, itkilər verərək geri çəkilən erməni hərbçiləri haqqında yaradılan mif Şuşada birdəfəlik darmadağın edildi və 44 gün davam edən İkinci Vətən Müharibəsində düşmənə "Dəmir yumruğun" zərbəsi ilə qürur yerimiz - Şuşamız azad edildi! Azərbaycanın 28 illik Şuşa yarası sağaldı! Bu gün Azərbaycan Bayrağı Şuşada dalğalanır.

2020-ci il 8 noyabrda Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının Şəhidlər xiyabanından xalqa tarixi müraciəti və bu müraciətlə Şuşanın azad olunması müjdəsini verərək ulu öndərin vəsiyyətin yerinə yetirməsini qürurla bəyan etdi: "Xoşbəxt adamam ki, Ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Bu gün artıq təqdir olunası haldır ki, Azərbaycan Prezidentinin

işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşaya təyin edildi. Bundan əlavə, Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamla Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Ölkə başçısının tapşırığına uyğun olaraq, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində Heydər Əliyev Fondu tərəfindən təşkil olunan "Xarıbülbül" musiqi festivalı Şuşanın əsrarəngiz Cıdır düzündə keçirildi. 2021-ci il yanvarın 14-dən – Prezidentin Şuşa səfərindən etibarən Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi, büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, dahi mütəfəkkirin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev-muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin – Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı. Məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi. Şuşanın baş planı təsdiq edildi, yeni yaşayış kompleksinin təməli qoyuldu, 2022-ci il "Şuşa İli" elan edildi.

Bir sözlə, işğal dövründə düşmənə boyun əyməyən, Şuşanı xalqımıza qaytaran Prezident İlham Əliyev cənablarının diqqəti və qayğısı ilə Qarabağın tacı yenidən qurulur və milli mədəniyyətimizin ünvanı kimi əvvəlki şöhrətini tədricən bərpa edir. Dövlət başçımızın söylədiyi kimi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq, biz səni dirçəldəcəyik!"

Yeniləşən, inkişaf edən Yeni Azərbaycan Partiyası möhtəşəm zirvələrə doğru

Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 32-ci ildönümünü tarixi ədalətin bərpa olunduğu, haqq savaşımızda qələbə qazandığımız – "Qarabağ Azərbaycanındır!" NİDA-sının qoyulduğu tarixi günlər ərəfəsində qeyd edirik. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yenilməz Ordumuzun düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad etməsi bütün bəşəriyyətə ölkəmizin gücünün, qüdrətinin daha bir nümayişi oldu. Azərbaycan

bütün dünyaya göstərdi ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı zəfər yürüşü 44 gün ərzində 30 ilin həsrətinə son qoydu, avantürist Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı.

Bu gün ən maraqlı məqam odur ki, YAP-ın yaranmasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Bu böyük qələbəni bizə Müzəffər Ali Baş Komandanımızın misilsiz cəsarəti və rəşadətli Ordumuz nəsib etdi. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən Zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Prezident İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" – deyən Ulu Öndərin arzusunu reallaşdırdı. "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının ildönümünü tarixi bir anlarda- Qarabağımızın, Azərbaycanımızın, Ali Baş Komandanımız, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzunu, rəşadətli əsgər və zabitlərimizin Qələbəsi günündə qeyd edirik. Ona görə də deyirik – Yeni Azərbaycan Partiyası, ildönümün mübarək! Qarabağ Azərbaycandır! Gözün aydın, Azərbaycan!

Bəli, tarixi zərurətdən yaranan və 32-ci ildönümü tamam olan YAP-ın cəmiyyətdə alternativsiz siyasi qüvvə kimi qəbul olunması onun ötən illərdə hər bir fərdin arzu və istəklərinin təminatçısına çevrilməsi ilə şərtlənir. Bu mənada YAP-ın növbəti ildönümü təkcə partiyamızın çoxsaylı üzvləri üçün deyil, ümumilikdə Azərbaycanın hər bir vətəndaşı üçün son dərəcə əlamətdardır. Xalqın taleyində müstəsna rol oynayan, Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran bir siyasi qüvvənin – Yeni Azərbaycan Partiyasının yaranmasının 32-ci ildönümü ölkəmizin hər bir

guşəsində təntənəli şəkildə qeyd olunur. Çünki Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış YAP ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı qismində çıxış etmişdir. Azərbaycanın son illərdə keçdiyi mürəkkəb və ziddiyyətli yola nəzər salarkən YAP-ın xalqın və dövlətin taleyində mühüm rol oynayan partiya olduğu bir daha təsdiqini tapır. Ümumiyyətlə, ötən illərin reallıqları "Heydər Əliyev partiyası"nın kifayət qədər mürəkkəb və çətin şəraitdə ictimai zərurətdən yarandığını, xalqın mənafeyi naminə qarşıya qoyduğu hədəflərə doğru inamla irəlilədiyini, bir sözlə, xilaskarlıq və quruculuq missiyasının öhdəsindən əzmlə gəldiyini göstərir.

YAP-a Ulu Öndər Heydər Əliyev kimi dünya şöhrətli LİDERİN Sədrlik etməsi isə partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi. Təsadüfi deyildi ki, o illərdə Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsinin əngəllənməsi üçün Kostitusiyaya yaş senzi ilə bağlı qondarma maddə daxil edilmişdi. 1992-ci ilin aprel ayında xalqın iradəsinin ziddinə qəbul edilmiş bu antidemokratik addıma etiraz olaraq müxtəlif aksiyalar, imzatoplama kampaniyaları keçirilirdi. Ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq 1992-ci il oktyabr ayının 16-da Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə məktubla verdiyi müsbət cavab Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyəti üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi.

Qeyd edək ki, müraciətlər "SƏS" qəzetində dərc olundu. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xilası naminə YAP-a rəhbərlik etməyə razılıq verməsi onun böyük siyasətə qayıdışının əsasını qoydu. 1992-ci il noyabrın 21-də partiyanın təsis qurultayı keçirildi. AXC-Müsavat hakimiyyətinin ümummilli liderin Bakıya gəlməsinə ciddi maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək təsis konfransını orada keçirməyə nail oldu. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərarı, partiyanın proqram və nizamnaməsini qəbul etdi, Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. YAP-ın qısa müddətdə ölkənin siyasi sistemində aparıcı təşkilata çevriləcəyi, onun ətrafında

toplaşmış intellektual potensialın xalqımızın ümummilli problemlərinin həllində mühüm faktorlardan biri olacağı aksiom idi. Bir sıra səbəblər bu qənaətə gəlməyə ciddi əsaslar yaradırdı. Çünki YAP-a Heydər Əliyev kimi dünya şöhrətli LİDERİN sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi. İkincisi, ölkəmizin böyük nüfuza və hörmətə malik yüksək intellekt sahibləri partiya sıralarında birləşmişdi. Üçüncüsü, partiya Azərbaycanın bütün regionlarını təmsil edən ciddi sosial bazaya əsaslanırdı. Ən nəhayət, Yeni Azərbaycan Partiyasının siyasi fəaliyyətinin ictimai rəydə doğurduğu müsbət reaksiya onun cəmiyyətə təqdim etdiyi ideologiyanın cəlbediciliyində özünü göstərirdi.

YAP bu gün cəmiyyətdə böyük nüfuza malikdir. Partiyanın proqramında irəli sürülmüş əsas vəzifələr – dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi xalqımızı tam qane edir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasına çevrilmişdir. Bütün bunların fonunda YAP-ın 32 ildə ölkənin siyasi sistemində aparıcı təşkilata çevrildiyi, onun malik olduğu potensialın respublikanın problemlərinin həllində mühüm faktorlardan biri kimi çıxış etdiyi təkzibolunmaz həqiqətdir.

YAP-a cənab İlham Əliyev kimi güclü siyasi Liderin rəhbərlik etməsi partiyanın nəinki daxildə, eləcə də respublikamızdan kənarda güclü və nüfuzlu siyasi qüvvə kimi qəbul olunmasını təmin edir və YAP-ın siyasi fəaliyyətinin ictimai rəydə doğurduğu müsbət reaksiya onun cəmiyyətə təqdim etdiyi ideologiyanın cəlbediciliyində özünü göstərir. Partiyanın qarşıya qoyduğu məqsədlər bütün dövrlərdə zamanla səsləşdiyindən, ictimaiyyətin böyük diqqətinə, marağına səbəb olur. Hakim partiya məhz ictimai maraqları mütəşəkkil şəkildə realizə etməklə ölkə vətəndaşlarının siyasi istinadgahına çevrilməyə nail olmuşdur. Ölkənin xüsusən də son illər əldə etdiyi böyük uğurlar YAP kimi nüfuzlu partiyanın hakimiyyət Olimpində qalması və daha da möhkəmlənməsi yolunda bütün siyasi baryerləri aradan qaldırır.

32 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan

Partiyası öz sıralarında 730 mindən çox insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Bu partiya fəaliyyətinin ilk günündən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi. Yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Ulu Öndər Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. YAP fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Bütün bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Partiya təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

Bəli, Yeni Azərbaycan Partiyası 32 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması, ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə

həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın VII qurultayında çıxışı zamanı bir çox məsələlərə toxunaraq demişdir ki, VII qurultay ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Göründüyü kimi, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu son 32 ildə bu qədər qürurlu olmamışdı – 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Prezident İlham Əliyev qurultayda bildirdi ki, Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "YAP Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi",-deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin

1970-1980-ci illərin əvvəllərində gördüyü işlərin önəmli olduğunun söyləyib: "Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır".

YAP-ın 32 ildəki ən böyük uğurlarından biri partiyanın cəmiyyətin bütün təbəqələrinin maraqlarını ifadə edən ümummilli siyasət yürütməsidir. Ümumiyyətlə, YAP yarandığı gündən sosial ədalət prinsipinə də sadiqlik nümayiş etdirmişdir. Belə ki, cəmiyyətlərdə sosial sabitliyə nail olmaq, humanizm və ədalət prinsiplərini qorumaq dövlətin siyasətinin əsas istiqamətlərindəndir. Bu, özünü bütün seçkilərdə də göstərib. Partiya istər prezident, istər parlament, istərsə də bələdiyyə seçkilərində daim öndə olub, tarixə qələbə və zəfərlər partiyası kimi düşüb. Biz növbəti qələbə və zəfərlər yolunda Yeni Azərbaycan Partiyası ətrafında daha da sıx biləşərək, irəliyə doğru inamla addımlayırıq! Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının dediyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq".

Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük

əməyi, zəhməti, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var".

Biz Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi unudulmaz töhfələrlə, müstəqilliyimizlə, bu günümüzlə inkişafımızla, xoşbəxt həyatımızla fəxr edir və gələcəyimiz uğurunda düşünürük. Sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Hər bir Azərbaycan vətəndaşı Vətənini, xalqını sevən hər bir kəs Yeni Azərbaycan Partiyasını, Ulu Öndər Heydər Əliyevə və böyük rəhbərin sədaqətli davamçısı Prezidentimiz İlham Əliyevlə qürur duymağa haqlıdır. Belə bir gündə uğurlarımızla sevinməyə, öyünməyə dəyər.

Xalqımız inanır ki, bu gün tarixi qələbəmizi reallaşdıran, bizi qalib xalqa çevirən Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial islahatlar proqramı qarşıdakı dövrdə də əmək, məşğulluq, sosial müdafiə sahələrində yeni mühüm irəliləyişlərə nail olunmasını təmin edəcək, dövlətimizi daha firavan gələcəyə aparacaq.






Qalib ölkənin və
qəhrəman xalqın
LİDERİ
















Müzəffər
Komandanın
“Dəmir
yumruq”
həqiqəti


VƏTƏN MÜHARİBƏSİ BİZİM ŞANLI TARİXİMİZDİR!




























YAA
YAA
YAA
YAA




QƏRARGAH

III FƏSİL

YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ

Azərbaycanın COP29-a evsahibliyi etməsi Prezidentin növbəti diplomatik qələbəsidir

Son 20 ildə Azərbaycan Respublikası Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında çox mühüm tarixi uğurlara imza atmış, eyni zamanda, ölkəmiz beynəlxalq və regional əhəmiyyətli çoxsaylı tədbirlərə evsahibliyi etmişdir. Həm paytaxt Bakı şəhərində, həm də digər regionlarımızda keçirilən tədbirlərdə yüksək səviyyəli təşkilatçılıq diqqəti cəlb etməklə zəngin təcrübə formalaşmışdır. Belə ki, Azərbaycanın BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin dünya birliyində qazandığı böyük nüfuzundan xəbər verir. Qeyd edək ki, Qoşulmama Hərəkatına sədrliyi və belə mötəbər tədbirlərə evsahibliyi etmək ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin göstəricisidir. Məhz Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycanın Hərəkata sədrliyi bir il uzadıldı.

Ötən 5 il ərzində ölkəmizin BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu və əksər üzv dövlətlər tərəfindən nümunəvi sədrlik olaraq təqdir edilməkdədir. Göründüyü kimi, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərarı Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin uğuru, dünyadakı nüfuzunun daha bir göstəricisi və onun şəxsiyyətinə verilən yüksək dəyərin ifadəsidir. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Dövlət başçısı bir daha bu spekulyasiyaları alt-üst etdi və Azərbaycanın müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini sübuta yetirdi. Dövlətimizin başçısı bu təşəbbüsü ilə Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi.

Ölkəmizin qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq. Qeyd edək ki, COP29 beynəlxalq konfrans

kimi məsuliyyətli bir tədbirdir və bu tədbirin keçirilməsinə az vaxt qalsa da, hazırlıq işləri yüksək səviyyədə təşkil olunur. Belə ki, ötən il dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirdə qeyd etdiyi kimi, ölkəmiz növbəti böyük uğura imza atıb. Nüfuzlu, qlobal xarakterli tədbirin məhz Bakıda keçirilməsinə dair qərar Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilməsinin təsdiqidir: "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı".

Ölkəmizin başçısı, həmçinin vurğulayıb ki, bu hadisənin önəmi, bir də ondadır ki, bu qərar antiterror tədbirlərindən iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Prezident bildirib ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünya miqyasında xüsusi əhəmiyyətə malik ölkəyə çevrilib. 2024-cü ildə Bakı ekoloji və iqlim məsələlərinin həll olunduğu qlobal mərkəzə çevriləcək. COP29 konfransında 190-dan çox ölkədən nümayəndənin Azərbaycanda bir araya gəlməsi gözlənilir. Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının əvvəlki təşkilatçılarını üstələmək, nəticədə iqlim və ekoloji çağırışların həllində təsirli nəticələr əldə etmək üçün bütün ilkin şərtlər var. Azərbaycan hökumətinin ekoloji siyasəti və qlobal istiləşmə ilə mübarizə üzrə fəal tədbirləri digər regionları və ölkələri də analoji tədbirlər həyata keçirməyə sövq edir. Bu, böyük bərpa edilməsi bizə olan hörməti daha da artırdı".

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsinə dünya birliyinin dəstək verməsi ölkəmizin beynəlxalq arenada qazandığı etibar, hörmət və nüfuzdan irəli gəlir. Azərbaycan özünü beynəlxalq birliyin

ləyaqətli üzvü kimi aparır və ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirləri yüksək səviyyədə həyata keçirir.

Prezident İlham Əliyev müşavirədə müstəqil Azərbaycanın paytaxtı Bakının iki həftə ərzində dünyanın mərkəzi olacağını vurğulayaraq bildirmişdir ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir: "Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq". Bir sözlə, Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan, dövlət başçımızın söylədiyi kimi: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq". Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

Etimad, inteqrasiya və əməkdaşlıq məkanı

Bu gün dünyanı narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Bəli, indiyəcən dünyada elə bir qlobal ekoloji təşəbbüs olmayıb ki, ölkəmiz ona qoşulmasın. Bütün sahələrədə olduğu kimi, Azərbaycan qlobal iqlim dəyişikliyi ilə mübarizədə də fəallığı ilə seçilir. Beynəlxalq birliyin məsuliyyətli üzvü kimi, Azərbaycan hər zaman qlobal iqlim siyasəti ilə bağlı dövlətlərin apardığı birgə fəaliyyətə əhəmiyyətli dəstək və töhfə verir, "yaşıl hədəflər" uğrunda daha çox səy göstərilməsini təşviq edir. Kənd təsərrüfatı, su resursları, enerji, meşə, turizm, səhiyyə sektoru və sahilyanı zonaları Azərbaycanda iqlim dəyişikliyinə həssasdır. Bu problemə qarşı mübarizədə diqqətin artması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyev 25 dekabr 2023-cü il tarixdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir. Digər tərəfdən dövlət başçımızın 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi bütün il ərzində bu sahədə fəaliyyətimizi

genişləndirəcəyimizdən və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərin xeyli dərəcədə intensivləşəcəyindən xəbər verir.

Cari ilin aprel ayının 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda çıxış edən Prezident İlham Əliyev COP29-un Azərbaycanda keçirilməsinin önəmindən bəhs edərək bildirmişdir ki, əlbəttə, bu, Azərbaycana olan beynəlxalq ictimaiyyətin böyük hörmət və dəstəyinin təzahürüdür. Cənab İlham Əliyev beynəlxalq ekspert, ABŞ-ın Azərbaycanda sabiq səfiri Metyu Brayzanın sualına cavabında bu mühüm məqama da diqqəti yönəltdi ki, iqlim dəyişiklikləri məsələlərinin həlli baxımından COP29-un uğurla keçməsini istərdik. Eyni zamanda, bu, fikirlərimizi söyləmək üçün fürsət olacaq. Dünyaya söyləyəcəyimiz məsələlər çoxdur. Həqiqəti söyləmək imkanımız var. Ev sahibi olmağın üstünlüklərindən biri ondan ibarətdir ki, biz on minlərlə insanı qəbul edirik. Onların əksəriyyəti ölkəmizə ilk dəfə səfər edirlər.

Bir sözlə, Azərbaycanın 2024-cü ildə COP-29-a evsahibliyi etməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun günbəgün artdığını sübut edir. Çünki Cənubi Qafqazda yaranmış yeni reallığın müəllifi də məhz Azərbaycandır. Hətta, tarixi Zəfərimizi hələ də həzm edə bilməyən və ya onu qısqanclıqla qarşılayan məlum dairələr belə, bu gerçəkliyi etiraf etmək məcburiyyətindədirlər. Çünki Azərbaycan öz haqqını və tarixi ədaləti beynəlxalq hüququn fundamental norma və prinsiplərinə, BMT Nizamnaməsinin 51-ci maddəsinə tam uyğun şəkildə həyata keçirib. İstər 44 günlük Vətən Müharibəsində, istərsə də, birgünlük antiterror tədbirləri çərçivəsində Azərbaycan beynəlxalq hüququn tələblərindən kənara çıxmadı. Antiterror tədbirlərdən sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürsələr də bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror tədbirləri keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Prezident İlham Əliyev cari ilin 15 dekabr tarixində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP 29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə səsləndirdiyi fikirlər bu mənada xüsusilə diqqət

çəkir: “Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.”

Bu gün isə yaşıl enerji növlərinin yaradılması və dünya bazarlarına nəqli bizim enerji siyasətimizin prioritetidir. Hazırda üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk. Bu gün Azərbaycan, dövlət başçımızın söylədiyi kimi: “Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq”.

Bir sözlə, bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək. Əminliklə deyə bilərik ki, Azərbaycan COP-29-a da uğurla evsahibliyi edəcək və ölkəmizdə keçiriləcək tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək xüsusi hadisələr və təşəbbüslərlə yadda qalacaq. Beləliklə, “COP29-a evsahibliyi Azərbaycana nə qazandıracaq?” – sualına bu möhtəşəm tədbirə uğurla evsahibliyi etdiyimiz zaman qaznacağımız uğurlarla birlikdə cavab tapacağıq. Bu gün Azərbaycan etimad, inteqrasiya və əməkdaşlıq məkanıdır. Həmişə olduğu kimi!

COP29 – Azərbaycanda həmrəylik tədbiri

Şuşada növbəti - “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumu keçirilməsi bir daha Şuşamızın beynəlxalq tədbirlər mərkəzinə çevrilməsinin göstəricisidir. Ən əsası isə, Prezident İlham Əliyev cənablarının forumun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər, dünyanın müxtəlif ölkələrində jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar dünya mediasının diqqət mərkəzində olub.

Şuşa Qlobal Media Forumunun mövzusu son dərəcə aktualdır – “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə”. Belə bir mövzunun seçilməsi adi məsələ sayıla bilməz. Çünki həm bizim qarşılaşdığımız, həm də bütövlükdə, dünyanın üzləşdiyi reallıqlar var. Elə bir reallıqlar ki, onların ədalətsizlik payı bəşəri dəyər və prinsipləri təhdid

təbiətinə malikdir. Prezident İlham Əliyev "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumunun açılışında bildirib ki, Azərbaycan uzun illər ərzində faktların manipulyasiyasının, yanlış narrativlərin qurbanı olub. Dövlətimizin başçısı mövcud xüsusda ayrı-ayrı detalları da açıqlayıb. Məsələn, erməni diasporunun ölkəmizə qarşı səfərbərliyi, ermənipərəst siyasətçilərin, media nümayəndələrinin hücumları, yanlışlıqlar yaymaları, respublikamızı reallıqdan çox uzaq bir şəkildə təqdim etmələri. Bütün bunları görə-görə gəlmişik.

Digər tərəfdən, Prezident İlham Əliyev Azərbaycana yönəlmiş dezinformasiya savaşının daha bir seqmentini də açıqlayıb. Söhbət ölkəmizlə bağlı natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlardan gedir ki, ayrı-ayrı xarici media orqanlarının qərəzli münasibəti qaldığı kimi, həmin hesabatlar da yenə yayılmaqdadır. Dövlətimizin başçısı bu hesabatların Qərbdən qaynaqlandığını vurğulayır və belə mənfi təmayüllərin mövcudluğuna görə təəccübləndiyimizi, məyus olduğumuzu bildirir.

Qeyd edək ki, iyulun 20-də ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərində "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib və "Euronews" televiziyasının aparıcısı və prodüseri xanım Rebekka Maklaflin-İsthamın və iştirakçıların suallarını cavablandırıb.

Prezident İlham Əliyev öz çıxışında onu da vurğulayıb ki, bu gün Azərbaycanın daxil olduğu regionda – Cənubi Qafqazda tarixi transformasiya, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar zəifləyir, yeni əməkdaşlıq formatları meydana gəlir. Bu tarixi gedişata müdaxilə etmək, prosesi öz maraqlarına uyğun şəkildə dəyişmək istəyən güc mərkəzləri vardır. Belə mərkəzlər dezinformasiya yaymaqla hadisələrin təbii gedişatını dəyişmək istəyirlər. Amma Prezident onu da vurğuladı ki, indi Cənubi Qafqazda müharibədən qalib çıxmış, ərazi bütövlüyünü və suverenliyini təmin etmiş qüdrətli Azərbaycan vardır. Azərbaycan öz ərazisini

və siyasətini kənar müdaxilələrdən qorumaq gücündədir. “Bizim atdığımız bütün addımlar və etdiyimiz təşəbbüslər əsas məqsədi güdür: ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək”. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 20-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda deyib. Prezident İlham Əliyev bir sıra məsələlərdən söz açmaqla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri barədə də ətraflı məlumat verib. COP29-u qlobal miqyasda ən mühüm hadisələrdən biri, dünyada bir nömrəli konfrans kimi dəyərləndirən Prezident İlham Əliyev belə bir tədbirin postsovet məkanında ilk dəfə keçirildiyini vurğulayaraq bildirib ki, bu, misilsiz bir şansdır ki, biz ən yüksək liqaya daxil oluruq: “Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik, Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatının sədrliyini etmişik”.

Prezident İlham Əliyev, həmçinin bildirib ki, bizim atdığımız bütün addımlar və etdiyimiz təşəbbüslər əsas məqsədi güdür: ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək. Dövlət başçımız COP29-un bu istiqamətdə önəmli addım olacağını vurğulayıb. Amma bəziləri hələ də bu ali məqsədi anlamaq istəmirlər. Bu məqama toxunan dövlətimizin başçısı deyib: “Biz bu istəkdə olanda bəziləri bəlkə də bunu anlamırdı. Bu gün də buna ağız büzənlər var: “Nəyə lazımdır?”, “Qoyun rahat yaşayaq”, “Yenə tədbir olacaq, yenə qonaq gələcək”. Biz artıq bunun bəhrəsini görürük. Azərbaycanın geosiyasi əhəmiyyəti artıq önəmli dərəcədə artıb. Bizim beynəlxalq müstəvidə təmasda olduğumuz ölkələrlə ikitərəfli əlaqələrimiz artıq başqa məcrada inkişaf edir”.

Qeyd edək ki, Azərbaycan həmişə inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə həmrəy olub, onların legitim maraqlarını və narahatlıqlarını müdafiə edib. Təkcə bir faktı xatırladaq ki, pandemiya zamanı Azərbaycan, həmçinin 80-dən çox ölkəyə, o cümlədən 20-yə yaxın İnkişaf etməkdə

olan kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Keçən ilin mart ayında isə Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyev inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyadan sonrakı bərpanı dəstəkləmək üçün fəaliyyətə Qlobal çağırış elan edib. Dövlətimizin başçısı bu çağırışla beynəlxalq ictimaiyyəti pandemiyanın sosial-iqtisadi nəticələrinin aradan qaldırılması üçün İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə maliyyə yardımı və birbaşa iqtisadi dəstək göstərməyə dəvət edib. Bu gün Azərbaycan dövlət başçısının dünyada qazandığı yüksək nüfuz bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinə imkan yaradır. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüslər, qlobal məsələlərdə yüksək fəaliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən dəstəklənir və təqdirəlayiq hesab edilir. Elə COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın qəbulu da bir daha göstərdi ki, dünya ölkələri İlham Əliyevin fəaliyyətinə yüksək qiymət verirlər.

Beləliklə də, artan nüfuz, güc, iqtisadi qüdrət Azərbaycanı həm də müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq mübarizəsinin qlobal platformasına çevirib desək, yanılmarıq. Bütün bunlar isə Prezident İlham Əliyevin yürütdüyü mütərəqqi siyasətin tərkib hissəsidir. Dövlət başçımızın söylədiyi kimi: "Bakıdakı COP üçün seçdiyimiz "Yaşıl dünya naminə həmrəy olaq" şüarı bizim COP29 missiyamızın ruhunu əks etdirir". Bir sözlə, bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi humanizm siyasətinin tərkib hissəsidir. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcək. Bu mötəbər toplantıda bir daha ölkəmizdən dünyaya həmrəylik çağırışı ediləcək. Bir sözlə, Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Bakıdakı COP29 üçün seçdiyimiz "Yaşıl dünya naminə həmrəy olaq" şüarı bizim COP29 missiyamızın ruhunu əks etdirir.

“Yaşıl dünya” Azərbaycanın qlobal nüfuzunu bir daha təsdiqləyəcək

Bu gün artıq Azərbaycanın yüksək səviyyəli mötəbər tədbirlərin məkanına çevrilməsi reallıqdır və bu da dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə, son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzun onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 20 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub.

Belə ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi də məhz tarixi hadisə olmaqla yanaşı, həm də ölkəmizin böyük etimad və hörmət sahibi olduğunu sübut edir. Azərbaycan bu beynəlxalq hörmətə məhz Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində nail olub. Prezident İlham Əliyev ötən il dekabrın 15-də keçirdiyi müşavirədə bu tədbirə Bakının evsahibliyi etməsi qərarının dünyanın əksər ölkələri tərəfindən dəstəkləndiyini, Azərbaycana növbəti dəfə böyük etimad göstərildiyini qeyd edərək bildirmişdir: “Biz buna layiqik, çünki uğurlu siyasi gedişlərimiz nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Bunun nəticəsidir ki, beynəlxalq aləmdə Azərbaycana olan hörmət günbəgün artır. Bu, reallıqdır”.

Ölkə başçısı COP29-a hazırlıq işləri ilə bağlı çıxışında da bildirib ki, bu tədbirə hazırlıq işləri ən vacib amildir: “Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik”.

Prezident ilk gündən bu əminliyi ifadə etdi ki, hazırlıq yüksək səviyyədə təşkil olunacaq. Artıq bu gün ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.

Belə ki, sentyabrın 10-da Prezident İlham Əliyev cənablarının Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış oldu. Qeyd olundu ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır. Prezident görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

Bakıda təşkil olunacaq COP29 konfransına hazırlıq prosesi dövlət başçımızın həmişə diqqət mərkəzindədir. Belə ki, Prezident İlham Əliyev keçirilən görüşlərdə COP29-a hazırlıq işləri ilə yanaşı böyük məsuliyyət tələb etdiyini bildirir. Dövlətimizin başçısı ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumdakı çıxışında mühüm məsələlərə toxunaraq bildiririb ki, son dövrlər əldə etdiyi uğurlardan, perspektivdə görüləcək işlərdən, o cümlədən paytaxt əstəyin göstəricisidir: "Biz hazırlığın fəal mərhələsindəyik. COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir".

İki həftə keçiriləcək belə mötəbər tədbirə – COP29-a evsahibliyi etmək hüququ qazanmağımız etimad və etibarın təsdiqidir. Prezident İlham Əliyev Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksəksəviyyəli Seqmentində çıxışında da bir daha hazırlıq işləri ilə bağlı bildirib ki, COP 29-a evsahibliyi edəcək ölkə kimi Azərbaycan fəal hazırlıq prosesindədir. Bu qlobal tədbir üçün Azərbaycanın bir ildən az vaxtı olduğunu vurğulayan dövlətimizin başçısı əlavə edib ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi, təbii ki, üzərimizə böyük məsuliyyət qoyur: "COP 29-a evsahibliyi edəcək ölkə kimi Azərbaycan fəal hazırlıq prosesindədir və irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur".

Azərbaycan daim iqtisadi, siyasi, humanitar, diplomatik mərkəz kimi dünyanın diqqətindədir. COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbul edilməsindən bugünədək təhlillərə, söylənilən rəylərə diqqət yetirdikdə Azərbaycana beynəlxalq baxışın olduqca yüksək səviyyədə olduğunu görür və bundan böyük qürur hissi keçiririk. Dövlətimizin başçısı hər bir çıxışında, səfərində diqqəti bu mötəbər tədbirə yönəldərək yeni körpülərin qurulacağını böyük əminliklə bildirir.

Bir sözlə, Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Azərbaycan, dövlət

başçımızın söylədiyi kimi: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq…Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Qlobal iqlim dəyişiklikləri ilə mübarizədə gündəliyimiz aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənib

Bu gün qalib, bütövləşən yeni Azərbaycan daha bir qürurverici hadisə ilə dünyanın diqqətində olacaq. Ölkəmiz noyabr ayında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi edəcək. Çünki bu gün Azərbaycan dünyada qlobal problemlərin həllinə mühüm töhfələr verən və bu istiqamətdə keçirilən beynəlxalq tədbirlərə evsahibliyi edən ölkə kimi tanınır. Prezident İlham Əliyev sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında COP29-un Azərbaycanda keçirilməsi qərarını beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amil olduğunu bildirib: "COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir".

Xarici siyasətdə bundan sonra da geriyə heç bir addımın olmayacağını vurğulayan dövlətimizin başçısı bütün qitələrdə dostlarımızın sayının artdığını söyləyib. Deyib ki, biz indi - İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq.

Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan, ciddi və böyük uğurlara imza atmış tərəfdaş ölkə kimi qəbul edirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir və dünyanın ən nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət

qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 21 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hər şeydən öncə qeyd olunması vacib məqam budur ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə evsahibliyi etməsi üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti təntənəli qələbəsi kimi tarixə düşdü. Beynəlxalq ictimaiyyətin bu yüksək etimadı Azərbaycan dövlətinin nüfuz göstəricisinin bariz nümunəsidir. Bu qərar, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Dövlət başçısı bir daha bu spekulyasiyaları alt-üst etdi və Azərbaycanın müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini sübut etdi. Azərbaycan Prezidenti İlham Əliyev bu təşəbbüsü ilə dövlətimizin qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi.

Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq. Ən diqqətçəkən məqamlardan biri də budur ki, bütün postsovet məkanında ilk dəfə olaraq məhz Azərbaycan bu mötəbər qlobal tədbiri keçirmək hüququna sahib oldu. Bu məsələdə beynəlxalq aləmin vahid mövqedən çıxış etməsi də Azərbaycanın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir. Beynəlxalq birliyin belə qlobal tədbirə evsahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi Prezident İlham Əliyevin yürütdüyü siyasətə dünya səviyyəsində olan böyük hörməti, möhkəm dəstəyi nümayiş etdirir. Bu baxımdan gələn ay, yəni noyabr ayında bütün dünya ölkələrinin və beynəlxalq təşkilatların, ümumilikdə 70-80 minədək təmsilçisini ətrafına toplayacaq COP29 Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirən ən böyük beynəlxalq tədbirlərdən biri olacaq.

Bununla bağlı dövlətimizə əhəmiyyətli dərəcədə böyük beynəlxalq dəstək göstərilir. Belə ki, sentyabrın 16-da Prezident İlham Əliyevə zəng vuran ABŞ Dövlət katibi Antoni Blinken tədbirin uğurla keçirilməsi üçün

ölkəsinin müvafiq addımlar atacağını qeyd edərək Azərbaycanla ABŞ-nin COP komandalarının və heyətlərinin yaxından əməkdaşlıq etdiklərini vurğulayıb. Cənab İlham Əliyev bu əməkdaşlıqdan məmnunluğunu ifadə edərək COP çərçivəsində iqlim maliyyələşdirilməsi ilə əlaqədar mühüm qərarların qəbul edilməsi barədə xüsusilə inkişaf etmiş dövlətlər tərəfindən konsensusun əldə ediləcəyinə ümidini ifadə edib.

Bu ilin mart ayında Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı Fondunun prezidenti Volfqanq İşingeri qəbul edərkən bildirmişdi ki, COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar əldə olunan razılaşmalar məhz sülh gündəliyi əsnasında meydana çıxan məqamlardır: "Azərbaycan da bu xüsusda regionda COP29 kontekstində sülh gündəliyinin irəliyə aparılması üçün səylərini göstərəcək".

Dövlət başçısı İlham Əliyev cənablarının COP29-la bağlı fikirlərinə diqqət yetirdikdə bu məqamın xüsusi yer aldığını görürük. Qeyd edir ki, COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq. Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

Prezident İlham Əliyev suverenliyimizin bərpasından sonra yeni dövrə qədəm qoyan Azərbaycanın hədəflərindən bəhs edərkən bu çağırışı etdi ki, yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir: "Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq."

Göründüyü kimi, Azərbaycan qlobal problemlərin həllinə töhfələr verən, beynəlxalq həmrəyliyin gücləndirilməsinə çağırışlar edərək bunu

əməli fəaliyyəti ilə təsdiqləyən ölkə kimi tanınır və nüfuz qazanır. Hər dövrün çağırışı yüksək səviyyədə cavablandırılır. Şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, xalqın yaşayış standartlarının yüksəldilməsi istiqamətində qətiyyət göstərən ölkəmiz davamlı tərəfdaşlıq və əməkdaşlığa sadiqdir. COP29 ilə Azərbaycan sülhpərvər dövlət olduğunu bir daha dünyaya bəyan edəcək.

Azərbaycan Prezident Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksəksəviyyəli Seqmentində çıxışında da bir daha hazırlıq işləri ilə bağlı bildirib ki, COP 29-a evsahibliyi edəcək ölkə kimi, Azərbaycan fəal hazırlıq prosesindədir. Dövlətimizin başçısı əlavə edib ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi, təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Bəli, həm də böyük məsuliyyət!. Çünki tədbir keçirildiyi iki həftə ərzində Azərbaycan paytaxtına 70-80 min xarici qonaq gələcək. Dövlətimizin başçısı deyib: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

"Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq»,-deyən dövlət başçısı bu gün Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı: "Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi".

Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bu gün Azərbaycan, dövlət başçımızın söylədiyi kimi: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq...Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunun şahidi olacaq".

"Yaşıl artım" siyasəti Azərbaycanın dünyadakı nüfuzunu daha da yüksəldəcək

Bu gün qalib, bütövləşən, yeni Azərbaycan noyabr ayında daha bir qürurverici hadisə ilə - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi edəcək. Çünki bu gün Azərbaycan dünyada qlobal problemlərin həllinə mühüm töhfələr verən və bu istiqamətdə keçirilən beynəlxalq tədbirlərə evsahibliyi edən ölkə kimi tanınır. Prezident İlham Əliyev sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında COP29-un Azərbaycanda keçirilməsi qərarını beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amil olduğunu bildirib: "COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir".

Xarici siyasətdə bundan sonra da geriyə heç bir addımın olmayacağını vurğulayan dövlətimizin başçısı bütün qitələrdə dostlarımızın sayının artdığını söyləyib. Deyib ki, biz indi - İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan, ciddi və böyük uğurlara imza atmış tərəfdaş ölkə kimi qəbul edirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir və dünyanın ən

nüfuzlu və sabit inkişaf etməkdə olan ölkələri arasında öz yerini kifayət qədər möhkəmləndirib. Bu da, təbii ki, müstəqillik illərində ümummilli lider Heydər Əliyevin formalaşdırdığı uğurlu daxili və xarici siyasət, eləcə də son 21 ildə Prezident İlham Əliyevin yürütdüyü milli maraqlara söykənən siyasi xəttin sayəsində mümkün olub. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hər şeydən öncə qeyd olunması vacib məqam budur ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti təntənəli qələbəsi kimi tarixə düşdü. Beynəlxalq ictimaiyyətin bu yüksək etimadı Azərbaycan dövlətinin nüfuz göstəricisinin bariz nümunəsidir. Bu qərar, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Dövlət başçısı bir daha bu spekulyasiyaları alt-üst etdi və Azərbaycanın müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini sübut etdi. Azərbaycan Prezidenti İlham Əliyev bu təşəbbüsü ilə dövlətimizin qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi.

Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq. Ən diqqətçəkən məqamlardan biri də budur ki, bütün postsovet məkanında ilk dəfə olaraq məhz Azərbaycan bu mötəbər qlobal tədbiri keçirmək hüququna sahib oldu. Bu məsələdə beynəlxalq aləmin vahid mövqedən çıxış etməsi də Azərbaycanın dünyada getdikcə güclənən mövqeyinin, artan nüfuzunun əyani göstəricisidir. Beynəlxalq birliyin belə qlobal tədbirə ev sahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi Prezident İlham Əliyevin yürütdüyü siyasətə dünya səviyyəsində olan böyük hörməti, möhkəm dəstəyi nümayiş etdirir. Bu baxımdan gələn ay, yəni noyabr ayında bütün dünya ölkələrinin və beynəlxalq təşkilatların, ümumilikdə 70-80 minədək təmsilçisini ətrafına toplayacaq COP29 Azərbaycanı dünyanın diqqət mərkəzinə çevrirən ən böyük beynəlxalq tədbirlərdən biri olacaq.

Sözsüz ki, bütün uğurların əsas təməli hazırlıq işlərindən başlayır. Dövlət başçımızın söylədiyi kimi, bu mötəbər tədbirə hazırlıq işləri ən

vacib amildir. Məhz oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olmasıdır. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Qeyd edildi ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.

Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verildi. Dövlətimizin başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış oldu. Həmçinin, Azərbaycan Prezidentinə COP29 Yaşıl Zonada görülən işlər barədə də geniş məruzə edildi.

Dövlətimizin başçısı Media Mərkəzinə də baxdı və bildirildi ki, konfransın işıqlandırılması üçün bu günə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

Göründüyü kimi, hər bir işin uğurlu olması hazırlıqdan başlayır. Prezident İlham Əliyev COP29-a hazırlıq işləri ilə bağlı çıxışında da bildirib ki, bu tədbirə hazırlıq işləri ən vacib amildir: "Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik".

"Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq", – deyən dövlət başçısı bu gün Azərbaycana beynəlxalq aləmdə olan hörməint günbəgün artdığını vurğulayaraq bildirib ki, biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə

qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı: "Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il oktyabrın 22-də "MAN Truck&Bus" şirkətinin baş direktoru Aleksandr Vlaskampı qəbulu zamanı da COP29-a hazırlıq işləri ilə bağlı bildirmişdi ki, artıq işlər son mərhələdədir və Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəmir. Dövlətimizin başçısı COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkənin yekdil dəstəyini yüksək qiymətləndirərək bu cür tədbirin regionda birinci dəfə ölkəmizdə təşkil edilməsinin böyük önəm daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda yaşıl və bərpaolunan enerjiyə keçid istiqamətində böyük işlərin görüldüyünü və artıq bir sıra mühüm layihələrin reallaşdırıldığını bildirdi.

Göründüyü kimi, qürurverici faktlardır ki, Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə çoxsaylı qlobal forum və konfranslar, həmçinin beynəlxalq idman yarışları keçirilib.

İki həftə keçiriləcək COP29-a ev sahibliyi etmək hüququ qazanması etimad və etibarın təsdiqi olmaqla yanaşı, münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir. Dövlətimizin başçısı çıxışlarında daim vurğulayıb ki, belə mötəbər tədbirlərin keçirilməsi, təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Bəli, həm də böyük məsuliyyət! Çünki tədbir keçirildiyi iki həftə ərzində Azərbaycan paytaxtına 70-80 min xarici qonaq gələcək. Məhz bu məsuliyyətin nəticəsidir ki, ötən il dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədəki çıxışında da bildirmişdir ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-

nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik.

Dövlətimizin başçısı deyib: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Bir sözlə, dövlət başçımızın söylədiyi kimi: "COP 29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan fəal hazırlıq prosesindədir və irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi, təbii ki, üzərimizə böyük məsuliyyət qoyur".

Bir sözlə, Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bu gün Azərbaycan, dövlət başçımızın söylədiyi kimi: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq… Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi, bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunması müsəlman aləminin Azərbaycana hörmətinin əlamətidir

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya etdikləri səfərləri və bu səfərlər çərçivəsində təməlqoyma mərasimlərində iştirak etdiyi layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da artırmaqla yanaşı, həmçinin səfərləri zamanı – "Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün Qarabağın cənnətə çevrən Prezident İlham Əliyevin son 21 ildə gördüyü uğurlu işləri xalqımız görürür, öz liderinə inanır və güvənir. Çünki Azərbaycan xalqı 2003-cü ildə ilk dəfə İlham Əliyevə səs verməkdə yanılmadığına görə bir daha 2024-cü il fearalın 7-də növbədənkənar keçirilən prezident seçkilərində 92,12 faizlə, yaxud 4 milyon 567 min 458 nəfər öz səsini Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevə verdi. Bu, İlham Əliyevə əvvəlki prezident seçkiləri ilə müqayisədə verilən ən yüksək səsdir. Verilən hər bir səs, göstərilən dəstək ötən 20 ildə görülən işlərə ən real qiymətdir. Ən mühümü də odur ki, bu seçkidə də xalqımız Heydər Əliyev siyasi kursunun zəfərinə, bu kursun davamçısı kimi ötən 20 ildə Azərbaycanın bütün uğurlarının müəllifi olan cənab İlham Əliyevə etimad göstərdi. Məhz bu gün Qarabağın Zəfərinin tacı olan Şuşa inkişaf edir, gözəlləşir, dirçəlir. Artıq bu gün Şuşa beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilib. Mayın 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında iştirak ediblər. Dövlət başçımız tədbirdə çıxışı zamanı bildirib ki, Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunması müsəlman dünyasının Azərbaycana hörmətinin əlamətidir və Şuşa bu şərəfli ada layiq görülüb və biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik.

Prezident İlham Əliyev onu da vurğulayıb ki, Azərbaycan İslam

həmrəyliyinin gücləndirilməsi üçün böyük səylər göstərir. Dövlətimizin başçısı qeyd edib: "Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq".

Dövlətimizin başçısı çıxışında Şuşanın qəhrəmanlığın, zəfərin və sülhün rəmzi olduğunu bir daha qeyd edib: "Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi". Şuşanın şəhər döyüşləri nəticəsində azad edilməsinin tariximizin parlaq səhifəsi olduğunu bir daha vurğulayan dövlətimizin başçısı deyib: "Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir".

Bu gün Azərbaycan ədalətli sülhün tərəfdarıdır. Və bu gün ermənilər dövlətimizin başçısının Cıdır düzündən verdiyi mesajından bir nəticə çıxarmalıdır. Çünki Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və ölkəmizin İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi. Prezident İlham Əliyev "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında çıxışı zamanı deyib: "Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin".

Bəli, bu gün Azərbaycan ədalətli sülhün tərəfdarıdır. İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə nəticəsində dörd il əvvəl Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad etdi və Azərbaycan düşmən ölkəyə qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edir. Hazırda regionda yeni reallıqlar yaranıb və bu reallıqlar qanunilik və legitimliyə əsaslanır və bu gün Ermənistanın bir yolu var, o da Azərbaycanın təklifləri ilə razılaşmaqdır. Cıdır düzündə keçirilən "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında Prezident İlham Əliyevin çıxışından Ermənistan bu dəfə bir nəticə çıxarmalıdır. Çünki bu gün bu kimi tədbirlər Şuşanın savaş mərkəzi yox, mədəniyyət və incəsənət mərkəzi olduğunu, Azərbaycan Prezidenti İlham Əliyev cənablarının söylədiiyi kimi, Şuşanın islam dünyasının mədəniyyət paytaxtı elan olunması müsəlman dünyasının Azərbaycana hörmətinin əlamətidir.

Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin 20 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" – deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" – deyərək reallaşdırdı. Beləliklə, bütün bunlar bir daha onu deməyə əsas verir ki, Şuşada beynəlxalq əhəmiyyətli toplantıların, xüsusi iclasların keçirilməsi böyük siyasi və rəmzi məna daşıyır. Bu gün dünyanın hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının baş dik, alnı açıqdır, Onlar azərbaycanlı olması ilə fəxr edirlər.

Yaşıl enerjiyə keçid prosesində öndə gedən dövlətlərdən olmaq Azərbaycanın üzərinə düşən öhdəlikdir

Bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsirlik həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq.

Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır: "On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir".

Göründüyü kimi, Qalib, Qurucu liderimiz, Prezident İlham Əliyev cənablarının birbaşa rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurumuz başdan qurulur, gün keçdikcə tarixi diyarlarımız cənnətə çevrilir. Sözsüz ki, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları

dayanır. Azərbaycan Prezidenti çıxışlarında, müraciətlərində də daima bildirir ki, 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Və Azərbaycan xalqı İlham Əliyeva səs verərək Ulu Öndərə olan məhəbbətlərini və inamlarını göstərdi. Artıq Prezident İlham Əliyev cənablarının ilk prezident seçilməsindən ötən 20 il ərzində Azərbaycan sürətli inkişaf və tərəqqi yolunda uğurlu inkişaf yolunda davam etməkdədir.

Hər bir vədin konkret əməli işi ilə təsdiqləyən Azərbaycan Prezidenti İlham Əliyevin Qələbəmizin Zəfərindən ötən üç il yarımdın çox müddətdə işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində təməlqoyma mərasimində iştirak etdiyi yeni sosial obyektlərin say tərkibinə, icrasına başlanan infrastruktur layihələrinə, imzalanan Fərman və sərəncamlara, təsdiqlənən Dövlət proqramlarına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan Liderdir!

Dövlət başçımızın dediyi kimi, bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma, eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tender prosedurları keçməlidir, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək. İctimaiyyətə müntəzəm olaraq məlumat verilməlidir və veriləcək. Çünki son 20 il ərzində bütün görülən işlər, əldə olunan uğurlar dövlət başçımızın xalqla daha çox yaxından olmasıdır. Gəlin müqayisə aparaq ki, hansı dövlətin başçısı öz xalqına bu qədər yaxın və səmimi olub?

Bu gün dünyanın istər aparıcı, istərsə də qeyri-aparıcı dövlətlərində baş verən çoxsaylı siyasi kataklizmlər, böhranlar, artan narazılıqlar fonunda Azərbaycanda yürüdülən siyasət, əsrarəngiz model olaraq, təqdim olunmaqdadır. Bu gün planetimizin son mənzərəsinə nəzər yetirsək, görərik ki, mövcud vəziyyət heç də ürəkaçan deyil. Yeni münaqişə ocaqlarının yaranması, miqrant probleminin meydana çıxması, iqtisadi böhranlar, ayrı-ayrı qütblərdə dayanan dövlətlər arasında müharibə riskinin artması ötən illərin reallıqlarıdır. Lakin Azərbaycanın bu 20 ildə keçdiyi yol tamamilə fərqlidir. Belə ki, bu dövrdə yürüdülən düşünülmüş və qətiyyətli siyasətin nəticəsi olaraq, Azərbaycan özünün milli mənafelərini

və dövlətçilik maraqlarını layiqincə qorumağı bacarıb. Ölkəmiz müstəqil siyasəti nəticəsində, bütün beynəlxalq siyasi avantüralardan uzaq durub, hansısa dövlətə qarşı tətbiq olunan sanksiyalara qoşulmayıb. Elə buna görə də, ötən 20 il Azərbaycan üçün dinamik inkişaf, beynəlxalq imicinin yüksəlməsi, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi dövrü kimi xarakterizə olunur. Sözsüz ki, möhkəm təmələ, düşünülmüş dərin siyasətə əsaslanan yüksəliş yolu Azərbaycanı günbəgün inkişafa, tərəqqiyə və modernləşməyə aparır. Bu isə Prezident İlham Əliyevin rəhbərliyi isə həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasətin nəticəsidir. Son 20 ildə Azərbaycanın sosial və iqtisadi inkişaf göstəricilərini artırması, enerji təhlükəsizliyi məsələlərində söz sahibi kimi mövqelərini gücləndirməsi, müstəqil xarici siyasət kursu yürütməsi və Ermənistanla sülh danışıqlarında özünün üstün mövqeyini daha da möhkəmləndirməsi ölkə ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilib. Çünki Azərbaycan dövlətin beynəlxalq imicini şərtləndirən ən vacib amil ölkədə siyasi-ictimai sabitliyin olmasıdır. Azərbaycanda vaxtilə Ulu Öndər Heydər Əliyevin təmin etdiyi sabitlik bu gün onun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə son 20 ildə qazanılan uğurların da, əsas səbəblərindən biri kimi, məhz bütün sahələrdə təmin olunan sabitlikdir. Azərbaycan son 20 ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb və əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Bütün bu uğurların mərkəzində Prezident İlham Əliyevin XALQ-İQTİDAR BİRLİYİNİN olmasıdır. Bu faktoru ayrı-ayrı tanınmış beynəlxalq şirkət və təşkilatların apardıqları sorğuların nəticələri də təsdiqləyir.

Hazırda möhtəşəm tarixi qələbənin 4-cü ildönümü sevincini yaşayan xalqımız Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir və Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin bərpası üçün maliyə

vəsaitinin ayrılması bir daha sübut edir ki, Qalib Liderimiz, Prezident İlham Əliyev cənabları Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə daha çox diqqət yetirir. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

"Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir", – deyən Prezident İlham Əliyev düzgün qurulan siyasətin daim uğurların davamlılığına yol açdığını təsdiqləyir. Azərbaycanın keçdiyi inkişaf yolunun təhlil edərkən "Biz nə etdik" sualına cavab ölkəmizin bugünkü reallıqlarıdır. Bir də tarixi inkar etməklə, öz maraqları naminə ədaləti və beynəlxalq hüququ arxa plana keçirməklə nəyəsə nail olmaq mümkün deyil. Qarabağ münaqişəsinin tarixin arxivinə atılmasından sonra da Azərbaycan qərəzli yanaşmalarla, qeyri-ciddi təbliğatla üz-üzə qaldı. Bunun da səbəb bəllidir. Cənab İlham Əliyev bu cəhdləri belə əsaslandırır ki, Qarabağı azad etməyimizi də ona görə bizə bağışlamırlar ki, onların əlindən bu rıçaq çıxdı: "Azərbaycan, məcazi mənada desək, bu qarmaqdan çıxdı. Artıq bu amil yoxdur. İkinci Qarabağ müharibəsindən sonra status və Qarabağ ermənilərinin hüquqları mövzularını ortaya atmışdılar ki, yenə də burunlarını oraya soxa bilsinlər. Beynəlxalq missiyanın oraya göndərilməsini təkidlə tələb edirdilər ki, yenə də vəziyyəti qarışdırsınlar. O rıçaq da əllərindən çıxdı. Ona görə indi yeni bir mövzu axtaracaqlar.

İşğalçı dövlətə havadarlıq edənlər indi də belə bir ittiham səsləndirirlər ki, guya, Azərbaycan Ermənistana hücum etmək istəyir. Dövlət başçısı İlham Əliyev çıxışlarında bu məqamı xüsusi qeyd edir ki, lap axıra qədər gedərdik: "Cermuk şəhəri - bizim keçmiş əsl adı İstisu olan şəhər gözümüzün qabağında idi. Kim idi bizi saxlayan? Bizim niyyətimiz yox idi. Bizim niyyətimiz sərhədimizi mühafizə etmək idi. Elə təpələr əlimizdə olmalı idi ki, biz ermənilərin planlarını gözümüzlə görək. Bu mövzu ilə bağlı bir qərbli qonağımla söhbət əsnasında mənə dedi ki, axı sizin peykiniz var, siz peykdən də görə bilərsiniz. Deyirəm, mənim peykim

mənim gözlərimdir. Mən gözlərimlə görməliyəm. Bir dənə də nahaq iş görməmişik, bu əsasdır, əsas amildir. İkincisi də gücümüz, cəmiyyətimizin birliyi, xalqımızın birliyidir və bu birlik olmasaydı, biz heç vaxt müharibəni uda bilməzdik... Çünki bu Zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, heç bir təpəni də sən götürə bilməzsən."

Bu gün ölkəmizin demokratik inkişafı göz qabağındadır. Yeni dövrə qədəm qoyan Azərbaycanın bu mərhələnin bir zərurət kimi qarşıya qoyduğu 7 fevral növbədənkənar prezident seçkilərində nümayiş etdirdiyi demokratiya təcrübəsi ölkəmizə qarşı aparılan qərəzli təbliğatlara tutarlı cavabdır. hazırda Azərbaycan sülh və təhlükəsizliyin təmin olunmasını istəyir. İkinci Qarabağ müharibəsi haqqın, ədalətin kimin tərəfində olduğunu bir daha təsdiqlədi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Vətən müharibəsi həqiqət anı oldu. Kimin haqqın, ədalətin, kimin isə şərin, işğalçı dövlətin yanında olduğu bir daha təsdiqləndi. Dövlətimizin başçısının qeyd etdiyi kimi, müharibə gücümüzü, əyilməz iradəmizi, birliyimizi, qələbə rəmzinə çevrilən "dəmir yumruq" öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq.

Cənab İlham Əliyev bütün çıxışlarında bildirib ki, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirdik. Lakin dünya gücləri yenə də susmağa üstünlük verdi. Təbii ki, vəziyyət bu şəkildə davam edə bilməzdi. Azərbaycan Silahlı Qüvvələrinin ötən ilin 19 sentyabr tarixində həyata keçirdikləri birgünlük antiterror tədbirləri nəticəsində ərazilərimiz separatçılardan təmizləndi, suverenliyimiz tam bərpa edildi. Dövlət başçımız İlham Əliyevin söylədiyi kimi: "Bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır".

Bu gün Azərbaycan dünya birliyində artıq təkcə əsas enerji ixrac edən ölkə, ən müxtəlif sivilizasiyaların qovuşduğu etibarlı məkan kimi tanınmır. Həm də ölkəmiz artıq yaşıl enerji siyasəti üçün ən təşəbbüskar ölkə kimi də dünya gündəmindədir. Bu yaxınlarda Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian

Power" sərgiləri Azərbaycanın bu istiqamətdəki mühüm addımlarından xəbər verir. İyunun 21-də Prezident İlham Əliyevin "Euronews"a müsahibəsi də Azərbaycanın yaşıl gündəliyini geniş şəkildə ehtiva edir. Bu müsahibə həm də bu istiqamətdə bütövlükdə, regionun perspektiv enerji xəritəsini müəyyənləşdirmək üçün mühüm əhəmiyyətə malikdir. Xüsusən Azərbaycanın COP29-a evsahibliyi etməsi fonunda dünyanın təmiz enerjiyə transformasiya nəbzinin Azərbaycanda döyündüyünü nəzərə alsaq, dövlətimizin başçısının verdiyi bəyanatların həlledici əhəmiyyəti, təbii ki, mübahisə doğurmur.

Aydındır ki, COP29-a evsahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedən dövlətlərdən olmaq Azərbaycanın üzərinə düşən öhdəlikdir. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də məhz ölkəmizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə qətiyyətinin göstəricisidir. COP29-a evsahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir. Azərbaycanda yaxşı sərmayə mühiti olduğunu qeyd edən Prezident İlham Əliyev qeyd edib ki, COP29-a evsahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir. Prezident İlham Əliyevin müsahibələrinin birində demişdir: "Beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun".

Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Və bu gün haqlı və güclü Azərbaycan beynəlxalq müstəvidə daha böyük hədəflər uğrunda əzmlə çalışır və Güclü Liderlə yeni uğurlara doğru addımlayır, yolun açıq olsun, Azərbaycan!

Azərbaycan Prezidenti ölkəmizə qarşı istiqamətlənən bütün feyk xəbərləri ifşa etdi

Azərbaycan daha bir beynəlxalq mühüm tədbirə evsahibliyi etdi. Söhbət Azərbaycanın söz, sənət, igidlik və siyasi qətiyyət nümunəsi olan gözəl Şuşamızda iki gün davam edən 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 80-dən artıq media qurumunun qatıldığı İkinci Şuşa Qlobal Media Forumundan gedir. Qeyd edək ki, artıq üçüncü dəfədir ki, Milli Mətbuat Günündə Şuşada media nümayəndələrinin iştirakı ilə forum keçirilir. Forumda 50-yə yaxın ölkədən media mənsubları iştirak etdikləri üçün tədbir qlobal mahiyyət daşıyırdı. Bu tədbirlər həm də ona görə əhəmiyyətlidir ki, orada toplaşan media nümayəndələri hər şeyi öz gözləri ilə görür və dərk edir, Azərbaycan həqiqətlərini öz ölkələrinə, ictimaiyyətlərinə çatdırırlar.

Tarixi Zəfərimizdən sonra Şuşa Qlobal Media Forumu ənənəsinin yaradılması da mətbuatın cəmiyyətdə roluna verilən dəyərin, onlara diqqət və qayğının göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin bu qlobal Foruma qatılması, ən aktual və gündəmdə mühüm yer tutan məsələlər barədə açıq, konstruktiv müzakirələrdə fəal iştirak etməsi, dünya mediasının önəmli simalarının suallarına təmkinli və aydın cavab verməsi bu beynəlxalq tədbirin əhəmiyyətini birə min artırmış oldu.

Ölkə başçısının çıxışında səsləndirdiyi fikirlərə dünyanın müxtəlif aparıcı media qurumlarının geniş yer verməsi də bunun bariz sübutudur. Həmçinin, onu da vurğulamaq istərdim ki, Azərbaycan Prezidentinin çıxışları hər zaman özündə müxtəlif dairələrə ünvanlanmış mesajlarla zəngin olur. Bu dəfə də dövlət başçısının çıxışı özündə ikili standartlara əsaslanan siyasət həyata keçirən dövlət və qurumlara konkret mesajları ehtiva etmiş oldu. Prezident qeyd etdi ki, natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar, əsasən, Qərbdən qaynaqlanır və bu cür yanaşma artıq gündəlik həyatımıza çevrilir. Amma vaxt keçdikcə Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır. Prezident İlham Əliyevin də çıxışında qeyd etdiyi kimi, uzun illər ərzində faktların manipulyasiyasının, yanlış narrativlərin qurbanı olmuşuq. Erməni diasporu uzun illər ərzində Azərbaycana qarşı bu

istiqamətdə səfərbər şəkildə fəal iş aparıb. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana vaxtaşırı hücumlar edərək yanlış narrativlər yayıblar, ölkəmizi, xalqımızı reallıqdan çox uzaq şəkildə təqdim ediblər. Ancaq necə ki, zaman keçdikcə Qərb siyasi dairələrində reallıq daha çox üzə çıxır və onlar Azərbaycana bərabər tərəfdaş kimi yanaşmağa başlayırlar: "Biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın".

Bir sözlə, Prezident İlham Əliyev cənabları forumda tədbir iştirakçılarının suallarını əsaslı şəkildə cavablandırmaqla həm Azərbaycanda, həm də regionda baş verən hadisələri, yenilikləri onların diqqətinə çatdırdı.

Azərbaycan Prezidenti çıxışında ənənəvi olaraq 30 illik işğal və İkinci Qarabağ müharibəsinin reallıqlarına, bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin bütün ərazilərimizdə tam bərpa edilməsinə də toxundu. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, şanlı Ordumuzun ardıcıl qələbələri, torpaqlarımızın uzun illərdən sonra işğaldan azad edilməsi ilə tarixə yazılan, böyük zəfərimizlə başa çatan Vətən Müharibəsi kimi, ötən ilin sentyabrında ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası da son dərəcə mühüm hadisədir: "Biz nə işğalı, nə onun fəsadlarını, nə verdiyimiz qurbanları, nə də Qələbəmizi heç zaman unutmayacağıq". Bunu Azərbaycan Prezidenti forumdakı çıxışında bir daha bəyan etdi və bildirdi ki, torpaqlarımızın azadlığı xalq olaraq bizim üçün ləyaqət məsələsi idi və Azərbaycan xalqı tarixi Zəfərimizlə bunu bir daha göstərdi. Xalqımızın bu Zəfəri bir həqiqəti də təsdiqlədi ki, belə məsələlərdə şəxsi emosiyalara, tələskənliklərə, düşünülməmiş qərarlara qətiyyən yer yoxdur.

Azərbaycan Prezidenti forumdakı çıxışında qeyd etdi ki, o zaman sülh və ərazilərimizin azad edilməsi naminə bütün şəxsi emosiyalar kənara qoyulmalı idi. "...İnsan bəzən çətin qərarlar verməli olur və şəxsən mən 17 il idi ki, Prezident idim Qarabağı azad edərkən. Lazım olsaydı, biz daha 17 il gözləyərdik ki, torpaqlarımızı azad edək. O zaman fərqi yoxdur kim prezident olacaqdı... Bu, ləyaqət məsələsi idi və bizim tarixdən dərslərimiz olub. Təkrar edirəm, bəzən biz çətin qərarlar verməli idik ki, əsas məqsədimizə çataq".

Bu fikirlər bir daha təsdiqləyir ki, həlledici məqamlara, proseslərə

düzgün hazırlaşanda, bütün addımları yerli-yerində, öz vaxtında-vədəsində atanda uğur qazanmaq mütləqdir. Azərbaycan bu illər ərzində əsas diqqəti xalqımıza, ölkəmizin inkişafına yönəltdi, hər hansı dedi-qodulara, Avropa Parlamentinin və ya Avropa Şurasının hansısa qərəzli bəyanatlarına fikir vermədi, yalnız öz böyük hədəflərinə fokuslanıb məqsədlərinə nail oldu və bu, yeni gələcəyə doğru yolumuzda da məhz belə olacaq. Biz irəli getməliyik!

Göründüyü kimi, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsindən sonra daxil olduğumuz yeni strateji dövrdə də Azərbaycan dövlətinin qarşıya qoyduğu aydın məqsədlər var. Atılan bütün addımlar, irəli sürülən bütün təşəbbüslər Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, bu əsas məqsədi güdür: ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da möhkəmləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək. Prezident bir məqamı da xüsusi qeyd etdi ki, "insan bəzən çətin qərarlar verməli olur. Şəxsən mən Qarabağı azad edərkən 17 il idi Prezident idim və lazım olsaydı, biz daha 17 il gözləyərdik ki, torpaqlarımızı azad edək. O zaman fərqi yoxdur kim Prezident olacaqdı. Yəni, burada insan eqoist olmalı deyil. Bu, mənimlə bağlı deyil. Fərq etməz, lider və prezident kimdir, bu, ləyaqət məsələsi idi".

Bir sözlə, Şuşa Forumunda Prezident İlham Əliyev ölkəmizə qarşı istiqamətlənən bütün yalanları və saxta mahiyyətli xəbərləri ifşa etdi. Eyni zamanda, forumda jurnalistlərin suallarını cavablandıran dövlətimizin başçısı ölkəmizə qarşı aparılan yalan və böhtan kampaniyalarının mahiyyətini tam dəqiqliklə ifadə etdi. Dövlətimizin başçısı bildirdi ki, biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. SİTAT: “Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını

azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir".

Yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzuları ilə bağlı suala cavabında Prezident İlham Əliyev bir daha həqiqətləri səsləndirdi. Dövlət başçısı bildirdi ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilib. Bəzən Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur, yəni faktların manipulyasiyası həyata keçirilir. Əslində, Azərbaycan uzun illər ərzində bunun qurbanı olub. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi vaxtda erməni diasporunun uydurmaları, ermənipərəst siyasətçilərin, media nümayəndələrinin Azərbaycana qarşı hücumları dayanmırdı. Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Belə yalanlar təkcə ölkənin nüfuzunu ləkələmir, onlar həm də dövlətin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir.

Bir sözlə, bu gün Azərbaycan suverenliyini, ərazi bütövlüyünü təmin etmiş ölkədir. Artıq zəif, sözü eşidilməyən deyil, qüdrətli Azərbaycan var. Onun güclü Liderinin mütəqil siyasəti sayəsində regionda yeni reallıqlar yaranıb. Amma indi də Azərbaycan haqqında yalan məlumatlar, dezinformasiya formalaşmaqdadır. Məhz buna görə də Prezident İlham Əliyevin təşəbbüsü ilə bu formatda qlobal forum təşkil edilərək dünya mediası vasitəsilə Azərbaycan həqiqətlərinin hər bir yana doğru-düzgün çatdırılmasından ibarətdir. Bir sözlə, etnik təmizləmənin, işğalın və təcavüzün qurbanı ola-ola Qərbin 30 il ərzində haqq səsini eşitməməzliyə vurduğu Azərbaycan bu gün dünyaya həqiqətləri yayır. Artıq dünya birliyi də Azərbaycanla hesablaşır və mövcud reallığı qəbul edir. Çünki Prezident İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı qlobal miqyasda güc kimi təsdiqlədikcə və ölkəmizlə hesablaşdıqca, hər kəs reallıqlara daha açıq gözlə baxmaq məcburiyyətində qalır. Əsl reallıqlar da Azərbaycanın hər zaman haqlı olduğunu sübuta yetirir.

Prezident İlham Əliyev də məhz qlobal media nümayəndələrinə çatdırdı ki, Azərbaycanın istəyi, məqsədi, beynəlxalq KİV-in regionda baş verən hadisələri obyektiv şəkildə işıqlandırmasıdır. Bu gün Azərbaycanın liderliyi ilə Cənubi Qafqaz regionunda tarixi transformasiya prosesi

gedir, tarixi-geosiyasi dəyişikliklər baş verir. Ölkəmizin, xüsusilə, Vətən Müharibəsindən sonra yaratdığı yeni reallıqlar bölgəmizin xoşbəxt gələcəyi, bu torpaqlarda sülhün, təhlükəsizliyin, dayanıqlı inkişafın, insanların sosial rifahının təmin olunması baxımından çox böyük bir şansdır. Bu baxımdan, Azərbaycanda və regionda baş verən hadisələrin obyektiv şəkildə işıqlandırılması qarşıdakı strateji məqsədlərin tez bir zamanda reallaşmasına kömək göstərər, yalan informasiyalar vasitəsilə həyata keçirilən təxribatların Cənubi Qafqazın gələcəyi ilə bağlı aparılan xoş niyyətlərin önündə əngəl yaratmasına imkan verməz. Azərbaycanın "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusuna həssas münasibətinin əsas səbəblərindən biri də budur.

Eyni zamanda, bu gün ölkəmiz Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qurur. Azərbaycan Prezidenti İlham Əliyevin də xatırlatdığı kimi, regionumuzda və postsovet məkanında yeganə ölkəyik ki, Avropa İttifaqının 10 ölkəsi ilə strateji əməkdaşlıq edirik. Ölkəmiz böyük qaz ehtiyatları, qurulan qlobal enerji infrastrukturu ilə Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Avropanın Azərbaycan qazına çox böyük ehtiyacı var. Hazırda Azərbaycan qazının Avropaya nəqlinin iki dəfə artırılması qarşıda duran hədəfdir və ölkəmiz bu istiqamətdə irəliləyir. Xüsusilə, Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi Afrika qitəsində olan ölkələrlə praktiki təmaslar qurmağa kömək göstərdi və bu təmaslar indi də səmərəli şəkildə davam edərək mühüm faydalar yaratmaqdadır. Forumda Azərbaycanın reallıqları sırasında iqtisadi uğurlara xüsusi diqqət göstərildi. Dövlətimizin başçısı bildirdi ki, atdığımız bütün addımlar və etdiyimiz təşəbbüslər əsas məqsədi güdür: ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək. Forumda Azərbaycanın reallıqları sırasında iqtisadi uğurlara xüsusi diqqət göstərildi. Xüsusilə, ölkəmizin enerji sektorunda qazandığı uğurlar, yeni əməkdaşlıq formatlarının yaradılması üçün mövcud imkanlar, Azərbaycan qazının Avropaya nəqlinin iki dəfə artırılmasının əsas hədəflərimizdən olduğu geniş müzakirə edildi.

Həmçinin Prezident İlham Əliyev Forumda çıxışı zamanı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq

işləri barədə də ətraflı məlumat verdi. Vurğuladı ki, COP29-u qlobal miqyasda ən mühüm hadisələrdən biri, dünyada bir nömrəli konfrans olacaqdır: "Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik, Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatının sədrliyini etmişik".

Prezident İlham Əliyev, həmçinin bildirdi ki, bizim atdığımız bütün addımlar və etdiyimiz təşəbbüslər əsas məqsədi güdür: ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək. Azərbaycanın geosiyasi əhəmiyyəti artıq önəmli dərəcədə artıb. Bizim beynəlxalq müstəvidə təmasda olduğumuz ölkələrlə ikitərəfli əlaqələrimiz artıq başqa məcrada inkişaf edir.

Ümumilikdə, bu gün Azərbaycan dövlət başçısının dünyada qazandığı yüksək nüfuzu bir çox beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinə imkan yaradır. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüslər, qlobal məsələlərdə yüksək fəaliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən dəstəklənir və təqdirəlayiq hesab edilir. Eləcə də COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın qəbulu da bir daha göstərdi ki, dünya ölkələri İlham Əliyevin fəaliyyətinə yüksək qiymət verirlər. Dövlət başçımızın söylədiyi kimi: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq".

Xalqımız növbəti böyük uğura hazırlaşır

PREZİDENT İLHAM ƏLİYEV: "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq"

Bu gün ölkəmiz artıq beynəlxalq tədbirlərin, nüfuzlu sammitlərin, habelə ən həlledici siyasi və hərbi görüşlərin keçirildiyi etibarlı ünsiyyət və danışıqlar platforması kimi də ad çıxarıb. Gərgin ABŞ-Rusiya müzakirələrindən tutmuş multikultral dəyərlərin ehtiva etdiyi qlobal məsləhətləşmələrə qədər. Amma BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının-COP29-un Bakıda

keçirilməsi bu vaxta qədər keçirilmiş bütün tədbirlərdən miqyasına və təşkilatçılıq məsuliyyətinə görə tam fərqlənir. COP29-un bu ilin noyabrında ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə dövlətimizin başçısının bu tədbirin beynəlxalq əhəmiyyəti barədə dedikləri bizi qürurlandırdığı kimi, dərin məsuliyyətimizi də müəyyən edir. Sitat: "Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı."

Azərbaycan Prezident İlham Əliyev ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumdakı çıxışında da mühüm məsələlərə toxunaraq ölkəmizin son dövrlər əldə etdiyi uğurlardan, perspektivdə görüləcək işlərdən, o cümlədən paytaxt Bakıda təşkil olunacaq COP29 konfransına hazırlıq prosesindən, Azərbaycana belə böyük etimadın göstərilməsini xüsusi vurğulayıb ki, COP29 beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana olan böyük ehtiramın və dəstəyin göstəricisidir: "Biz hazırlığın fəal mərhələsindəyik. COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir."

Prezident İlham Əliyevin forumdakı çıxışında qeyd etdiyi kimi, sanki elə bilin ki, bu, bizim günahımız idi. Mənim isə onlara mesajım ondan ibarət idi ki, bizim neft ölkəsi olmağımız bizim günahımız deyil: "Baxın görün, biz bu resurslardan necə istifadə edirik. Əvvəla baxın görün ki, biz bu resurslardan ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması üçün necə istifadə edirik. Sonra baxın görün ki, biz ondan infrastruktur, yaşıl enerji üçün necə istifadə edirik. Beləliklə, bu gün biz sabit neft və artan qaz hasilatına malikik, eyni zamanda, yaşıl enerji layihələrini inkişaf etdiririk."

Eyni zamanda, qazanılan uğurlarından danışan Prezident İlham Əliyev deyib ki, son dövrlərdə ölkəmiz üçün heyranedici hadisələr baş

verib. Azərbaycan bütün ərazilərində suverenliyini bərpa etmək üçün nəhəng addımlar atıb, bu ərazilərdə innovativ texnologiyalar tətbiq edilir və yaşıl enerji zonaları yaradılır, ağıllı şəhər və kəndlər qurulur. Qazaxın kəndləri geri qaytarılır, Rusiya sülhməramlıları Azərbaycanı tərk edir. Yəni, inanılmaz hadisələr baş verib.

Göründüyü kimi, qürurverici faktlardır ki, Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə çoxsaylı qlobal forum və konfranslar, həmçinin beynəlxalq idman yarışları keçirilib. Belə ki, bu ay Şuşa qlobal əhəmiyyət daşıyan iki mötəbər tədbirə evsahibliyi edib. Prezident İlham Əliyevin təşəbbüsü ilə iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirlib. İyulun 20-22-də isə "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumu təşkil olunub. Azərbaycanda, xüsusən, Şuşada belə mühüm əhəmiyyətli qlobal tədbirlərin keçirilməsi ölkəmizin yüksək inkişafının göstəricisidir. Qeyd edək ki, 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır. Bununla yanaşı, Forumu çərçivəsində "Yaşıl dünya naminə həmrəylik – COP29" adlı təqdimat keçirilib. Təqdimatda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat verilib. Forumun açılışında Prezident İlham Əliyev bildirib ki, COP, sadəcə, bir və ya iki həftə davam edən tədbir deyil. Bu, davamlı bir prosesdir. Əgər bir ölkə hər hansı miras qoymaq istəyirsə, bu, tutarlı və konkret töhfə olmalıdır. Sözlər, bəyanatlar kifayət deyil. Burada real addımlar atılmalıdır və koordinasiya həyata keçirilməlidir.

Bəli, iki həftə keçirilən belə mötəbər tədbirə – COP29-a evsahibliyi etmək hüququ qazanması etimad və etibarın təsdiqi olmaqla yanaşı, münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyev Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksəksəviyyəli Seqmentində çıxışında da bildirib ki, biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında

çox güclü mövqelərə sahib olmuşuq: "Bu gün Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı".

Bir sözlə, 2024-cü ildə Bakı dünyanı narahat edən ekoloji və iqlim məsələlərinin həll olunduğu qlobal mərkəzə çevriləcək. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Azərbaycan etimad və etibar ölkəsidir: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq".

Azərbaycana etibar və nüfuzun göstəricisi!

Ölkəmiz daha bir beynəlxalq tədbirə uğurla evsahibliyi edərək, qüdrətli dövlət olduğunu bir daha təsdiqlədi. Noyabrın 12-də Bakıda keçirilən COP29 Liderlər Sammitində dünyanın çoxlu sayda dövlət və hökümət başçıları, ictimai xadimləri, tanınmış mədəniyyət xadimləri iştirak etdilər. Bugünlərdə dünyanın mühüm gündəmi Bakıda müəyyənləşir. Bu sammitin bəşəriyyətin iqlim və ekoloji taleyi baxımından olduqca önəm daşıdığını nəzərə alsaq, bu gün Azərbaycan paytaxtının dünya üçün nə qədər önəmli coğrafiya olduğunu yəqin etmiş olarıq. Sammitin açılış mərasimində Prezident İlham Əliyevin çıxışı iqlim dəyişikliyi ilə bağlı məsələlərin həllinə Azərbaycanın yanaşmasını və qlobal səviyyədəki töhfəsini əks etdirən mühüm məqamlarla yadda qaldı. Əslində, Bakıda keçirilən COP29 Liderlər Sammiti ilə ölkəmiz beynəlxalq birliyə iqlim çağırışları ilə bağlı müzakirələrin aparılması üçün böyük bir platforma təqdim edib. Bakıda COP29-un yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də qiymətləndirilir, tədbirlərin səviyyəsindən məmnunluq ifadə olunur.

Yüksəksəviyyəli rəsmi nümayəndələr COP29 çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrdə Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və

peşəkarlığını təqdir edir, COP29 danışıqlarının uğurla nəticələnəcəyinə ümidvarlıqlarını bildirirlər.

Eyni zamanda, cənab İlham Əliyevin bildirdiyi kimi, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq. Dünyada ikili standartların, ayrıseçkilik hallarının, irqçiliyin, islamofobiyanın, ksenofobiyanın hökm sürdüyü kədərli mənzərə ilə müqayisədə, Azərbaycan reallığı tamam fərqlidir. Onilliklər ərzində qonşu dövlətin işğalçılıq siyasətindən əziyyət çəkmiş Azərbaycanın hazırkı narahat dünyada sivilizasiyalararası dialoqa, multikultural dəyərlərin qorunmasına verdiyi töhfələr xüsusilə diqqətəlayiqdir. Ölkəmiz, həmçinin müstəqillik illərində qonşu dövlətlərlə və transmilli şirkətlərlə birlikdə reallaşdırdığı layihələrlə də Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qurulmasına sanballı töhfələrini verir. Azərbaycanın təşəbbüsləri və fəal iştirakı ilə həyata vəsiqə alan bu layihələr, əsasən, enerji və nəqliyyat sektorlarını əhatə edir. Bu layihələrin önəminə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Bundan başqa, 2024- cü il noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirilib. Sammitdə çıxış edən Prezident İlham Əliyev deyib: "Mən inkişaf etmiş ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə kiçik ada ölkələrinə yardım etmələri üçün müraciət edirəm".

Məlum olduğu kimi, iqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Xəzər dənizi ilbəil daha da dayazlaşır, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstəririk. Ölkəmiz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişdir. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb.

Azəqbaycanın Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərilmişdir. Xüsusilə, bir məqama diqqət edək. Prezident İlham Əliyev Bakıda sammitdəki çıxışında bildirib: "Biz, həmçinin ərzaq təhlükəsizliyi, mədəni irsin qorunmasında yardım göstərmişik. Bir çox kiçik ada ölkələri bizim təqaüd proqramlarından yararlanıb, onların vətəndaşları Azərbaycandakı universitetlərdə təhsil alıb".

Əslində, Prezident İlham Əliyev sammitdəki çıxışında bəzi məsələlərə aydınlıq gətirməklə dünya dövlətlərinin COP29-a münasibətinin bəzi yolverilməz nüanslarını ifşa edib. Xüsusilə, Azərbaycanın COP29-a evsahibliyi etməsi barədə qərar çıxandan sonra aparılan qaralama kampaniyası da əsassızlığını sübut edən arqumentlər bütün dünya üçün maraqlıdır. Doğurdan da, bu gün Azərbaycan dünyanın karbon emissiyalarının demək olar ki, çox cüzi hissəsinə sahibdir. Yəni iqlim dəyişmələri üçün məsuliyyət daşıyan və müstəsna dərəcədə artan karbon emissiyası ilə məşğul olan ölkələrin Azərbaycanı qaralaması ədalətsizlikdir.

Prezidentin çıxışına diqqət yetirdikdə bir daha əmin olursan ki, dünyanın başı üstünü almış bu təhlükənin qarşısının alınmasında daha az imkanlara malik olan Azərbaycan nə qədər inadkar və mütərəqqi şəkildə fəaliyyət göstərir. Əksinə, dünyanın iqlim dəyişmələri üçün daha böyük məsuliyyət daşıyan ölkələr yaxalarını nə dərəcədə kənara çəkməklə məşğuldurlar. Ona görə də iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə Azərbaycanın nə qədər mütərəqqi mövqedə olduğunu Prezidentin bu çıxışından bir daha görmək mümkündür.

Xüsusilə, tam əminliklə demək olar ki, hələ davam edən COP29 artıq bir sıra məqsədlərinə çatıb. Artıq beynəlxalq maliyyə korporasiyaları və bank strukturlarının açıqlamaları var ki, iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracaqlar. Nümunə üçün qeyd edək ki, Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdıracağını bildirib və bu, kifayət qədər böyük rəqəmdir. Bütün bunlar COP29-dan əsas gözlənti olan yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanın əldə olunması üçün COP29-da danışıqlar üçün əla atmosfer yaradır, ekoloji mühitin yaxşılaşması, iqlim dəyişikliklərinə qarşı daha effektiv mübarizə üçün zəmin formalaşdırır.

Bu gün ən nüfuzlu beynəlxalq və regional siyasi analitiklər hesab


edirlər ki, COP29, həmçinin Azərbaycanın müsbət ekoloji təşəbbüslərinin dünya ictimaiyyətinə birbaşa çatdırılmasına böyük təkan verəcək. Son dövrlərdə ölkəmizə qarşı aparılan sistemli və planlı qarayaxma kampaniyalarının qarşısının alınması istiqamətində vacib rol oynayacaq. Azərbaycan hazırda neft-qaz ölkəsi kimi tanınsa da, xarici dövlətlərin başçılarının, şirkət rəhbərlərinin iştirak etdiyi tədbir əyani şəkildə göstərir ki, ölkəmizdə yaşıl enerji ilə bağlı görülən işlər, yaşıl enerji növlərinin yaradılması və dünya bazarlarına nəqli də hazırda bizim üçün prioritet məsələlərdən biridir.


United Nations
Climate Change
COP 29
UNFCCC
November 2024





In Solidarity for a
Green World
United Nations
Climate Change


United Nations
Climate Change
COP29
UN Climate Change
Conference


United Nations
Climate Change
COP29
Baku
Azerbaijan


United Nations
Climate Change
COP29
Baku
Azerbaijan


In Solidarity for a
Green World
United Nations
Climate Change



















COP29


COP29
Baku
Azerbaijan


COP29 Store




GLOBAL
BIOFUELS
ALLIANCE


COP29
Baku
Azerbaijan

IV FƏSİL

AZƏRBAYCAN BEYNƏLXALQ ALƏMDƏ GÜC MƏRKƏZİNƏ ÇEVRİLİR

Azərbaycanın qonşu dövlətlərlə dost münasibəti milli maraqlarımızı təmin etməyə yönəlib

Qədim dostluq və mehriban qonşuluq ənənələrinə söykənən Rusiya-Azərbaycan münasibətləri bu gün də yüksələn xətt üzrə inkişaf etməkdədir. Beynəlxalq münasibətlər sistemində vacib aktorlardan biri kimi çıxış edən Azərbaycanın xarici siyasət kursu milli maraqlarımızı təmin etməklə yanaşı, həm də ölkəmizin nüfuzunu artırmaqdadır. Beynəlxalq aləmlə fəal əməkdaşlıq edən ölkəmiz keçmiş ittifaq ölkələri ilə də MDB çərçivəsində sağlam əlaqələr qurur, siyasi, iqtisadi, mədəni və digər sahələrdə inkişafa töhfələr verir. Bu baxımdan, Prezident İlham Əliyevin oktyabrın 7-də Rusiya Federasiyasına səfəri, oktyabrın-8-də Moskvada Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasına qatılması, səfər çərçivəsində keçirdiyi görüşlər mühüm məqamlarla yadda qaldı. Azərbaycan Prezidenti Moskvada MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında bir daha bildirdi ki, möhkəm təmələ əsaslanan Azərbaycan-Rusiya münasibətləri bundan sonra da yüksələn xətlə inkişaf etdiriləcək.

Bütövlükdə, Prezident İlham Əliyevin Rusiya səfəri zəngin proqramı, Azərbaycan və Rusiya prezidentlərinin görüşlərində müzakirə olunan məsələlərin geniş spektri, iki dövlət arasında sağlam münasibətlərin inkişafı üçün yeni bir dönəmin başlandığını nümayiş etdirir. Bu səfər ikitərəfli və çoxtərəfli münasibətlərin daha da gücləndirilməsi, ortaq təmas nöqtələrinin zənginləşdirilməsi, iqtisadi-siyasi, humanitar, mədəni platformada əlaqələrin dərinləşməsi baxımından da vacib bir səfərdir.

Dövlətimizin başçısı sözügedən səfəri çərçivəsində keçirdiyi görüşdə, həmçinin MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışında da iki dost, müttəfiq ölkənin münasibətlərinin dünəninə, bugününə və onların əsasında perspektivlərə işıq salındı. Prezident İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti ilə görüşündə "dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər

zamanı bildirmişdik" – söyləyən Vladimir Putin əlaqələrin inkişafında əsas amil olan iqtisadi vəziyyətə xüsusi diqqət göstərdi. Əmtəə dövriyyəsi 4 dəfədən çox artaraq 4,3 milyard dollar çatıb. Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur: "Energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var. Onların hamısı perspektivlidir, realdır, həm ikitərəfli, həm də çoxtərəfli layihələr aktualdır. Çox şadıq ki, MDB ölkələri başçılarının görüşü platformasında bizim bu gün cari işlər barədə informasiya mübadiləsi aparmaq, ola bilər ki, irəliyə doğru bu hərəkətdə, – bu isə açıq-aşkardır, – hər hansı düzəlişlər etmək imkanımız var". Dövlətimizin başçısı İlham Əliyev ikitərəfli əlaqələrimizin gündəliyinin kifayət qədər geniş olduğunu bildirərək onu da əlavə etdi ki, bu gün gündəliyə nəzər salmaq və iki ölkə arasında əldə olunmuş razılaşmaların yerinə yetirilməsi üzrə konkret addımları müəyyənləşdirmək üçün yaxşı fürsətdir

Azərbaycan Prezidentinin bu səfəri ölkələrimiz arasındakı münasibətlərin etimad səviyyəsinin, əməkdaşlığın ardıcıl şəkildə, dövlətlərin maraqlarına uyğun bir formada qarşılıqlı faydalılıq müstəvisində inkişaf etdirilməsi baxımından da müstəsna əhəmiyyətə malikdir. Qeyd edim ki, ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb. Bundan başqa, Azərbaycan Rusiyanın ayrı-ayrı regionları ilə ikitərəfli ticarət əlaqələrini genişləndirməkdədir. Ticarət evlərinin açılması, humanitar sahədə regionlarla əməkdaşlıq, şəhərlərin qardaşlaşması və s. kimi tədbirlər buna misaldır.

Bu səfərin ən yaddaqalan hadisəsi isə MDB Dövlət Başçıları Şurasının iclasında MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi oldu. Dünənə qədər Laçının Azərbaycana aid olduğunu şübhə altına alan mövqelərin Laçını MDB-nin mədəniyyət paytaxtı elan etməsi mühüm siyasi və strateji əhəmiyyətli bir hadisədir. Bu, həm də Azərbaycanın suveren hüquqlarının bir daha tanınması və qəbul edilməsi deməkdir. Laçının MDB-nin mədəniyyət paytaxtı olması ilə bağlı verilən qərar Azərbaycanın tarixi Zəfərinin, Ermənistanın isə məğlubiyyətə uğ

ramasının daha bir təsdiqi və MDB səviyyəsində etirafıdır. Belə ki, Laçın da digər Qarabağ torpaqları kimi 30 il düşmən tapdağında qalıb. İşğal nəticəsində rayonun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. Bu mənada, Laçın şəhəri ilə bağlı verilən ədalətli qərar bütün ağrılı həqiqətlərin bir daha dünya ictimaiyyətinə çatdırılması deməkdir. Bu, beynəlxalq miqyasda daha bir siyasi uğurumuzdur. Bu, həm də o deməkdir ki, 2025-ci ildə MDB çərçivəsində, o cümlədən ayrı-ayrı üzv ölkələrdə Laçın şəhərinə həsr olunan müxtəlif mədəni tədbirlər keçiriləcək. Yəqin ki, Ermənistan bu tədbirlərin birbaşa iştirakçısı olmayacaq, lakin MDB-nin üzvü kimi rəsmən bu tarixi tədbirlərin təşkilatçılarından biri statusunu daşımalı olacaq. Bir sözlə, qəbul olan qərar tarixi qərardır və Azərbaycanın diplomatik qələbəsidir.

Prezident İlham Əliyev, həmçinin bir aydan sonra Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-la bağlı görülən işləri dövlət başçılarının diqqətinə çatdırıb. Azərbaycanın məhz 200-ə yaxın ölkənin dəstəyi ilə bu konfransa ev sahibliyinin ölkəmizə olan yüksək hörmət və ehtiramın bariz nümunəsi olduğu qeyd edilib.

Ölkə başçısı, eyni zamanda, MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti barədə fikirlərini bölüşüb. Azərbaycanın bu qələbəyə vermiş olduğu mühüm töhfələrdən bəhs olunub. Azərbaycanlıların da bu qələbədə böyük qəhrəmanlıq və sücaət göstərdiyi qeyd edilib. Bu mənada 9 May Qələbə bayramı MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amili kimi qiymətləndirilib.

Moskva səfəri zamanı etdiyi çıxışlarda Azərbaycan Prezidenti son illərdə beynəlxalq münasibətlərdə müşahidə edilən son dərəcədə mənfi tendensiyalar barədə də fikirlərini bölüşdü. Dövlətimizin başçısının səfər zamanı "Rossiya-1" televiziya kanalına müsahibədə mühüm mesajlar verərək, Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasına toxunub. Bu xüsusda ABŞ-nin ölkəmizə qarşı əsassız sanksiyalarının mahiyyətindən bəhs edilib. Təbii ki, bu sanksiyalar qeyri-qanuni və əsassızdır. Daha çox Amerikada uzun on illiklər boyu lövbər salmış, bu ölkənin siyasi sisteminə nüfuz etmiş erməni lobbisinin növbəti məkrli planıdır. ABŞ-nin

Ermənistanı silahlandırması, özünü "sülh göyərçini" kimi göstərməklə yanaşı, Cənubi Qafqazda yeni müharibəyə şərait yaratması heç kimə sirr deyil. Vaşinqton "insan hüquqları" və "demokratiya" adı altında Azərbaycan hakimiyyətinə təzyiq göstərməyə çalışır, onu Rusiyanın əleyhinə yönəltməyə və bölgədə yeni münaqişə ocağı yaratmağa cəhd edir. Buna görə Ermənistanın silahlandırılması da təsadüfi xarakter daşımır. Ancaq Azərbaycan hər zaman olduğu kimi, indi də hansısa gücün oyunlarında iştirak etmir. Azərbaycan haqlı olduğu halda ABŞ Konqresinin bu kimi məsələlər üzərindən qarayaxma kampaniyası aparmasının yolverilməzliyi də dövlət başçısının müsahibəsində öz əksini tapıb.

Beləliklə, Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı, keçirdiyi ikitərəfli və çoxtərəfli görüşlər ölkəmizin milli maraqlarının təminatı baxımdan çox faydalı oldu. Dərin təməllərə və tarixi köklərə söykənən, ikitərəfli və çoxşaxəli qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan Rusiya-Azərbaycan münasibətləri getdikcə inkişaf edir, daha da dərinləşir. Əminliklə demək olar ki, İlham Əliyevlə Vladimir Putinin siyasi iradəsi, liderlər arasında etimada əsaslanan dostluq münasibətləri sayəsində əlaqələr bundan sonra da durmadan inkişaf edəcək.

Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olub

Əsrlər boyu Azərbaycanda müxtəlif xalqların nümayəndələri həmişə birgə fəaliyyət göstərmiş, bütün etnik qrup və dinlərin nümayəndələri, mehriban, sülh və harmoniya şəraitində yaşamışlar. Məhz buna görə də respublikamız çoxmillətli, çoxkonfessiyalı ölkə kimi tanınır. Xalqımızın qədim tarixi, adət və ənənələri, milli-mənəvi dəyərləri, yerləşdiyi coğrafi mühit də Azərbaycanın sivilizasiyaların qovuşduğu bir məkana çevrilməsində böyük rol oynayıb. Son 21 ildə həyata keçirilən düşünülmüş siyasi kurs ölkəmizi dünyanın mədəniyyət mərkəzlərindən birinə çevirib. Prezident İlham Əliyevin mədəniyyət sahəsində beynəlxalq təşəbbüslərə göstərdiyi dəstək nəticəsində bu gün Azərbaycan sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanıdır.

Məhz mayın 1-də Bakıda işə başlayan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyev çıxışında da bildirib ki, Azərbaycan cəmiyyətində sülhün, sabitliyin, həmrəyliyin amillərindən

biri məhz mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlıdır. "Azərbaycan daxilində mədəniyyətlərarası dialoq hər zaman müsbət olub", – deyən dövlət başçısı vurğulayıb ki, biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Prezident qeyd edib ki, multikulturalizm Azərbaycan vətəndaşları üçün hər hansı abstrakt məfhum deyil, həyat tərzidir və biz indi öz rolumuzu körpülərin salınmasında görürük. Çünki Azərbaycan hər zaman dünyada sabitləşdirici və birləşdirici aktor kimi tanınır. ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyev "Həyata keçirilən əməkdaşlıq strategiyasını nəzərə alaraq, Azərbaycanı Şərq və Qərb dünyası arasında ən əhəmiyyətli körpü kimi görürsünüzmü" sualını cavablandırarkən vurğuladı ki, ən əhəmiyyətli körpü məncə çox təkəbbürlü səslənə bilər. Amma bəli, bu, bir növ mədəniyyətdir: "Mən deyərdim, körpü ona görə ki, yerləşdiyimiz coğrafiya cəmiyyətin həyat tərzinə, əhvali-ruhiyyəsinə mütləq təsir edib. Biz Avropada və dünyanın digər yerlərində olanda özümüzü rahat hiss edirik, çünki Azərbaycan cəmiyyəti əsrlər boyu hər iki sivilizasiyanın, yəni, İslam sivilizasiyasının və Avropa sivilizasiyasının dəyərlərini əhəmiyyətli dərəcədə mənimsəmişdir. Beləliklə, şübhəsiz ki, bu yer bizə nəqliyyat əlaqələrinin qurulmasında fəal olmağı diktə edir, çünki mövqeyimizdən istifadə etməsək, heç kim bizi bağışlamaz… Təkcə dəmir yolu və limanlar tikmək kifayət deyildir. Biz ölkələr arasında körpülər qurmalıyıq".

Onu da qeyd edim ki, 2008-ci ildən Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 16 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib və nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Belə ki, mayın 1-də öz işinə başlayan və üç gün davam edəcək Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq iştirak edib. Yüksək səviyyəli dövlət xadimləri, parlament rəhbərləri, dini

liderlər, alimlər, jurnalistlər və müxtəlif etnik və mədəni qrupa daxil olan şəxslərdən ibarət iştirakçılar mənalı dialoq vasitəsilə sülh və qlobal təhlükəsizliyə doğru irəliləyişə nail olmaq üçün bir araya gəliblər.

Bu faktı xüsusi olaraq vurğulamaq lazımdır ki, regional güc mərkəzi olan respublikamız həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Ümumiyyətlə, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bütövlükdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycan dünyada böyük etimad qazanan ölkə – etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Dövlət başçısının qeyd etdiyi kimi: "Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var".

Beləliklə, yüksək nüfuza malik olan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir, ölkəmizdə baş tutan qlobal əhəmiyyətli tədbirlər bəşəriyyət üçün aktual olan məsələlərin müzakirəsi və həlli baxımından fundamental əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev forumun bir çox vacib məsələlərinə toxunaraq bildirmişdir: "Məmnunam ki, burada 100-dən artıq ölkənin nümayəndəsi var. Əslində, bu, 110 ölkədir. Bu, sözün əsl mənasında, göstərir ki, forum çox mühüm beynəlxalq platformadır və orada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur. Biz indi qısa videoçarx seyr etdik, orada "Bakı Prosesi" haqqında bəhs olunur. Əslində, biz prosesi başlayanda heç təsəvvür edə bilmirdik ki, onun nəticəsində insanları – ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirəcəyik, bir məqsəd ətrafında toplayacağıq ki, necə edək bizim dünyamız daha təhlükəsiz olsun. Çünki bunun əsasında mədəniyyətlərarası dialoq dayanır".

Vurğulamaq istərdim ki, Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər sivilizasiyalararası dialoqun inkişafında mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, Azərbaycan öz təklif və təşəbbüsləri ilə sivilizasiyalararası dialoqun inkişafına, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin, multikulturalizmin təbliği

və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər mühüm tədbirlər məhz beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan Azərbaycanda keçirilir. Nəticə etibarilə, Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir, ölkəmizin evsahibliyi etdiyi qlobal əhəmiyyətli nüfuzlu tədbirlər qarşılıqlı anlaşma və əməkdaşlığa xidmət edir, sivilizasiyalararası dialoqun təşviqi və inkişafında yeni yanaşmaların, ideyaların meydana çıxmasına əlverişli zəmin yaradır. Eyni zamanda, Azərbaycanın həm müxtəlif tədbirlərə evsahibliyi etməsi, həm də dünyanın ayrı-ayrı ölkələrində keçirilən beynəlxalq konfransların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməsi sivilizasiyalararası dialoqun genişləndirilməsinə, bu istiqamətlərdə səmərəli fikir mübadiləsinin aparılması və işbirliyinin gücləndirilməsinə fundamental töhfələr verir.

Dövlətimizin başçısı 30 il işğal dövrünün reallıqları barədə tədbir iştirakçılarına məlumat verərək bildirdi ki, bütün əvvəlki dialoq forumlarında işğal və ədalətsizlik haqqında danışılıb və insanların bundan əziyyət çəkdiyi bildirilib. Beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi müstəqilliyin ilk illərindən 2020-ci ilədək işğal altında qaldı. Bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, etnik təmizləməyə məruz qaldı. İşğal altında olan bütün torpaqlarımız dağıdıldı və yerlə-yeksan oldu. Bu gün işğaldan azad edilmiş torpaqlarımız törədilən o dağıntılara şahidlik edir. Tədbir çərçivəsində bu torpaqlarda olacaq iştirakçılar həmin reallıqları görmək imkanı əldə edəcəklər.

Bir sözlə, Prezident İlham Əliyev Forumun çox mühüm bir çox vacib məsələlərə toxunaraq bildirmişdir: “Biz indi qısa videoçarx seyr etdik, orada “Bakı Prosesi” haqqında bəhs olunur. Əslində, biz prosesi başlayanda heç təsəvvür edə bilmirdik ki, onun nəticəsində insanları – ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirəcəyik, bir məqsəd ətrafında toplayacağıq ki, necə edək bizim dünyamız daha təhlükəsiz olsun. Çünki bunun əsasında mədəniyyətlərarası dialoq dayanır”.

Həmçinin Prezident 30 il işğal dövrünün reallıqları barədə tədbir iştirakçılarına məlumat verərək bildirdi ki, bütün əvvəlki dialoq forumlarında işğal və ədalətsizlik haqqında danışılıb və insanların bundan əziyyət çəkdiyi bildirilib. Beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi müstəqilliyin ilk illərindən 2020-ci ilədək işğal altında qaldı. Bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, etnik təmizləməyə məruz qaldı. İşğal altında olan bütün torpaqlarımız dağıdıldı və yerlə-yeksan oldu. Bu gün işğaldan azad edilmiş torpaqlarımız törədilən o dağıntılara şahidlik edir. Tədbir çərçivəsində bu torpaqlarda olacaq iştirakçılar həmin reallıqları görmək imkanı əldə edəcəklər. Beynəlxalq təşkilatların Ermənistanın işğala son qoyulması ilə bağlı qətnamə və qərarlar qəbul etdiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, qətnamələri qəbul edənlər onların icrası üçün heç nə etmədilər. Onda biz sülhə müharibə yolu ilə nail olmalı idik. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabrında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. "2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri görürük, yeni qeyri-sabitlik məkanlarını görürük və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın" – söyləyən Prezident İlham Əliyev onu da qeyd etdi ki, həmin məsələlərin həllində gündəlikdə olan məsələlərin müzakirəsində Azərbaycanın öz təcrübəsi var.

Bütün bunlar bir daha təsdiqləyir ki, bu gün Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair sanballı tədbirlər keçirilməsi üçün mötəbər məkana çevrilib. VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində aparılacaq müzakirələr bu sahədə olan qlobal problemləri müəyyən edərək əməkdaşlıq, hərməylik, tərəfdaşlıq və qarşılıqlı anlaşmanın gücləndirilməsi istiqamətində təkliflər verilərək xalqlar, dinlər, mədəniyyətlər və etnik amillər arasında əlaqələrin yaxşılaşdırılması istiqamətində böyük töhfə verəcək.

Azərbaycan-Qazaxıstan münasibətləri: sadiq dostlar, etibarlı tərəfdaşlar

Qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması Azərbaycanın xarici siyasətində mühüm istiqamətdir. Bu siyasət nəticəsində ölkəmizin xarici əlaqələri, dostluq münasibətləri daim güclənir. Ölkəmizin dünyada yüksələn nüfuzu sayəsində bir çox dövlətlərin Azərbaycanla əməkdaşlığa marağı artır və onların arasında Mərkəzi Asiya dövlətləri xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əlaqələrin inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu əlaqələrin inkişaf etməsi isə təkcə Azərbaycan və Mərkəzi Asiya ölkələri üçün deyil, həm də bütün Türk dünyası üçün mühüm əhəmiyyət kəsb edir. İstər regionda, istərsə də dünyada baş verən geosiyasi proseslər dövlətlərin birgə əməkdaşlığında önəmli rola malikdir. Prezident İlham Əliyevin avqustun 9-da Qazaxıstanın paytaxtı Astanada baş tutan Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə bildirdiyi kimi, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının görüşlərinə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu reallığı xüsusi olaraq vurğulamaq istərdim ki, Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 9-da Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya Dövlət Başçılarının görüşünə fəxri qonaq qismində dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verməklə yanaşı, həm də ölkəmizin dünyada artan nüfuzunun və beynəlxalq əhəmiyyətinin göstəricisidir. Əlbəttə, bu, Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən siyasətin, Azərbaycanın regionun təhlükəsizliyi, iqtisadi sabitliyi üçün həyata keçirdiyi fəaliyyətin məntiqi nəticəsidir.

Ümumiyyətlə, son illər ölkəmizin çoxsaylı nüfuzlu beynəlxalq tədbirlərə, Zirvə toplantılarına dəvət olunması mütəmadi hal alıb. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin şəxsiyyətinə olan inamın, onun yürütdüyü uzaqgörən siyasətin, Azərbaycanın coğrafi mövqeyinin və regionun təhlükəsizliyi, iqtisadi sabitliyi üçün həyata keçirdiyi fəaliyyətin nəticəsidir.

“Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının görüşlərinə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir”. Bu fikirləri avqustun 9-da Prezident İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının görüşündə deyib. Son iki ildə Mərkəzi Asiya ölkələrinə 16 dəfə səfər etdiyini xatırladan dövlət başçısı bildirib ki, həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarları Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər. Və məhz bu səfərlər zamanı imzalanan sənədlər də ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün möhkəm təməl rolunu oynayır.

Son illərdə İlham Əliyevin Mərkəzi Asiya ölkələrində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitlərində, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə toplantısında, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində və digər tədbirlərdə iştirakı, eyni zamanda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşünün Azərbaycanda keçirilməsi ölkəmizə artan marağın əyani təcəssümüdür.

Ümumiyyətlə, Azərbaycanın xarici siyasət strategiyasının prioritet istiqamətlərindən birini Türk dövlətləri ilə mövcud münasibətləri daha da inkişaf etdirmək, əlaqələri bütün sahələr üzrə genişləndirmək təşkil edir. Xüsusilə, son illərdə bu aspektdə görülən işlər davamlı xarakter daşıyır, dövlət başçıları səviyyəsində təşkil olunan qarşılıqlı səfərlər, imzalanan sənədlər qarşıda yeni əməkdaşlıqlar üçün zəmin yaradır. Dövlətimizin başçısı İlham Əliyev fevralın 14-də andiçmə mərasimində qeyd etdi ki, bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik” – fikirlərinin davamı

olaraq bugünlərdə 2-ci Şuşa Qlobal Media Forumunda bir daha vurğuladı ki, Türk Dövlətləri Təşkilatının gələcək inkişafı ilə baxışlarım burada tamamilə aydındır. Bu təşkilatın çox böyük gələcəyi var. Təşkilatı daha yüksək pilləyə qaldırmaq üçün ortaq səylər lazımdır: "Coğrafiyamız çox böyükdür, təbii sərvətlər, nəqliyyat yolları, gənc və artan əhali – bütün bunları mən öz çıxışımda söylədim. Yəni, bütün bu amillər təşkilatımızın potensialını əyani şəkildə göstərir. Biz birliyi daha da gücləndirməklə Türk Dövlətləri Təşkilatını dünya miqyasında güc mərkəzinə çevirməliyik. Çünki bu gün bir neçə beynəlxalq təşkilat var. Bəziləri böhran içində, bəziləri tənəzzüldədir, Türk Dövlətləri Təşkilatı isə yüksəlişdədir. Bu yüksəliş rahat olmalıdır və buna ortaq səylərlə nail olacağıq… Qarabağ Zəfəri bir çox ünvanlara gözəl mesaj oldu. Gücümüz bir olanda dəmir yumruğumuz da ağır olur, daha möhkəm olur".

Bu, bir daha təsdiqləyir ki, ölkəmizin xarici siyasətində bundan sonra da qardaş dövlətlərlə münasibətlər vacib istiqamət olacaq. Bu baxımdan Azərbaycan-Qazaxıstan əlaqələrinin səviyyəsini yüksək dəyərləndirmək olur.

Vurğulamaq istərdim ki, Prezident İlham Əliyevin elə bir səfəri, çıxışı yoxdur ki, diqqəti artıq tarixə qovuşan Qarabağ münaqişəsinə, 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda törətdikləri vəhşiliklərə yönəltməsin. Dövlətimizin başçısı sözügedən çıxışında da bildirdi ki, Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir. Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir. Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı oldu. Yeni təhsil kompleksi üçün Kurmanqazı adının seçilməsi də təsadüfi deyil. Görkəmli musiqiçinin əfsanəvi əsərləri bütün Türk dünyasının mirasına çevrilib. Mərkəzin yaradılması Azərbaycan və Qazaxıstan arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, gənclərin keyfiyyətli təhsilinə, regionda yaradıcılığın, idmanın və elmin inkişafına töhfə vermək məqsədi daşıyır. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın

hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirildi. Cənab İlham Əliyev qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürünü bildirdi.

Hazırkı dövrün əsas çağırışı bərpaolunan enerji mənbələrinə investisiyaların yatırlıması və bu sahədə əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir. Azərbaycanın mövcud potensialı bu əməkdaşlığın dərinləşməsinə geniş imkanlar açır. Onu da qeyd edək ki, Azərbaycan bərpaolunan enerji sahəsində də Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.

Həmçinin günümüzün əsas müzakirə mövzularından biri Azərbaycanın bu ilin noyabr ayında mötəbər tədbirə-COP29-a evsahibliyidir. Prezident İlham Əliyev bütün çıxışlarında bu mühüm hadisəyə diqqət yönəldərək Azərbaycanın belə bir mötəbər tədbirə evsahibliyini şərtləndirən amilləri açıqlayır. Reallıq budur ki, Azərbaycan iqlim dəyişmələrinin yaratdıcı probemlərə qarşı mübarizəyə töhfələri ilə diqqədədir. Cari ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bunun bariz nümunəsidir.

Ümumiyyətlə, bütün bunlar bir daha göstərir ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrin böyük perspektivləri mövcuddur. Bu gün Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən Azərbaycan Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaşdır. Əminliklə söyləmək olar ki, Azərbaycanın beynəlxalq əlaqələri bundan sonra daha da genişlənəcək, onun müxtəlif regionlar arasında rolu bundan sonra da davam edəcəkdir.

Azərbaycan-Pakistan: Tarixi dostluq və strateji tərəfdaşlıq

"Bizim qardaşlığımız xalqlarımızın əsrlərlə bundan əvvələ təsadüf edən, bir-birinə olan dərin hisslərinə əsaslanır. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 11-də İslamabadda Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında deyib. Bu bağlantının böyük sərvət olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib ki, bu gün Pakistan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri həmin

bünövrəyə əsaslanır: “Biz qardaşıq və dostuq. Biz hər işdə, istənilən beynəlxalq təsisat daxilində, hər beynəlxalq məsələdə bir-birimizi dəstəkləyirik. Məsələn, irəli sürdüyümüz təşəbbüsdə qardaşlarımız bizi dəstəkləyir və eyni dəstək qarşılıqlı olur. Cəmmu və Kəşmir məsələsində bizim birmənalı dəstəyimiz qardaşlığımıza, eləcə də beynəlxalq hüquqa olan sadiqliyimizdir. Kəşmirlilərin hüquqları onilliklər boyu diqqətdən kənarda qalmış, pozulmuşdur. BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələnin necə həll olunmasını aydın şəkildə təsvir edir. Lakin, əfsuslar olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yoxdur. Ancaq qardaş və dost kimi biz Sizinlə, Kəşmirdəki qardaşlarımızla hər zaman yan-yana olacağıq, beynəlxalq hüququn və ədalətin tərəfində dayanacağıq. Mən əminəm ki, ədalət zəfər çalacaq”.

Prezident İlham Əliyev mətbuata bəyanatında onu da vurğuladı ki, biz hər zaman bir-birimizi dəstəkləmişik. Biz hər zaman əməkdaşlıq etmişik. Lakin hazırda biz ticarət, sərmayələr, sənaye, energetika, daşımalar, nəqliyyat dəhlizləri kimi sahələrin praktiki elementlərinə qədəm qoyuruq. Bütün bunlar bizim planlarımızdır və bütün planlarımız icra olunacaq. Onu da qeyd edək ki, ölkələrimiz müvafiq beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiya Parlament Assambleyası, habelə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Konfrans çərçivəsində də uğurla əməkdaşlıq edir, bir-birilərinə dəstək verir. Reallıq budur ki, son illərdə iki ölkə liderləri arasında təmaslar daha da intensivləşib. Belə ki, həm Azərbaycanın evsahibliyi etdiyi, həm də qatıldığı beynəlxalq tədbirlərdə iki ölkənin liderləri mütəmadi olaraq görüşürlər.

Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının son iki Sammitində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb. Bundan əlavə, ötən ilin iyununda Pakistanın Baş naziri Azərbaycanda səfərdə oldu. Mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də ölkələrimiz arasında əməkdaşlığın yeni və daha güclü formatlarda da inkişaf etdirilməsidir. Bu baxımdan bu günlərdə Astanada keçirilən “ŞƏT plyus” formatında Zirvə görüşü çərçivəsində dövlət Azərbaycan Prezidenti İlham Əliyevin, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təşkil olunan üçtərəfli görüş keçirməsi çox önəmlidir. Görüşdə iqtisadiyyat, ticarət və digər

sahələrdə əməkdaşlıqla yanaşı, "Üç qardaş" şüarı altında keçirilən hərbi təlimlərin əhəmiyyətinin vurğulanması və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklifinin irəli sürülməsi, müdafiə sənayesi sahəsində birgə istehsalın təşkili məsələsinin gündəmə gətirilməsi üç ölkə arasında hərbi-siyasi sahədə əlaqələrin bundan sonra daha da dərinləşəcəyini deməyə imkan verir.

Bir sözlə, Azərbaycan-Pakistan münasibətlərinin uğurlu inkişafı dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən biri olmaqla bu əlaqələr möhkəm dostluğa və qardaşlığa əsaslanaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Qeyd edim ki, ölkələrimiz arasında diplomatik əlaqələr 1992-ci ildən qurulub. Pakistan məhz işğala görə Ermənistanla diplomatik münasibətləri qurmayan ölkədir. 2020-ci ilin noyabrında Qələbəmizi qeyd etdiyimiz zaman xalqımızın əllərində Azərbaycan, Pakistan və Türkiyənin bayraqları var idi. Bu, bizim münasibətlərimizi unikal edir.

Prezident İlham Əliyevin cari ilin 11 iyul tarixində İslamabada dövlət səfəri zamanı Pakistan Prezidenti Asif Əli Zərdari, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə keçirdiyi görüşlər bir sıra sahələrdə əməkdaşlığın dərinləşməsinə xidmət edir. Həmçinin səfər çərçivəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 10-dan çox sənədi imzalanıb. Ümumiyyətlə, Azərbaycan və Pakistan arasında müqavilə-hüquq bazası kifayət qədər genişdir. İndiyə qədər 38 sənəd imzalanıb, 25 sənəd layihəsinə isə hazırda baxılmaqdadır.

Səfər zamanı mətbuata verdiyi bəyanatında Prezident İlham Əliyev ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin dostluq və qardaşlıq münasibətlərinə əsaslandığını xüsusilə vurğulayıb. Azərbaycan-Pakistan qardaşlığı xalqlarımızın əsrlərlə bundan əvvələ təsadüf edən, bir-birinə olan dərin hisslərinə əsaslanır. Ölkə başçısı bəyanatında qeyd etdi ki, Azərbaycana gələn pakistanlıların sayı son illər ərzində daha da artıb və Bakı-İslamabad, Bakı-Kəraçi, Bakı-Lahor arasında birbaşa uçuşların həyata keçirilməsi artıq müzakirə olunub.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bu səfərin önəmini "Səmimi dost və həqiqi qardaş öz qardaş ölkəsini ziyarət edir" fikirləri ilə ifadə edib. Möhkəm təmələ, qarşılıqlı etimada əsaslanan dostluq, qardaşlıq

münasibətləri sarsılmazdır və hər iki tərəf bu əməkdaşlığın daha da möhkəmlənməsində, bütün sahələr üzrə inkişafında maraqlıdır. Məhəmməd Şahbaz Şərif bu dostluğun sözdə deyil, əməldə öz təsdiqini tapdığını, sarsılmazlığını "Biz fərqli dillərdə danışırıq, biz urdu dilində, siz Azərbaycan və ya türk dilində danışırsınız. Biz bir-birimizdən uzaqda yaşayırıq, lakin inanın mənə, bizim qəlblərimiz bir yerdə döyünür, fərqli dillərimizin olmasına baxmayaraq, biz birlikdə danışırıq, biz bir yerdə düşünürük, biz ikitərəfli və çoxtərəfli münasibətlərimizə aid bütün məsələlərdə bir-birimizin yanındayıq" çağırışı ilə də diqqətə çatdırdı.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Pakistan dost ölkə kimi keçmiş münaqişə ilə bağlı hər zaman öz qəti mövqeyini də bildirib. Belə ki, Pakistan Azərbaycana dəstək verməklə və həmrəylik nümayiş etdirməklə bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Həmçinin Pakistan Senatı 2022-ci il mayın 30-da Xocalı soyqırımını pisləyən qətnamə qəbul edib.

Həmçinin Heydər Əliyev Fondunun bu ölkədə həyata keçirdiyi bir sıra humanitar və xeyriyyə xarakterli layihələr də ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfə kimi dəyərləndirilir. Belə ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən silsilə humanitar tədbirlər çərçivəsində Kəşmirin Müzəffərabad şəhərində qızlar məktəbi inşa edilib, bu ölkənin Xayber Paxtunxva əyalətində hepatit B virusuna qarşı peyvəndləşdirmə işləri aparılıb. Həmin əyalətin klinikalarında serebral iflicin müalicəsi təşkil olunub, açıq ürək cərrahiyyə əməliyyatları baş tutub, Pakistan-Əfqanıstan sərhədi boyu pulsuz qanköçürmə məqsədilə xüsusi laboratoriya ilə təchiz olunumuş, təcili tibbi yardım avtomobili hədiyyə edilib. Göz klinikasının tikintisi üçün maddi yardım göstərilib, Ramazan ayında Pakistanın bütün əyalətlərində kimsəsiz uşaqlar üçün iftar süfrələri təşkil edilib, çox imkansız insana qurbanlıq paylanılıb.

Göründüyü kimi, hər iki dövlət arasında belə bir münasibətlərin olmasınının əsas səbəbi birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulmasından irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyev Pakistanla əlaqələrimizi xarakterizə edərkən bildirmişdir: "Ölkələrimiz arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Biz Pakistana minnətdarıq

ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib... Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır".

Baş nazir Məhəmməd Şahbaz Şərif isə Pakistanla Azərbaycanı bir bədəndə iki ürəklə müqayisə edib. O bildirib: "Azərbaycan ilə Pakistan arasında qardaşlıq və dostluq əlaqələri var. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və ehtiram üzərində qurulub. Biz Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik".

Əminliklə deyə bilərik ki, bu gün Azərbaycan-Pakistan münasibətləri hər iki ölkənin dövlət rəhbərlərinin səyləri nəticəsində özünün ən yüksək inkişaf dövrünü yaşayır. Azərbaycanın Vətən müharibəsində Qələbəsi və antiterror tədbirləri nəticəsində öz suverenliyini tam bərpa etməsi ilə Cənubi Qafqazda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları ikitərəfli və çoxtərəfli əlaqələrin dərinləşməsi istiqamətində yeni perspektivlər açır. Prezident İlham Əliyevin Pakistana dövlət səfəri ölkələrimiz arasındakı ikitərəfli münasibətlərə yeni məzmun və keyfiyyət gətirərək, qarşılıqlı əməkdaşlığın daha geniş sahələri əhatə etməsini və uzunmüddətli vədədə dərinləşməsini təmin edəcək.

Azərbaycanın sabitlik və sülh tərəfdarı olduğu dünya birliyində də etiraf olunur

Azərbaycan bu gün qlobalmiqyaslı məsələlərin həllində fəal rol oynayır. Ölkəmiz beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir, sivilizasiyalararası dialoqların həyata keçirilməsi üçün mühüm təşəbbüslər irəli sürür, dünyanı narahat edən problemlərdən birgə çıxış yollarının aranması üçün uğurlu platformalar təqdim edir.

Prezident İlham Əliyev "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxışında 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad edildiyini, 2023-cü il sentyabr ayında ərazi bütövlüyümüzün, suverenliyimizin tam şəkildə bərpa olunduğunu, Azərbaycanın çox

fəal çalışdığını, Ermənistana sülh sazişi ilə bağlı danışıqları başlamaq təşəbbüsü irəli sürdüyünü, hətta baza prinsiplərini və sülh sazişinin layihəsini hazırladığını vurğulayıb: "İndi isə biz müsbət tendensiyadayıq, sülhə doğru gedirik".

Bu gün dünyada güc amilinin hakim olduğunu nəzərə alan Prezident İlham Əliyev ölkəmizin daha da gücləndirilməsi üçün daim çalışır. Azərbaycanın hərbi potensialının artırılması da dövlətimizin prioritet istiqamətlərindəndir. Müharibədən sonra yeni silahlı birləşmələrin yaradılması və yeni texnikaların alınması bu məqsədlərə xidmət edir. Azərbaycanın hərbi gücünü artırması müdafiə və təhdidlərdən qorunmaq məqsədi daşıyır. Çünki Azərbaycan sabit, təhlükəsiz diyardır və hər zaman sülhün tərəfdarıdır. Bunu artıq bütün dünya görür və bilir. Artıq münaqişə həll olunub və Minsk qrupu öz fəaliyyətini başa vurub. Bütün dünya, aparıcı ölkələr və beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Azərbaycanın təqdim etdiyi gündəlik artıq beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür. Bir sözlə, postmünaqişə dövründə gündəliyi Azərbaycan müəyyənləşdirir.

İndi qarşıda mühüm məsələ – sülh sazişinin bağlanması, Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyasıdır. Sərhədlərin müəyyənləşdirilməsi avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyulması deməkdir. Qarabağ Azərbaycanın ərazisidir və bütün dünya bunu belə qəbul edir. Ermənistan anlamalıdır ki, Azərbaycanla sülh müqaviləsi imzalanmalıdır. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Azərbaycan 44 gün ərzində həm ərazi bütövlüyünü, həm ədaləti, həm də xalqımızın milli ləyaqətini bərpa etdi. İşğaldan azad olunmuş ərazilərdə bu gün bərpa-quruculuq işləri sürətlə davam edir. Birinci pilot layihə isə məhz Zəngilanın Ağalı kəndində icra edildi. Üç il yarım bundan əvvəl inşaat işlərinin başlandığı Ağalıda indi 200 evdən ibarət "Ağıllı kənd" salınıb. Kənddə yaşayış üçün lazım olan bütün infrastruktur yaradılıb.

Azərbaycan xalqının bundan sonra müzəffər xalq kimi yaşayacağını bildirən Prezident İlham Əliyev Ağalı kəndindən olan sakinlərlə görüşdə gənclərin öz dədə-baba yurduna qayıtmağa çox həvəsli olduqlarını vurğuladı. Dedi ki, 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımız

dövlətimizin gücü və qüdrəti sayəsində minalardan təmizlənir, kəndlər salınır, yollar çəkilir, bir sözə, insanların yaşayışı üçün əlverişli şərait yaradılır. Ölkəmiz beynəlxalq sülhyaratma missiyalarında iştirak edərək təkcə regionda deyil, dünyada da sülh və təhlükəsizliyin qorunub saxlanmasına öz töhfəsini verib. İkinci Qarabağ Müharibəsinin Qalib Sərkərdəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının Ermənistanla aparılan sülh danışıqları prosesində ortaya qoyduğu dəyişməz, qətiyyətli mövqeyi bir daha göstərir ki, məğlub ölkə ilə yalnız məlum 5 prinsip əsasında hazırlanan sazişə imza atılacaq. Çünki Azərbaycan Qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirib vaxt udmaq istəsə də buna nail ola bilmir. Səbəb isə bölgədə marağı olan güclər Cənubi Qafqazda sülhün və təhlükəsizliyin tez bir zamanda təmin olunmasında israrlıdırlar. Hazırda dünya birliyi də Azərbaycanın haqlı tələbini aydın şəkildə dəstəkləyir. Tərəflər arasında aparılan sülh danışıqları isə həm Rusiyada, həm də Avropada reallaşır.

Beynəlxalq aləm də şahiddir ki, Azərbaycanın mövqeyi dəyişməzdir. Prezident İlham Əliyev bütün görüşlərində, müsahibələrində dönədönə Azərbaycanın mövqeyinin dəyişməz olduğunu vurğulayı. Qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Dövlətimizin başçısının bu mesajı Ermənistana 2 yol göstərir: Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da "dəmir yumruq" yenidən işə düşməlidir. Təbii ki, 44 günə diz çökdürülən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Ermənistan anlamalıdır ki, başqa çıxış yolu yoxdur və Azərbaycanla sülh müqaviləsi imzalanmalıdır. Çünki Ermənistanın qeyrikonstruktiv mövqeyi regionda təhlükəsizliyin təmini ilə yanaşı, bu dövlətin gələcək inkişafını da yubadır. Onsuz da ötən 30 illik işğal dövründə Ermənistan iqtisadi-siyasi müstəvidə çox şey itirib – bu dövlət müstəqil olmaq şansını itirib. Yenidən eyni metodla sülhə mane olmaq istəyi isə indiki halda Ermənistana daha böyük zərbə vura bilər. Onsuz da üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan Avropa İttifaqının moderatorluğu ilə keçirilən görüşlər zamanı da səsləndirdiyi vədlərdən boyun qaçırmaqla özünü dalana dirəyib – artıq reallıqdan qaçmaq mümkün deyil.

Reallıq budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Yəni Azərbaycan Prezidenti Vətən Müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də sülh kontekstində regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün addımlar atır.

Bir sözlə, Azərbaycan öz sülh təşəbbüslərinə adekvat cavab tələb edir və bizim buna tam haqqımız çatır. Çünki haqq-ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Biz heç kimin ərazisinə göz dikmirik və öz halal torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik. Bütün bunlar bir daha göstərdi ki, dünyanın güc mərkəzləri Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq əməkdaşlığa töhfələrini, təşəbbüslərini və liderliyini yüksək qiymətləndirirlər. Eyni zamanda, bunlar Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin dünyanın güc mərkəzləri tərəfindən hörmətlə qarşılanmasının və qəbul olunmasının sübutudur.

Bütün bunlar onu göstərir ki, regionda vəziyyətə diktə edən tərəf Azərbaycandır və ölkəmizin atdığı addımlar beynəlxalq hüquqa əsaslanır. Azərbaycan öz sülh təşəbbüslərinə adekvat cavab tələb edir və bizim buna tam haqqımız çatır. Bu nailiyyətlər Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplmatik siyasətinin reallığıdır.

Parisdə Azərbaycanın Dövlət himninin səsləndirilməsi qalib ölkənin hər şeyə qadir olduğunun sübutudur

Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan beynəlxalq idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara evsahibliyi etməsi ilə bu imicə sahib olub. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla və mütərəqqi Liderliyi ilə davam etdirən, ideyalarını gerçəkləşdirən Prezident İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançıları və onların məşqçiləri ilə görüşü zamanı ilk növbədə qalib idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edib: "Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır", – deyən dövlətimizin başçısı onu da vurğulayıb ki, bu, dörd ildən bir keçirilən idman bayramıdır: "Əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq – 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir".

Dövlətimizin başçısı görüşdə çıxışı zamanı bir daha qürurla vurğuladı ki, siz, Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançıları bir daha göstərdi ki, Azərbaycan güclü idman ölkəsi statusunu qoruyub saxlayır. Qalib Azərbaycanın qalib idmançıları müzəffər xalqı təmsil edən idmançı olaraq Azərbaycan Bayrağının qaldırırlar. Çünki Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir. Bayrağımız yüksəldikcə, dövlətimizin nüfuzu daha yüksək zirvələrə doğru ucalır. Bu isə Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğının real və əyani təcəssümüdür.

Əsas məqamlardan birinin də Paris Olimpiadasının böyük idman yarışları olmasına baxmayaraq, açılış mərasimindəki təşkilat komitəsinin yarıtmaz fəaliyyəti, aparıcıların dövlətlərə qarşı münasibəti, Şimali və Cənubi Koreyanı bir-birindən ayıra bilməmələri, Azərbaycan idmançılarının keçidindəki verilən yaramaz şərhlər, Ermənistana olan münasibət bütün məsələləri açıq aydın bir daha göstərdi ki, Fransa Olimpiya Oyunlarının keçirilməsinə nəinki hazır, heç layiq də deyil.

Bütün bunlara baxmayaraq, Azərbaycan idmançısı Hidayət Heydərovun fransız idmançısına qalib gəlməklə Olimpiya çempionu olması, Azərbaycanən Dövlət Himnini səsləndirməsi qələbələrimizin ardının

gəldiyini göstərir. Dövlət başçımızın dediyi kimi, qələbələrimiz hələ qabaqdadır. Azərbaycan idmançıları ölkəmizi şərəflə, layiqincə təmsil etməklə, əldə etdikləri qələbələrlə bundan sonra da bayrağımızı daha yüksəklərə qaldıracaqlar. Ancaq Fransa özünü sivil dünyaya həmişə mədəniyyətin beşiyi kimi təqdim etməyə səy göstərsə də, "Paris 2024" Yay Olimpiya Oyunlarının açılış mərasimindəki biabırçılığı dünya tarixinə rəzalət oyunları kimi yazıldı.

Prezident İlham Əliyev görüş zamanı qalib idmançılara tapşırıqlarını verərək bildirdi ki, həm Avropa, həm də dünya çempionatlarına hazırlıq işləri gedəcək: "Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə, təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq".

Dövlətimizin başçısı qalib idmançılarla görüşündə bir daha əminliyini vurğulayaraq növbəti yarışlarda qaliblərin sayının daha çox olacağını vurğuladı: "Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik".

Prezident İlham Əliyev, həmçinin idmanın və qələbələrin gənclərimizin həyatında müsbət təsiri olduğunu bildirdi. Qeyd etdi ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır: "Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və

bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir".

Həmişə olduğu kimi, bu yarışda da bütün dünya idmançılarımızın gücünün şahidi oldu və Bayrağımız qaldırılanda, Himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır. Çünki dövlət başçımızın söylədiyi kimi, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır: "Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir".

Azərbaycan-Türkiyə birliyi dünyaya nümunədir

Bu gün Türkiyənin aparıcı media orqanları Azərbaycan və Türkiyə liderlərinin son telefon danışığı xəbərini geniş işıqlandırıb. Qardaş ölkənin media strukturları Türkiyənin müxtəlif bölgələrində baş verən irimiqyaslı meşə yanğınlarının söndürülməsi səylərinə Azərbaycanın dəstəyinin vacibliyinə diqqət çəkiblər. Eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidenti İlham Əliyevə zəngi etməsi ilə bağlı məlumat televiziya kanallarının xəbər buraxılışlarında yer alıb. İki qardaş ölkə liderinin telefon danışığı Türkiyə ictimaiyyətinə "Azərbaycan yenidən qardaşlığını nümayiş etdirdi!", "Qardaşlıq əlaqələri məhz belə günlərdə özünü göstərir", "Azərbaycan yanğınların söndürülməsinə yardım göndərir", "Azərbaycan Türkiyəyə amfibiya təyyarəsi göndərir", "Azərbaycan meşə yanğınlarına qarşı Türkiyəyə kömək edir" kimi sərlövhələri ilə təqdim olunub.

Həmçinin 2020-ci ildə İkinci Qarabağ Müharibəsi, eyni zamanda, fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ, güclü yanğınlar zamanı Türkiyə və Azərbaycan həm sevincli, həm də kədərli anlarında biribirinin yanında olmalarını sözdə deyil, əməldə təsdiqlədilər. Eyni zamanda, iki dost ölkənin liderlərinin prezident seçkilərində qələbələrindən sonra ilk səfərləri, səfərlərlə yanaşı, sənədlərin imzalanması, prezidentlərin istər təkbətək, istər geniş tərkibdə görüşləri, mətbuata birgə bəyanatları Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, "iki dövlət bir yumruq" həmrəyliyi birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu, sərhəd

tanımayan qardaşlıq birliyidir. Hər iki qardaş dövlətlərin liderləri və xalq bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu, bütün dünya üçün bir nümunədir. İkinci Qarabağ Müharibəsinin başlandığı ilk anlardan Türkiyənin siyasi və mənəvi dəstəyini hiss edən və bundan böyük güc alan Azərbaycanın sonrakı addımlarına diqqət yetirdikdə qardaş ölkənin Prezidentinin daim cənab İlham Əliyevin yanında olduğunu görürük. Zəfər paradı, onun ardınca Qarabağın tacı Şuşanın şahidliyi ilə müttəfiqlik sənədinin imzalanması, daha sonra iki dost ölkənin prezidentlərinin iştirakı ilə Qarabağın və Şərqi Zəngəzurun hava qapılarının dünyaya açılması və sair kimi biri-birindən mühüm hadisələr dostluğumuzun təqdimatlarıdır. Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, biz öz gücümüzə güc qatırıq və Türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək. Azərbaycan Prezidenti əməkdaşlığımızın önəmli istiqamətlərindən biri kimi hərbi sahədə işbirliyimizi də xüsusi vurğuladı. Bildirdi ki, ordularımız bir yumruq anlamına gəlib. Hər il ən azı 10 hərbi təlim həm Türkiyədə, həm də Azərbaycanda keçirilir, hərbi gücümüz daha da artır. İkinci Qarabağ müharibəsi, ötən il həyata keçirilən antiterror əməliyyatı bir daha onu göstərdi ki, Türkiyənin ordu modeli Azərbaycanda artıq tam oturuşub.

Tarixin sınaqlarından şərəflə çıxan Türkiyə-Azərbaycan qardaşlığı dünyaya nümunədir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, biz bütün məsələlərdə bir yerdəyik. Bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da Azərbaycan və Türkiyə daim bir yerdədir. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxışı zamanı bildirmişdir ki, bu gün regional işlərdə, hətta dünya miqyasında Türkiyə və Azərbaycan birliyi, qardaşlığı önəmli faktora çevrilib: "Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və bütün dünya üçün nümunədir.

Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu İKİ LİDERİN UCA

ŞƏXSİYYƏTİNƏ, MƏNLİYİNƏ, MƏNƏVİYYATINA, DƏYƏRLƏRƏ BAĞLILIĞINA YARAŞAN DA ELƏ MƏHZ BUDUR!

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm".

Budur çətin günlərin sınağından çıxmış qardaşlıq dayağı, bir millət, iki dövlət münasibəti.

Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır", "Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq", mövqeyi ilə Türk birliyi mesajını verdi Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasında çıxışı zamanı Azərbaycana verdiyi dəstəyə görə dövlət başçısı sosial şəbəkədə təşəkkürünü bildirib: "Əziz

qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir. Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər".

Türkiyə Prezidenti "Antalya Diplomatiya Forumu -2024"-ün açılış mərasimində çıxışı zamanı "Türkiyə Ermənistanla münasibətlərin normallaşdırma prosesini Azərbaycanla koordinasiyalı şəkildə davam etdirəcək", – deməklə İrəvana mesaj göndərmiş oldu. Yəni, Ermənistan Türkiyə ilə münasibətlərin normallaşdırılmasını və sərhədlərin açılmasını istəyirsə, ilk növbədə, Azərbaycanla razılaşma əldə etməlidir. Bu, o deməkdir ki, İrəvanın Türkiyə və Azərbaycan mövzularını bir-birindən ayırmaq siyasəti nəticə vermədi.

Göründüyü kimi, bu gün iki güclü liderlərin şad və kədərli günlərdə bir-birinin yanında olması, müxtəlif beynəlxalq tədbirlərdə həmişə bir-birilərinə dəstək verməyin əsl örnəyini nümayiş etdirir və bundan sonra da bir olacaq. Böyük öndərlər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik", Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" tezislərinin bir daha reallıqda təsdiqinin təqdimatı oldu. Artıq bu kəlamlar, sadəcə olaraq, kəlam deyil, gerçəklikdir. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar və dövlət başçımızın dediyi kimi: "Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək!".

Azərbaycan–Türkiyə liderlərinin maraqlara deyil, dəyərlərə əsaslanan qardaşlıq birliyi

Bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olmaları sarsılmaz birliyin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu, sərhəd tanımayan qardaşlıq birliyidir. Hər iki qardaş dövlətlərin liderləri hər zaman sarsılmaz birlik nümayiş etdirərək bu dostluq və qardaşlığın bütün dünya üçün bir

nümunə olduğunu sübut ediblər. Öz maraqları üçün min oyunlar oynayan, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxır, onlara öz yerlərini göstərirlər. Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük Vətən Müharibəsində gördü və bütün dünya da bunun bir daha şahid oldu. Şanlı Qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.

Belə ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın NATO sammiti çərçivəsində Vaşinqtonda Vaşinqton müxbirinin Fransanın Ermənistanı silahlandırması ilə bağlı sualına cavabında "Bölgədəki sülhü bölmək və ya sülhə kölgə salmaq heç doğru olmaz", – deməsi bir daha Türkiyə Prezidentinin Azərbaycana dəstəyi nə birinci, nə də sonuncudur. Belə ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Antalya Diplomatiya Forumu -2024"-ün açılış mərasimində çıxışı zamanı "Türkiyə Ermənistanla münasibətlərin normallaşdırma prosesini Azərbaycanla koordinasiyalı şəkildə davam etdirəcək", – deməklə İrəvana mesaj göndərmiş oldu. Yəni, Ermənistan Türkiyə ilə münasibətlərin normallaşdırılmasını və sərhədlərin açılmasını istəyirsə, ilk növbədə, Azərbaycanla razılaşma əldə etməlidir. Bu, o deməkdir ki, İrəvanın Türkiyə və Azərbaycan mövzularını bir-birindən ayırmaq siyasəti nəticə vermədi. Azərbaycan Prezidenti İlham Əliyev: "Türkiyə burada yoxsa da, mən buradayam və sizin cavabınızı verəcəyəm", söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda, bütün türk dünyasının ürəyini fəth etmişdi. Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İllər öncə, Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı "Şərq Tərəfdaşlığı" sammitində

“dərə xəlvət, tülkü bəy” yanaşmasından çıxış edərək, qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev ona layiqli cavab verməklə bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan “Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır”, “Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq”, mövqeyi ilə Türk birliyi mesajını verdi. Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasında çıxışı zamanı Azərbaycana verdiyi dəstəyə görə dövlət başçısı sosial şəbəkədə təşəkkürünü bildirib: “Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir. Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər. Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik. Şuşa Bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siz də, mən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq”.

Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə münasibət bildirərək deyib: “Mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz – iki qardaş ölkə öz siyasətimizlə bu birliyi möhkəmləndiririk” fikirləri bir daha təsdiqləyir ki, “bir millət, iki dövlət” vəhdətini heç bir kənar qüvvə poza bilməz. İki dövlət arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlıq yüksək səviyyədə davam edir. Hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq, ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi artıq ənənə halını alıb. Bu, həm də əsgər və zabitlərimizin döyüş qabiliyyətini artırır. Eyni zamanda, Türkiyə və Azərbaycan regional əməkdaşlıq prosesinin fəal və əsas söz sahibi olan iştirakçılarıdır. Eyni zamanda, bu sarsılmaz qardaşlığı daha da möhkəm edən 2021-ci il iyunun 15-də mədəniyyət mərkəzi olan Şuşada iki qardaş liderlərinin imzaladığı Şuşa

Bəyannaməsi oldu. Bu, bir daha dünyaya çox açıq şəkildə bir millət, iki dövlətdən ibarət çox möhtəşəm bir birlik nümunəsi olan "Azərbaycan və Türkiyə həmişə bir yerdədir, bundan sonra da daha yüksək səviyyədə bir yerdə olmağı davam etdirəcək" mesajı idi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarını və Azərbaycan xalqını təbrik məktubunda bir daha Şuşa Bəyannaməsinin iki qardaş ölkə arasında bu birliyin daha da möhkəm olacağını söyləyib: "Özündə dərin məna ehtiva edən bu gündə Azərbaycan xalqının haqlı qürurunu və sevincini ürəkdən bölüşürük".

Məktubda o da vurğulanır ki, "Bir millət, iki dövlət" şüarı ilə birlikdə imzaladığımız Şuşa Bəyannaməsi ilə daha da möhkəmləndirdiyimiz bənzərsiz münasibətlərimiz indiyədək olduğu kimi, gələcəkdə də ölkələrimizin və regionumuzun sülh və sabitliyinin ən böyük təminatı olacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

Bir sözlə, bu gün böyük öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" tezislərinin bir daha reallıqda təsdiqinin təqdimatı olmaqla, bu kəlamlar sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar. Prezident İlham Əliyevin dediyi kimi: "Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək!"

Azərbaycan-Rusiya münasibətləri dövlət başçılarının siyasi iradəsinə uyğun inkişaf etdirilir

Dünyaya inteqrasiya edən Azərbaycan müxtəlif ölkələrlə qarşılıqlı əlaqələrinin daha da möhkəmləndirilməsi üçün ciddi səy göstərir və bunun nəticəsidir ki, hazırda bir çox böyük dövlətlə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu ölkələrdən biri də Rusiya Federasiyasıdır. Qeyd edək ki, Azərbaycan və Rusiya arasındakı münasibətlər

tarixi köklərə malikdir və hər iki dövlət başçılarının siyasi iradəsi ilə bu əlaqələr daim gücləndirilməkdədir. Heydər Əliyev və Vladimir Putin arasında qoyulan dostluq və mehriban qonşuluq əlaqələrinin əsasları sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndirilmişdir. 2022-ci ilin fevral ayında Moskvada Prezident İlham Əliyev və Prezident Vladimir Putin tərəfindən imzalanan müttəfiqlik haqqında Bəyannamə ikitərəfli münasibətlərin daha da möhkəmlənməsini təmin etməklə, dövlətlərarası münasibətləri yeni mərhələyə – müttəfiqlik səviyyəsinə qaldırıb.

Qeyd etmək lazımdır ki, Azərbaycanın xarici siyasət kursunda Rusiya ilə qarşılıqlı faydalı və bərabərhüquqlu münasibətlər böyük əhəmiyyət daşıyır. Ümumiyyətlə, Azərbaycan-Rusiya münasibətlərinin inkişafı bütövlükdə, regionun tərəqqisi, həmçinin bölgədə sülhün və təhlükəsizliyin təmin olunması baxımından önəm daşıyır. Öz növbəsində, Rusiya da Azərbaycanla çoxşaxəli əməkdaşlığı öz milli maraqlarına müvafiq hesab edir və tərəfdaşlığın genişləndirilməsi niyyətində olduğunu bildirir. Bütövlükdə, Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı məmnunluq doğurur.

Digər tərəfdən, qarşılıqlı səfər və görüşlər iki ölkə arasındakı münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verir.

Rusiya Prezidenti Vladimir Putinin avqustun 18-də ölkəmizə dövlət səfəri, imzalanan sənədlər, prezidentlərin məhdud və geniş tərkibdə keçirdikləri görüşlərdə, həmçinin mətbuata bəyanatlarında səsləndirdikləri fikirlər iki dost ölkənin mümasibətlərinin dünəninə, bugününə və gələcəyinə işıq saldı.

Azərbaycan və Rusiya prezidentlərinin mətbuata birgə bəyanatlarında "Azərbaycan və Rusiya müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi fəaliyyət göstərir" – söyləyən dövlət başçısı İlham Əliyev onu da bildirdi ki, Prezident Vladimir Putinin Azərbaycana dövlət səfəri xüsusi xarakter daşıyır. Bütün sahələrdə müsbət dinamika görürük. Həqiqətən də müzakirə, qarşılıqlı fəaliyyət üçün çoxlu mövzular var və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir. Bütün sahələrdə qarşılıqlı fəaliyyətimizi gücləndirmək əzmindəyik. Səfər ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaq istiqamətində növbəti mühüm addım olacaq.

Prezident İlham Əliyevin çıxışlarında qeyd etdiyi kimi, artıq çoxdan strateji tərəfdaşlıq səviyyəsinə çatmış bu münasibətlər həyatımızın, demək olar ki, bütün sahələrini əhatə edir. Keçirilən görüşlər, müzakirə olunan məsələlər uğurla davam edən ikitərəfli münasibətlərimizin inkişafına yaxşı impuls verir. İki ölkə arasında imzalanan sənədlər arasında "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında 2024-cü ilədək Əməkdaşlıq Proqramı" kimi sənədlər həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri baxımından mühüm önəm daşıyır.

Rusiya Prezidentinin Azərbaycan Prezidenti ilə görüşü zamanı rus dilinə göstərilən diqqətə təşəkkürünü bildirdi və qeyd etdi ki, Azərbaycanda rus dilindən hər yerdə sərbəst istifadə olunur. Azərbaycan rəhbərliyi bu tendensiyanı hərtərəfli şəkildə dəstəkləyir. Bakıda Rusiya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsünün müzakirə olunduğunu vurğulayan Vladimir Putin onu da əlavə etdi ki, Azərbaycan Prezidenti bu təşəbbüsü dəstəklədi. Biz onu kifayət qədər tez həyata keçirəcəyik. Tarixi Zəfərimizdən sonra Azərbaycanın Ermənistana təklif etdiyi sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqların təşəbbüskarları sırasında Rusiya var. Vladimir Putin mətbuata bəyanatında onu da qeyd etdi ki, Rusiya gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək göstərəcək: "Biz, həmçinin hələ Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazırıq."

Rusiya Prezidentinin ölkəmizə səfəri çərçivəsində də müxtəlif istiqamətləri əhatə edən sənədlər imzalandı. Bu sənədlər münasibətlərimizin gələcək inkişafında hüquqi bazadır. Səfər çərçivəsində günümüzün reallıqları fonunda belə bir əminlik də ifadə edildi ki, Cənubi Qafqazda sabitlik bütün dövlətlərin və region xalqlarının köklü maraqlarına tam cavab verir. "Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən

asılıdır" – deyən Prezident İlham Əliyev bildirdi ki, məhdud tərkibdə görüşdə regional təhlükəsizliklə bağlı məsələləri geniş müzakirə etdik. Vladimir Putin Azərbaycana dövlət səfəri zamanı Prezident İlham Əliyev ilə məhdud və geniş tərkibdə görüşləri, hər iki dövlət başçılarının iştirakı ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin mübadiləsi mərasiminin keçirilməsi, mərasimdən sonra prezidentlərin mətbuata bəyanatla çıxış etmələri müstəsna əhəmiyyət kəsb edir.

Beləliklə, Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə dövlət səfəri, Prezident İlham Əliyevlə aparılan danışıqlar, əldə olunan yeni razılaşmalar, imzalanan yeni sənədlər onu deməyə əsas verir ki, Azərbaycan-Rusiya əlaqələri yeni inkişaf dövrünü yaşayır və bu səfər münasibətlərin daha da inkişafına müsbət təsir göstərəcək.

Azərbaycanın gücü daim ədalətli davranması, haqq mövqeyindən çıxış etməsidir

Azərbaycanın yenilməz gücü onun həmişə ədalətli davranması, haqq mövqeyindən çıxış etməsidir. Bu xüsusda, fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib: "Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var. Qarabağ məsələsində biz tamamilə haqlıydıq və heç kim bizi bu haqdan məhrum edə bilməz. Müstəqillik ideyalarımızı rəhbər tutmağımızda da haqlı idik. Çünki biz müstəqil ölkəyik. Əgər biz müstəqil ölkəyiksə, nə üçün kiminsə sözü ilə oturub-durmalıyıq? Onda gəlin, müstəqil ölkə olmayaq. Əgər kimsə hesab edirsə ki, bizi idarə edəcək, səhv edir, yenə haqsız odur.

Bəli, biz ədalətimizlə gücümüzü, gücümüzlə ədalətimizi dünyaya nümayiş etdirmişik. Azərbaycanın müstəqilliyi real səciyyə daşıyır. Müstəqilliyimiz ən böyük nailiyyətimizdir. Bizi güclü edən həm də xalqımızın həmrəyliyidir. Dövlət başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bir daha diqqəti Azərbaycanın ədalətə, beynəlxalq hüquqa söykənən siyasətinə və uğurlu nəticələrinə yönəldərək bildirmişdir ki, öz hədəfimizə doğru gedirdik. 44 günlük İkinci Qarabağ müharibəsi

haqqın, ədalətin kimin tərəfində olduğunu bir daha təsdiqlədi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Vətən müharibəsi həqiqət anı oldu. 30 illik işğal dövründə ikili standartlara əsaslanan siyasətləri ilə diqqətdə olan dünya gücləri bu yanaşmanı istər 44 günlük İkinci Qarabağ Müharibəsi dövründə, istərsə də tarixi Zəfərimizdən sonra nümayiş etdirdilər. Bütün bunların fonunda Azərbaycan ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti, öz missiyasını şərəflə yerinə yetirməyə qadir olan ordusunun gücü, qüdrəti, xalqımızın birliyi, həmrəyliyi sayəsində tarixinin Zəfər səhifəsini yazdı. Dövlətimizin başçısının qeyd etdiyi kimi, müharibə gücümüzü, əyilməz iradəmizi, birliyimizi, qələbə rəmzinə çevrilən "dəmir yumruq" öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq.

Tarixi Zəfərimizdən ötən üç ildən artıq dövrdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolu daha da artdı. Azərbaycan ən yüksək tribunalardan haqlı mövqeyini beynəlxalq ictimaiyyətə çatdırdı. Tarixi Zəfərimizdən sonra əsas hədəf ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi idi. Cənab İlham Əliyev bütün çıxışlarında bildirir ki, biz bu məsələni sülh yolu ilə həll etmək istəyirdik. Ötən ilin sentyabr ayında lokal antiterror tədbirlərinin həyata keçirilməsini zərurətə çevirən səbəblər məlumdur. Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirmək istəmirdi, mütamadi olaraq hərbi təxribatları ilə diqqətdə idi. Lakin dünya gücləri yenə də susmağa üstünlük verdi. Təbii ki, vəziyyət bu şəkildə davam edə bilməzdi. Azərbaycan Silahlı Qüvvələrinin ötən ilin 19 sentyabr tarixində həyata keçirdikləri birgünlük antiterror tədbirləri nəticəsində ərazilərimiz separatçılardan təmizləndi, suverenliyimiz tam bərpa edildi. Ən böyük reallıq Qarabağın tam azad olunması, Qarabağdan separatizmin, terrorizmin təmizlənməsi və cənab Prezidentin təbirincə desək, tarixin zibilliyinə atılmasıdır. Azərbaycan 2024-cü ilə böyük uğurlarla qədəm qoydu. Ötən 2023-cü il Azərbaycanın tarixinə növbəti uğurlu dövr kimi həkk olundu. Ən başçlıcası isə Azərbaycanın ərazi bütövlüyü tam bərpa

edildi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndi, Xocalı, Ağdərə, Əskəran və Xocavənddə Azərbaycanın Dövlət Bayrağını ucaltdı. Artıq bu gün güclü Azərbaycanla irəliyə doğru gedirik. Çünki bu inkişaf Prezident İlham Əliyev cənablarının düzgün qurulan, düşünülmüş və məqsədyönlu siyasəti nəticəsində əldə olunur. Dövlət başçımızın çağırışı da bu olub: "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".

Göründüyü kimi, dövlət başçısı İlham Əliyev bu çağırışı ilə Azərbaycanın keçdiyi inkişaf yolunun aydın mənzərəsini yaradır. Düzgün qurulan, düşünülmüş və məqsədyönlu siyasət daim ölkənin qarşısında yeni-yeni imkanlar yaradır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, öz iqtisadi strategiyasını dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun müəyyənləşdirməsi, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın üzləşdiyi hər bir iqtisadi çətinlikdən uğurla çıxmasını təmin edir. Qətiyyətlə deyə bilərik ki, ötən 20 il ərizində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi yüksək imicə sahibdir. Hazırkı dövrün əsas hədəfi olan hərbi gücümüzün artırılmasına gəldikdə, Azərbaycan İkinci Qarabağ münaqişəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi. Son dörd ilin reallıqları bir daha təsdiqlədi ki, heç kim Azərbaycanın iradəsinə təsir edə bilməz, Azərbaycanla hədə-qorxu, ultimatum dili danışa bilməz və bundan sonra belə cəhdlər də olmayacaq. Qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasında olmaqla, müstəqil, güclü iqtisadiyyata və maliyyə resurslarına malik, özünü təmin edən və mövqeyini müdafiə etməyi bacaran ölkədir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasının təsdiqidir.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. İqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat

ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Məhz son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi model nümayiş etdirir. Artıq bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, dünya birliyində layiqli yer tutması, sözünün imzası qədər əhəmiyyəti, sabitlik diyarı kimi nüfuz qazanaraq bütün sahələrdə inkişafı, bir sözlə, yeniliyə əsaslanan inkişaf modeli liderlik amili ilə birbaşa bağlıdır. Bu gün Azərbaycanın qalib Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edərək tarixi nailiyyətlər qazanır. Dünyada getdikcə nüfuzu artan Azərbaycan beynəlxalq münasibətlərdə önəmli rol oynayır, qlobal iqtisadi və humanitar layihələrdə liderlik keyfiyyətləri nümayiş etdirir. Xüsusilə də, son 20 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qlobal miqyasda nüfuzunun göstəricisidir. Prezident İlham Əliyev bildirib ki, qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələr sırasına çıxarmaqdır. Bütün bunlar son 20 ildə Qalib Liderimiz Prezident İlham Əliyevin apardığı uğurla, qətiyyətlə Azərbaycanın haqq, ədalət tərəfdarı olduğunun göstəricisidir. Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdıb. Belə ki, 2019-cu ildən etibarən Azərbaycan Qoşulmama Hərəkatının üzv ölkələrinin yekdil qərarı ilə üç il müddətində gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı. Azərbaycan Prezidentinin sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük uğura imza atıb. Bu gün beynəlxalq aləmin hər bir üzvünün razılığı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi, əlbəttə ki, səbəbsiz deyil. Prezident İlham Əliyevin

həyata keçirdiyi siyasət, onun prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır.

Ölkə başçısının apardığı müstəqil siyasət, bütün qərar və addımların beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsi, əməkdaşlıq münasibətlərində dürüstlük, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası və digər amillər bütövlükdə, Azərbaycana olan münasibəti müsbət mənada dəyişib. Beləliklə, bu gün cənab Prezident İlham Əliyevin hərtərəfli siyasəti sayəsində Azərbaycan təkcə regional iştirakçı deyil, həm də qlobal problemlərin həllinə təsir edə bilən bir ölkədir. Bütün bu uğurlara Azərbaycan Liderinin artmaqda olan nüfuzu və hərtərəfli siyasəti sayəsində ölkəmiz təkcə regional iştirakçı deyil, həm də qlobal problemlərin həllinə təsir edə bilən bir ölkədir. Böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək. Çünki Azərbaycanın yenilməz gücü onun həmişə ədalətli davranması, haqq mövqeyindən çıxış etməsidir.

Azərbaycan-Özbəkistan münasibətləri inkişaf yolunda

Bu gün Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, region dövlətlərinin başçılarının isə Azərbaycana səfərləri müntəzəm xarakter alıb. Bu isə, təbii olaraq, ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri də Özbəkistandır. Azərbaycan və özbək xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Xüsusilə də, müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında, dövlətlərarası münasibətlərin formalaşmasında ulu öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub.

Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələyə qədəm qoyub. Belə ki, Azərbaycan-Özbəkistan münasibətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ötən ilin bu günlərində ölkəmizdə dövlət səfərində olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev işğaldan azad edilmiş Füzulidə olarkən səsləndirdiyi fikirləri ilə birliyimizi, həmrəyliyimizi dünyaya təqdim etdi. Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, xanımı Ziroatxon Mirziyoyevanın Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşlərində o da qeyd edildi ki, bizim böyük Qarabağda əsrlər boyu davam edən birliyimiz var. "Əziz dostum və qardaşım İlham Əliyev ilə Qarabağa, Füzuliyə səfərim ürəyimdəki böyük arzularımdan biri idi. Bu Qələbə üçün qardaşımın çiyninə çətin vəzifələr düşdü. Amma bu vəzifələr onun ədaləti və həqiqəti bərpa etmək üçün göstərdiyi bütün səylərin nəticəsidir ki, qardaşım Qarabağda Qələbə qazandı. Bu Qələbəni ancaq Vətəninin böyük övladı, xalqını sevən belə müdrik Prezident qazana bilər. Belə bir Prezident qardaşımızın varlığından qürur duyuruq."

Göründüyü kimi, tarixi Zəfərimiz bütün istiqamətlərdə, o cümlədən xarici siyasət sahəsində yeniliklərə yol açdı. Türk dünyasının birliyi daha da möhkəmləndi və bu həmrəyliyin gələcəyinə böyük inam formalaşdı. Türk dövlətlərini bir araya gətirən Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun artmasına hər bir türk dövləti öz töhfəsini verməyə səy göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev Türk dünyasını böyük ailə kimi dəyərləndirərək yeni dövrün yeni hədəflərini açıqlayarkən bu çağırışı etdi ki, bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir: "Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə

çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik."

Artıq bu birlik, həmrəylik hazırda işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işlərində özünün aydın ifadəsini tapır. Özbəkistan Prezidentinin təşəbbüsü ilə Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı məhz Şavkat Mirziyoyevin ötən ilin avqustunda Azərbaycana dövlət səfəri çərçivəsində oldu.

Bir əsas məqamı da vurğulamaq istərdim ki, Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini və strateji xarakter almasını şərtləndirir. Səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin gələcəyini müəyyənləşdirir. Bir sözlə, prezidentlərin qarşılıqlı səfərləri onu göstərir ki, hər iki tərəf münasibətlərin inkişafına böyük önəm verir.

Ən əsası isə Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəkləyən ölkələrdən oldu. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss etdi. Bütün bunlar Azərbaycan-Özbəkistan münasibətlərinin tarixində unudulmaz hadisələrdir.

Yeri gəlmişkən, Azərbaycan və Özbəkistanın dövlət başçıları iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verir. Bu da hər iki ölkənin iqtisadi inkişafına təkan verməklə yanaşı, regional inkişafı da stimullaşdırır. Ticarət sahəsində əməkdaşlıq Özbəkistanla iqtisadi münasibətlərdə əsas istiqamətlərdəndir. Ötən il Özbəkistanla ticarət dövriyyəsinin həcmi 180 milyon ABŞ dollarına yaxın olub. Bu ilin ilk 5 ayında isə bu göstərici təqribən 70 milyon ABŞ dolları təşkil edib. Azərbaycanda sənaye, ticarət, nəqliyyat, tikinti, kənd təsərrüfatı və xidmət sahələri üzrə Özbəkistanın 90-dan çox şirkəti qeydiyyatdan keçib. Sənayeyə birgə investisiya qoyuluşu uğurlu əməkdaşlıq nümunələri yaradıb. Hacıqabul Sənaye Parkında birgə layihə çərçivəsində avtomobil istehsal edilir. Bu il iyulun 1-nə olan məlumata görə, əməkdaşlıq çərçivəsində 5300-dən çox "Chevrolet" avtomobili istehsal olunub. Bundan başqa, birgə pikap, yük maşını və avtobus istehsalı həyata keçirilir. Azərbaycanda pambıqçılıq və ipəkçilik klasterlərinin yaradılması istiqamətində uğurlu işbirliyi davam

etdirilir. Regionlararası forumlar bu sahədə, eləcə də mədəni əlaqələrin daha da genişlənməsinə töhfə verir. Azərbaycan və Özbəkistanın nəqliyyat-tranzit sahəsində də böyük potensialı var.

İkitərəfli əməkdaşlığın digər perspektivli sahəsi enerji sektorudur. İki ölkənin şirkətləri - SOCAR və "Uzbekneftegaz" ASC Azərbaycan və Özbəkistanda neft yataqlarının birgə işlənməsi, neft-qaz sektorunda layihələrin həyata keçirilməsi və digər sahələrdə əməkdaşlıq edirlər. İki dost, qardaş ölkə arasında əlaqələrin təhlili fonunda belə bir əminlik də ifadə edilir ki, ölkələrimiz arasındakı qarşılıqlı etimada söykənən və əsrlərdir davam edən dostluq və qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət göstərəcək. Səfər çərçivəsində keçirlən görüşlər, imzalanan sənədlər, həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Uzbekneftegaz" SC arasında Əsas Şərtlər Sazişi" imzalanıb.

İmzalanma mərasimindən sonra hər iki ölkə başçısı mətbuata bəyanatlarla çıxış ediblər. Bəyanat zamanı Prezident İlham Əliyev deyib: "Bu gün Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında sanballı siyasi nüfuza malik ölkəyə çevrilib. Biz buna səmimi-qəlbdən sevinirik. Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə mənəvi dəstək olmaqla yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib. Bir il əvvəl, avqustun 23-də biz Füzulidə Mirzə Uluqbəy adına 960 şagird üçün nəzərdə tutulan və münasibətlərimizin rəmzi olan, özbək qardaşlarımızın gözəl münasibətlərinin simvoluna çevrilən, həmçinin Şavkat Miromonoviçin Özbəkistanda həyata keçirdiyi standartlara uyğun məktəbin açılışında olduq. O, artıq Özbəkistanda çoxlu sayda belə məktəblər tikib və eynisini bizdə də inşa etdi. Artıq mənə məlumat veriblər ki, orada 500 şagird təhsil alır, amma tezliklə bu məktəbdə nəzərdə tutulduğu qədər şagird olacaq. Çünki keçmiş məcburi köçkünlərin qayıdışı prosesi uğurla davam edir".

Beləliklə, bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələyə qədəm qoyub və iki ölkə liderlərinin – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin uzaqgörən siyasəti, qarşılıqlı səfərləri və mütəmadi təmasları nəticəsində artan templə inkişaf etməkdədir.Dövlət başçımızın dediyi kimi: "Əminəm ki, birgə səylərimizlə qardaş ölkələr və etibarlı tərəfdaşlar olan Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafına, çoxşaxəli əməkdaşlığın genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq.

Azərbaycan-İtaliya münasibətləri yeni mərhələdə

Dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınan Azərbaycan səmərəli ikitərəfli münasibətlərə və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinə üstünlük verir. Bu baxımdan Azərbaycan istər 2020-ci il sentyabrın 27-nə kimi, istərsə də 27 sentyabrdan bu günə kimi regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Məhz bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın xarici siyasətində Avropa istiqamətinin xüsusi yeri vardır. Avropa İttifaqı, həmçinin quruma üzv olan böyük və nüfuzlu dövlətlərlə qarşılıqlı əməkdaşlıq daim inkişaf etdirilir, yeni istiqamətlər müəyyənləşdirilir.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 4-də İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə Romaya işgüzar səfəri də bunun bariz nümunəsidir. Azərbaycan ilə İtaliya arasında münasibətlərin tarixi çox qədimdir. İtaliya Azərbaycanın Avropada ən qədim dövrlərdən diplomatik əlaqələr saxladığı, müstəqilliyini tanıyan ölkələrdən biridir. İki ölkə arasında rəsmi münasibətlərin 1992-ci ildən başlanması və uzun müddət ərzində uğurla inkişaf etməsi tərəflərin birbirinə verdiyi böyük dəyər və hörmətin nəticəsidir. Ölkələrimiz arasında həm iqtisadi, həm də siyasi baxımdan çox yaxşı münasibətlər var. İtaliya

tarixə qovuşan Qarabağ məsələsində də daim Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Hətta İtaliya Senatı Cənubi Qafqazda vəziyyətlə bağlı qətnamə qəbul edib. Həmin qətnamədə Cənubi Qafqazda sülhün bərqərar olmasında, Qarabağ münaqişəsinin həllində ölkələrin ərazi bütövlüyü prinsipinə böyük önəm verildiyi öz əksini tapıb. Ümumiyyətlə, Azərbaycan ilə İtaliya arasında yüksək səviyyəli qarşılıqlı səfərlər münasibətlərimizin dinamikasını nümayiş etdirən növbəti amildir. Çünki hər bir səfər münasibətlərin sonrakı inkişafında yeni mərhələnin başlanğıcı olur. Bu baxımdan Ulu öndər Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya ilk rəsmi səfəri iki dövlət arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub. Belə ki, İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ildə Azərbaycana ilk dövlət səfəri də əlaqələrimizin inkişafında xüsusi yer tutur. Bu səfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri reallaşdı. Beləcə qarşılıqlı münasibətlər daha sıx xarakter daşımağa başladı. Dövlətimizin başçısının 2022-ci ildə İtaliyaya növbəti səfəri iki ölkə arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini göstərir. Həmin səfər zamanı İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasiminin keçirilməsi, dövlətimizin başçısının Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirakı və çıxışı, həmçinin bu ilin iyununda İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsinin ölkəmizə təhvil verilməsi və digər faktlar iki ölkə arasında əməkdaşlıq sahələrinin genişlənməsinin bariz nümunəsidir.

Azərbaycana yaxın dost olan İtaliya işğal altındakı torpaqlarımızın azad olunması əməliyyatları dövründə müxtəlif səviyyələrdə rəsmi Bakının mövqeyini dəstəklədiyini, Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu bəyan edərək haqlının tərəfində dayandığını dünyaya nümayiş etdirdi. Həmçinin, Azərbaycan xalqı 44 günlük Vətən savaşında İtaliya mediasının haqq işimizə, Qarabağ müharibəsinə obyektiv yanaşmasının şahidi oldu.

Prezident İlham Əliyev hər zaman çıxışlarında işğaldan azad olunmuş ərazilərimizin bərpasında Azərbaycanın dost ölkələri təmsil edən şirkətlərlə əməkdaşlıq edəcəyini bəyan edib. İtaliya da Azərbaycana dost ölkələrdəndir və strateji tərəfdaşımızdır. Ölkələrimiz arasında bütün

istiqamətlər üzrə səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Təsadüfi deyil ki, 2020-ci il İtaliyada "Azərbaycan ili" kimi qeyd olundu. Azərbaycan və İtaliya arasında dostluq münasibətləri 44 günlük Vətən müharibəsi dövründə də rəsmi Roma tərəfindən açıq şəkildə bəyan olundu. İtaliyanın ayrı-ayrı rəsmi orqanlarında müxtəlif səviyyələrdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul olundu. Hərbi əməliyyatlar dövründə həmrəylik və dəstək mövqeyi İtaliya mətbuatında daha intensiv xarakter almışdı. Bir sözlə, hər zaman münaqişənin həlli ilə bağlı ədalətli mövqe sərgiləyən İtaliyanın Vətən müharibəsi dövründə nümayiş etdirdiyi mövqe bir çox ölkələr üçün əsl örnək idi. Həmçinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın gələcək inkişafı üçün geniş potensial var. Təsadüfi deyil ki, hələ 2018-ci il iyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa edilən polipropilen zavodunun açılışında ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella şəxsən iştirak etmişdi. Bu, İtaliyanın bu sahədə Azərbaycanla əməkdaşlığa ən yüksək səviyyədə verdiyi önəmin göstəricisi idi.

Prezident İlham Əliyev Azərbaycan və İtaliya arasında humanitar sahədə bir sıra layihələrin planlaşdırılmasına nümunə olan İtaliyada Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlı bildirmişdir: "Əminəm ki, bu, Azərbaycanda ən yaxşı universitetlərdən biri olacaqdır və beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir. Həmçinin italyan şirkətlərinin azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində fəal iştirakı bizi sevindirir. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda işlər gedir. Beləliklə, qeyd etdiyim kimi, gündəlik genişdir və genişlənir. Mən çox şadam ki, bu, bizim əməkdaşlığımızın yaxşı nəticəsidir".

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, qədim tarixə malik olan Azərbaycan-İtaliya əlaqələrinin möhkəmləndirilməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Bu əlaqələr xalqlarımızın, dövlətlərimizin bir-birinə yaxınlaşmasında da əhəmiyyətli

rol oynayır. Azərbaycan-İtaliya münasibətləri hazırda yeni inkişaf mərhələsini yaşayır, strateji tərəfdaşlığa əsaslanan əlaqələrin möhkəmlənməsi üçün yeni səhifələr açılır.

Hər bir səfər çərçivəsində keçirilən görüşlər, müzakirə olunan məsələlər münasibətlərimizin gələcək inkişafını şərtləndirir. Prezident İlham Əliyevin İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşündə SOCAR və "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunulmaqla yanaşı, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsinin və şaxələndirilməsinin vacibliyi vurğulandı.

Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri çərçivəsində İtaliyanın Müəssisələr və "Made in Italy" Nazirliyi, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və İtaliya Sənaye Konfederasiyasının ("Confindustria") birgə təşkilatçılığı ilə İtaliya–Azərbaycan dəyirmi masası keçirildi. Bildirildi ki, ölkəmiz İtaliya ilə çoxşaxəli iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə böyük əhəmiyyət verir və bunun nəticəsi olaraq ölkə iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən işğaldan azad olunan ərazilərdə çoxsaylı İtaliya şirkətləri uğurla fəaliyyət göstərirlər. Sənaye, bərpaolunan enerji, infrastruktur, nəqliyyat, tekstil, kimya, əczaçılıq və digər prioritet sektorlarda əməkdaşlığın gücləndirilməsi barədə müzakirələr aparıldı, hər iki ölkənin şirkət nümayəndələri biznes tərəfdaşlığının qurulması və inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşdülər. Belə bir əminlik ifadə edildi ki, dəyirmi masa çərçivəsində aparılan müzakirələr və əldə edilən razılaşmalar əlaqələrimizi daha da gücləndirəcək və yeni imkanlar açacaq.

Bir sözlə, qeyd etdiklərimiz bu qənaətə də əsas verir ki, iki ölkə arasında əlaqələrin bütün sahələr üzrə inkişafı üçün geniş imkanlar yaranır.

Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi, İtaliya da Azərbaycana dost ölkələrdəndir və strateji tərəfdaşımızdır. Bu isə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı və strateji partnyor kimi tanınmasını nümayiş etdirməklə, iki dövlət arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmin yaradacaq.

“Qarabağ Azərbaycandır!” reallığı artıq bütün dünyada qəbul olunur

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ümummilli lider Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirərək, ölkəmizdə milli dövlət quruculuğu prosesinin uğurlu inkişafı, demokratik dövlət idarəçiliyi modelinin yaradılması, vətəndaş cəmiyyətinin bərqərar olunması, respublikanın iqtisadi inkişafının təmin olunması istiqamətində tarixi nailiyyətlərə yol açır. Bütün bunlar, əslində, Prezident İlham Əliyevin Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoyduğunu təsdiqləyir. Bu missiyanını fəlsəfəsi “Əsl siyasət konkret, real iş görməkdən ibarətdir” – deyərək fəaliyyətə başlayan cənab İlham Əliyevin 2003-cü ildə söylədiyi “Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəm” fikirləri ilə real məzmun kəsb etməyə başladı. Və bu gün dövlət başçısı respublikada sürətli sosial-iqtisadi inkişaf və tərəqqiyə, siyasi sabitliyə, vətəndaş sülhünə ciddi təminat yaratmış strateji siyasi kursu uğurla davam etdirərək hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmiş, verdiyi bütün vədləri gerçəkləşdirmişdir. Öz fəaliyyəti ilə ümummilli liderə layiq şəxsiyyət olduğunu sübuta yetirən Prezident İlham Əiyev müasir dövrün tələb etdiyi siyasi lider imicini formalaşdırmışdır. Xalqımız, eləcə də bütün dünya gördü ki, bu gün Azərbaycan aparıcı dünya dövlətlərinin sayəsində deyil, Prezident İlham Əliyevin qəti və dönməz mövqeyi nəticəsində ədalət, ərazi bütövlüyümüz bərpa olundu.

Azərbaycan Prezidenti İlham Əliyev cənablarının bu günə kimi etdiyi müraciətləri dünya səviyyəli siyasətçinin sərt, ədalətli, konkret mesajlarıdır. Bu mesajlarında məğlub dövlətə və onun məğlub xalqına dəfələrlə çatdırıb ki, xalqa, dövlətə yanan lider seçməlisiniz, nə qədər ki, səviyyəsiz lider var ağır günlər keçirəcəksin, ayılın! Çünki Azərbaycan Lideri heç vaxt populist vədlər vermir. Onun sözü və imzası eyni çəkiyə malikdir və Azərbaycan xalqı son 20 ildə həmişə görüb ki, Prezident İlham Əliyev bütün ümummilli məsələlərdə qətiyyət nümayiş etdirir və Azərbaycanın haqlı mövqeyinin təsdiqlənməsinə nail olur. Məhz Prezident İlham Əliyev “Dəmir yumruq” siyasətinə əməl edən Güclü Azərbaycan

ordusunun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə cəmi 44 gün davam edən İkinci Vətən müharibəsinində Ermənistan kapitulyasiya olaraq tamamilə aciz vəziyyətdə olmaqla, hələ də acı məğlubiyyətin ağrılarını, yaralarını sağalda bilmir. Onlara böyük psixoloji zədə, travma vuruldu, bu, təbiidir. Azərbaycan postmüharibə dövründə də liderlik göstərdi.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün bizim yaşadığımız reallıq məhz İkinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində əldə edilmiş nəticələr əsasında formalaşıb. Reallığı düzgün dəyərləndirən Azərbaycan Lideri deyirdi ki, Azərbaycan ilk gündən qarşı tərəfə ərazi bütövlüyü prinsipi əsas tutularaq sülh müqaviləsi imzalanmasını təklif edib. Lakin Ermənistan üçtərəfli Bəyanatdakı şərtlərə əməl etmir. Postmüharibə dövründə ölkəmizin regionda yaratdığı reallıqlara diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Yəni, bütün bu reallıqları yaradan biz olmuşuq. Məhz bunun nəticəsində İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra həm Azərbaycan-Ermənistan sərhədində, həm Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərdə, həm sərhəd-buraxılış məntəqəsini qoymaqla biz yeni reallıq yaratdıq və Ermənistanı məcbur etdik ki, bizim dediyimizi onlar da təkrarlasın. Mən bunu İkinci Qarabağ Müharibəsi başa çatandan sonra demişdim, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar deyəcəklər: Qarabağ Azərbaycandır! Onlar cəmi 3-4 il bundan əvvəl "Qarabağ Ermənistandır" deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq. Onlara da, onların havadarlarına da, onlara bu gün dəstək verənlərə də o vaxt deyirdim ki, biz heç vaxt barışmayacağıq. Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik. Bir neçə gün bundan əvvəl Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq mənim bir neçə il bundan əvvəl dediyim "Qarabağ Azərbaycandır!" sözlərimin təkrarıdır".

Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti

cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Digər ən əsas məqam isə Ermənistan ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Prezident İlham Əliyev əminliyini ifadə edərək bildirib ki, yaxın gələcəkdə, – əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, – sülh müqaviləsi imzalana bilər. "İmzalansa çox yaxşı, imzalanmasa da hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq", – deyə dövlətimizin başçısı əlavə edib.

Azərbaycan Prezidenti bütün çıxışlarında, müsahibələrində, görüşlərdə dəfələrlə bildirib ki, artıq Ermənistanın bir yolu qalmayıb: "Yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq".

Prezident İlham Əliyevin son 20 il prezidentlik fəaliyyəti və əldə olunan nailiyyətlər bu faktorun təsdiqidir. Azərbaycan Prezidenti çıxışlarında da dəfələrlə qeyd edir ki, bizim sözümüz imzamız qədər keçərlidir. Bəli, keçərli olduğu qədər həm də dəyərlidir. Çünki Prezident İlham Əliyev imzası Azərbaycan xalqının parlaq gələcəyinin, Azərbaycan dövlətinin yüksəlişinin ifadəsidir. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən dövlətimizin başçısı bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. 30 ildən xeyi müddətdə işğal edilən torpaqları 44 günlük Vətən müharibəsi nəticəsində xilas edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev doğma Qarabağımızı cənnətə çevirəcək və bütün dünya bu diyarı daha da yaxından tanıyacaq. Dövlət başçımızın dediyi kimi: "Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik". Qarabağ Azərbaycandır!

“Dəmir yumruq” hər zaman yerində olacaq!

“Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”.

Azərbaycan Prezidenti İlham Əliyev bu fikri sentyabrın 20-də xalqa müraciətində söyləyib.Cənubi Qafqazın əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olduğunu xatırladan dövlətimizin başçısı deyib: “Yetər artıq! Biz bunu tələb edirik”.

Prezident, Ali Baş Komandan İlham Əliyev cənablarının uzaqgörən siyasəti sayəsində bu gün Azərbaycan torpaqlarının 30 illik işğalına son qoymuş, öz suveren ərazi bütövlüyünü bərpa etmiş, dünya dövlətləri arasında böyük nüfuza sahiblənmiş, dinamik inkişaf edən və ən mötəbər beynəlxalq təşkilatlarda öz sözünü deyə bilən bir ölkəyə çevrilmişdir. Dörd il bundan Ali Baş Komandanın “Dəmir yumruq" siyasətinə Şanlı Ordumuzun əsgər və zabitlərinin rəşadəti ilə Vətən müharibəsində əldə etdiyimiz Qələb Zəfəri Azərbaycan dövlətçiliyinin tarixinə ən şərəfli səhifələr kimi yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin “Dəmir yumruq” siyasətini yüksək əhvali-ruhiyyə ilə qarşılayan Azərbaycan Silahlı Qüvvələri çox qısa zamanda, 44 gündə 30 ilin işğalına son qoydu. Cəmi 44 gündə 6 şəhəri, 5 qəsəbəni, 300-ə yaxın yaşayış məntəqəsini işğaldan azad etmək yüksək peşəkarlıq, döyüş ruhu, təcrübəsi tələb edirdi ki, Azərbaycan Ordusu bunu dünyaya təqdim etdi və dövlətimizin qətiyyəti, ordumuzun gücü, xalqımızın dəmir yumruq kimi birliyi sayəsində tarixi Zəfərimizə imza atdıq.

Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapan əsas müddəalardan biri Ermənistan silahlı birləşmələrinin qalıqlarının ərazilərimizdən çıxarılması idi. Təəssüflər olsun ki, 4 ilə yaxın dövrdə Ermənistan bu sənəddən irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində səylər göstərməmiş, törətdiyi təxribatlarla hələ də 30 illik işğal dövrünün ab-havası ilə yaşadığını təsdiqləmişdir.

Göründüyü kimi, növbəti qələbə isə, ötən il sentyabrın 19-da antiterror tədbirlərinin nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi. Antiterror tədbirləri nəticəsində yenilməz Ordumuz böyük qəhrəmanlıq,

şücaət, peşəkarlıq göstərərək separatçıları təslim olmağa məcbur etdi. Ölkəmizin qısa müddətdə, bir günə təmin etdiyi qələbə Müzəffər Ordumuzun gücünün hər şeyə qadir olduğunu və Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı bütün təxribatların qarşısının qətiyyətlə alındığını və alınacağının sübutu idi.

Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində bir daha diqqəti antiterror tədbirlərini şərtləndirən amillərə yönəldərək bildirdi ki, sentyabrın 19-da ölkəmiz üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Bir gün ərzində rəşadətli ordumuz qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail oldu. Azərbaycan istədiyini etdi, bütün şərtlərin qəbuluna nail oldu. Azərbaycan artıq bütün ərazisinə nəzarət edəcək. "Boz zona" aradan qaldırılır. Növbəti qələbəmiz ordumuzun peşəkarlığının, döyüş ruhunun, planlı şəkildə fəaliyyətinin dünyaya təqdimatı oldu.Lokal xarakterli antiterror tədbirlərin qarşısında duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 20 sentyabr tarixində növbəti tarixi qələbəmizlə bağlı xalqa müraciəti dünyanın harasında yaşamağımızdan asılı olmayaraq, bütün dünya azərbaycanlılarını qürurlandırdı. Bir daha bütün dünyaya sübut etdi ki, Azərbaycan öz suverenliyini bir gündə – 24 saat ərzində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində bərpa etdi.

Qalib Liderimiz, Prezident İlham Əliyev müraciətində lokal antiterror tədbirlərinə başlanmasını şərtləndirən amillərə diqqəti yönəldərək bildirdi ki, bu tədbirlər nəticəsində hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdi: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu

şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".

Dövlət başçımız xalqa müraciətində bir daha özlüyündə yaranan "Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi?" sualına cavab olaraq bildirdi ki, İkinci Qarabağ Müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır: "Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "Dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?!".

Dövlət başçımız sözügedən müraciətdə onu da bildirdi ki, İkinci Qarabağ Müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk: "Hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla

Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək.

Bir sözlə, dövlət başçımızın müraciətində sölədiyi kimi: "O gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!".

"Qisas" və "Qətiyyətli cavab" əməliyyatları Ordumuzun qüdrətini bir daha göstərdi

2020-ci il sentyabrın 27-də başlanan 44 günlük İkinci Qarabağ Müharibəsində dünya hərb tarixinə yeni səhifə yazan yenilməz Azəbaycan Ordusu – 2023-cü il sentyabrın 20-də növbəti qələbəyə imza atdı. Belə ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun əsgər və zabitləri Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi daha bir böyük missiyanı uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Qısa müddətdə - bir günə təmin etdiyi qələbə yenilməz Ordumuzun gücü hesabına Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı bütün təxribatların qarşısının alınacağının sübut idi.

Sentyabarın 19-da Ermənistan silahlı birləşmələrinin törətdikləri terror aktı Azərbaycanı lokal antiterror tədbirlərinə başlamasına rəvac verdi. Dövlət başçısı İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində antiterror tədbirlərini nə zamana dayandıracağımızla bağlı irəli sürülən şərtlərdən geniş bəhs etdi. Ermənistan ordusunun ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, ərazimizdən tamamilə çıxarılmalı, eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik. Qarşı tərəfin qısa zamanda, bir gün ərzində irəli sürülən şərtlərdə razılaşması Azərbaycanın ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasətinin nəticəsidir.

Qalib Liderimiz, Prezident İlham Əliyev müraciətində lokal antiterror tədbirlərinə başlanmasını şərtləndirən amillərə diqqəti yönəldərək bildirdi ki, bu tədbirlər nəticəsində hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edən dövlətimizin başçısı deyib: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".

Sözü imzası qədər dəyərli və keçərli olan Prezident, Ali Baş Komandan İlham Əliyev nə vaxt, nəyi, necə etmək lazımdır – bunu özü bilir. Dövlət başçımız sentyabrın 20-də xalqa müraciətində bəyan etdi ki, İkinci Qarabağ Müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır: "Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan "bayraqlarını" büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "Dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?!"

Dövlət başçımız sözügedən müraciətdə onu da söylədi ki, İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Ona görə bütün bu amillər bir daha onu göstərir ki,

qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk.

Azərbaycan Prezidenti xalqa müraciətində bir daha növbəti mesajını da ünvanlad: "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında!"

Bir sözlə, dövlət başçımızın söylədiyi kimi: "Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!".

Azərbaycanın neft strategiyasının əsası – "Əsrin müqaviləsi"

Azərbaycan tarixinə qızıl hərflərlə yazılaraq xalqımızın və dövlətimizin taleyində mühüm rol oynayan "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il ötür. "Əsrin müqaviləsi"nə gedən yol müxtəlif çətinliklərdən və maneələrdən keçərək, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dəmir iradəsi və möhkəm dövlətçilik əzminin, qətiyyətli və ardıcıl siyasətinin nəticəsi olaraq reallaşdı. 1990-cı illərin əvvəllərində dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qarşısında dayanan əsas məsələlərdən biri ölkənin gələcək inkişafı üçün hava və su kimi tələb olunan maliyyə vəsaiti – ilkin kapital əldə etməkdən ibarət idi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş qarşıdurmasına son qoyulması, ictimai-siyasi sabitliyin bərqərar olması, qonşu ölkələrlə kəskin münasibətlərin qismən yumşaldılması, xarici sərmayələrə ciddi dövlət təminatının verilməsi və s. Qərbin ən böyük neft şirkətlərinin diqqətini yenidən Xəzər dənizinə yönəltdi və haqqında bəhs olunan transmilli müqavilənin hazırlanaraq imzalanmasına əlverişli şərait yaratdı.

Ulu öndər Heydər Əliyev uzaqgörən və qətiyyətli siyasət yürüdərək bəzi qonşu və beynəlxalq dairələrin Xəzər dənizinin statusu ilə bağlı mövcud olan problemi qabartmaq yolu ilə "Əsrin müqaviləsi"ni pozmaq planlarını puça çıxardı. O, müdrikcəsinə bütün narazı tərəfləri inandıraraq

sübut etdi ki, Azərbaycan bu addımla heç bir ölkənin iqtisadi-siyasi maraqlarına toxunmur, əksinə, bölgədə hamı üçün bərabər əməkdaşlıq və tərəfdaşlıq şəraiti yaradır. Ulu öndər həm də xarici neft şirkətləri ilə Azərbaycanın imzalayacağı bütün neft-qaz müqavilələrinin şərtlərini bizim milli maraqlara maksimum dərəcədə uyğunlaşdıra bildi. Həmin dövrdə cənab İlham Əliyevin ARDNŞ-in birinci vitse-prezidenti təyin edilməsi onun müdrik və uzaqgörən addımlarından biri oldu. Xarici neft şirkətləri ilə aparılan danışıqlarda birbaşa iştirak edən cənab İlham Əliyev imzalanacaq bütün neft-qaz müqavilələrinin xalqımızın milli maraqlarına cavab verən şərtlər çərçivəsində hazırlanmasını yüksək səriştə və bacarıqla təmin etdi. Beləliklə, 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli şirkəti ilə imzalanmış bu nəhəng neft sazişi regionda, eləcə də postsovet məkanında qarşılıqlı etimadın və geniş əməkdaşlığın təməlini qoydu. Bu sazişin imzalanması ilə Azərbaycanın neft sənayesinin qapıları xarici sərmayələrin üzünə açıq elan olundu.

İmzalanma mərasimində ümummilli lider Heydər Əliyev bu mühüm hadisəni belə dəyərləndirmişdir: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq".

"Əsrin müqaviləsi" Azərbaycan dövlətinə, ölkənin ictimai-siyasi və iqtisadi institutlarına xarici ölkələrin maliyyə və texnoloji resurslarından geniş istifadə etmək imkanı qazandırdı. Bu müqavilə çərçivəsində həyata keçirilən transmilli layihələr Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə Azərbaycanın beynəlxalq aləmdə geosiyasi və geoiqtisadi dəyərini artırdı, xarici ölkələrlə tərəfdaşlıq münasibətlərinin inkişafına və dərinləşməsinə mühüm təsir göstərdi. "Əsrin müqaviləsi" nəticəsində Azərbaycan öz gələcək inkişafı üçün lazım olan maliyyə vəsaiti və qabaqcıl texnologiya əldə etdi ki, bunun sayəsində də ölkəmiz qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevrildi.

Ən vacib bir mühüm məqamı da xüsusi qeyd edək ki, üummilli lider Heydər Əliyevin işləyib hazırladığı yeni neft strategiyasının reallaşdırılmasında onun ən yaxın silahdaşı, məhz o zamanlar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti olan İlham Əliyevin xidmətləri böyük idi. Həmin dövrdə Vaşinqton, Nyu-York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan cənab İlham Əliyev xalqımızın milli maraqlarını tam təmin edən müqavilə şərtlərinin əldə olunması üçün gərgin səylər göstərmişdir.

Son 21 ilə yaxın dövrdə bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, təkmil islahatların nəticəsində biznes mühitinin daha da yaxşılaşdırılması qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa stimul verir. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft stregiyasının əsas tərkib hissələri olan BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsini bugünkü uğurlar üçün pəncərə kimi dəyərləndirən dövlətimizin başçısı İlham Əliyev 2006-cı ildə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə xalqımıza təbrikində bu reallığı bir daha diqqətə çatıdırmışdır ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarının və beynəlxalq münasibətlər sistemində yeri və rolunun hansı səviyyədə olduğunu düşünmək çətin deyildi. Bu baxımdan hər bir layihənin uğurlu sonluqla başa çatması Azərbaycana böyük dividend qazandırır, dünyaya açılan pəncərə kimi mövqeyinə yeni-yeni əlavələr gətirir. Artıq bu gün Cənub Qaz Dəhlizinin əhəmiyyətindən və onun əsas tərkib hissələri olan TANAP-ın və TAP-ın genişləndirilməsindən bəhs edilir.

Dövlətimizin başçısı İlham Əliyevin bütün çıxışlarında xüsusi yer tutan bu fikir reallıqlarımızın təsdiqidir: "Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi qeyri-mümkündür". Məhz Azərbaycana inamın artması fonunda sonrakı sazişlərə geniş yol açıldı. Ölkəmizə sürətli investisiya axını baş verdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 310 milyard dollara yaxındır.

Enerji diplomatiyamızın uğurlarından bəhs edərkən 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin

birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Sazişin imzalanmasını xüsusi qeyd etməliyik. Bununla da, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlandı. "Yeni əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsası qoyuldu. "Əsrin müqaviləsi"ndən ötən dövrün reallıqlarını "Biz əgər tarixə baxsaq, görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir"- fikirləri ilə ifadə edən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, "Azəri-Çıraq-Günəşli" neft yataqları dünyanın ən böyük neft yataqlarından biridir və 2017-ci ildə, "Əsrin müqaviləsi"nin imzalanmasından 23 il sonra sazişin müddəti 2050-ci ilə qədər uzadıldı: "Yəni, bu, özlüyündə onu göstərir ki, bu yataqda nə qədər böyük neft ehtiyatları var. "Əsrin kontraktı" Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün "Əsrin kontraktı"nın icrası çox uğurla gedir və bu kontraktın imzalanmasından sonra Azərbaycanın yeni neft strategiyası icra olunmağa başlamışdır".

Ölkə başçısının imzalama mərasimində ifadə etdiyi bir fikri bu bağlılıqda tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev həmin fikri belə ifadə etmişdi: "Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövr başlayır".

Həmişə olduğu kimi, Ermənistan və onun havadarları Azərbaycanın atdığı hər uğurlu addımdan təlaşa düşür, Azərbaycanla bağlı ağlasığmayan, iftira dolu, yalan məlumatlar yaymaqla özlərinə təsəlli verməyə çalışırlar. Ancaq təcrübə göstərir ki, bu kimi hərəkətlər Azərbaycan rəhbərliyini seçdiyi yoldan qətiyyən yayındıra bilmir, bilməyəcək də. Prezident İlham Əliyev təmkinli, uzaqgörən və düşünülmüş siyasəti ilə qarşıya çıxarılan bütün maneələri keçir və ölkəni yeni zirvələrə doğru aparır. Prezident İlham Əliyev bildirir: "Biz yalnız görülmüş işləri nəzərdən keçirmirik. Ən əsası odur ki, gələcəklə bağlı planlar qurur və səylərimizi əlaqələndiririk. Əlaqələndirmə olmazsa biz uğur əldə edə bilmərik". Dövlətimizin başçısı bu inamı da ifadə edir ki, gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı

inkişafı üçün əlavə imkanlar yaradacaq və Azərbaycan qarşıdakı illərdə daha da güclü olacaq.

Bildiyimiz kimi, builki dövr təmiz ətraf mühit və "yaşıl enerji" növlərinin yaradılması Azərbaycanda prioritet kimi müəyyən edilib. Ölkədə ekoloji tarazlığın qorunması və bərpaolunan enerji istehsalı siyasətlərinin strateji əsasını Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təşkil edir. Həmin 5 Milli Prioritetdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilmə istiqamətində qarşıya mühüm vəzifələr qoyuldu. Qeyd edək ki, qlobal iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi çıxış edir.

"Əsrin müqaviləsi" ilə başlanan uğurlu inkişaf davamlılığı ilə diqqətdədir. "İqtisadiyyatın güclü olan dövlət hər şeyə qadirdir" tezisi Azərbaycanın timsalında daha aydın görünür. Prezident İlham Əliyev Prezident ölkəyə rəhbərliyə başladığı ilk gündən bu çağırışı etdi ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Enerji sektorundan asılılıq minimuma endirilməlidir. Bu hədəf artıq reallıqdır. Regional inkişaf proqramlarının uğurlu icrası bu hədəfə yüksək səviyyədə nail olmağa, qeyri-neft sektorunun inkişafına geniş imkanlar açdı. Məhz bu uğurların nəticəsində Bu faktı da xüsusi vurğulamaq istərdim ki, tarixi Zəfərimiz və suverenliyimizin tam bərpa edilməsində də "Əsrin müqaviləsi"nin rolu böyükdür. Bu sazişin imzalanması ilə başlanan tərəqqi bizi Zəfərə, suverenliyimizin tam bərpa edilməsinə qovuşdurdu. 44 günlük İkinci Qarabağ müharibəsində şanlı Qələbəmizdə iqtisadi və siyasi müstəqilliyimiz əsas rola malikdir ki, bunun əsasında "Əsrin müqaviləsi" dayanır. İşğaldan azad olunana torpaqlarımız – Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycan bundan sonra da neft strategiyasının uğurlarını yaşayacaq, daha möhtəşəm zəfərləri ilə dünyanın diqqətində olacaq.

Bütün bu deyilənlərin məntiqi nəticəsini ölkə başçısı nitqində çox lakonik və maraqlı ifadə edib: "Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər

hansı bir başqa maneə və ya problem yoxdur".

Bir sözlə, Azərbaycan bundan sonra da sürətlə və qətiyyətlə inkişaf edəcək! Yeni əsrdə yeni zirvələr fəth ediləcək!

Qeyd edək ki, bu uğurlar, eyni zamanda, Azərbaycan neftçilərinin fədakar əməyindən, zəngin təcrübəsindən və peşəkarlığından qaynaqlanır. Neftçi əməyini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyevin Fərmanına əsasən "Əsrin müqaviləsi"nin imzalandığı gün – 20 Sentyabr ölkəmizdə həm də neftçilərin peşə bayramı kimi qeyd edilir.

XVI BRICS Sammiti – səmərəli əməkdaşlıq üçün yeni platforma

Azərbaycan xarici siyasət kursundə daim əməkdaşlıq və sabit münasibətlərə üstünlük verib. Əslində, beynəlxalq səviyyədə ölkəmizə olan etimad və tərəfdaşlıq rəğbəti məhz Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düzgün xarici siyasət kursunun məntiqi nəticəsidir. Bu mənada, oktyabrın 24- də Kazan şəhərində keçirilən XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclası beynəlxalq əlaqələrin gücləndirilməsi və inkişaf etməkdə olan ölkələrin birgə strateji əməkdaşlığının genişlənməsi baxımından önəmli bir platforma oldu. Bu tədbirdə Prezident İlham Əliyev çıxış edərək dövlətimizin BRICS+ çərçivəsindəki perspektivlərini, regional və qlobal məsələlərə yanaşmalarını və əməkdaşlıq imkanlarını vurğulayıb.

Sammit zamanı Prezident İlham Əliyevin zəngin görüşləri də diqqət mərkəzində olub. Səfər zamanı dövlətimizin başçısı Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref, Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik, Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit, BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşləri olub. Oktyabrın 24-də Kazan şəhərində keçirilmiş XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında çıxış edən Azərbaycan Prezidenti ölkəmizin beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipinin fəal tərəfdarıdı olduğunu diqqətə çatdırıb.

SİTAT "...Bu, 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik dövründə bizim tərəfimizdən əyani şəkildə nümayiş etdirilib. Dördillik

sədrlik dövründə Qoşulmama Hərəkatı özünün institusional inkişafında böyük addım atıb, beynəlxalq münasibətlər sistemində öz yerini xeyli möhkəmləndirib. Hərəkata uğurlu sədrlik təcrübəsi bu gün bizə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin hazırkı sədri qismində kömək edir".

Bu da qeyd edilməlidir ki, Azərbaycan artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə verir və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcək.

Ölkə başçısı həm də bildirib ki, növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. "Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə verirk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik".

Prezident İlham Əliyevin XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatında çıxışı, Azərbaycanın beynəlxalq səviyyədə öz mövqeyini daha da gücləndirmək və inkişaf etməkdə olan ölkələrlə əməkdaşlığını genişləndirmək istiqamətində əhəmiyyətli addım oldu. Dövlətimizin başçısının bu mühüm tədbirdə iştirakı, Azərbaycanın BRICS+ formatında fəaliyyətinin regional və qlobal sabitlik, enerji təhlükəsizliyi və iqtisadi əməkdaşlıq baxımından böyük əhəmiyyət daşıdığının göstəricisidir.

Digər bir məqama da diqqət edək. Bu gün bir təşkilat kimi BRICS-i cəlbedici edən əsas məqamlardan biri ondan ibarətdir ki, bu birlik müxtəlif siyasi sistemlərə və iqtisadi modellərə malik ölkələri özündə birləşdirir və bu da öz növbəsində BRICS-i müasir dövrün müxtəlif çağırışlarına qarşı çevik və uyğunlaşa bilən edir. BRICS-in xarici siyasətinin əsas aspektlərindən biri təzyiq göstərməkdən və qərarların zorla qəbul etdirilməsindən imtina etməsidir. Blok çoxşaxəli dialoqu fəal şəkildə təşviq edir ki, bu da onu ənənəvi qlobal güc mərkəzlərinin birtərəfli təzyiqindən qaçmağa çalışan ölkələr üçün cəlbedici edir. Neytrallıq və açıqlıq siyasəti

BRICS-ə təsir dairəsini genişləndirməyə və qərb institutlarından asılılığa son qoymaq istəyən daha çox inkişaf etməkdə olan ölkələri cəlb etməyə imkan verir.

Bütün bu sadalananların Azərbaycanın da xarici siyasət prioritetləri ilə üst-üstə düşməsi bizim də BRICS-ə marağımızı artırır. Belə ki, Azərbaycan multilateralizm prinsipini əsas götürərək çoxtərəfli diplomatiyanı həyata keçirir. Regionda sülhün, təhlükəsizliyin təmin edilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması dövlətimizin xarici siyasətində xüsusi yer tutur.

Sammitin mövzusuna diqqət yetirdikdə bu məsələnin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğu, ölkəmizin daim bu istiqamətdə çağırışlar etdiyi diqqətdən kənarda qalmır. Belə ki, Azərbaycan multilateralizm prinsipini əsas götürərək çoxtərəfli diplomatiyanı həyata keçirir. Regionda sülhün, təhlükəsizliyin təmin edilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması dövlətimizin xarici siyasətində xüsusi yer tutur. Bu isə öz növbəsində müxtəlif qütblərin bir araya gətirilməsində, yeni dostların, tərəfdaşların qazanılmasında Azərbaycanın rolunu daha da artırır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "dostlarımızın bütün qitələrdə sayı artır. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz yerindədir və daha da inkişaf edir, edəcək."

Azərbaycanın BRICS ilə əməkdaşlığın intensivləşməsində maraqlı olması onun dünya siyasətinə və beynəlxalq münasibətlər məsələlərinə balanslaşdırılmış yanaşma strategiyasının məntiqi davamıdır. Bu, xüsusilə beynəlxalq münasibətlərin indiki mərhələsində, Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 23-də Milli Məclisdə çıxışı zamanı qeyd etdiyi kimi, İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturasının demək olar ki, tamamilə məhv edildiyi bir vaxtda daha aktualdır.

Azərbaycanın BRICS+ formatında iştirakı təkcə iqtisadi deyil, həm də diplomatik baxımdan strateji əhəmiyyətə malikdir. Bu iştirak Azərbaycanın beynəlxalq təşkilatlar və regional əməkdaşlıq formatlarında artan nüfuzunu və aktiv rolunu nümayiş etdirir. Azərbaycan müstəqil və

balanslı xarici siyasət yürüdən bir ölkə kimi, qlobal məsələlərdə müsbət rol oynamağa çalışır və bu istiqamətdə BRICS kimi nüfuzlu platformalarla əməkdaşlıq onu dünya siyasətində daha güclü mövqeyə gətirir.

Ümumilikdə, Azərbaycan bir çox sahələrdə istər Şərq və Qərb, istər Şimal və Cənubla iqtisadi və siyasi münasibətlərini tənzimləyir. Bəli, bu gün etiraf olunduğu kimi, BRICS təşkilatı dünyada yeni iqtisadi güc mərkəzidir. Təbii ki, bu güc mərkəzinə Azərbaycanın maraq göstərməsi dövlət və milli maraqlardan irəli gəlir. Eyni zamanda Azərbaycan Prezidentinin Kazana səfəri və yüksək səviyyədə qarşılanması təhlükəsizliyinin yüksək səviyyədə qorunması bir daha Azərbaycana olan diqqətdir. Bununla yanaşı, Azərbaycan Prezidenti həmin təşkilatın iştirak edən dövlət başçıları ilə ikitərəfli görüşlər keçirilməsi Azərbaycan reallıqlarının, Azərbaycanla bağlı olan məsələlərin dünya ictimaiyyətinə çatdırılması ölkəmizin dövlət və milli maraqlarından qaynaqlanır.

Təşkilatla bağlı daha bir məqama diqqət edək. Sammitdə BRICS ölkələri ilə yanaşı, "BRICS+" və "Outreach" formatlarında bir sıra digər ölkələr də iştirak edib. Bu ölkələrdən biri Azərbaycandır. Ölkəmiz artıq BRICS-in gələcək üzvü olmaq istəyini ifadə edib. Bu fakt, BRICS-in qlobal təsir dairəsinin genişləndiyini və onun çoxmillətli və mədəni dialoq platforması kimi əhəmiyyətini artırdığını göstərir.

Sammitin vacib mövzuları sırasında Yaxın Şərqdəki vəziyyət də yer alıb. İran, Türkiyə, Misir və digər ölkələrin iştirak etdiyi müzakirələrdə, xüsusilə, Fələstin və İsrail arasındakı münaqişə, Qəzza müharibəsi, İran və İsrail arasında davam edən qarşıdurmalar müzakirə mövzusu olub. BRICS Sammitində bu münaqişələrin diplomatik vasitələrlə həlli üçün yollar axtarılıb, qlobal təhlükəsizliyin təmin edilməsi ilə bağlı fikir mübadilələri aparılıb.

Bəli, Kazanda keçirilən BRICS sammiti qlobal səviyyədə ədalətli və çoxqütblü dünya nizamının qurulmasına yönəlmiş mühüm diplomatik tədbir kimi yadda qaldı. Ölkəmizin bu mötəbər beynəlxalq tədbirdə layiqincə təmsil olunması, Sammit zamanı Azərbaycan Prezidentinə göstərilən diqqət və ehtiram birbaşa ölkəmizin beynəlxalq nüfuzunun göstəricisi kimi qəbul edilməlidir.

Növbəti hədəf Qərbi Azərbaycandır!

"Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar". Bu, bütün vədlərini yerinə yetirən Prezident İlham Əliyevin qarşıya qoyduğu yeni hədəfdir.

Xalqımız böyük səbrsizliklə növbəti Böyük Qayıdışı – Prezident İlham Əliyevi siyasətinin təntənəsini gözləyir. Növbəti hədəf əzəli Azərbaycan diyarı olan Qərbi Azərbaycan torpaqlarının qaytarılmasıdır. Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə görüşü zamanı Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas hədəflərini açıqlaması, qarşıda duran vəzifələri dəqiqliklə ifadə etməsi təşkilatın fəaliyyətinin səmərəliliyinin təmini baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Və vurğulamışdır ki, bu gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız Qərbi Azərbaycana qayıdacaqlar.

Bəli, dövlət başçımız vəd verir və vədinə əməl edir: "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik".

2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması, məhz dövlət başçımızın nəyi, necə, nə vaxt etməsinin göstəricisidir.

Dövlət başçımız onu da vurğulamışdır ki, Qərbi Azərbaycandan olan soydaşlarımız tezliklə öz yurdlarına sülhlə qayıdacaq: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər".

Göründüyü kimi… Haqdan qaçmaq olmaz…

Əsl həqiqət heç vaxt itmir, gec-tez aşkara çıxır. Qərbi Azərbaycanın bizim torpağımız olmasını bir çox tarixi sənədlər, dövlət xəritələri də

təsdiqləyir. Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da tarixi irsimizi silmək məqsədilə bütün dini və mədəni abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar. Ötən əsrin əvvəllərinə təsadüf edən xəritələr bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır. Şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir. Biz tarixi mənbələrə istinadla sübut edirik ki, indiki Ermənistan ərazisində əsrlər boyu Azərbaycan xalqı yaşayıb. Azərbaycanlılar öz hüquqlarını qorumaq, öz tarixi torpaqlarında yaşamaq üçün tarix boyu böyük fədakarlıqlar göstəriblər. Lakin buna baxmayaraq, müxtəlif dövrlərdə xalqımız öz doğma torpaqlarından məhrum edilib, zorla qovulub və didərgin salınıb.

Bugünlərdə Prezident İlham Əliyev və oğlu Heydər Əliyev Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirak etdilər. Cənab İlham Əliyev açılış mərasimindəki çıxışında da qeyd etdiyi kimi, bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması, təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir: "Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

Dövlət başçısı İlham Əliyev çıxışında vurğuladı ki, üç il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün iki Sərəncam imzalanıb. Bir Sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci Sərəncamda isə onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulurdu. Bu gün şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldıldı.

Prezident İlham Əliyev Aşıq Ələsgərin keçdiyi ömür yolundan, yaradıcılığından geniş bəhs edərək bildirdi ki, ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmış və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olmuşdur. O vaxt onun 97 yaşı var idi. 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz

qədim torpaqlarından - Qərbi Azərbaycandan birinci deportasiyası idi. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi. Dövlətimizin başçısı ermənilərin havadarlarının dəstəyi ilə zaman-zaman azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirməsindən bəhs etdi və vurğuladı ki, xalqımız XX əsrdə üç deportasiya dalğasına məruz qalmışdır – 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları – 1990-cı illərin əvvəllərində üçüncü deportasiya baş vermişdir: "İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar".

İkinci Qarabağ Müharibəsində şanlı Zəfərimiz 30 ilin işğalına son qoydu, ərazi bütövlüyümüz bərpa edildi. Dövlətimizin qətiyyəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, xalqımızın birliyi, həmrəyliyi sayəsində qazandığımız möhtəşəm Zəfərimiz Ermənistana və ona havadarlıq edən dövlətlərə bir daha sübut etdi ki, ədalət və beynəlxalq hüquq var və bunun təsdiqi üçün səylər göstərilməli, tarixi faktlara əsaslanan təbliğat gücləndirilməlidir.

Dövlət başçısı İlham Əliyev sözügedən çıxışında bu məqamı böyük qürur hissi ilə qeyd etdi ki, bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış Proqramının icrasını səbirsizliklə gözləyirlər: "Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir".

Həm İkinci Qarabağ Müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr göstərdi ki, güclü iradə, xalq-iqtidar birliyi, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə bu iradənin qabağında dura bilməz. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Nə qədər genişmiqyaslı şər, böhtan kampaniyası ilə üzləşsək də bu bizim iradəmizə təsir edə bilməz! Çünki işimiz haqq işidir və bizim işimizi Azərbaycan xalqı dəstəkləyir. Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qürurludur. Azad edilmiş bütün torpaqlarımızda Azərbaycan Bayrağı dalğalanır, Böyük Qayıdış Proqramı uğurla icra edilir. 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr tarixi Zəfərlərimizin başlanğıc nöqtəsi oldu. Və Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları əsasında 27 sentyabr Anım Günü, qarabağın tacı Şuşanı nazad edildiyi tarix-8 noyabr Zəfər Günü kimi təsis edildi. Bu günlərdə, dövlət başçısı İlham Əliyevin 20 sentyabr 2024-cü il tarixili Sərəncamı ilə 20 sentyabar tarixi ölkəmizdə Dövlət Suverenliyi Günü kimi təsis edildi. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.

Beləliklə də, tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün və suverenliyimizn tam bərpa edilməsi Qərbi Azərbaycana qayıdışımızı daha da yaxınlaşdırır. Qərbi Azərbaycana Qayıdış Proqramı uğurla icra edilir. Artıq bu məsələ əsas hədəfələr sırasındadır. Bəli, yolumuz Qərbi Azərbaycanadır. Nəyi, necə və nə vaxt etmək lazım olduğunu bilən və tarixi ədaləti bərpa edən Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə bu istəyə də nail olacaq. Çünki Prezident, Ali Baş Komandan İlham Əliyev Cənabları deyir və edir: "Əminəm ki, biz buna nail olacağıq. Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah".





AZERBAIJAN


PARÇALANMIŞ
DÜNYANIN
BƏRPASI
14-16 mart 2024 | Bakı, Azərbaycan
XI
GLOBAL
BAKU
FORUM
FIXING
THE FRACTURED
WORLD
14-16 March 2024 | Baku, Azerbaijan







PARIS
2024




AZƏRBAYCAN XALQI
44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN İLK SAATLARINDAN SON DƏQİQƏLƏRİNƏ
QƏDƏR ŞƏXSƏN TÜRKİYƏ PREZİDENTİNİN, TÜRKİYƏ RESPUBLİKASININ NÜMAYİŞ
ETDİRDİYİ MƏNƏVİ DƏSTƏYİ, HƏMRƏYLİYİ HEÇ ZAMAN UNUTMAYACAQ.
Biz hər zaman olduğu kimi, bir yerdəyik
və bir yerdə olacağıq.
İlham Əliyev














Qərbi
Azərbaycan
milli ideyanın
əsas hədəflərindəndir


QƏRBİ AZƏRBAYCANA
DOĞRU
Gündəlikdəki növbəti tarixi məsələ
Qərbi azərbaycanlıların öz dədə-baba
yurdlarına dönüşünü gerçəkləşdirməkdir

V FƏSİL
TARİXİ QƏLƏBƏ GÜNLƏRİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair

I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə qərara alıram:

1. Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

26 avqust – Laçın şəhəri günü

4 oktyabr – Cəbrayıl şəhəri günü

17 oktyabr – Füzuli şəhəri günü

20 oktyabr – Zəngilan şəhəri günü

25 oktyabr – Qubadlı şəhəri günü

8 noyabr – Şuşa şəhəri günü

20 noyabr – Ağdam şəhəri günü

25 noyabr – Kəlbəcər şəhəri günü.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 31 iyul 2023-cü il

26 avqust – həm Laçın Şəhəri Günü, həm də diplomatiyamızın qələbəsidir!

26 avqust – azad, abad Laçının Şəhəri Günü, qürur günü olmaqla yanaşı, həm də diplomatiyamızın qələbə günüdür! həm də diplomatiyamızın qələbə günüdür! Ötən il Prezident İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq hər il 26 avqust Laçın Şəhər Günü təntənəli şəkildə qeyd edilir. Əlamətdar günün bu tarixdə qeyd olunması Azərbaycan Ordusunun Laçın şəhərində ötən ilin avqustun 26-da yerləşməsi ilə əlaqədardır. Dövlət başçısının ötən ilin bu günü paylaşdığı mətndə deyilir: "Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün Laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb. Artıq iki ildir ki, Laçın şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı dalğalanır.

Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib ki, istər bu gün, istərsə də 44 gün davm edən müharibədə sübut etmişik ki, bizim iradəmizə heç kim təsir edə bilməz: "Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".

Bizə qarşı aparılan kampaniyanın, çirkin təbliğatın iradəmizə təsir edə, bizi yolumuzdan döndərə bilməyəcəyini xatırladan dövlətimizin başçısı vurğulayıb: "Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq".

Bu Tarixi Qələbə güclü ordumuzun, mərd və əyilməz xalqımızın birliyi, gücü nəticəsində əldə olunub. Çünki Azərbaycan xalqı öz Liderinə inanır və 30 il davam edən torpaq həsrətinə məhz xalqımızın inandığı Qalib Lider, Ali Baş Komandan Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun qəhrəman əsgər və zabitlərinin igidliyi ilə

düz 44 gündə son qoydu. Çünki Prezident İlham Əliyev nəyi, nə vaxt və necə etməyi özü bilir və yüksək tribunalardan, müsahibələrində, görüşlərində dəfələrlə vurğulayıb ki, nəyi, nə vaxt və necə etməyi özü bilir: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm".

Bir sözlə, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Prezident indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib, bu sözünə də əməl edəcəkdir. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi. Beləliklə, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qələbəsidir. Laçın rayonunun timsalında biz dirçələn azərbaycan reallıqlarını görürük. Dövlətimizin başçısı deyib ki, xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu.

Əlli yaşını Ağcabədidə, 60 yaşını Şuşada, Cıdır düzündə qeyd etdiyini xatırladan dövlətimizin başçısı deyib: "Bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük".

Göründüyü kimi, bu gün istər işğaldan azad olunmuş torpaqlarımızda, istərsə də regionlarımızda görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz", – deyən Azərbaycan Prezidenti İlham Əliyev hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs mane ola bilməz. Bu gün dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir.

Bəli, görülən işlər göz qabağındadır. Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan

Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə Laçın rayonunda çoxsaylı layihələrin həyata keçirilməkdədir. Ötən il mayın 28-dən başlayaraq laçınlıların doğma yurda dönüşünə start verilib. Laçın şəhəri 552 ailəyə qucaq açıb və 2031 laçınlının yurd həsrəti bitib, ötən il rayonun Sus kəndinə 59 ailə və 215 sakinin, Zabux kəndinə 217 ailə və 823 sakinin köçürülməsi. Köçürülən ailələrin şəhərdə vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Bütün bunlar onu göstərir ki, Qalib Liderimiz, Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirəcək.

Hərbi qüdrətin növbəti ZƏFƏRİ – 4 oktyabr "Cəbrayıl Şəhər Günü"

Bu gün artıq dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam, Cəbrayıl da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız sürətlə bərpa olunur, yenidən qurulur. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni, dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Hazırda görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. 2020-ci il sentyabrın 27-də başlanılan əks-hücum nəticəsində aparılan uğurlu döyüş əməliyyatları ilə oktyabrın 4-də Cəbrayıl şəhəri erməni işğalından azad edilib. Cəbrayıl şəhərinin işğaldan azad edilməsini isə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 4-də xalqa müraciətində elan edib. Qeyd edək ki, Prezident İlham Əliyevin və

birinci xanım Mehriban Əliyevanın azadlığa qovuşmuş müqəddəs torpaqlara ilk səfərləri də elə Cəbrayıl şəhərindən başladı. Ölkə rəhbəri Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan Bayrağını qaldırdı. Qanları ilə tarix yazan qəhrəman oğullarımızın sayəsində bu gün Azərbaycan dövləti suverenliyini tam bərpa edib, doğma Qarabağda, Şuşada, Xankəndidə, Xocalıda, işğaldan azad olunmuş digər torpaqlarımızda Azərbaycan Bayrağı dalğalanır. Artıq hər gün ölkəmizin, dövlətimizin həyatına, xalqımızın yaddaşına əlamətdar hadisələrlə yazılır.

Tarixi Qələbə günlərinin əbədiləşdirilməsi də dövlət siyasətinin tərkib hissəsidir. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə Şəhər Günləri təsis edilmişdir. Bu gün qalib Azərbaycan xalqı işğaldan azad olunmuş şəhərlərin azad olunduğu tarixləri xüsusi gün olaraq qürurla qeyd edir. Artıq xalqımız ölkə başçısının 19 sentyabr 2024-cü il tarixli Sərəncamına əsasən hər il sentyabrın 20-sini Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü, Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi də qeyd edəcəklər.

Ən mühüm məqam isə, hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyev cənablarının və birinci xanım Mehriban Əliyevanın mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi bir daha dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur. Dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərə hər bir səfəri xalqımızı qürurlandırır, düşmənləri isə sarsıdır. Bu yerdə dövlət başçımız İlham Əliyev cənablarının 3 il öncə – oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşü cəbrayıllılırın yaddaşında tarixləşdi. Dövlətimizin başçısı çıxışı zamanı bildirdi ki, cəbrayıllılarla müzəffər Ordumuzun Qələbəsindən sonra ilk görüşümdür və bu görüşü məhz oktyabrın 4-də keçirmək xüsusi məna daşıyır: "Çünki düz bir il əvvəl məhz oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini işğalçılardan azad etdi və bu gün bu şanlı tarixi birlikdə qeyd etmək üçün mən cəbrayıllıları onların öz yurduna, vətəninə dəvət etdim. Ona görə "Cəbrayıla xoş gəlmisiniz" demək sözləri ilə öz çıxışıma başlayıram. Amma əminəm ki, bundan sonra mən Cəbrayıla gələndə həmişə cəbrayıllılar mənə "Xoş gəlmisiniz, cənab Prezident" deyəcəklər.

Artıq bu gün Qalib liderimizin diqqət və qayğısının nəticəsidir ki, işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, abadılaşır, dövlət

başçımızın söylədiyi kimi, cənnət məkana çevrilir və qalib Prezidentimizə xoş gəl deyir.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında və yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim etmələri cəbrayılllıları, bütün Azərbaycan xalqınınn qürurlandırır. Prezident İlham Əliyev Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirakı zamanı çışında bildirdi: "Bu gözəl hadisəni biz dörd il sonra bu gün Cəbrayılda qeyd edirik. Bildiyiniz kimi, mənim Sərəncamımla 4 Oktyabr – Cəbrayıl Şəhəri Günü elan edilmişdir. Əminəm ki, bundan sonra biz hər il bu gözəl günü qeyd edəcəyik".

"Əlbəttə, belə gözəl, gözoxşayan evlər həm dövlətimizin gücünü göstərir, həm də onu göstərir ki, keçmiş köçkünlərin yaşayış şəraitinin lazımi səviyyədə təmin edilməsi üçün Azərbaycan dövləti əlindən gələni əsirgəmir",-deyən dövlətimizin başçısı onu da vurğulayıb ki, azad edilmiş torpaqlarda aparılan işlər öz miqyasına görə xüsusi xarakter daşıyır.

Prezident İlham Əliyev çıxışı zamanı Ermənistanın təhlükəli oyunlara qoşulduğunu əsaslı şəkildə diqqətə çatdıraraq bu mesajı ünvanladı ki, İkinci Qarabağ müharibəsinin tarixçəsi, necə diz üstə bizdən imdad dilədikləri, necə Rusiyaya gündə bəlkə 10 dəfə müharibənin dayandırılması ilə bağlı müraciət etdikləri yaddan çıxmasın. Antiterror əməliyyatı onların yadından çıxmasın. Heç kimə, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik. Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişiksə bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın: "Mən bu sözləri istənilən yerdə deyə bilərdim… Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın".

Dövlətimizin başçısı onu da bildirdi ki, artıq bu gün azad edilmiş torpaqlarda yaşayırıq. Bu gün bütün azad edilmiş torpaqlarda, o cümlədən Xankəndidə və Xocalıda Azərbaycan Bayrağı dalğalanır. Azərbaycan vətəndaşları artıq Şuşada, Laçında, Füzulidə, Xankəndidə, Xocalıda, Cəbrayılda – bu şəhərlərdə və bir neçə kənddə yaşayırlar. 100-ə yaxın kəndin

bərpası davam edir və biz Böyük Qayıdış Proqramını uğurla icra edirik: “Sizə isə mən burada xoşbəxt həyat arzulayıram. Siz buna layiqsiniz. Siz uzun illər çadırlarda, qaçqın düşərgələrində yaşamısınız. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda, bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir. Bir daha sizi təbrik edirəm”.

Bir sözlə, Prezidentin hər səfəri işğaldan azad olunan torpaqlara həyat qaytarır. Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti onu deməyə əsas verir ki, çox keçməyəcək işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, həmçinin, yaxın gələcəkdə Cəbrayıl ölkəmizin inkişaf etmiş rayonlarından birinə çevriləcək. İndi Cəbrayılda dalğalanan üçrəngli bayrağımız, Azərbaycan xalqının qələbəsini və yenilməzliyini bir daha bütün dünyaya bəyan edir

17 oktyabr – Zəfərin Füzuli zirvəsi

17 Oktyabr Füzuli Şəhəri Günüdür, şəhərin işğaldan azad olunmasından 4 il ötür. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, hər il oktyabrın 17-də Füzuli Şəhəri Günü təntənəli şəkildə qeyd ediləcək. Bu əlamətdar günün təsis olunması Füzuli şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır.

Vətən Müharibəsinin hər gününü, hər anını Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənabları xalqımıza qələbə sorağını verdikcə, Liderimizlə, Güclü Ordumuzla, qəhrəman, igid əsgərlərmizlə qürur duyuruq. İlk gündən bu günə kimi hər gün sevincli günləri bizə yaşadan Liderimiz öz xalqı, qüdrətli Ordusu və rəşadətli əsgərləri ilə fəxr etdiyini, qürur duyduğunu deyir. Bütün bunlara Ali Baş Komandanımız, dövlətimizin başçısı İlham Əliyev cənablarının düşünülmüş uğurlu siyasəti ilə nail oluruq. Növbəti tarixi, Zəfər Günü Vətən Müharibəsinin 24-cü günü – oktyabrın 17-də oldu. Azərbayca dövltinin və xalqının tarixinə yazılan 17 oktyabr. Azərbaycanın Füzuli şəhərinin işğaldan azad edildiyi gün.

Prezident, Ali Baş Komandan İlham Əliyev növbəti qələbə müjdəsinin xalqına çatdırdı. Dövlət başçısı xalqa müraciətində qeyd etdi ki, şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir: “Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin

adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Dövlət başçısı onu da vurğuladı ki, 17 oktyabr Azərbaycan xalqının, dövlətimizin füzulililərin, tarixində əbədi qalacaq: "Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib".

"Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır", – deyən Azərbaycan Prezidenti bir daha Ermənistanın faşist rəhbərinə sərt xəbərdarlığını edib: "Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!"

"Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədim yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi…Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik", – deyən dövlət başçısı vurğulayıb ki, bütün bu qələbələr Azərbaycan Ordusunun və rəşadətli əsgərlərimizin döyüş qabiliyyətinə və texniki təminata malik olduğunun göstəricisidir.

Vətən müharibəsi başa çatdıqdan, torpaqlarımız işğaldan azad edildikdən sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban

Əliyevanın Füzuliyə səfərləri də məhz ilk şəhid verdiyimiz bu torpaqlar oldu. Dövlət başçısı Füzuli şəhərində Azərbaycan Bayrağını qaldırdı. Füzuliyə səfər edən Ali Baş Komandan elə həmin gün Füzuli-Şuşa avtomobil yolunun təməlini qoydu. Prezident bu yolu Zəfər yolu adlandırdı. 8 aya tikilən Qarabağın ilk hava qapısı – Füzuli Beynəlxalq Hava Limanı inşa edildi. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər. Prezident İlham Əliyev müraciətində onu da bildirib ki, o kəndlərə həyat qayıdacaq: "Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtılə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilib".

Artıq Qarabağın bütün ərazisində olduğu kimi, Füzulidə də bərpa işləri həyata keçirilir. Bu gün artıq demək olar ki, Füzuli rayonu yeni inkişaf dövrünü yaşayır. Əbədi qürur və iftixar mənbəyimiz olan tarixi Zəfərimizin nəticəsi olaraq artıq Füzuli sakinləri də öz doğma yurdlarına qayıdaraq yenidən tikilən evlərdə məskunlaşırlar. Yenidən qurulan, dirçələn Füzuli şəhərinə həyat yenidən qayıdır. Azərbaycan Prezidenti İlham Əliyev "Füzuli Şəhəri Günü" və şəhərin azad edilməsinin üçüncü ildönümü münasibətilə füzulililəri təbrik edib. Dövlətimizin başçısı oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı deyib: "Necə də gözəl bir gündür. Siz mənə "Xoş gəlmisiniz!" deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda, Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram".

Budur qətiyyətin və milli dəyanətin təntənəsi. Budur, dünya səviyyəli, cəsarətli lider! Budur, xalqın Prezidenti olmaq! Beləliklə, Prezident İlham Əliyev Ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa

edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Bəli, bu gün həqiqətən də tarixi gündür. Füzulinin illərlə gözlədiyinin şahidi olduq. 30 ildən sonra Qarabağ səmasında simvolik məna olaraq "Qarabağ" adını daşıyan təyyarə Qarabağın ilk hava limanında eniş etdi. Bir sözlə, Qarabağın "səma qapıları" açıldı. Gözümüz aydın olsun və bu tarixi gün də Qarabağımız və bütövlükdə, ölkəmiz üçün xeyirli və düşərli olsun! Çünki Qarabağ Azərbaycandır!!!

Bir sözlə, bütün bu reallıqlar birmənalı şəkildə onu deməyə əsas verir ki, son 21 ildə yürütdüyü siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Qalib Lider, Prezidnti İlham Əliyev ölkəmizi daha möhtəşəm qələbələrə, zəfərlərə doğru aparır və aparacaq! Çünki işğal olunan torpaqlarımızı 30 ildən sonra öz sərkərdəliyi və qətiyyəti ilə azad edən, Azərbaycanı qalib dövlət kimi dünyaya təqdim edən bir LİDERİMİZ var.

Qarabağın giriş qapısı Ağdam cənnət məkana çevrilir

Bu gün xalqımız tariximizin ən əlamətdar, möhtəşəm, qürurlu anlarını yaşayır. Zəfər sevinci daddıq, illərlə həsrət qaldığımız Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüz minlərlə soydaşımız məcburi köçkünlük yükündən azad oldu. Artıq dədə-baba yurdlarımıza Böyük Qayıdış başlayıb.

Belə xoş günlərdən biri də 4 il öncə 2020-ci il noyabrın 20-si füsunkar təbiəti göz oxşayan, gözəl Qarabağımızın giriş qapısı olan, sosial-iqtisadi inkişafı ilə seçilmiş Ağdam şəhərinin erməni işğalından azad edilməsi günüdür. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncamına əsasən, artıq 2-ci ildir ki, Ağdam Şəhəri Günü kimi təntənəli şəkildə qeyd edilir. 20 noyabr təkcə 27 il sonra doğma Ağdam həsrəti sona çatmış 200 minə qədər ağdamlı üçün deyil, bütün xalqımız, dünya azərbaycanlıları üçün bayram ab-havalı, sevinc dolu bir gündür. Çünki Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində Ağdam bir güllə atılmadan düşmən tapdağından azad olunub.

Ağdam Azərbaycanın cənnət guşəsi, Qarabağımızın göz bəbəyi… 2020-ci ilin noyabrında 44 günlük Zəfər müharibəsi nəticəsində 30 illik

mənfur erməni işğalından azad etdiyimiz gözəl Ağdam bu gün əsl sahiblərinə qovuşub. Qarabağın bu cənnət diyarı igid oğullarımızın qəhrəmanlığı ilə, Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli və düzgün siyasətinin nəticəsində yağı düşməndən azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində deyirdi: "Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi. Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi".

Göründüyü kimi, bu tarixi zəfər, ilk növbədə, hərbi-siyasi taktika son dərəcə yüksək zəkanın, Ali Baş Komandanın qətiyyətinin parlaq təzahürüdür. Bəli, bu gün Şəhər Gününü qeyd edən Ağdamın işğaldan azad olunması, çox böyük tarixi hadisədir. Ağdamın işğaldan azad olunması, bu şəhərdə quruculuq və inkişaf prosesinə başlanılması, ilk növbədə, Azərbaycan iqtisadiyyatına olduqca müsbət tendesiyalar gətirəcək. Çünki işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. Ən əsası isə vurğulamaq istərdim ki, Prezident İlham Əliyev işğal altında olan torpaqlarımızı azad etməklə həm də son 21 il ərzində əldə olunan iqtisadi-siyasi inkişafın ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdə necə məharətlə tətbiq olunmasını göstərdi.

Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş digər ərazilərimizdə olduğu kimi, Ağdam rayonunun ərazisində də böyük quruculuq işlərinə start verilib. Dörd il əvvə – noyabrın 23-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində oldular. Dövlət başçısının Ağdamda Azərbaycanın üçrəngli Bayrağını qaldırması haqq işinin zəfər çalması kimi milyonlarla soydaşımızın qəlbində son dərəcə böyük qürur və sevinc hissi oyatdı. Prezidentin həmin səfəri zamanı Ağdamda dediyi sözlər hər kəsdə böyük ümid yaratdı: "... Dağılmış Ağdam şəhəri erməni

vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik".

Bu gün Ağdam inkişaf edir. Belə ki, Ağdam Cümə məscidində bərpa-restavrasiya işlərinin görülməsi, Ağdam Sənaye Parkının ilk müəssisələrinin işə salınması, "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaların fəaliyyətə başlaması, 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməlinin qoyulması və bu kimi quruculuq işləri Ağdamın cənnəti məkana çeriləcəyini təsdiqləyir. Dövlət başçısı Ağdamda səfərdə olarkən qeyd edib ki, Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq: "Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!"

Tarixi şəhər olan Ağdam yenidən "ağ gün"lərinə qovuşur. İndi yenidən qurulmaqda olan şəhər özünün əzəli sakinlərinin – ağdamlıların yolunu gözləyir.

Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər. Dövlət başçımızın dediyi kimi: "Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik". Çünki Qarabağ Azərbaycanındır!

Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdı – Qarabağ Azərbaycandır!

Güclü dövlət və güclü liderlik bizə Zəfərimizi yaşatdı

"Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır".

Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində söyləyib. Bəli, son illərin göstəricilərindən də məlum olduğu kimi, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyada nüfuzu durmadan artan Azərbaycan regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir. Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 20 illik tariximizi xarakterizə edən əsas amillərdir. Məhz bu uğurlu göstəricilər Prezident İlham Əliyev cənablarının "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası ilə Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".

Prezident İlham Əliyev çıxışlarında deyib ki, iqtisadiyyatımız 4 dəfədən çox artmışdır. Bu gün Azərbaycan tarixinin ən güclü, qüdrətli dövrünü yaşayır. Müstəqilliyimiz heç bir zaman bu qədər möhkəm olmamışdır.

Bu gün dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev ümummilli lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək həqiqi lider olduğunu bir daha sübuta yetirmişdir. Bu gün bütün dünya Azərbaycan Prezidentini verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır.

Hələ 2003-cü ilin sentyabr ayında Azərbaycanın Baş naziri İlham Əliyev BMT Baş Assambleyasında 58-ci sessiyada çıxışı zamanı Təhlükəsizlik Şurasının fəaliyyətindəki nöqsanları cəsur bir şəkildə dilə gətirərək BMT-nin yenidən strukturlaşmasında yeni reallıqların nəzərə alınmalı olduğunu bildirmişdir. 21 il bundan əvvəl dilə gətirilən fikirlər bu günün qlobal konfiqurasiyasında özünü doğruldaraq, BMT-nin fəaliyyətindəki disfunksional cəhətləri göstərir.

30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Xalq-iqtidar birliyi, ordu quruculuğu burada önəmli faktor olduğunu qeyd etməliyəm. Zəfər qazanmış Azərbaycanı daha uğurlu gələcək gözləyir. Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. "Dəmir yumruğ"un yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçımızın Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət region dövlətlərlə yanaşı, Avrasiya məkanında sülh və inkişafa yol açır. Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisə kimi əhəmiyyətə malikdir. Bu, türk dünyasını, Avropanı, eləcə də qonşu dövlətləri birləşdirəcək layihədir.

Qətiyyətlə deyə bilərik ki, ötən 21 il ərizində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi yüksək imicə sahibdir. "Əsl siyasət konkret, real iş görməkdir" – deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" – ölkə başçısının

bu sözləri aparılan siyasətin ana xəttidir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır.

Sentyabrın 23-də yeddinci çağırış Milli Məclisinin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarixi çıxış edərək bu ilin iqtisadi sahədə göstəricilərini rəqəmlərlə göstərdi: "Bu ilin iqtisadi sahədə göstəriciləri hesab edirəm ki, müsbətdir. Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni, əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, – biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir. Yəni, bu, sadəcə olaraq kiçik bir arayışdır".

Dövlətimizin başçısı, həmçinin gələcək planları da vurğulayaraq bildirdi ki, əsasən, vətəndaşların sosial rifahının yaxşılışdırmaq üçün iqtisadiyyat daima inkişaf etməlidir: "Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir. Çünki biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır".

Prezidenti İlham Əliyev Milli Məclisinin ilk iclasında çıxışında bildirdi ki, bir nömrəli vəzifə hərbi gücümüzü artırmaqdır: "Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə – nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük

təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər. Bizim isə siyasətimiz, əslində, uzun illər ərzində bu istiqamətdə aparılırdı. İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır".

Eyni zamanda, ölkə qarşısında böyük vəzifələr durur, ilk növbədə, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi. Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər. Hazırkı dövrün əsas hədəfi olan hərbi gücümüzün artırılmasına gəldikdə, Azərbaycan İkinci Qarabağ münaqişəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Ordumuz həm döyüş qabiliyyəti, həm də silah və texnika ilə təchizat baxımından daha da güclü olacaq. Bir sözlə, bu göstərilən reallıqlar bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir, ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Dövlət başçısı İlham Əliyevin çıxışlarında vurğuladığı kimi, bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir və bu gün Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqedədir. Qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasında olmaqla, müstəqil, güclü iqtisadiyyata və maliyyə resurslarına malik, özünü təmin edən və mövqeyini müdafiə etməyi bacaran ölkədir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasının təsdiqidir.

Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. İqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Məhz, son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir

ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir.

Bütün bu reallıqlar birmənalı şəkildə onu deməyə əsas verir ki, son 21 ildə yürütdüyü siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Qalib Lider, Prezidnti İlham Əliyev ölkəmizi daha möhtəşəm qələbələrə, zəfərlərə doğru aparır və aparacaq!. Çünki bizim 34 ildən sonra işğal olunan torpaqlarımızı öz sərkərdəliyi və qətiyyəti ilə azad edən, dövlətimizi qalib dövlət kimi dünyaya təqdim edən bir LİDERİ var.

Zəfər Günün, Şəhər Günün mübarək, Kəlbəcər

2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, hərbi zəfəri siyasi qələbəyə çevirən diplomatik məharəti nəticəsində Ağdam kimi Kəlbəcər də qan tökülmədən, şəhid verilmədən geri qaytarıldı.

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladıqları birgə Bəyanata uyğun olaraq Ermənistan tərəfindən ərazilərin boşaldılması qrafik üzrə həyata keçirildi. Kəlbəcər rayonu 27 ildən sonra nəhayət, işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər idi ki, səbirsizliklə gözləyirdi. Üçtərəfli Bəyanat Kəlbəcərin bir güllə atılmadan, bir şəhid verilmədən azad edilməsini təmin etdi. Bu, Azərbaycanın döyüş meydanında olduğu kimi, diplomatik danışıqlarda da qalib olmasının göstəricisi idi.

Noyabrın 25-də erməni silahlı birləşmələri və orada qeyri-qanuni məskunlaşdırılan əhali Kəlbəcəri rahat və təhlükəsiz şəkildə boşaltdı. Vurğulamaq yerinə düşər ki, Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin Azərbaycan dövləti tərəfindən icrasının təmin edilməsi deməkdir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın atdığı addım bütün beynəlxalq konvensiyalara və hüquq normalarına uyğundur. Bütün bu uğurlar Azərbaycanın döyüş meydanında olduğu kimi diplomatik danışıqlarda da qalib olmasının göstəricisidir. Kəlbəcərin qaytarılması Azərbaycanın möhtəşəm tarixi qələbəsinin bir daha təsdiqidir.

2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər şəhərində Dövlət Bayrağını ucaltdı və çıxışında bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək dedi: "Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar – bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq".

Ötən il 8 Noyabr – Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışında Ağdam, Kəlbəcər və Laçın rayonlarının bir güllə atılmadan bizə qaytarıldığını bildiridi: "O vaxt (2020-ci il 10 noyabr – *red.*) mən heç şübhə etmirdim ki, gün gələcək və burada - Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bunun Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi və bizim tələbimiz olduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, Ermənistan bu tələbi yerinə yetirməyə məcbur oldu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdü. "Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi".

Bəli, artıq xalqımız dörd ildir ki, Laçın, Ağdam və Kəlbəcərin işğaldan azad edilməsinin sevincini yaşayır. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 25-də Kəlbəcərin işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində bir daha bildirdi ki, müharibə kimin kim olduğunu göstərdi. Belə ki, Ermənistan məğlub edilmiş, Azərbaycan zəfər çalmış ölkədir.

Beləliklə, Azərbaycan 30 ilə yaxın erməni işğalı altında qalan tarixi torpaqlarını öz gücü və əzmi ilə azad etdi. Kəlbəcərin düşmən tapdağından azad olunması ilə bağlı Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bəyan etdi ki, biz öz ərazilərimizi işğaldan azad etməklə həm də

erməni faşizmini məhv etdik. Regionda işğal siyasəti başda olmaqla ekoloji və mədəni terrora da son qoyuldu. Çünki düşmən Kəlbəcər də daxil olmaqla bizim digər tarixi torpaqlarımızda günahsız insanları öz dədə-baba yurdundan vəhşicəsinə qovmaqla yanaşı, bu ərazilərdəki tarixi abidələrə və təbiətə də böyük ziyan vurmuşdur.

Prezident xalqa müraciətində diqqəti çəkən başqa bir mövzuya toxunaraq bildirdi ki, Kəlbəcərin ermənilərdən boşaldılması işğalçının eybəcər siması və barbarlığının, erməni vandalizminin növbəti nümayişi oldu. Kəlbəcərdən qaçan qeyri-qanuni sakinlər rüsvayçı hərəkətləri və barbar davranışları ilə diqqəti cəlb etdilər. Belə ki, Kəlbəcəri tərk edən ermənilər evlərə, digər tikililərə od vurur, elektrik yarımstansiyalarını, restoranları, bir sözlə, yararlı nə varsa hamısını talayıb dağıdır, habelə daşınması mümkün olan hər şeyi daşıyıb aparırdılar. Onların bu hərəkətləri Azərbaycan Ordusu qarşısında düşdükləri aciz durumun qisasını almaq cəhdi kimi qəbul edildi. Ancaq onların buna heç bir mənəvi haqqı çatmır. Çünki Kəlbəcər onlara məxsus deyil. Biz onları ata-baba yurdlarından çıxarmırıq. Kəlbəcər məhz onlar tərəfindən 27 il öncə zor gücü ilə işğal olunmuş torpaqlardır və indi Azərbaycan Ordusu və Ali Baş Komandan tarixi ədaləti bərpa edərək Kəlbəcəri öz sahiblərinə qaytarır. Ermənilərin Kəlbəcərdəki vandallığına isə sadəcə bir ad vermək olar: Barbarlıq. Bu, insanlığa ləkədir. Ermənistana unitazla qaçan erməni "sakin"in məzhəkəsi nümunəsidirsə, azərbaycanlılara qalmaması üçün evlərə, bağlara od vuran ermənilər isə öz vəhşi, dağıdıcı xislətlərini nümayiş etdirdilər. İşğal olunmuş ərazilərdə ekologiyaya ziyan vurulması və mülki obyektlərin dağıdılması beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Ermənistan tərəfi törətdiyi bütün cinayətlərə görə mütləq cavab verəcəkdir.

Dövlətimizin başçısı onu da vurğuladı ki, Kəlbəcər işğalçılardan azad edildikdən sonra Azərbaycan tərəfi burdakı bütün tarixi abidələri, o cümlədən dünya əhəmiyyətli dini tarixi abidələr olan Xəzinədağ (Gəncəsər) və Xudavəng məbədlərini bərpa edəcək, onun əsl milli kimliyini – alban tarixini də təqdim edəcək.

Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, bu şanlı tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur. Bu gün artıq Kəlbəcərə yenidən həyat qayıdır. Otuz il əvvəl məcburi köçkünə

çevrilərək respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış kəlbəcərlilər doğma yurda qayıdacaqları günü gözləyirlər. Bu məqsədlə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də geniş miqyaslı bərpa-quruculuq işləri aparılır. Həmin layihələr sırasında Toğanalı-Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət kəsb edir. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən bu yolunun layihə uzunluğu 80,7 kilometrdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın 2021-ci ilin avqustun 16-da Kəlbəcər rayonuna səfərləri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində – Murovdağda inşa olunacaq tunelin təməli qoyulub. Səfər çərçivəsində 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışı olub. Həmçinin Kəlbəcər-Laçın avtomobil yolu üzərində 3,4 kilometr uzunluğundakı tunelin tikintisi, "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışları, Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, rayondakı su istehsalı zavodunun, İsti su sanatoriyasının təməli qoyulması, bir sözlə Kəlbəcər rayonunda aparılan nəhəng quruculuq işləri bu diyarın gözəl gələcəyindən, azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın uğurlu perspektivindən xəbər verir.

Beləliklə, Ali Baş Komandanın yorulmaz, qətiyyətli, uzaqgörən siyasəti və rəşadətli Ordumuzun müqayisə olunmaz gücü və əzmi ilə otuz illik işğala son qoyuldu. Heç şübhəsiz ki, aylar, illər ötəcək, ancaq Azərbaycanın Vətən müharibəsində göstərdiyi cəsarət və vətənpərvərlik unudulmayacaq. Bununla bağlı, kitablar, dərsliklər yazılacaq, müharibədə iştirak etmiş hər bir azərbaycanlı isə qəhrəmanlar olaraq anılacaq.

Bəli, bu gün işğaldan azad edilən bütün ərazilər, o cümlədən Kəlbəcər öz tarixinin ən parlaq və qürurverici günlərinə şahidlik edir. Dövlət başçımızın söylədiyi kimi, düşməni torpağımızdan qovaraq, onun ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq. Azadlığının dördüncü ildönümü mübarəkdir, Kəlbəcər! Qarabağ Azərbaycandır!















ATA VƏSİYYƏTİ

(Prezident İlham Əliyevin Heydər Əliyevin məzarı önündə şəkli 10 noyabr 2020-ci il)

“Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ATA vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”

Prezident, Ali Baş Komandan İLHAM ƏLİYEV
10 noyabr 2020-ci il

MÜNDƏRİCAT

Ön söz **5**

I FƏSİL. Heydər Əliyevin yandırdığı ocaq heç zaman sönməyəck **13**
Heydər Əliyevin ideyaları yaşayır və uğurla həyata keçirilir 13
Heydər Əliyevin yandırdığı ocağ heç zaman sönməyəck 15
Şanlı Heydər Əliyev epoxası 19
15 İYUN – Qurtuluşdan Zəfərə doğru 24
Heydər Əliyevin ideyalarını geçəkləşdirən Qalib Lider 29
Azərbaycan deyiləndə Heydər Əliyev şəxsiyyəti göz önünə gəlir 32
Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir 35
3 OKTYABR 1993-cü il – bugünkü qüdrətli, Qalib Azərbaycanın təməlinin qoyulduğu gün 39
Heydər Əliyev Fondu – Xeyirxahlığın və ümidin ünvanı 42

II FƏSİL. Qətiyyətli və güclü liderlə yeni uğurlara doğru **55**
15 oktyabr 2003-cü il – Xalqın iradəsi və istəyinin reallaşdığı gün 55
Azərbaycanın sabitlik və sülh tərəfdarı olduğu dünyada etiraf olunur 60
Müzəffər Ali Baş Komandanın qətiyyətinin zirvəsi – Qarabağ Azərbaycandır! 64
Son 21 il – Əsrə bərabər inkişaf yolu 68
Şərəf və qürur tariximiz – 18 oktyabr Müstəqilliyimizin Bərpası Günü 71
44 günün 24-cü gün müjdəsi – 20 oktyabr Zəngilan işğaldan azad edildi 74
Zəngilan Beynəlxalq Hava Limanının açılışı – Azərbaycan-Türkiyə qardaşlığının daha bir təntənəsi 76
"Əminəm ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq" 80
Şuşa Bəyannaməsi: Azərbaycan-Türkiyə – "Bir millət, iki dövlət" güclü liderlərin qardaşlıq zirvəsi 82
Qalib Xalq, Qətiyyətli Sərkərdə, Müzəffər Ordu 85
ATƏT-in Minsk qrupunun fəaliyyəti işğalın davam etməsinə xidmət göstərib 87
Vədləri uğurla gerçəkləşdirən lider 90

Haqqa, ədalətə gedən yolun Qalib LİDERİ 93
Növbədənkənar seçkilər yeni dövrün reallığıdır 96
Azərbaycanı heç kim və heç nə dayandıra bilmədi 98
İnformasiya savaşının qalib sərkərdəsi 102
Türk dünyasının inkişafına yeni nəfəs verəcək Zəngəzur dəhlizi 109
"Əkinçi"dən başlanan çətin və şərəfli yol 112
Son 21 ildə qələbələrdən – qələbələrə 116
Düşünülmüş və məqsədyönlu siyasət daim ölkənin qarşısında yeni imkanlar yaradır 120
Bir günlük səfər, yüzillik xidmət... regionların inkişafına olan diqqətin əyani təzahürüdür 123
Unudulmaz tarix – 20 Sentyabr Dövlət Suverenliyi Günü! 125
Anım Günü dərin ehtiramın ifadəsidir 128
VII çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyevin çıxışı ölkəmiz üçün əsas yol xəritəsidir 133
Xalq yenidən öz Liderinə-Prezident İlham Əliyevə etimad göstərdi ... 136
44 gündə tarix yazan Qəhrəman Ali Baş Komandan 143
Həmrəylikdən "Dəmir yumruğa" gedən yol 147
8 Noyabr Zəfər Günün mübarək, Azərbaycan! 149
8 Noyabr Zəfəri "8 may qara tarix"i yer üzündən sildi 152

III FƏSİL. Yaşıl dünya naminə həmrəylik ili 177
Azərbaycanın COP29-a evsahibliyi etməsi Prezidentin növbəti qələbəsidir 177
Etimad, inteqrasiya və əməkdaşlıq məkanı 179
COP29 – Azərbaycanda həmrəylik tədbiri 181
"Yaşıl dünya" Azərbaycanın qlobal nüfuzunu bir daha təsdiqləyəcək 185
Qlobal iqlim dəyişiklikləri ilə mübarizədə gündəliyimiz aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənib 187
"Yaşıl artım" siyasəti Azərbaycanın dünyadakı nüfuzunu daha da yüksəldəcək 191
Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunması müsəlman aləminin Azərbaycana hörmətinin əlamətidir 195
Yaşıl enerjiyə keçid prosesində öndə gedən dövlətlərdən olmaq Azərbaycanın üzərinə düşən öhdəlikdir 198

Azərbaycan Prezidenti ölkəmizə qarşı istiqamətlənən bütün feyk xəbərləri ifşa etdi 204
Xalqımız növbəti böyük uğura hazırlaşır 209
Azərbaycana etibar və nüfuzun göstəricisi! 212

IV FƏSİL. Azərbaycan beynəlxalq aləmdə güc mərkəzinə çevrilir 227
Azərbaycanın qonşu dövlətlərlə dost münasibəti milli maraqlarımızı təmin etməyə yönəlib 227
Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olub 230
Azərbaycan-Qazaxıstan münasibətləri: sadiq dostlar, etibarlı tərəfdaşlar 235
Azərbaycan-Pakistan: Tarixi dostluq və strateji tərəfdaşlıq 239
Azərbaycanın sabitlik və sülh tərəfdarı olduğu dünya birliyində də etiraf olunur 242
Parisdə Azərbaycanın Dövlət himninin səsləndirilməsi qalib ölkənin hər şeyə qadir olduğunun sübutudur 245
Azərbaycan-Türkiyə birliyi dünyaya nümunədir 248
Azərbaycan–Türkiyə liderlərinin maraqlara deyil, dəyərlərə əsaslanan qardaşlıq birliyi 251
Azərbaycan-Rusiya münasibətləri dövlət başçılarının siyasi iradəsinə uyğun inkişaf etdirilir 254
Azərbaycanın gücü daim ədalətli davranması, haqq mövqeyindən çıxış etməsidir 257
Azərbaycan-Özbəkistan münasibətləri inkişaf yolunda 261
Azərbaycan-İtaliya münasibətləri yeni mərhələdə 265
“Qarabağ Azərbaycandır!” reallığı artıq bütün dünyada qəbul olunur 269
“Dəmir yumruq” hər zaman yerində olacaq! 272
“Qisas” və “Qətiyyətli cavab” əməliyyatları Ordumuzun qüdrətini bir daha göstərdi 275
Azərbaycanın neft strategiyasının əsası – “Əsrin müqaviləsi” 277
XVI BRICS Sammiti – səmərəli əməkdaşlıq üçün yeni platforma 282
Növbəti hədəf Qərbi Azərbaycandır! 286

V FƏSİL. Tarixi qələbə günlərinin əbədiləşdirilməsi 298
26 avqust – həm Laçın Şəhəri Günü, həm də diplomatiyamızın qələbəsidir! 300
Hərbi qüdrətin növbəti ZƏFƏRİ – 4 oktyabr "Cəbrayıl Şəhər Günü" 302
17 oktyabr – Zəfərin Füzuli zirvəsi 305
Qarabağın giriş qapısı Ağdam cənnət məkana çevrilir 308
Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdı-Qarabağ Azərbaycandır! 311
25 noyabr – Zəfər Günün, Şəhər Günün mübarək, Kəlbəcər 315
ATA VƏSİYYƏTİ 323

Zərifə Quliyeva

XARÜQƏLƏR YARADAN QƏTİYYƏTLİ LİDER

Bakı – 2025

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Dizayner – Samirə QAMBAYEVA
Çap – Oktay YUSİFOV
Səhifələnmə – Günel ƏSƏDOVA
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com

Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2025
Çapa imzalanmışdır: 05.05.2025
Qarnitura: Cambria
Şərti çap vərəqi: 20,5
Formatı: 70x100 1/16
Tiraj: 300



Zərifə Quliyeva

“Xarüqələr yaradan Qətiyyətli Lider” kitabı tanınmış ictimai-siyasi xadim, YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri **Zərifə xanım Quliyevanın** son illərdə müxtəlif qəzet və saytlarda dərc olunmuş məqalələri əsasında tərtib olunub. Buna qədər Z.Quliyevanın indiyə qədər 7 kitabı işıq üzü görüb və oxucular tərəfindən böyük maraqla qarşılanıb. Həmin kitablardan bəzilərinin təqdimatı hətta ölkəmizdən kənarda da keçirilib. Bu, Zərifə xanımın 8-ci kitabıdır.

Z.Quliyeva respublikamızın ictimai-siyasi həyatında da fəal iştirak edir, tez-tez şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə görüşür. O, ölkəmizin ictimai-siyasi həyatındakı fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunub. Bundan əlavə bir sıra qiymətli hədiyyələrlə də təltif olunub. Z.Quliyeva Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlərdə, həmin tədbirlərin bəzilərinin təşkilindəki fəallığına, Ulu Öndərin irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə, dövlət quruculuğunda, o cümlədən azərbaycançılıq ideyasının həyata keçirilməsində, ölkəmizin sosial-iqtisadi, elmi-texniki və mədəni həyatının inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 fevral 2024-cü il tarixli Sərəncamı ilə “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə təltif olunub.

Z.Quliyeva bu medalın aldığı mükafatlar içərisində ən qiymətlisi olduğunu bildirib.

9 789952 598063